



downloaded from KitabYurdu.org

**Elxan Elatlı**

# O GECƏ YAĞIŞ YAĞIRDI

***Ekitabı hazırladı: book_lover***

downloaded from KitabYurdu.org

Kitabda tanınmış detektiv ustası Elxan Elatlının bu janrda ilk qələm təcrübələri olan dörd hekayə və iki povest yer alıb. Sonrakı əsərlərində romançılıq yolunu tutaraq, Azərbaycan milli detektivində öz üslubunu və mövqeyini qəti şəkildə müəyyənləşdirmiş yazıçının bu kitabdakı əsərləri klassik detektivin maraqlı nümunələri hesab edilə bilər.


downloaded from KitabYurdu.org

Elxan Elatlı. O GECƏ YAĞIŞ YAĞIRDI
Bakı, Qanun Nəşriyyatı, 2015,
Korrektor: Ceyran Abbasova Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76 Te.n.: (+99412) 431-16-62; 431-38-18 Mobil: (+994 55) 212 42 37 e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing www.instagram.com/Qanunpublishing
ISBN 978-9952-36-059-2

Qanun Nəşriyyatı, 2015 © © E.Elatlı, 2015 Povestlər

downloaded from KitabYurdu.org

1

Keçən il sentyabrın 14-ü idi. Yorğun olduğum üçün axşam tez yatmaq istəyirdim. Yatmazdan əvvəl darvazanın bağlandığını yoxlamaq üçün həyətə düşdüm.

Başımı qaldırıb qaranlıq səmaya baxdım. Göyün üzü açıq idi. Başımın üstündə ulduzlar sayrışırdı. Ancaq bununla belə, havada soyuq bir rütubət var idi. Polis sahə müvəkkili işlədiyim dağ kəndləri səmtinə baxanda bunun səbəbini başa düşdüm. Orada göyün üzü qatı buludlarla örtülmüşdü. Ara-sıra uzaqlarda çaxan ildırım baş-başa vermiş dağların silueti ilə onların üstündə toplanmış buludların kölgəsini birləşdirib əsrarəngiz mənzərə yaradırdı.

- Deyəsən kəndlərə möhkəm yağış yağır, - deyə düşündüm. - Qaradumanlmm çayı yenə daşıb yolu xarab eləməsə yaxşıdır.

Darvazanı bağlayıb evə çıxdım. Televizorda gənc müğənni Selcan Əsgərlinin konserti gedirdi. Həyat yoldaşımla oğlum oturub konsertə baxırdılar. Yataq otağına keçib soyundum və yerimə girdim. Ancaq baş aça bilmədiyim bir narahatlıq qəlbimə girib məni bir müddət yatmağa qoymadı. Yalnız gecədən xeyli keçmiş gözümə yuxu getdi. Səhər saat 8-də telefon zənginin səsinə oyandım.

Zəng vuran şöbəmizin işçisi leytenant Babayev idi. O bu gecə şöbədə növbətçi qalmışdı.

- Alo! Mehman? Rəis dedi ki, tez şöbəyə gələsən.
- Nə olub? - deyə soruşdum.
- Qaradumanlıda adam öldürüblər.

-Kimi?

- Gəl, bilərsən!

Əl-üzümü yuyub tələsik geyindim və özümü polis şöbəsinə çatdırdım. Rəisimiz polkovnik Əlizadə artıq yerində idi. Zalım oğlunun həqiqətən işgüzarlığına söz ola bilməzdi. Rayona gəldiyi iki ay olardı, ancaq şöbədə xeyli yenilik eləmişdi. Beş dəqiqə keçmiş mayor Seyidov da gəldi. Rəis bizi kabinetində qəbul edib dedi:

- Bu gecə Qaradumanlıda Mikayıl və Fəzayə adlı ər-arvadı bıçaqlayıb öldürüblər. Öz evlərində. Qatil məlum deyil. Özünüzü ora


downloaded from KitabYurdu.org

çatdırın! Prokurorluqdan Nadir müəllimlə Aqşin həkimə də bildirilib. Gedəndə onları da evlərindən götürəcəksiniz. De tərpənin!

Bu xəbər mənə çox pis təsir elədi. Mikayıl müəllim həqiqətən yaxşı adam idi. Demək olar ki, aramızda dostluq münasibəti də yaranmışdı. Çox vaxt kəndə gedəndə onun evində çay içirdim. Həm də ki, belə bir hadisə mənim sahə müvəkkili işlədiyim bir il müddətində və bildiyimə görə ümumiyyətlə, Qaradumanlı kəndində heç vaxt baş verməmişdi. Bu hadisə həmin sakit kənddə baş verən ilk ağır cinayət hadisəsi idi.

Polis Akademiyasını bitirib rayona gələn kimi məni Qaradumanlı, Gülabad və Həmidbəyli kəndlərinə sahə müvəkkili təyin etmişdilər. Bu kəndlər çox da böyük deyildilər. Məsələn, Qaradumanlı 50-60 evdən ibarət idi ki, burada demək olar, hamını tanıyırdım. Bunu mənim vəzifəm tələb edirdi. Mən çalışırdım ki, adamlarla sıx təmasda olmaqla onların xüsusiyyətlərinə bələd olum. Bu mənim profilaktik tədbirlər həyata keçirməyimə, hərdən baş verən xırda oğurluq və xuliqanlıq hərəkətlərinin üstünü açmağıma kömək edirdi.

Nə gizlədim, bizdə kobud, özündən razı, puldan ötrü haqqı nahaqqm ayağına verən, qeyri-əxlaqi hərəkətlərlə məşğul olan işçilər az deyil. Elələri də var ki, işləmək istəyir, ancaq qabiliyyəti yoxdur. Hansısa cinayətdə birindən şübhələndilərmi, zorakılıqla da olsa boynuna qoymalıdırlar. Şəxsən mənim belə poqon yoldaşlarıma yazığım gəlir. Düzdür, vacib olanda zorakılığa da əl atmaq lazımdır, ancaq yeri gəldi- gəlmədi, kimlərisə qorxutmaqla heç kimin yanında hörmət qazanmaq olmaz. Mənim fikrimcə, hörməti ancaq öz peşəni sevmək və bu peşədə yüksək qabiliyyət nümayiş etdirməklə qazanmaq olar.

Polis Akademiyasını bitirməyə az qalmış Qanbay Qasımlı adlı bir kriminalistika doktoru bizə üç-dörd mühazirə oxudu. Onun bir cümləsi hələ də olduğu kimi yadımda qalmışdı: «İstintaq aparan şəxs zorakılığa və hədə-qorxuya əl atırsa, özünün bacanqsızlığını sübut etmiş olur».

Başqa bir müəllimimizin dediyinə görə Qanbay Qasımlı Rusiyada

downloaded from KitabYurdu.org

Baş Cinayət Axtarış idarəsində işləyirmiş. Başına gələn böyük faciə ilə əlaqədar polkovnik rütbəsində vaxtından əvvəl istefaya çıxıb Bakıya qayıdıbmış. İndi rəsmi olaraq heç bir yerdə işləmir, Akademiyada hərdən saathesabı mühazirə oxuyurdu.

Qanbay müəllim təxminən qırx yaşında, ortaboylu, üzü təmiz qırxılmış, donqar burunlu, əksər vaxtlar sərt cizgili dodaqları bir-birinə kiplənən qaraqabaq bir adam idi. Bir qədər xəstəhal görünsə də həddindən ziyadə iti gözləri var idi. Bizə elə gəlirdi ki, onun nüfuzedici gözləri nəinki hər birimizin ürəyini, hətta auditoriya divarının arxasındakı şeyləri də görə bilir.

Düzünü deyim ki, mən haqqında rəvayətlər danışılan məşhur xəfiyyəyə qibtə edir və imkan daxilində ona oxşamağa çalışırdım...

Polis şöbəsinə məxsus UAZ maşını hər iki tərəfi sıx meşə ilə örtülmüş kələ-kötür yollarla Qaradumanlı kəndinə qalxırdı. Qabaqda - sürücünün yanında prokurorluğun baş müstəntiqi Nadir Təhməzov, arxada Cinayət Axtarış bölməsinin rəisi Təyyar Seyidov, Məhkəmə Tibb Eksperti Aqşin Dadaşov və mən oturmuşduq.

Nadir müəllim qırx yaşlarında yaraşıqlı bir kişi idi. Sifəti həmişə tərtəmiz qırxılmış olardı.
Bahalı kostyum geyinir, özünə yaraşan qalstuk taxırdı. Barmağında qızıl üzük, qalstukunda qızıl sancaq olurdu. Həmişə ən yaxşı siqaretlərdən çəkirdi. Onun siqareti yandırmağına tamaşa etmək çox maraqlı idi. Cibindən siqaret qutusunu çıxarıb diqqətlə qutuya baxırdı. Elə bil hər dəfə qutunun üstündəki yazıları oxuyurdu. Sonra qutudan bir siqaret götürüb ona da diqqətlə nəzər salırdı. Daha sonra siqareti dodaqlan arasına qoyub bahalı alışqanını çıxarırdı. Alışqana da bir az göz gəzdirib siqaretini odlayırdı. Bir qullab vurub gözlərini qıyır və siqareti külqabıya qoyurdu. Onu da deyim ki, savadlı müstəntiq idi. Mən onun bəzi istintaqlarında iştirak etmişdim. Heç vaxt əsəbiləşməz, ağzından nalayiq söz çıxmazdı.

Mayor Seyidov yerli polis işçilərindən ən təcrübəlisi, həm də ən hörmətlisi idi. Uzun, nazik bığlan üzünə zəhmli görkəm verirdi. Başının qabağı peysərinə qədər keçəlləşmişdi. Əlli yaşında,


downloaded from KitabYurdu.org

hündürboy, enlikürək, pəhləvan yerişli bir adam idi. Çoxdan Cinayət Axtarış bölməsinin rəisi işləyirmiş. Xüsusi ilə mal və qoyun oğurluqlarının üstünü vaxtında açmaqda məşhurlaşmışdı. Hansı kənddə belə bir oğurluq baş verirdisə, Seyidov bir günün içində kəndləri bir-birinə vurub oğruları tapırdı. Rayonda kimin nə işlə məşğul olduğunu beş barmağı kimi bilirdi. Bəzi işçilərimiz o fikirdə idilər ki, şöbənin rəisi gec-tez o olmalıdır. Əvvəlki rəis işdən çıxarılanda indiki gələnə kimi Seyidov bir ay şöbə rəisini əvəz etmişdi. Mayor Seyidovda bir az səbirsizlik və kobudluq olsa da mərd adam idi. Bəziləri kimi pula kişiliyini satmırdı. Tutduğu cinayətkar yüngül cəza alanda cin atma minirdi. Bir də gördün əlini-əlinə çırpıb yanıqlı-yanıqlı deyir:

- Ay kişilər, belə də iş olar? O gün əlli litr benzin işlətmişik. Səhərdən axşama kimi bu kənd mənim, o kənd sənin maşın sürdürüb qoyun oğrusunu tutmuşam, götürüb bircə il icbari iş kəsiblər. Mənə ixtiyar verələr, tutub onun əllərini kəsərəm. Sonra görək başqaları necə oğurluq eləyir.

Aqşin həkim də ki, rayonumuzda yeganə məhkəmə tibb eksperti idi. Özü də onu deyim ki, öz işini bilən adam idi. Bu işdə xeyli təcrübəsi var idi. O da yaşca Nadir müəllimlə həmtay olardı...

- Mehman, bu öldürülənlər nə cür adamdılar? - bir az əvvəl yaranmış sükutu mayor Seyidov pozdu.

- İkisi də müəllim idi. Özü də yaxşı müəllim idilər. Mikayıl həm də çox mərifətli oğlan idi. Atası kimi çörək verən idi, - deyə cavab verdim.

- Kimdi ki, atası?

- Onu, məncə, yaxşı tanıyarsız. İcra nümayəndəsi də olub. Bir-iki il əvvəl rəhmətə gedib.

- Hə, hə! Bildim. Eybalı kişi.

- Mikayılın arvadı Bakıdandır. Tələbə yoldaşı olublar. O da abırlı qadın idi. Özləri də cavan idilər yazıqlar.

- Eybalı kişinin bir oğlu da Rusiyada olur deyəsən, hə?

- Hə, - dedim. - Mikayılın böyük qardaşı Nəcməddin Rusiyada

downloaded from KitabYurdu.org

olur. Kiçik qardaşı Tofiq kənddə anası ilə ata evində yaşayır. Mikayıl məktəbin yaxınlığında olurdu. Atası onun üçün ev tikdirmişdi orada. Ən kiçikləri qızdır. Təranə adında. Kənddə ərdədir.

- Nəcməddinin vəziyyəti necədir orada?

- Mən bilən, pis deyil. Tofiqə də UAZ maşınını o alıb verib. İki-üç həftə əvvəl gəlmişdi kəndə. Bir həftə qalıb getdi.

- Bəlkə çoxlu pul gətiribmiş qardaşı üçün? Bəlkə bu yazıqlar elə pulun güdazına gediblər?

- Nə bilmək olar?.. - dedim.

- Paşa da deyəsən Rusiyaya getmişdi, eləmi? Bildin də, kimi deyirəm. Türmədə yatıb-çıxıb. O da məktəbin yanında olur.

- Nəcməddinin yanma getmişdi. Alverə. Deyəsən çox içdiyinə görə Nəcməddin özü onu geri qaytarıb.

- Bu iş ondan uzaq deyil! - Seyidov hökmünü verdi.

- Deyəsən cinayətkan elə maşındaca tapmısız, Təyyar müəllim? - bayaqdan danışmayan Təhməzov zarafat etdi.

- Nə olar ki? Vaxta qənaət edərik. - Seyidov güldü.

Yadıma bir əhvalat düşdü. Yazda Təyyar müəllimlə bir kəndə qoyun oğurluğu məsələsini araşdırmağa gedirdik. Seyidov maşında nə düşünüb-daşınmışdısa, kəndə çatan kimi bir oğlanı çağırtdırıb maşına basdı və geri qayıtdıq. Şöbədə Təyyar müəllim ona bir sillə vuran kimi qoyunları oğurlamağını boynuna aldı və hətta harada gizlətdiyini də göstərdi.

Ancaq indi baş vermiş bu hadisə qoyun oğurluğu deyildi. Burada iki nəfər insanın, özü də bir-birini dərin məhəbbətlə sevən iki yaxşı insanın həyatına qəsd edilmişdi. Cinayətkarı isə, hələ bilmək olmazdı, tapa biləcəkdik, yoxsa yox...

Bu dəfə Mikayıl rəhmətliyin özünün mənə danışmış olduğu bir hekayəti xatırladım. Bu hekayət onunla Fəzayə müəllimin ilk tanışlıqları və məhəbbətlə keçən tələbəlik illəri barədə idi.


downloaded from KitabYurdu.org

Mikayıl universitetin ən fəal tələbələrindən biri idi. Dərslərini əla oxumaqla bərabər, fakültə komsomol komitəsinin işində də yaxından iştirak edirdi. Buna görə də dördüncü kursda oxuyanda onu komitə katibi seçdilər. İndi onun işi həddindən artıq çoxalmış, demək olar ki, fakültənin bütün təşkilati işləri boynuna düşmüşdü.

Fakültənin birinci kurs tələbələri arasında Fəzayə adlı bir qız ilk baxışdan onun xoşuna gəlmişdi. Nisbətən alçaq boylu, koppuş ağ sifəti, iri ala gözləri olan Fəzayə uşağa oxşayırdı. Baxanda heç deməzdin ki, universitet tələbəsidir.

Buna baxmayaraq, həm də ciddi təbiətli qız idi. Qrup nümayəndəsi olduğu üçün tez-tez işlə əlaqədar komsomol otağına girəndə Mikayılın məhəbbətlə dolu baxışlarını öz üzərində hiss edir, ancaq özünü o yerə qoymurdu. Mikayıl bir neçə dəfə ürəyini ona açmaq istəmişdisə də, onun ciddi baxışlarından çəkinib fikrini sonraya saxlamışdı.

May ayı gəlmişdi. Artıq dərs ilinin axırları idi. Onda Azərbaycan hələ Sovet İttifaqının tərkibində idi və mərkəzin göstərişinə görə guya Əfqanıstanda vuruşda yaralanmış sovet əsgərləri üçün tələbələrdən məcburi qan alınırdı. Bu, xüsusilə birinci kurs tələbələrinə aid idi ki, 250 qram qan verməkdən imtina edən tələbə universitetdən qovulmaqla hədələnirdi.

Bu iş üçün cədvəl tərtib edilmişdi və həmin gün hansı fakültənin qan vermək növbəsi olurdusa, fakültə dekanı və ya partiya təşkilat katibi komsomol fəallarının müşayiəti ilə dərsin gedişində qəflətən auditoriyalara daxil olur, dərsi saxlayaraq tələbələri dəhlizə çıxarırdılar. Sonra onları mühasirəyə alıb ikinci mərtəbədə yerləşən tibb məntəqəsinin qarşısına aparırdılar. Məntəqə yerləşən otağın qarşısında dəhlizin hər iki tərəfi stollarla tutulurdu. Yalnız bir tərəfdə dar keçid olurdu ki, bu keçidin də ağzında komsomol büro üzvləri keşik çəkirdilər. Tələbələr qaçmağa çalışırdılarsa da bəziləri məktəbdən azad edilməyin qorxusundan, bəziləri də imkan olmadığından qaça bilmirdilər.

Nəhayət, bir gün növbə Fəzayəgilin qrupuna çatdı. Dekan yalnız

downloaded from KitabYurdu.org

son anda Mikayılı xəbərdar edib komsomol fəallarını da özü ilə götürməyi tapşırdı və auditoriyaya girib dərsi saxladı. Komsomol fəallan qrupun tələbələrini hər tərəfdən əhatə edərək onları aparıb tibb məntəqəsinin qarşısında qurulmuş «Həbs düşərgəsinə» doluşdurdular. Hava isti olduğu üçün məntəqədən boğuq qan iyi gəlirdi. Əksəriyyəti qız olan tələbələr qorxudan nə edəcəklərini bilmir, ora-bura boylanırdılar. Dar keçiddə uzun bir oğlan keşik çəkirdi. Dekan və partkom isə bir qədər aralıda dayanıb söhbət edirdilər.

Həmişə hansısa bir qrupu qan verməyə gətirəndə komsomol fəallarından biri qrupun siyahısını əlinə alır, növbə ilə tələbələri səsləyib məntəqəyə salırdı. Məntəqədə onlardan 250 qram əvəzinə 300 qram qan götürüb buraxırdılar. Mikayıl bu dəfə siyahını özü götürdü və Fəzayəni buradan necə xilas etməyi düşünməyə başladı. Gözaltı ona baxıb gördü ki, Fəzayənin üzünə əməlli-başlı ölüm qorxusu çöküb. Yazıq qızın ürəyi elə çırpmırdı ki, az qalırdı sinəsindən çıxsın.

Bir az fikirləşib, nəhayət çarə tapdı. Məntəqəyə girib qan götürən qadın həkimə dedi ki, bir tələbə içəri girəndə sizə işarə edəcəm, ondan qan götürməyin, qoyun bir qədər otaqda qalsın, sonra buraxarıq gedər. Yoldaşlarına deyərəm ki, onda qan azlığı var. Həkim razılaşdı. Nəyinə lazım idi kim qan verdi, vermədi? Bu işdə əsas məsuliyyət komsomol katibinin üzərinə düşürdü. Sonra Mikayıl çıxıb üzlərinin rəngi qaçmış tələbələrə də baxdı. İmkanı olsaydı bunların hamısını buraxardı. Heç olmasa, Fəzayənin xatirinə. Ancaq bu iş ona baha başa gələ bilərdi.

Artıq bir-iki qız girib qan vermiş, onların məntəqədən necə zəifləmiş çıxdıqlarını və hətta birinin ürəyinin getdiyini görən Fəzayənin qorxusu daha da şiddətlənmişdi. Onun adı siyahıda 19-cu idi. Mikayıl onu bir qədər tez buraxmaq üçün adını növbədən kənar çağırdı:

- Həmidova Fəzayə! Keçin içəri!

Bayaqdan ürəyi partlamaq dərəcəsinə çatan
Fəzayə gözlənilmədən dilləndi:

- Mən qan vermək istəmirəm. Qorxuram.


downloaded from KitabYurdu.org

- Keçin məntəqəyə, bəlkə heç həkim özü məsləhət bilməyəcək sizdən qan götürməyi?

- Yox! Keçmirəm!

- Sizə deyirəm, keçin içəri!

- Keçmirəm!

- Gəlin girin otağa, xəstəliyiniz varsa, həkimə deyin!

- Keçmirəm. Mən qan versəm, ölərəm. - Fəzayə ağlamsındı.

Mikayıl bilmirdi bu işə hirslənsin yoxsa gülsün. Bircə bu tərs qızı məntəqəyə sala bilsəydi?

- Ay qız gəl gir içəri!

- Nə istəyirsiz məndən? - Fəzayə birdən çığırdı. Qorxudan səsi titrəyir, bədəni əsim-əsim əsirdi. - Siz vəhşisiz nədir? Mən niyə görə məcbur qan verməliyəm? Mənim nə qanım var ki, sizə də verim?

Mikayıl həqiqətən əsəbiləşməyə başladı. Ancaq tez də vəziyyətdən çıxış yolu tapdı. Dekanla partkom çıxıb getmişdilər. Dəhlizdə görünmürdülər. Özünü hirslənmiş kimi göstərdi:

- Çıxın gedin burdan! Sizinlə sonra danışarıq. Tez olun!

Fəzayə duruxub dayandı. Axı məktəbdən qovula bilərdi? Həm də yoldaşlarını qoyub getmək istəmirdi. Mikayıl ona yanaşıb qolundan tutdu:

- Çıxın dedim! Sizin qanınız sovet hökumətinə lazım deyil!

Hətta qızı bir balaca itələdi də. Dar keçiddə dayanan uzun oğlan o saat kənara çəkildi. Fəzayə keçiddən çıxıb dəhlizi sürətlə keçdi və döngədə yox oldu. Mikayıl dərindən nəfəs aldı. Fəzayəni qan verməkdən xilas etmişdi. Deyəsən qrup yoldaşları da heç nədən şübhələnmədilər. Onlar Mikayılı doğrudan da əsəbiləşmiş hesab etdilər. Mikayıl siyahını başqasına verib komsomol otağına getmək bəhanəsi ilə qızın ardınca yollandı. Yazıq qız yəqin ki, indi məktəbdən qovulacağını düşünürdü. Fəzayəyə universitetin qabağındakı səkidə çatdı. Onunla yanaşı addımlayaraq:

- Sizinlə kobud rəftar etdiyimə görə inciməyin. - dedi. - Mən sizin adınızı oxudum ki, məntəqəyə keçəsiniz. Sizi buraxmaq haqqında əvvəlcədən həkimə demişdim. Ancaq siz içəri keçmədiz. Ona görə də

downloaded from KitabYurdu.org

sizi azad etmək üçün bu yolu seçdim.

Fəzayə o saat inandı.

- Nəyə görə məni buraxmaq istəyirdiz? O birilər insan deyil?

- Əlbəttə insandırlar. Ancaq hamını buraxmağa imkanım yoxdu axı...

- Bəs nəyə görə məhz məni azad etdiniz?

Mikayıl yenə ürəyini birbaşa aça bilmədi:

- Əsas odur ki, siz məni başa düşdünüz. Başa düşdünüz ki, ancaq gözdən pərdə asmaq üçün sizinlə kobud davrandım. Hər halda, buna görə üzr istəyirəm.

- Mən də sizdən üzr istəyirəm. - Fəzayə başını qaldırıb Mikayıla baxdı və gülümsədi.

- Siz nəyə görə?

- Axı mən də sizə vəhşi dedim?..

- Mən sizin vəziyyətinizi başa düşürdüm.

- Axı demədiniz, nəyə görə məni buraxdınız?

- Sonra deyərəm...

Mikayıl onda Fəzayəyə «Səni sevirəm» demək istədi. Ancaq bacarmadı. Sonralar isə bu sözü deməyə ehtiyac qalmadı. Onlar o gündən görüşməyə başladılar və bir-birlərinə elə dərin məhəbbətlə bağlandılar ki, «sevirəm» sözü bu məhəbbəti ancaq adiləşdirə bilərdi. Mikayıl beşinci kursu bitirib öz rayonlarına təyinat alanda hər ikisi başa düşdü ki, bir-birlərindən ayn yaşaya bilməyəcəklər. Odur ki, Mikayıl kəndə gələndən bir az sonra Fəzayəgilə elçi göndərdi.

Fəzayənin atası tikintidə mühəndis işləyirdi. Çox tünd xasiyyətli adam idi. Qızını heç cür kəndə ərə vermək istəmirdi. «Gedib ucqar dağ kəndində necə yaşayacaq?» - deyirdi. Ancaq

Fəzayə gizlində anasının dizlərini qucaqlayıb ürəyini ona açdı:

- Məni bədbəxt eləməyin, ana! Mən Mikayılsız yaşaya bilmərəm!

Anasının təkidi ilə atası da yumşaldı və onlar nişanlandılar. Fəzayə universiteti bitirən kimi Qaradumanlıya gəlin gətirdilər və Eybalı kişi onlar üçün dəbdəbəli bir toy elədi.

Kənd məktəbində dərs deməyə başlayan Fəzayə də Mikayıl


downloaded from KitabYurdu.org

müəllim kimi tezliklə hamının hörmətini qazandı.

Uşaqlar onlara pərəstişlə baxırdılar. Kənd sakinləri də bu xoşbəxt ailəyə qibtə edirdilər.

Bircə dərdləri var idi ki, evlənmələrindən on ildən çox keçmələrinə baxmayaraq, uşaqlan olmurdu.

Təranə çox istəyirdi ki, oğlanlarından birini həmişəlik qardaşına bağışlasın. Ancaq əri Oqtay buna qəti narazılığını bildirmişdi. Təranə də bu işdən əlini üzəndən sonra ümidini ancaq Allaha bağlamışdı:

- Dünyada Allahdan dilədiyim təkcə odur ki, sizə də bir övlad payı versin.

Ancaq... Dünyanın işlərini bilmək olmur. Heç bilmək olmur...

Kəndə girən kimi maşını birbaş Mikayılın evinin qabağına sürdürdük. İri darvazanın ağzına xeyli adam yığılmışdı. Hamısının da gözlərindən qorxuqanşıq kədər oxunurdu. Bizi İcra nümayəndəsi İslam müəllim qarşılayıb evə apardı. Mikayılın qardaşı Tofiq də bizimlə evə çıxdı.

Hadisədən sonra evdə heç nəyə toxunulmamışdı.

Mikayılla Fəzayənin meyitləri yıxıldıqları vəziyyətdə döşəmədə sərilib qalmışdı. İslam müəllim izahat verdi:

Səhər tezdən Tofiq bura gələrək vəziyyəti belə görüb və qonşuluqda yaşayan müavinim Rüstəmə xəbər verib. Rüstəm elə Tofiqin özünü Gülabada mənim dalımca yollayıb. Mən də eşidən kimi rayona zəng vurub özümü buraya yetirdim. Heç kəsi evə buraxmamışıq. Hətta bacısını da. Anasının deyəsən hələ xəbəri yoxdu. Ancaq qızın valideynlərinə xəbər vermək üçün Bakıya adam göndərilib.

- Kim eləyib bu işi? - Seyidov soruşdu.
- Bilinməyir. Çox ağlabatmaz işdir.

Qanlı hadisənin baş verdiyi bu ev
ikimərtəbəli idi. İkinci mərtəbədəki otaqlar hazır deyildi. Heç qapı pəncərə də salınmamışdı. Birinci mərtəbədəki üç otaqdan birincisini dəhliz adlandırmaq olardı. Çünki o biri iki otağın qapılan bura açılırdı. Qapıları açıq qalmış həmin iki otağın biri qonaq otağı idi ki, iri paltar

downloaded from KitabYurdu.org

şkafı da bu otağa qoyulmuşdu. O biri otaq isə yataq otağı kimi istifadə olunurdu. Dəhliz adlandırdığım birinci otaqda bir küncdə odun sobası qurulmuşdu. Dəhlizin o biri başında kiçik stol qoyulmuşdu ki, onun da üstündə ucuz bir televizor var idi. Ümumiyyətlə, otaqlar sadə və təmirsiz idilər. Dəhlizdə - yataq otağının qapısı ilə üzbəüz divara bitişik iri yemək stolu qoyulmuşdu. Yemək stolunun üstündəki iki boşqabda qayğanaq yeyilmişdi. Stolun baş tərəfinə qoyulmuş boşqabda xörəyin yarısı yeyilməmiş qalmışdı. İçindəki xörək tam yeyilmiş boşqabın yanında bir çəngəl, bir araq stəkanı, ortada yarımçıq araq şüşəsi və çörək qabı var idi. Bu saydıqlarımdan başqa stolun üstündə bir qutu «Şirvan» siqareti, kibrit qutusu və təzə büllur külqabı var idi ki, külqabıya da ancaq bir siqaret kötüyü atılmışdı.

Mikayılın meyiti həmin bu yemək stolunun yanında düşüb qalmışdı. Ağzı üstə yıxıldığı üçün sifəti görünmürdü. Sol çiynindən bir qədər aşağı, ürək nahiyəsində bıçaq zərbəsinin yeri aydın bilinirdi. Meyitin ətrafında döşəmədə xeyli qan quruyub qalmışdı. Fəzayənin cansız cəsədi isə qonaq otağında -paltar şkafının yanında idi. O, kürəyi üstə yıxılmışdı. Geniş açılmış gözləri dəhşət ifadə edirdi. Burada da otağın döşəməsi qanla suvanmışdı. Paltar şkafının qapısı taybatay açıq qalmışdı. Şkafın sol hissəsində səliqə ilə müxtəlif paltarlar asılmış, siyirmələrdən ibarət sağ hissəsində də heç nə qarışdırılmamışdı.

Yalnız yuxarıdakı siyirmələrdən biri çəkilmişdi. Həmin siyirmədə pasportlar, diplomlar və ailə üzvlərinin digər sənədləri var idi.

Dinib-danışmadan yataq otağına keçdik. İkinəfərlik taxtın üstündəki qoşa yataq yeri səliqə ilə hamarlanıb, üstünə iri adyal salınmışdı. Otaqda bundan başqa qab-qacaq şkafı, kiçik stol və bir stul var idi ki, stolun üstündə bir boşqabda da qayğanaq yeyilmişdi.

Yenə birinci otağa qayıtdıq. Aqşin Dadaşov meyitləri müayinə etməyə başladı. Seyidov isə külqabıdakı yeganə siqaret kötüyünə ehtiyatla baxaraq yerinə qoydu.

- «Şirvan» siqaretidir. - dedi və icra nümayəndəsinə baxdı. - Mikayıl nə çəkirdi?


downloaded from KitabYurdu.org

- Həmişə «Şirvan» çəkirdi. - İslam müəllimin əvəzinə Tofiq dilləndi. Onun gözləri ağlamaqdan qızanb şişmişdi.

Mayor Seyidov onu indi görmüş kimi diqqətlə üzünə baxıb:

- Rəhmətliyin qardaşısan? - deyə soruşdu.
- Bəli.
- Danış görüm, nə bilirsən?

- Mən hər gün səhər tezdən öz maşınımla şəhərə adam daşıyıram. Çörək pulumu qazanmaq üçün. Dünən günorta Mikayıl demişdi ki, səhər gəl məni də götür, şəhərə gedəcəm. Mən də səhər təxminən saat 7-də bura gəldim. Darvazanı itələdim. Gördüm ki, bağlı deyil. Həyətə keçib Mikayılı səslədim. Sonra isə cavab verilmədiyini görüb evin qapısını döydüm. Evin qapısı, sadəcə, örtülmüşdü, ancaq bağlanmamışdı. Açıb içəri girdim. Gördüm ki... - Tofiq daha sözünün dalını gətirə bilmədi. Qəhərləndiyini gizlətmək üçün başını aşağı saldı.

- Qardaşınız şəhərə nə üçün getmək istəyirdi? - müstəntiq Təhməzov sual verdi.

- Ev üçün qənddən-çaydan almağa. Biz həmişə ərzağı rayon mərkəzindən alırıq. Kənddə mağaza yoxdur axı...

- Başqa işi yox idi ki, şəhərdə?
- Xeyr! Olsaydı, mənə deyərdi.

Mayor Seyidov yemək stolunun qarşısında dayanıb süfrəyə tamaşa edirdi. Müşahidəsini qurtarıb bizə tərəf çevrildi:

- Qatil kimdirsə, çox hiyləgər adamdır. Fikir verirsizmi, o burada oturub. Onun çəngəli və araq stəkanı yoxdur. Yəqin bu əşyaları özü ilə götürüb ki, əl izlərini aşkar edə bilməyək. Bundan belə çıxır ki, başqa yerlərdə də onun əl izlərini axtarmağa dəyməz. O çox güman ki, heç yerdə əl izi qoymayıb. Yad qonaq kimdirsə, yeməyini də yanmçıq yeyib. Düşünülmüş şəkildə cinayət törətməyə gəldiyi üçün həyəcanlı olub, boğazından yemək keçməyib. Araqdan isə təxminən 300 qram içilib. Aqşin, yoxlayarsan görək mərhum özü nə qədər içib? - Cinayət Axtarış Bölməsinin rəhbəri bir qədər ara verib yenə danışmağa başladı: - Mənim maşında dediyim fikir təsdiq olunur.

downloaded from KitabYurdu.org

Qatil puldan ötrü gəlibmiş. Bunlar burada yemək yeyəndə qadın yataq otağında yeyirmiş. Qatil birinci Mikayılı vurub. Özü də onda Mikayıl stulda oturubmuş. Bu onun yıxılma vəziyyətindən də başa düşülür. Sonra qatil keçib yataq otağında qadını qorxuzub və onu o biri otağa apanb. Yəqin ki, pullar paltar şkafında həmin qabağa çəkilmiş, sənədlər saxlanılan siyirmədə imiş. Onun Fəzayənin saçlarından yapışdığı hiss olunur. Görürsüz də, saçlar necə dağınıqdır. O otağa getməklərindən bilinir ki, qadın pulu verməyə razılaşıb və verib də! Daha başqa qızıl əşyalanndan-zaddan nə verib, onu deyə bilmərəm, yoxlamaq lazımdır. Sonra isə o alçaq, şahid olmasın deyə, pulları alan kimi Fəzayəni də o otaqda öldürüb... - Seyidov üzünü icra nümayəndəsinə çevirib sözünü yekunlaşdırdı. - Bütün faktlar onu göstərir ki, qatil kənardan gəlmə adam deyil, bu kənddəndir.

İslam müəllim çiyinlərini çəkdi:

- Nə deyim? Adam heç ağlına sığışdıra bilmir.

Mən söhbətə qarışdım:

- Qatil bu kənddəndir deyəndə ki, həmin adam kim olubsa tanış adamdır. Yəni Mikayıl da,
Fəzayə də onu tanıyırmış. Ancaq qəti hökm etmək olmaz ki, o bu kənddəndir.

- Yox... - Seyidov inamsız dilləndi. - Qatil bu kənddən olmalıdır.

Müstəntiq Təhməzov stolun üstündəki külqabıya bir də nəzər yetirib dedi:

- Mən sizin dediklərinizlə, ümumiyyətlə, razılaşıram, Təyyar müəllim. Ancaq onu da əlavə edim ki, naməlum qonaq siqaret çəkən deyilmiş. Baxın, burada cəmi bir siqaret çəkilib, onu da Mikayıl çəkib.

Seyidov pəncərədən çirkli və köhnə bir kauçuk külqabı götürüb bizə göstərdi.

- Qonaq çəkən deyilsə, bəs niyə Mikayıl süfrəyə təzə külqabı gətirir? Niyə o özünün işlətdiyi bu külqabıdan istifadə etməyib?

- Hə, həmişə süfrədə bu köhnə külqabı olurdu. - Tofiq təsdiq etdi.

Müstəntiq bir az fikrə gedib tez də dilləndi:


downloaded from KitabYurdu.org

- Qonaq çəkən olsa da, olmasa da, bu köhnə külqabı süfrəyə qoyulası şey deyil axı?.. Ancaq görünür ki, qonaq çəkən olmayıb. Yoxsa həyəcanlı adam siqareti-siqaretə calayardı.

Mən yenə dözməyib söhbətə müdaxilə etdim:

- Bax görürsüz, qonaq siqaret çəkən olmayıbsa, Mikayıl niyə onun üçün süfrəyə təzə külqabı gətirib? Deməli, Mikayıl qonağın siqaret çəkən olub-olmadığını dəqiq bilmirmiş. Yəni qonaq çox da elə yaxın adam deyilmiş. Burada
mənim sözüm təsdiq olunur ki, qatil bu kənddən olmaya da bilər.

Nadir müəllim laqeydliklə başını tərpətdi. Bilmədim ki, fikrimi təsdiq edir, yoxsa inkar. Meyitlərlə məşğul olan Aqşin Dadaşova baxdı:

- Aqşin, meyitlər yəqin ki, şəhərə aparılacaq?

- Apanlsa yaxşıdır. Hadisənin vaxtını da dəqiq müəyyənləşdirərəm. - qaşqabaqlı həkim cavab verdi.

Seyidov birdən Tofiqə üz tütüb:

- Bu küçədə kimlər yaşayır? - deyə soruşdu. Qaradumanlı kəndinə girən yol, demək olar
ki, kəndi yarıya bölən uzun bir küçə idi ki, bura kəndin əsas küçəsi hesab oluna bilərdi. Kəndə
daxil olan adam həmin küçə ilə yüz metr gəlib sola burulsa kiçik bir küçəyə düşər ki, bu küçənin solunda sıra ilə cəmi dörd ev, sağda isə bir ev və sonra kənd məktəbinin uzun hasarını görər. Bundan sonra küçə yanmçıq qurtarır. Ondan o tərəfə, qonşu Gülabad kəndinə getmək üçün dar meşə cığırı ilə düşmək lazımdır. Mikayılın evi məktəb küçəsi adlanan bu kiçik küçəyə dönəndə solda birinci ev idi. Kənddə həyətlər böyük olduğu üçün evlər bir-birindən aralı yerləşirdi.

Tofiq izahat verməyə başladı:

- Bu evdən sonra gələn Feyzi kişinin evidir. Təqaüdçüdür. Yetmiş yaşı olar. Həm də məktəbin gözətçiliyini edir. Arvadı ilə tək yaşayır. Ondan sonra gələn Rüstəmin evidir. İcra nümayəndəsinin müavinidir. Axırdakı evin sahibi Bakıya köçüb. İndi həmin evdə məntəqənin baş həkimi Vaqif tək kirayənişin qalır. Sağda isə birinci ev Paşanın evidir.

downloaded from KitabYurdu.org

Ondan sonra sağda ev yoxdur. Məktəbdir.

- Paşanın Mikayılla münasibəti necə idi?

- Belə də... Soyuq idi. Rusiyadakı qardaşımın yanma getmişdi. Sonra qardaşım onu qovladı.

- Nəyə görə? - sorğu-sualı Nadir müəllim davam etdirməyə başladı.

- Pul məsələsinə görə. Deyəsən qardaşıma fırıldaq gəlmək istəyirmiş.

- Bəs indi nə işlə məşğul olur?

- Nə bilim, heç bilinmir. Hərdən alverlə, hərdən dəllallıqla.

- Siqaret çəkəndir?

- Bəli, « Prezident» çəkir.

- Nəcməddin kəndə nə vaxt gəlmişdi, axınncı dəfə?

- Üç həftə olar... Bir həftə qalıb getdi.

- Mikayılgilə pul vermişdimi? Ya sənin özünə? Axı indi Rusiyada işləyənlərin çoxu burdakı qohumlara da əl tutur.

- Mən anamla oluram. Pula o qədər ehtiyacımız yoxdur. Ancaq anama 3 min rubl pul vermişdi. Mikayıla nə qədər verib, bilmirəm. O, evini düzəltdirməli idi. Pula ehtiyacı çox idi. Maaşla da dolanmaq çətindir. Nəcməddin gedəndən sonra eşitdim ki, guya ona on min dollar verib. Ancaq inanmadım.

- Niyə?

- Çünki bizə verdiyi dollar deyildi. Rus pulu idi.

- Bəs bacıngilə nə qədər verib?

- Bilmirəm. Verməyib, deyəsən.

- Kimdən eşitdin ki, Mikayıla o qədər pul verilib?

- Yadımda deyil. Elə camaat danışırdı.

- Necə yəni yadımda deyil? Bilmirsən sənə kim deyib bunu?

- Vallah bilmirəm, kimsə dedi ki, belə danışırlar. Mən də dedim ki, ola bilməz, yalan deyirlər.

... Həyətə düşdük. Baş müstəntiq meyitləri rayon xəstəxanasına aparmaq üçün maşın gətizdirdi. İcra nümayəndəsinə də tapşırdı ki, qapılar bağlansın və evə heç kəs buraxılmasın.


downloaded from KitabYurdu.org

- Arxayın olun! - nümayəndə dilləndi - Müavinim burada olur. Deyərəm qoruyar. Hüzr mərasimi də yəqin ki, anasıgildə olacaq. Bura heç kəs gəlməz.

- Paşanı bura çağırın. Onu özümüzlə aparacağıq. Tofiq də səhər gələr izahat verməyə. Siz isə yerinizdə olun. Zəng vurub kimi desək tez rayona gətirin.

- Yaxşı! - İslam müəllim küçəyə yığılan adamlara göz gəzdirib Paşanı gördü və onu əli ilə çağırdı.

Gözüm adamların içində dayanmış Namiqə sataşdı. O, iyirmi beş yaşında arıq, sarıbəniz oğlan idi. Meşəbəyi işləyirdi. Hərdən rayon mərkəzində qaz kəsiləndə mənim üçün odun təşkil eləyirdi. Namiq gözünü mənə zilləmişdi. Hiss etdim ki, mənə deməyə gizli sözü var. Onu səslədim:

- Namiq, bura gəl! Sənə odun tapşırmışdım, nə oldu?

Bu bəhanə ilə onu həyətə çəkdim.

- Bu işdən ağlın nə kəsir?

Namiq sağa-sola baxıb heç kəsin söhbətimizi eşitməyəcəyinə arxayın oldu və danışmağa başladı:

- Axşam darvazamızın ağzında dayanıb siqaret çəkirdim. Atamdan gizlin çəkirəm axı, siqareti? Göyün üzü bulud olduğu üçün zülmət qaranlıq idi. Ancaq həyətimizdə yanan lampa küçəyə azacıq işıq salırdı. Bir də gördüm ki, Kamil evləri tərəfdən gəlir. Bizim darvazanın qabağından keçib gəldi. Arxasınca baxdım. Qaranlıq olsa da, mənə elə gəldi ki, bu küçəyə döndü. Nədənsə ondan şübhələndim.

Kəndə girən əsas küçədən sola - məktəb küçəsinə burulmayıb düz getsən iki-üç ev sonra sağda Namiqgilin darvazasını görərsən. Əlli metr də getsən solda Mikayılın bacısıgil olur. Həmin sırada üç ev ötürəndən sonra Kamilgilin evi gəlir. Kamili yaxşı tanıyırdım. Sakit adam idi. Kolxoz
vaxtında mühasib işləmişdi. İndi işsiz idi. Həyət- bacada təsərrüfatla məşğul olurdu.

- Axı nədən şübhələndin? - deyə soruşdum.

- Küçənin o biri tərəfi ilə çəpərqırağı gedirdi.

downloaded from KitabYurdu.org

- Nə olsun ki?

- Yəqin ki, işıqdan yayınmaq üçün belə edirdi. Küçənin yarısına həyətimizdən işıq düşürdü.

- Saat neçə olardı həmin vaxt?

- Vallah nə deyim? Bir saatdan çox idi hava qaralmışdı.

- Yaxşı, get! - dedim.

- Sən allah, Mehman müəllim, mənim adım olmasın! - Namiq bir də ətrafa boylanıb yalvardı.

- Yaxşı, yaxşı, get!

Namiq həyətdən çıxan kimi Təyyar müəllimi işarə ilə çağırıb məsələni ona danışdım. İndinin işini sonraya qoymağı adət etməmiş mayor o saat icra nümayəndəsinə Kamili də çağırmağı tapşırdı. Kamilin gəlməyi on dəqiqə çəkdi. Mən meyitlər qoyulmuş uzun UAZ maşınında, sürücünün yanında oturdum. Qalanlar isə Paşa ilə Kamili polis maşınına mindirib özləri də orada əyləşdilər və yola düşdük. Tini dönmək istəyəndə soldan saçlarını yola-yola gələn bir qadın gördük. Bir neçə başqa qadın da onun dalınca düşmüşdü. Ancaq onlar deyəsən üz-gözü qan içində olan bu qadına çata bilmirdilər.
Üzünü cırıb tanınmaz hala düşmüş qadını
çətinliklə tanıdım. Bu Mikayılın anası idi. Tələsik sürücüyə:

- Sür, saxlama! - dedim. - Sonra yubanacağıq.

Ancaq deyəsən yazıq ana meyitlərin maşında olduğunu ağlına gətirmədi və bizə baxmadan ötüb keçdi.

Rayon polis şöbəsində Paşanı və Kamili müvəqqəti saxlama kamerasına saldıq. Günortadan sonra birinci Paşanın dindirilməsi başlandı. İstintaqı Seyidovun otağında Təhməzov apanrdı. Seyidovla mən istintaqda iştirak edirdik. Mən istintaqın gedişini protokola qeyd edirdim.

Təhməzov kürən, sarı bığları qırmızı sifətinə yaraşmayan Paşanı diqqətlə süzüb sorğu-suala başladı:

- Adın, familiyan, yaşın?

- Əhmədov Paşa. 46 yaşım var.

- Ailə vəziyyətin?


downloaded from KitabYurdu.org

- Arvadım, dörd də uşağım var.
- Böyüyün neçə yaşı var?
- Doqquzuncu sinifdə oxuyur.
- Harada işləyirsən?
- Heç yerdə. Sənə qurban olum, iş var ki? Bir təhər dolanırıq. Gah alver eləyirəm, gah da həyətin məhsullarından satıram.
- Rusiyadan niyə qayıtdın?
- Evə qayıtmalıydım da, gec-tez.
- Nəcməddinlə necə yola gedirdin?
- Lap yaxşı.
- Bəs deyirlər, qovub səni?

Paşa özünü itirdi:

VII - Ay sənə qurban olum, hər sözə niyə inanırsan? Nəcməddin məni niyə qovurdu ki?
- Mikayılla aran necə idi?
- Lap yaxşı
- Evlərinə gedib-gəlirdin?
- Yox...
- Nə üçün?
- Vaxt olur ki?... Həm də Rusiyada idim də, iki iliydi.
- Nə vaxt gəlmisən?
- On ay olar. Noyabrın axırında gəlmişəm.
- Dünən axşam harada olmusan, Paşa?
- Harada olacam, sənə qurban olum, evdə.
- Nə ilə məşğul idin evdə?
- Eləcə oturmuşduq. Axşam yeməyini yedim və saat ıo-da yatdım.
- Nəcməddin nə qədər pul gətirmişdi, Mikayıl üçün?
- On min dollar.
- Hamısı yüzlük idi? - Təhməzovun gözləri qıyıldı.
- Görməmişəm axı...
- Bəs hardan bilirsən qədərini?
- Elə deyirdilər.
- Kim deyirdi?

downloaded from KitabYurdu.org

- Bunu hamı bilir ki...

- Sən kimdən eşitmisən? - Baş müstəntiq əlindəki qələmi stola döyəclədi.

Paşa bir az fikrə getdi.

- Mən deyəsən, Ağasəməddən eşitdim.

- Ağasəməd kimdir?

- Mikayılın əmisioğlu. Dedi ki, Nəcməddin Mikayıl üçün on min dollar pul gətirib. Onun yerində olsam bir yaxşı maşın alaram.

Təhməzov bir qədər fikrə gedib bir siqaret yandırdı və qəfildən soruşdu:

- Paşa, düzünü de, o yazıqları niyə öldürmüsən?

Paşanın rəngi ağardı. Dili ilə qurumuş dodaqlarını isladıb dilləndi:

VII - Sənə qurban olum, mən bəlkə puldan ötəri adamı aldadaram, oğurluq eləyərəm, ancaq adam öldürmək mənim əlimdən gəlməz.

- Deməli adam aldada bilərsən. Onda bizi də aldadırsan hə?

- Sənə qurban olum, mən yalan danışmıram.

- Nə vaxt oğurluq eləmisən?

- Eləməmişəm. Sözgəlişi deyirəm.

Təyyar müəllim əsəbi halda çənəsini ovuşdurub söhbətə qarışdı:

- Paşa, sən onlann qonşususan. Hər halda, bilərsən bu gecə o evə kim gəlib? Bir şey eşitməmiş olmazsan. Onu da bil ki, səndən elə-belə əl çəkən deyilik.

- Sənə qurban olum, vallah mən yalan danışmıram.

- Sən bayaqdan bizim yanımızda bir xeyli yalan danışmısan. - Təhməzov dilləndi və mənə baxdı. - Bunu apar sal kameraya. Qoy orada yaxşı-yaxşı fikirləşsin.

Bu vaxt Aqşin Dadaşov kabinetə daxil oldu. Paşaya çəpəki nəzər salıb ekspertizanın nəticəsini stolun üstünə qoydu və stul çəkib oturdu.

Ekspertin rəyindən məlum olurdu ki, Mikayıl və Fəzayə ölümlərindən qabaq həqiqətən qayğanaq yemişlər və Mikayıl təxminən yüz qram araq içib. Hər ikisi tiyəsinin uzunluğu



downloaded from KitabYurdu.org

on iki santimetr olan çox iti bıçaqla vurulub. Vurulan zərbələr çox qüvvətli olub. Mikayıl arxadan, çiynindən bir az aşağı, ürək nahiyəsindən zərbə alıb və bıçağın tiyəsi axıra kimi bədəninə işləyib. Fəzayənin isə kürəyinə iki zərbə vurulub. Biri 11,
o biri isə 10 santimetr kürəyə işləməklə. Hər ikisi vurulan kimi keçinib.

Verilən rəydə bizi ən çox maraqlandıran o idi ki, orada hadisənin saat 22.00-23.00 radələrində baş verildiyi göstərilirdi.

- Deməli, axşam saat 10 ilə 11 arasında, eləmi? - Təhməzov həkimə baxdı. O, həmişə Aqşin Dadaşova inanırdı.

Paşanı pilləkənlərlə aşağı düşürəndə növbətçi otağının qabağında arvadı Qətibəni gördüm. Onun bir neçə dəfə kənd arvadları ilə
VII davalarını yatırmalı olmuşdum. İndi də səsini başına atmışdı:

- Yox ey, desinlər görək onun nə günahı var?

Paşanı tez növbətçiyə təhvil verib Qətibəni yuxarı, Seyidovun kabinetinə çıxartdım. Təhməzov bircə dəqiqənin içində onu sakitləşdirib soruşdu:

- Biz heç kəsi günahsız yerə həbs edən deyilik. Ancaq ərinizin günahsız olduğunu sübut etmək lazımdır. Deyin görüm, əriniz bu gecə harada olub? Əsas saat 10 ilə 11 arasında.

- Harada olacaq? Evdə! - Qətibə inamla cavab verdi.
- Nə vaxt yatıb?
- Saat heç on olmazdı, başını atıb yatdı.
- Üzr istəyirəm sizinlə bir otaqda yatdı?
- Hə! Bunun sizə nə dəxli var?
- Siz özünüz nə vaxt yatmısımz?
- On birin yarısında.
- Gecə bir şey eşidib, görməmisiz ki?
- Yox, heç nə eşitməmişik! - Qətibə əlini stolun üstünə qoyub Nadir müəllimə tərəf əyildi. - Bilirsiz qardaş, Allah o bədbəxtlərə rəhmət eləsin, onları qanma qəltan eləyənin də cəzasını versin. Bizim heç nədən xəbərimiz yoxdur. Nə bir şey eşitmişik, nə də görmüşük. Axtarın, öldürəni tapın!

downloaded from KitabYurdu.org

Təhməzov başını bulayıb gülümsündü.

- Yaxşı, siz gedin! Ərinizi sabah buraxanq. Qətibə çıxandan sonra hər üçümüz bir-birimizlə baxışdıq. Birinci Nadir müəllim dilləndi:

- Düzdür, Paşa qorxudan bizə yalan məlumatlar verdi, ancaq mən onun qatil olmağına inanmıram.

- Nə üçün? - deyə soruşdum. Mən Paşadan əl çəkməyin tərəfdarı deyildim.

- Birincisi ona görə ki, o siqaret çəkir. Qatil isə çəkən olmayıb...

- Nadir müəllim, siz bu siqaret məsələsini çox da əsas götürməyin. - Seyidov etirazını bildirdi. - Mikayıl gətirib qonaq üçün təzə külqabı qoyub süfrəyə. Məsələ burasındadır ki, o süfrədə yeməkdən qabaq
VII siqaret çəkən olmayıb. Mikayıl yeməyi tez qurtarıb və bir siqaret çəkib. Qonaq isə həmin vaxt onu vurmağa hazırlaşırmış və siqaret çəkmək heç ağlına da gəlməyib.

- Bir də ki, gərək Paşanın beş il həbsdə olmağını da unutmayaq, - deyə xatırlatdım.

- Nə üstündə yatıb ki? - Təhməzov maraqlandı.

- Toyda bir nəfəri bıçaqla yaralamışdı. - Mənim əvəzimə mayor Seyidov cavab verdi. - Paşanı buraxmaq olmaz, bu öz yerində. Ancaq biz gərək o Ağasəmədi də danışdıraq. Axı Mikayıl üçün gətirilən pulun qədərini Paşaya o deyib?

- Hər halda, - Təhməzov mübahisəni yekunlaşdırdı - indi bizim üçün ən şübhəli adam Kamildir. Əvvəlcə onu danışdırmaq lazımdır.

Mayor Seyidov daxili telefonla danışıb Kamili gətirməyi tapşırdı.

Kamili gətirdilər. Bu 38 yaşında, ortaboylu bir adam idi. Saçının yarıdan çoxu ağarmışdı. Üzünü bir neçə gün idi ki, qırxmırdı. Hiss olunurdu ki, əsəblərini güclə boğur. Onunla ilk tanışlığım yadıma düşdü.

Bir dəfə arvadını çox bərk döydüyü üçün iş mənə gəlib çıxmışdı. Barışıq yaradıb izahat aldım ki, bir daha belə şey olmayacaq. Bir həftə sonra kəndə gedəndə Kamil məni məcbur evinə dəvət etdi. Bir toyuq kəsib bişirtdirdi və süfrəyə bir araq da qoydu. Ancaq bununla belə,


downloaded from KitabYurdu.org

mən onda bir ürəyiaçıqlıq hiss etmədiyim üçün sonradan evinə getmədim. O, ümumiyyətlə, qapalı adam idi. Bir müddət kolxozda mühasib işləmişdi. Kolxoz dağılandan sonra isə işsiz idi. İş tapanda gedib Bakıda fəhləlik edirdi. Bəlkə də elə bu qəfil dəyişiklik idi onun saçlarını vaxtsız ağardan? Deyə bilməzdim. Ancaq hər halda o, həyatından razı qalan adama oxşamırdı.

- Özünü təqdim elə görək?! - Nadir Təhməzov istintaqa başladı.
- Həsənov Kamil Əlişah oğlu.
- Ailəlisən?
- Bəli, iki uşağım var. Oğlum on iki, qızım doqquz yaşındadır.
- Nə işlə məşğul olursan?
- İş olanda Bakıda fəhləlik edirəm. Olmayanda mal-qara ilə məşğul
VII oluram.
- Həyat yoldaşın nə işləyir?
- Heç nə. Evdar qadındır.
- Mikayılgillə münasibətin necə olub?
- Yaxşı. Böyük qardaşı Nəcməddin mənimlə sinif yoldaşı olub. Özümüz də axtarsanız, qohumuq.
- Necə qohumsunuz?
- Kənddə elə hamı bir-birinə qohumdur. Bizim də atalarımızın ana tərəfdən bir-birinə qohumluqları çatır.
- Deyirlər Nəcməddin axınncı dəfə gələndə çoxlu pul gətirib qardaşı üçün. Nə qədər olub həmin pul?
- Bilmirəm. Xəbərim yoxdur.
- Necə yəni xəbərim yoxdur? Bunu bütün kənd bilir ki!
- Mən doğrusu, camaat içinə o qədər də çıxmıram.
- Nə üçün?
- Bizdə bekar adamlar həmişə klubun qabağına yığışırlar. Çıxırsan, görürsən hər kəs ağzına gələn sözü danışır. Adamın qanı qaralır. Həm də mən bekar olmuram. Həmişə həyət- bacada iş tapılır.
- Dünən axşam harada olmusan? - Nadir müəllim stulunu bir qədər geri çəkib rahatladı.
- Bibim oğlugildə.

downloaded from KitabYurdu.org

- Kimdir o?

- Adı Rüstəmdir. İcra nümayəndəsinin müavini işləyir. Elə Mikayıl rəhmətliklə qonşudur. Aralarında bir ev var.

- Rüstəmgilə niyə getmişdin?

- Bizim uşaq pulu məsələsi bir az dolaşığa düşüb. Ailə tərkibi haqqında arayışı rayona verməmişik. Rüstəmə dedim ki, özü idarədə arayışı yazıb rayonda sosial təminat şöbəsinə versin. Sonra da başqa söhbətlərə başımız qarışdı. Gecə saat birə qədər orada oturdum.

- Bəs Rüstəmgilə gələndə saat neçə idi?

- On birin yarısı.

- Nəyə görə vaxtı belə dəqiq yadda saxlamısan?

- Rüstəmgilə girəndə gördüm yatmağa hazırlaşırlar. Dedim niyə
VII belə tez yatırsız? Bu sözlə əlaqədar divar saatına baxdıq. Ona görə yadımda qalıb.

- Bəs evdən nə vaxt çıxmısan?

- Evdən çıxanda yəqin ki, ıı-ə 20-25 dəqiqə işləyibmiş. Beş dəqiqəlik yoldur.

- Evinizdən çıxıb birbaş Rüstəmgilə getmisən?

- Bəli!

- Başqa yerə burulmamısan?

- Xeyr. Başqa yerdə işim yox idi.

- Yolda heç kəsə rast gəlmədin ki?

- Küçədə heç kəsə rast gəlmədim. Ancaq...

- Nə ancaq?

- Necə deyim?.. Hər xırda şeyi deyib ara qarışdırmağın nə mənası var? Məndə elə xasiyyət yoxdur.

- Qulaq asm, - Təhməzov əlindəki qələmlə stolu taqqıldatdı. -Heç nədən öz işinizi dolaşdırmayın. Nə görmüsünüzsə, düzünü deyin. Siz savadsız adam deyilsiz. İstintaqdan söz gizlətməyin nə olduğunu bilirsiniz.

Kamil tərəddüdlə danışmağa başladı:

- Namiqgilin evinə yaxınlaşanda gördüm ki, Namiq darvazadan çıxdı və o tərəfə getməyə başladı. Ancaq iki-üç addım atmışdı ki, geri


downloaded from KitabYurdu.org

boylanıb mənim gəldiyimi gördü və qayıdıb darvazanın ağzında durdu. Əlini cibinə atıb bir siqaret çıxartdı və çəkməyə başladı.

- Sonra?
- Heç nə. Mən getdim Rüstəmgilə.
- Namiq kimdir? - Təhməzov mənə baxdı.
- Meşəbəyi işləyir. - dedim. - Həsənalı kişinin oğludur. Bir ildi evlənib. Atasıgillə olur.

Baş müstəntiq yenə üzünü Kamilə çevirdi.

- Bəs Rüstəmgildən çıxanda kimə rast gəldin?
- Onda heç kimə rast gəlmədim.
- Bu ölüm hadisəsini kimdən eşitdin?
- Bu gün səhər qoyunları tövlədən çıxarırdım, örüşə qoşmaq üçün.

VII Bərk qışqırıq səsi eşitdim. Bir qadın ağlaya-ağlaya qışqırıb «Ay Mikayıl hey!» deyə çığırırdı. Səsindən tanıdım ki, Təranədir. Mikayılın bacısı. Sonra səs kəsildi.

Qoyunları küçəyə çıxaranda gördüm adamlar Mikayılgilın küçəsinə tərəf qaçırlar. Onda soruşub öyrəndim hadisəni.

- Kimdən?
- Oqtaydan. Təranənin ərindən. O öz həyət qapılarının yanında dayanmışdı. Bizimlə onların arasında üç ev var.
- Bəs o, Mikayılgilə tələsmirdi?
- Nə bilim... Təranə getmişdi. Səsi gəlmirdi. Ancaq Oqtay rəhmətlik qaynı ilə danışmırdı axı?..
- Nə üçün danışmırdılar?
- Doğrusu bilmirəm. İldən çoxdu danışmırdılar. Yəqin ki, xırda-para iş üstündə olar.
- Yaxşı, bəs sən özün nə üçün hadisə yerinə getmədin?
- Getdim. Qoyunları örüşə sürüb oraya getdim. Rüstəm heç kimi evə buraxmırdı. Təranə ilə bir-iki qadın həyətdə ağlayırdılar. Deyəsən Təranənin lap ürəyi getmişdi. Kişilər isə küçədə idilər. Bir az dayanıb evə qayıtdım. Təxminən yanm saat sonra siz məni çağırtdırdınız...

Təhməzov istintaqı qurtarıb mənə tərəf çevrildi.

- Bunu qaytarın, kameraya!

downloaded from KitabYurdu.org

- Axı mənim nə günahım var ki, məni burada saxlayırsınız? Kənddə də camaat deyəcək yəqin bu əclaf işi mən eləmişəm. Yaxşı deyil, axı?

- Darıxma! Lazım gələndə buraxacağıq. - Təhməzov başını mənalı tərzdə yellədi. - Üstündə siqaretin varsa birini ver çəkək!

- Məndə «Astra»dır. Filtirsiz... - Kamil əlini cibinə atıb siqaret qutusunu çıxartdı.

- Yox, lazım deyil! Ondan çəkə bilmirəm. Mayor Seyidov mənə tərəf baxıb gülümsədi.

Yəni Nadir müəllim bunu da siqaret imtahanından çıxartdı.

Mən Kamili növbətçiyə təhvil verib qayıtdım. Nadir Təhməzov siqaret çəkə-çəkə danışırdı:

VII - Bunun danışdıqlarını yoxlamaq lazımdır. Ona görə də sabah Rüstəmi, Rüstəmin arvadını və bir də Kamilin arvadını bura çağırın.

- Namiqi elə bu axşam bura gətirmək lazımdır. Onun hərəkətləri çox şübhəlidir. Qabaqkəsmə gəlib Kamil haqqında məlumat verən də odur. Belədə deyirlər ki, hiyləgər quş dimdiyindən tələyə düşür. - Seyidov fikrini bildirdi.

- Niyə tələsirsiniz, Təyyar müəllim? - Təhməzov gülümsədi. - Biz şübhəli adamların hamısını bir-bir süzgəcdən keçirəcəyik. Namiqi də, Ağasəmədi də mütləq danışdıracağıq. Ancaq əvvəl tutub burada saxladığımız adamlarla qurtarmaq lazımdır.

- Namiqlə mən məşğul olaram! - deyə söhbətə qarışdım.

- Yox! - mayor Seyidov etiraz etdi. - Namiq bu gün mütləq gətirilməlidir. Biz işi uzatmamalıyıq. Eybi yoxdur, siz dediyiniz adamlar sabah gələr.

- Nə deyirəm? - Təhməzov razılaşdı. - Gətirin! Mən sabah yenə bura gələcəm. Rəisə hesabat vermisiz?

- Hə! Kənddən gələn kimi yanma girmişdim. - Seyidov çənəsini ovuşdurdu - o da məni tələsdirir. Deyir nə eləyirsən elə, qatili tez tap. İndi yenə yanma gedəcəm.

Biz qalxdıq. Təyyar Seyidov elə o gün adam göndərib Namiqi gətizdirdi. Müvəqqəti saxlama kamerasına saldırıb gecə bir dəfə


downloaded from KitabYurdu.org

danışdırdı. Ancaq mən bu danışıqda iştirak etmək istəməyib evimə getmişdim. Necə olmasa, Namiqin mənə çox yaxşılığı dəymişdi. Həm də heç inana bilmirdim ki, o belə qorxulu işə cəsarət edə...

Səhəri gün işə gələndə növbətçi polis serjantı mənə dedi ki, axşam Qaradumanlıdan gətirilib kameraya salınmış Namiq adlı oğlan neçə dəfə yalvarıb ki, mənim burada olduğumu Mehmana bildirin. Əvvəl istədim fikir verməyim. Ancaq sonra dözməyib onu qonşu otağa gətizdirdim.

- Mehman müəllim, - Namiq məni görən kimi kövrəldi. - Sənin başına dönüm, məni buradan çıxartdır. Mənim heç bir təqsirim yoxdur. Bunlar, ancaq, mənə inanmaq istəmirlər Deyirlər ki, guya Mikayılgili mən öldürmüşəm.

VII - Səni incidiblər, deyəsən? - Onun vəziyyətinin yaxşı olmadığını görüb soruşdum.

- Belə şeylər mənim heç xoşuma gəlmirdi.

- İncidiblər də sözdü? Sənin başına dönüm, Mehman müəllim, qoyma bu gecə də burada qalım. Mən o gecə küçəyə siqaret çəkməyə çıxmışdım. Siqaretimi çəkib evə girmişəm. Sonra hamama gedib yuyunmuşam. Hamamdan sonra da bir az çay içib yatmışam...

- Bəs bunları demədin mayor Seyidova? - onun sözünü kəsib soruşdum.

- Dedim, ancaq inanmadı, yenə məni kameraya göndərdi. Orada da bir seıjant...

- Bilirsən, Namiq, - iş yoldaşlarımı müdafiə etməyə məcbur oldum. - Sən incimə, nə də bu iş sənə zarafat gəlməsin. Bu ölüm işidir. Günahsızlığın sübut olunan kimi səni buraxacaqlar. Hər halda mən də Təyyar müəllimdən xahiş edəcəm. Amma yenə deyirəm. Bu ciddi işdir. Prokuror da, rəisimiz də gündə iki- üç dəfə bu işlə dərindən maraqlanırlar. Eyni zamanda bizi danlayırlar ki, bir kəndin içində qatili tapa bilməmişik.

- Axı mənim günahım nədir? - Namiq əsəbi soruşdu.

- Səbirli ol, Təyyar müəllimlə danışaram.

Namiqi yenə kameraya apardılar. Üçüncü mərtəbəyə çıxdım. Dünən

downloaded from KitabYurdu.org

çağırılanlar gəlmişdilər. Rüstəmlə salamlaşıb Seyidovun kabinetinə girdim. Nadir müəllim də artıq burada idi. Birinci Rüstəmi otağa dəvət etdik.

Rüstəm otuz yaşlarında mədəni bir gənc idi. İxtisasca tarix müəllimi idi. Kənd icra nümayəndəsinin müavini işləyir, eyni zamanda məktəbdə də dərs aparırdı. Otaqdakılarla hörmətlə görüşüb Təhməzovun göstərdiyi stulda əyləşdi. Təhməzov söhbətə məzəmmətlə başladı:

- Yaxşı işləmirsiz, Rüstəm müəllim. Öz kəndinizdə, özü də qonşuluğunuzda görün necə hadisə baş verir!

- Kimin ağlına gələr ki, belə iş ola bilər? - Rüstəm peşman halda çiynini çəkdi.

VII - Sentyabrın 14-də, axşam sizdə kim olub? - baş müstəntiq qəfil soruşdu.

- Kamil, dayıoğlumdur.

- Nəyə görə gəlmişdi?

- Elə-belə söhbət etməyə. Həm də uşaq pulu məsələsim düzəltməyimi xahiş edirdi.

- Saat neçədə gəldi sizə?

- On birin yarısında. Daha dəqiq desəm on birə 27 dəqiqə işləmiş.

- Necə olub ki, saat belə dəqiq yadında qalıb?

- On birə təxminən on dəqiqə işləyirdi. Oğlum yatmışdı. Beş yaşı var. Tez yatızdırırıq. Öz yerimizi də rahatladıq. Bu vaxt televizorda konsert başladı. Üç mahnıya qulaq asmışdıq, gördük bayırda yağış yağır. Tez həyətə düşdük ki, həyətdə yuyulub sərilmiş paltarları yığışdıraq...

- Deməli, yağış nə vaxt başladı yağmağa? - Seyidov onun sözünü kəsdi.

- Dəqiq deyə bilərəm ki, ıı-ə 25 dəqiqə işləmiş. Özü də getdikcə möhkəmlənib düz saat 12-yə kimi yağdı. Tələsik paltarlan yığıb evə çıxan kimi Kamil evin qapısını döydü. Bizim həyət qapısı, sadəcə, məftillə bağlanır. Kim gəlsə, özü açıb girir həyətə. Hə, Kamil içəri girən kimi çarpayıda yerimizin açıldığını görüb: «Saat hələ on


downloaded from KitabYurdu.org

olmayıb, nə tez yatırsız?» - dedi. Mən divar saatına baxıb gördüm ki, 11-ə 27 dəqiqə işləyib, dedim, nə danışırsan, 11-in yarısıdır, həm də yatmayıb neyləyəcəyik, iş yox-güc yox!

- Sonra? - Təhməzov sual verdi.

- Sonra Əminə yemək hazırladı. Oturub gecəyə kimi söhbət etdik. Duranda dedi ki, daha saat ikiyə işləyir, mən gedim. Doğrudan da artıq
2-yə 5 dəqiqə işləmişdi. Kamili yola saldım, çıxıb getdi.

- O sizə gələndə onun heç bir hərəkətindən şübhələnmədin ki?

- Yox, heç nədən şübhələnmədim.

- İçki içdiyi hiss olunurdu?

- Yox, ancaq bizdə içdi. Adama yüz qram içdik.

VII - Yemək yedi?

- Bəli, kartof qızartmışdıq.

- Yaxşı, Rüstəm müəllim, Oqtayla Mikayılın münasibəti necə olub? - Təhməzov söhbəti dəyişdi.

- Danışmırdılar. Oqtay bir az ciddi adamdır. Həm də hər şeydən küsəndir. Bir dəfə Mikayıldan borc pul istəyib. Onda da ya olmayıb, ya olub verməyib bilmirəm, bunun üstündə küsmüşdülər. Oqtay deyirdi ki, mənə borcu yadlar verdisə, deməli, belə qohumdan yad yaxşıdır. Ancaq, Allah rəhmət eləsin, Mikayıl həqiqətən pis oğlan deyildi. Elə o arvadı da. Canlara dəyən adam idilər. Mikayıl qonşuluqda da yaxşı idi, hər işə yarıyırdı. Bacısı Təranə də tibb bacısıdır. Çox mehriban, şirindil qadındır. Onu da deyim ki, o həmin gecə hadisədən əvvəl qardaşıgildə imiş.

- Hansı qardaşıgildə? - Seyidov cəld soruşdu.

- Mikayılgildə...

- Bunu haradan bildiniz?

- Dünən axşamüstü klubun qabağında beş- altı kişi yığılmışdı. Qoyunun-malm örüşdən gəlməyini gözləyirdilər. Söhbət bu hadisədən düşmüşdü. Danışırdıq ki, görəsən yazıqları nə vaxt öldürüblər? Oqtay dedi ki, hər halda axşam saat ıı-dən sonra olub hadisə. Çünki ıı-ə kimi Təranə qardaşıgildə olub.

downloaded from KitabYurdu.org

- Hə... Deməli belə... - baş müstəntiq bir siqaret götürüb səbirlə yandırdı. - Ümumiyyətlə, bu işə necə baxırsan, Rüstəm müəllim?

- Necə deyim?.. Mənim bu hadisə haqqında şəxsi mülahizəm yoxdur. Çox qaranlıq məsələdir.

- Kamil haqqında nə deyə bilərsən?

- Kamil ağıllı adamdır. Dayımoğlu olduğuna görə demirəm, o belə iş tutmaz!

- Bəs Paşa?

- Onun da qatil olmağına inanmağım gəlmir. Düzdür, araları sərin idi. Özü də vaxtilə adam bıçaqlayıb. Ancaq... nə bilim, heç kəsi tanımaq olmur.

Nadir Təhməzov daha bir söz deməyib Rüstəmdən yazdığım
VII protokola imza etməyi xahiş etdi. Rüstəm çıxandan sonra arvadını içəri dəvət etdik. Əminə də ərinin dediklərini olduğu kimi təkrar etdi. Sonra Kamilin arvadı Fəridəni danışdırdıq. Hiss olunurdu ki, Təhməzov tələsir və Fəridəyə verdiyi suallara o qədər əhəmiyyət vermir. Elə bizi də əslində Təranə daha çox maraqlandırırdı. Fəridə qarabəniz, anq bir qadın idi. Əynindəki paltarlar bahalı, eyni zamanda çox köhnə idi. Boynunu burub suallara sakit-sakit cavab verirdi. Bir neçə əhəmiyyətsiz sualdan sonra Təhməzov əsas məsələyə keçdi:

- Sentyabrın 14-də, ər-arvad Səlimovlar öldürülən gecə əriniz evdən nə vaxt çıxıb və hara gedib?

- Evdən çıxanda 11-in yarısı olardı. Dedi ki, Rüstəmgilə gedirəm. Uşaq pulu üçün arayış tapşırmağa. O gedəndən sonra yemək hazırlayıb uşaqları yedizdirdim. Sonra uşaqlar yatdı. Mən də qablan yuyub yatdım. Kamil gələndə qapının səsinə ayıldım. Vaxtı bilmirəm, ancaq gecədən çox keçmişdi... Hə, yadıma düşdü. Saat ikiyə işləmişdi. Çünki Kamil gələndə saata baxıb dedi ki, gör Rüstəmlə söhbətə başımız necə qarışıb,
evdən çıxanda on birin yarısı idi, indi 2-yə işləyib.

Fəridənin dediklərini olduğu kimi yazıb qol çəkdirdim və onu da buraxdıq. Fəridə çıxandan sonra otaqda bir qədər sükut yarandı. Nəhayət, Nadir müəllim bu sükutu pozub asta-asta danışmağa başladı:


downloaded from KitabYurdu.org

- Kamil ıı-ə 20 dəqiqə işləmiş çıxıb və 11-ə 27 dəqiqə işləmiş Rüstəmgildə olub. Mikayılın bacısı Mikayılgildən saat 11-də, Kamil isə Rüstəmgildən təxminən saat ı-də çıxıb. Aqşinin rəyinə görə hadisə təxminən saat 10-11 radələrində baş verib. Bütün bunlardan nə çıxır? - bir qədər susub özü öz sualına cavab verdi: - Əlbəttə o nəticə çıxır ki, birincisi, Kamil tamamilə

günahsızdır, ikincisi Mikayıl və arvadı ya Təranə orada olanda öldürülüb, ya da o evdən çıxandan sonra. Ancaq biz saat ıı-dən çox da o yana uzaqlaşmamalıyıq. Mən Aqşinə inanıram.

- Mən isə daha Aqşinin rəyinə o qədər də inanmıram, - mayor Seyidov etiraz etdi. - Sizinlə o barədə şərikəm ki, Kamil günahsızdı. Amma Təranə qardaşıgildən saat ıı-də çıxıbsa, deməli hadisə saat ıı-dən sonra olub. Yoxsa siz deyəcəksiz ki, onları elə Təranə öldürüb?

VII

- Gəlin vaxtından əvvəl mübahisə etməyək. - Təhməzov səbirlə dilləndi. - Mən hələ heç nəyi qəti demirəm. Biz gərək Təranəni danışdıraq. Axı o, heç olmasa, mərhumları axırıncı dəfə görən adam olub?! Əlbəttə, qatili çıxmaq şərti ilə. İndi isə birinci növbədə Kamili buraxmaq lazımdır.

- Bəs Namiqlə Paşanı necə? - deyə mən soruşdum.

- Elə onlan da hələlik buraxmaq lazımdır. Nəzarətdə saxlamaq şərtilə. Kənddə yersiz yerə qalmaqal yaratmayaq. Hər şeyi son dərəcə incəliklə və səbirlə araşdırmaq lazımdır.

- Onlann buraxılmağına mən razı deyiləm. - Seyidov başını yellədi. - Düzdür, Paşanı heç olmasa arvadı müdafiə edir ki, o həmin vaxtda evdə yatıb, Namiqin isə harada olduğunu hələ araşdırmamışıq.

- Onunla mən məşğul olaram. - dedim. - Xahiş edirəm, onu da buraxaq. Mənə elə gəlir ki,

tutduğumuz adamların heç biri günahkar deyil. Qatil kimdirsə, kənarda sərbəst gəzir.

- Nə deyirəm? - Seyidov razılaşdı. - Ancaq rəisə də demək lazımdır.

... Polkovnik Əlizadə verdiyimiz izahatları dinləyib bizimlə razılaşdı. Bildirdi ki, birinci növbədə Təranəni danışdırmaq lazımdır.

downloaded from KitabYurdu.org

Daha sonra qeyd etdi ki, Təranənin ərini də nəzərdən qaçırmaq olmaz. Sözünün sonunda üzünü mayor Seyidova tutub dedi:

- Qulaq as, Təyyar, mən işi sənə tapşırmışam. Buna görə sənə hər cür səlahiyyət də verirəm. Ancaq uzağı bir həftəyə qatili tapmasan gözümə görünmə!

- Arxayın ol, rəis! - Seyidov qaşqabaqlı halda cavab verdi.

Həmin gün Kamil, Paşa və Namiq evə buraxıldılar.

Əvvəl fikirləşdik ki, Təranə ilə əri Oqtayı bu gün, ya sabah şöbəyə gətizdirək. Ancaq səhəri gün mərhumların üç mərasimi idi və Təranə də bu mərasimdə iştirak etməliydi. Ona görə də qərara gəldik ki, sabah özümüz kəndə gedək. Hər halda, el adətlərinə hörmət etmək lazım idi. Qardaşını faciəli surətdə itirən Təranəni bu ərəfədə şöbəyə
VII çağırmaq heç də yaxşı iş olmazdı.

Təranəni bir neçə dəfə görmüşdüm. Gülərüz, mehriban, həm də gözəl bir qadın idi. Qızlıq təravətini hələ də özündə saxlayırdı. Elə əri Oqtay da mənim zənnimcə, pis adam deyildi. Qaradumanlıda işlədiyim müddətdə onun haqqında xoşagəlməz bir şey eşitməmişdim. Boylu-buxunlu, qarayanız, ciddi bir kişi idi. Qara bığları sifətinə özünəməxsus yaraşıq verirdi. Özləri də mehriban yaşayırdılar. İki uşaqları var idi. Biri altı, biri dörd yaşında. Hər ikisi də qəşəng oğlan uşaqları idi.

Yeri gəlmişkən, Oqtayla Təranənin necə qovuşmaqlarından bəhs edən hekayəti sizə çatdırsam, zənnimcə pis olmaz. Bunu mənə bir dəfə evlərində oturub çay içəndə Rüstəm danışmışdı.

Oqtay İnşaat Mühəndisləri İnstitutuna təzəcə daxil olmuşdu. Sevinci yerə-göyə sığmırdı. Əsgərlikdən gələndən iki il dalbadal imtahan verib kəsiləndən sonra axır ki, arzusuna çatmışdı. İndi Qaradumanlıda görərlər ki, naxırçı Carullanın oğlu da instituta girə bilər. Ancaq ən əsası bu deyildi. Ən əsası o idi ki, əsgərlikdən gələn gündən sevdiyi Təranəni tez-tez görəcəkdi. Axı Təranə bir il idi ki, Bakıda tibb texnikumunda oxuyurdu.

Oqtay özündən altı yaş kiçik olan Təranəni görüb sevəndə Təranə hələ 9-cu sinfi bitirməmişdi. O bu qəşəng, evin son beşiyi


downloaded from KitabYurdu.org

olduğu üçün həddən artıq şıltaq və ərköyün olan bu qızı həqiqətən dəlicəsinə sevirdi. Ancaq Təranənin yaşı hələ az olduğu üçün cəsarət edib ürəyini ona açmamışdı.

Eşitmişdi ki, Təranə dərslərini yaxşı oxuyur. On birinci sinfi bitirən kimi Bakıya oxumağa gedəcək. Ona görə də gecəni-gündüzə qatıb instituta hazırlaşmağa başladı. Yoxsa, bilirdi ki, Eybalı kişi Carullanın oğluna qız verən deyil. Nə yaxşı ki, üç ilin yuxusuz gecələrindən sonra zəhməti hədər getmədi. Daha yəqin ki, Tibb texnikumunda oxuyan Təranə gələcəyin mühəndisinə yox deməyəcəkdi.

Ancaq elə ilk görüşdə Oqtaym qanı qaraldı. Texnikumun qarşısında bir saatdan artıq gözləyəndən sonra Təranə məktəbdən anq, üz gözündən sırtıqlıq yağan bir oğlanla qoşa çıxdı. «Bu kimdi

VII görəsən? Gör bir nə sərbəst davranırlar? Yəqin qrup yoldaşıdır...» Çox düşünmədən onlann qabağına çıxdı. Özü də hiss etdi ki, həyəcandan qıçları yarpaq kimi əsir. Dili də yaxşı söz tutmurdu.

- Salam, Təranə! Xoş gördük! Necəsən?

Təranə diksinib təəccüblə salamını aldı.

- Salam...

Qızın əynindəki donun quruluşu onu heç açmadı, sinəsi də, çılpaq ətli budları da bayırda qalmışdı.

- Burada oxuyursan? - özü də bildi ki, sualı yersizdi.

- Hə... kənddən gəlmisən? Bizimkilər necədirlər? - Təranə də deyəsən özünü itirmişdi. Bəlkə də yanındakı oğlana görə.

- Lap yaxşıdırlar. Mən də burada oxuyuram, axı. İnşaat mühəndisləri İnstitutunda.

- Hə... lap yaxşı...

Təranə həmkəndlisi olsa da ömründə yaxınlıq etmədiyi Oqtayla danışmağa çətinlik çəkirdi və söhbətin tez qurtarmasını arzu edirdi.

- Yaxşı, get! - deyəsən Oqtay da bunu hiss etmişdi. - Bir çətinliyin olsa, mən də buradayam, çəkinmə, de.

- Sağ ol!

Onlar uzaqlaşdılar. Qısqanclıq alovu indi Oqtayı daha şiddətlə qarşımağa başlamışdı.

...

downloaded from KitabYurdu.org

- Yox, mən buna dözə bilmərəm! Təranə ancaq və ancaq mənim olmalıdır!

O biri gün səhər yenə tibb məktəbinin qarşısında dayanıb Təranəni gözlədi. Yaxşı ki, Təranə məktəbə tək gəldi. Oqtay bütün cəsarətini toplayıb onun qabağını kəsdi.

- Sabahın xeyir!
- Sabahın xeyir. Nə əcəb?
- Heç, sənə sözüm var...
- Nə söz?
- Dünənki oğlan kim idi?
- Necə yəni kim idi?
- Deyirəm, yəni sənin nəyindi o oğlan?

VII - Axı sənə nə dəxli var? - Təranə hirslə başını geri atdı. Alnına tökülən hamar telləri yellənib yenə öz yerinə qayıtdı.

- Dəxli var da?! Sən bura oxumağa gəlmisən. Bu nə paltardı? Kənddən gəldiyin bir ildi... Olmaz axı?!

- Sən kimsən e?! - Təranə getmək istədi.

Oqtay yenə onun qabağını kəsdi.

- Birinci, mən sənin kəndçinəm. İkinci də elə eləmə ki, Mikayıla, ya Tofiqə xəbər verim.

Təranə bir az özünü yığışdırdı. Xüsusilə Tofiqdən yaman qorxurdu. Tofiq bir az dəlisov idi. Ancaq Mikayıl Təranənin xətrini yaman istəyirdi.

- Mən neyləyirəm ki? Məktəb yoldaşımdı da...
- Bir qrupdasız?
- Yox, bir kurs yuxanda oxuyur, nə olub ki?
- Bax, səni bir də onunla görməyim!
- Əl çək məndən! -Təranə sürətlə ondan aralanıb məktəbə girdi.

Ancaq Oqtay əl çəkmədi. İki gün sonra həmin oğlanı təklikdə tutub ona qəti sözünü dedi:

- Təranəyə bir də yaxınlaşsan, məndən incimə!
- Sən onun nəyisən ki? - oğlan bacardığı qədər sakit soruşmağa



downloaded from KitabYurdu.org

çalışsa da qorxduğu o saat hiss olunurdu.

- Qohumuyam. Bax, elə eləmə ki, səninlə başqa cür danışım.

Oğlan dinmədi. Hətta Oqtay ondan xeyli aralanandan sonra da heykəl kimi dayanıb onun arxasınca baxırdı.

Oqtay bir həftə hər gün axınncı dərsdən qaçıb özünü göstərmədən Təranəgilin məktəbinin qabağında dayandı. Ancaq daha bir dəfə də Təranəni həmin oğlanla görmədi. Deyəsən, oğlan Təranədən ötrü başını ağrıtmaq istəməmişdi.

Axır bir gün dərsdən çıxan Təranəni bir qədər yaxınlıqdakı parkda oturmağa razı sala bildi. Skamyaların birində oturub söhbətə haradan başlamağı fikirləşirdi ki, Təranə özü dilləndi:

- Yusifə nəsə demisən?

VII - Yusif kimdi? - Oqtay təəccübləndi.

- O mənimlə gördüyün oğlanı deyirəm.

- Hə! - cəsarətlə dilləndi, - dedim ki, bir də sənə yaxınlaşmasın.

- Niyə?

- Ona görə ki... - Oqtay düşündü ki, indi bu saat deməsəm, sonra çətin olacaq. - mən səni sevirəm. Həmin o Yusifdən min qat artıq sevirəm. Üç ildir ki, mənim gecəm-gündüzüm yoxdur. Üç ildir ki, həyatımı sənə həsr etmişəm.

- Başını aşağı dikib qızın üzünə baxmadan ürəyindəkiləri açıb tökürdü. - İnan Təranə. Bu üç ildə elə bir dəqiqə olmayıb ki, səni fikirləşməyim. Mənim nəzərimdə bütün dünyada səndən gözəl qız yoxdur...

Təranənin bədəni uçunurdu. Söz yox ki, belə sözləri eşitmək ona xoş idi. Çətin də olsa nəsə demək xatirinə dilləndi:

- Bəyəm bütün dünyanın qızlarını görmüsən?

- Yox, görməmişəm. Ancaq heç inana bilmərəm ki, hardasa, hansı ölkədəsə səndən gözəl qız tapılsın.

Təranə dinmədi. Oqtay birdən fikirləşdi ki, bax elə buradaca söhbəti dəyişmək bəlkə daha çox xeyir verə bilər. Həm də o elə qorxurdu ki, birdən Təranədən konkret cavab istəsə ondan «yox» cavabı eşidər. Bu isə onun üçün ölümdən pis ola bilərdi. Bir qədər



downloaded from KitabYurdu.org

susandan sonra: -
Dərsləriniz çətindi? - deyə gözlənilmədən soruşdu.
- Elə də yox... - Təranə sakit cavab verdi.
- Harada qalırsan? Yataqxanada?
- Yox. Xalamgildə.
- Dur gedək. Sonra xalan narahat olar.
Qızı xalasıgilə qədər ötürdü. Yataqxanaya
qayıdanda Oqtay artıq dünyaya başqa nəzərlərlə baxırdı. Sən demə bu dünyada yaşamaq nə gözəl şey imiş, ilahi!

Sən demə var-dövlət, hakimiyyət, hətta cansağlığı da ikinci dərəcəli əhəmiyyətsiz şeylər imiş insan üçün. Bu məhəbbət nə sirli qüvvə imiş ki, birdən birə insanın gözündə hər şeyin mahiyyətini dəyişməyə qadirdir?!

VII

O gündən tez-tez görüşməyə başladılar. Aralarında intim münasibətlər başlanandan sonra isə Oqtay Təranəsiz bir yerdə qərar tuta bilmirdi. Təranə özü də Oqtaysız qalan kimi darıxır, daha çox bir yerdə olmağı təklif edirdi.

Nəhayət, yay tətilində kənddə olanda nişanlandılar. Deyəsən Təranənin anası Dürdanə arvadın onların Bakıdakı macəralarından azacıq da olsa xəbəri var idi. Bacısı demişdi. Odur ki, Dürdanə ərini tezliklə razı saldı və qızın xeyir- duasını verdilər.

Artıq Oqtay ikinci, Təranə isə üçüncü kursa keçmişdilər. Təranə Oqtayla görüşəndə bildirdi ki, onlan Kürdəmirə pambıq yığımına aparacaqlar. Bəlkə də bir aylığa. Oqtay tamam məyus oldu. Ona elə gəldi ki, bir ay, bir ay kimi yox, on il kimi keçəcək. Onsuz da yay tətilində çəkdiyini çəkmişdi. Atasından və qardaşından çəkinən Təranə kənddə tez-tez görüşməyə razı olmamışdı. İndi də belə. Özü də kənd başqa, kənar yer başqa. Onda Oqtay qismən arxayın idi ki, Təranə öz evlərindədir. İndi isə yoldaşları ilə çölün düzünə gedirlər. Allah bilir kimlər olacaq orada. Yazıq Oqtay qısqanclıqdan az qalırdı ki, dəli olsun. Ancaq bu yandan da özü dərsi atıb Təranə ilə gedə bilməzdi. Onsuz da qayıbları çox idi. Keçən il belə qayıblann üstündə ona töhmət də vermişdilər.

...

downloaded from KitabYurdu.org

- Əşi, cəhənnəmə ki! heç nə olmaz, gedəcəm onlarla!

Oqtay qəti qərarını Təranəyə də bildirdi. Təranə sevindi.

- Nə olar? Uşaqlarımızın çoxu bilir ki, nişanlımsan.

Oqtay Təranəgillə Kürdəmirə yola düşdü. Bir aya yaxın orada Təranə ilə oldu. Nə havanın istisi, nə də ağcaqanadların həyasızlığı gözünə görünmürdü. Dünyada hər şeyi unutmuşdu.

Qayıdanda isə bütün çəkdiyi ləzzət gözündən gəldi. İnstitutdan qovulmağı haqqında əmr yazılıb divara vurulmuşdu. Dekana, komsomol katibinə nə qədər yalvardısa da bir şey çıxmadı. - Bizlik deyil, rektora de! - deyib başdan elədilər. Bakıda bir ağızlı adamı da yox idi ki, ona həyan olsun. Beləliklə əzab-əziyyətlə qazandığı tələbə adından məhrum oldu. Bunu eşidəndə Təranə də çox təəssüfləndi.

VII - Bəs indi nə edəcəksən? - deyə soruşdu.

- Burada iş tapıb işləyəcəm. Sən məktəbi qurtarana kimi. Sonra kəndə gedərik.

Təranə könülsüz dilləndi:

- Nə deyirəm?..

Zavodda iş tapan Oqtay Təranə ilə indi ancaq axşamlar görüşə bilirdi. O bu görüşləri elə səbirsizliklə gözləyirdi ki, iş günü onun üçün əsl cəhənnəm əzabına çevrilirdi.

Axır ki, Təranə məktəbi bitirdi və Oqtay da işdən çıxıb kəndə qayıtdı. Toy edib evləndilər. Oqtay rayonun yol idarəsində traktorçu kimi işə düzəldi. Hələ əsgərlikdə olanda oxuyub traktorçuluq vəsiqəsi almışdı. Əvvəl heç Təranənin həkim məntəqəsində işləməsinə razı deyildi.

- Düzdür, mən məktəbi qurtara bilmədim. Ancaq daşdan da olsa, pul çıxarıb sənin bütün arzularını yerinə yetirəcəm. Sən işləməsən də olar. Niyə görə yad kişilərə iynə vurasan. Nə bilim qan təzyiqin ölçəsən?

- Yenə qısqanırsan? - Təranə gülüb soruşmuşdu.

- Sən mənim üçün elə müqəddəs, elə qiymətli varlıqsan ki, vallah əlinin kiməsə toxunmağına razı ola bilmirəm. Bundan ötrü məni qınama!

...

downloaded from KitabYurdu.org

- Deyirsən ki, arzulanmı yerinə yetirəcəksən. Elə mənim arzum işləməkdi də. Məsələ təkcə pulda deyil axı. Əziyyət çəkmişəm, oxumuşam! - axırda isə zarafata keçmişdi. - O ki qaldı əlimin kiməsə toxunmağına, söz verirəm, ancaq əlcəklə işləyəcəm.

Oqtay daha bir söz deməyib razılaşmışdı. İlk gündən mehriban yaşamağa başladılar. İki oğlanlan da oldu. İndi evi dolandırmaq Oqtayın başını qatsa da hərdən vaxt tapıb axşamlar Təranə ilə Bakıda keçirdikləri günlərdən söhbət edir və bəzən and içir ki, artıq böyük oğlanlarının altı yaşı olmasına baxmayaraq indi də Təranə ilə qovuşmağına inana bilmir.

Ertəsi gün müstəntiq Təhməzov, mayor Seyidov və mən Qaradumanlıya yollandıq. Əvvəlcə qətl hadisəsi törədilən evə bir daha
VII baş çəkib, nə isə yeni bir şey tapmaq istədiksə də, heç nə alınmadı. Döşəməsindəki qurumuş qan gölməçələri hələ də təmizlənməmiş bu ev öz sirrini bizə açmaq istəmirdi. Sentyabrın 14-ü gecəsində, yağışlı zülmətə bürünmüş həmin gecədə bu evdə dəhşətli bir hadisə baş vermişdi. Ancaq bu hadisənin kim tərəfindən törədildiyi hələ də bizə məlum deyildi. O gecə bu evə qara niyyətlə təşrif gətirən arzuolunmaz qonaq kim idi? Mikayılın hörmətlə qarşıladığı, Fəzayənin qarşısına süfrə açdığı, sonda isə yaxşılığa əks münasibət göstərib iki xoşbəxt gənci - ata-ana olmaq arzusunda olan və övlad gözləyən iki insanı qanına qəltan edən nanəcib əclaf kim idi görəsən?

Ehsan Tofiqgildə verilirdi. Seyidovun təklifi ilə biz də mərasimdə iştirak etdik. Gənc molla yasin surəsini oxuyanda diqqətlə yasxanada əyləşən adamların üzlərinə göz gəzdirməyə başladım. Kamillə Paşa da yasxanada idilər. Kamil Rüstəmlə yanaşı oturmuşdu. Oqtay yasxananın girəcəyində ayaq üstə dayanmışdı. Ancaq nədənsə Namiq gözümə dəymədi. Fikirləşdim ki, görəsən axtardığımız naməlum qatil də yasxanada oturmuş adamlann arasındadırmı? Axı yəqin ki, həmin adam da şübhə yaratmamaq üçün başqaları kimi bu mərasimdə iştirak etməlidir?! Ancaq o kimdir?! Bir də fikirləşdim ki, gərək biz dəfn mərasimində də iştirak edəydik. Belə deyirlər ki, qatil öz öldürdüyü adamın meyitinə baxanda meyitin yarasından qan sızır. Bəlkə

downloaded from KitabYurdu.org

beləliklə tapmaq olardı həmin adamı. Ancaq yox! Bu axmaq fikirlər haradan ağlıma gəldi, özüm də bilmirəm. Biz qatili hökmən tapmalıydıq. Özü də başqa yolla yox, ancaq ağlın və məntiqin köməyi ilə.

Molla yasini oxuyub qurtaran kimi süfrəyə yemək gətirildi. Yemək yığışdırılandan sonra mərhumların ruhuna dua oxuyub ayağa qalxdıq. İcra nümayəndəliyinin idarəsi qonşu kənddə olduğu üçün məktəbə gedib bir qədər məktəbin qocaman direktoru Mirağa müəllimlə söhbət etdik və sonra Təranəni məktəbə çağırtdırdıq.

Oqtay da Təranə ilə birlikdə gəldi. Təranəni direktorun kabinetində tək dindirmək istəyəndə Oqtay əvvəl razı olmadı. Mayor Seyidov ona acıqlanıb bayırda gözləməyi tapşırandan sonra əsəbi halda çıxıb
VII dəhlizdə gözlədi. Təhməzov əyninə qara rəngli don geyinmiş, gözlərindən kədər yağan Təranəni diqqətlə süzüb əyləşmək üçün stul göstərdi.

- Əyləşin, adınız, familiyanız nədir?
- Nəzərova Təranə Eybalı qızı.
- Neçə yaşınız var?
- İyirmi səkkiz.
- Nə işləyirsiz?
- Həkim məntəqəsində tibb bacısı.
- Neçə işçi var məntəqənizdə?
- Dörd. Vaqif baş həkimdir. Gülçöhrə ilə mən tibb bacısı. Bir də Sərfinaz xala xadimədir. Oqtayın xalası.
- Baş həkiminiz də bu kənddəndir?
- Xeyr, Vaqif rayon mərkəzindəndir. Altı aydır gəlib.
- Yəqin ki, savadlı həkim kəndə gəlməz.
- Xeyr. Çox savadlı həkimdir. Həm də yaxşı adamdır.
- Bu hadisə baş verən axşam siz qardaşımzgildə olmusunuz? - Təhməzov əsas məsələyə keçdi.
- Bəli...
- Nə vaxt? Çalışın, dəqiq deyin!
- Axşam saat 9-dan 11-ə 5 dəqiqə qalmışa kimi... Mən evdən



downloaded from KitabYurdu.org

çıxanda Oqtaydan icazə aldım, dedim ki, Mikayılgilə getmək istəyirəm. O da saata baxdı. Doqquza qalmışdı. Təxminən beş altı dəqiqə. Dedi get, ancaq 11-də evdə ol. Mən də on birə beş dəqiqə qalmış qardaşım gildən çıxıb evə qayıtdım.

- Nəyə görə getmişdiz onlara?

- Qardaşım evidi də... - Təranə ah çəkdi. - Hərdən baş çəkməyə, söhbət etməyə gedirdim.

- Bəs niyə gecə?

- Gündüz vaxt olmur. Ona görə də bizdə hamı bir-biri ilə söhbət etməyə axşamlar gedir.

- Onlara gedəndə həmişə tək gedirsiz, yoxsa Oqtayla?

- Tək. Oqtay rəhmətlik qardaşımla küsülü idi.

VII - Nəyə görə?

- Pul istəmişdi. O da yəqin ki, olmadığına görə verməmişdi.

- Nəcməddin axırıncı dəfə gələndə sizə pul verdi?

- Xeyr. Uşaqlar üçün paltar almışdı.

- Bəs Mikayılgilə nə qədər pul vermişdi?

- Bilmirəm.

- Siz Mikayılgildə olanda orada başqa adam var idi?

- Xeyr, yox idi.

- Nə ilə məşğul idiniz orada?

- Elə söhbət etdik...

- Nədən?

- Hər şeydən. Uşaqlardan, məntəqədən, məktəbdən...

- Sonra?

- Sonra... televizora baxdıq.

- Hansı verilişə?

- Selcanın konsertinə baxdıq. On birə beş dəqiqə qalmış konsert qurtardı, mən də durdum.

- Ondan əvvəl nəyə baxdınız?

- Ondan əvvəl nəsə veriliş var idi. Ancaq biz söhbət edirdik onda.

- Xörək yediniz?

- Xeyr. Bilmirəm, bəlkə məndən əvvəl yemişdilər? Ancaq biz çay

...

downloaded from KitabYurdu.org

içdik.

- Deməli saat on birə kimi onlar sağ-salamat olub, eləmi?

- Bəli...

- Axı ekspertin rəyinə görə onlan saat 10-11 arasında öldürüblər. Bu necə olur? - Təhməzov əlini havada yellədi.

- Bilmirəm... - Təranə ağlamağa başladı. Elə ürəklə və yanıqlı ağlayırdı ki, mənim ona həqiqətən yazığım gəldi.

- Yaxşı, ağlama! - mayor Seyidov söhbətə qarışdı. - Sən qardaşın gildən çıxanda yolda heç bir adama rast gəlmədin ki?

Təranə yaylığı ilə gözlərinin yaşını silib, başını qaldırdı. Bir qədər dayanıb özünü ələ aldı və danışmağa başladı:

- Həmin gecə mən qardaşımgildən çıxanda hər yan zülmət qaranlıq
VII idi. Bərk yağış yağırdı. Beş-altı addım getmişdim ki, gördüm kimsə qabaqdan gəlir...

- Kim idi o?! - Təhməzovla mayor Seyidov ikisi də birdən soruşdu.

- Gəlib mənə çatanda əlindəki fənərin işığını üzümə tutdu. Dedi: - Təranə sənsən? Səsindən tanıdım ki, əmim oğlu Ağasəməddir. Dedim hara gedirsən? Dedi ki, Mikayılgilə. Dedim, nə var bu gecə vaxtı, yatmaq istəyirlər axı? Dedi sözüm var.
Sonra ayrıldıq. O, həyətə girdi. Mən isə çıxıb evimizə getdim.

- Deməli belə... - Seyidov çənəsini sığalladı.

- Siz onda Ağasəməddən şübhələnmədiniz ki? - deyə mən sual verdim.

- Bilmirəm... - dedi və yenə ağlamağa başladı.

- Siz çıxın! - Təhməzov Oqtayı çağırmağı tapşırdı.

Protokolu Təranənin qabağına qoyub qol çəkdirdim. Təranə qol çəkib ağır-ağır stuldan qalxdı və otaqdan çıxdı. Oqtay içəri girib qanıqara halda ayaq üstə dayandı.

- Oqtay, nə işlə məşğul olursan? - baş müstəntiq ona oturmaq təklif etmədən suala başladı.

- Yol idarəsində traktorçuyam.

- Neçə uşağın var?

- İki. Biri altı, biri dörd yaşında. İkisi də oğlandı.

...

downloaded from KitabYurdu.org

- Allah saxlasın! Qaynınla niyə küsülü idin?

- Olur da... İncimişdim. Borc istədim vermədi.

- Nə vaxt?

- Bir il olar...

Təhməzov mənə mənalı-mənalı baxıb yenə üzünü Oqtaya çevirdi.

- Siqaret çəkənsən?

- Yox. Qabaqlar çəkirdim. Sonra tərgitdim.

Nadir müəllim başını yellədib diqqətlə Oqtaym gözlərinə baxdı.

- Qaynıngil öldürülən gecə arvadın onlarda olub, eləmi?

- Bəli!

- Evdən nə vaxt çıxıb və nə vaxt qayıdıb?

- Doqquzda çıxdı, on birdə qayıtdı.

VII - Bəs sən həmin vaxt harada olmusan?

- Evdə adam var idi, onunla nərd oynayırdıq.

- Kim idi o?

- Bafadar, qonşum. Tez-tez bizə gəlir. O gedəndən on beş dəqiqə sonra Təranə qayıtdı. Düz saat on birdə!

- Protokola qol çək, get! Lazım olanda, yenə çağıracağıq. Arvadını da apar.

Oqtay çıxan kimi mayor Seyidov üzünü müstəntiqə tutdu:

- Təcili Ağasəmədi çağırmaq lazımdır.

- Hə! - Nadir müəllim mənə baxdı. - Bir də Bafadarı.

Çıxıb Oqtaya tapşırdım ki, həmin iki adamı tapıb məktəbə göndərsin. Otağa qayıdanda Təhməzov fikirli halda danışırdı:

- Bu necə dolaşıq iş oldu?! Ağasəməd Mikayılgilə saat on birdə giribsə, xörəyi bişirmək, süfrə açmaq, yemək heç olmazsa iyirmi dəqiqəyə başa gəlməliydi. Belə olanda o, cinayəti 11-20-dən tez törədə bilməz. Ancaq Aqşin...

- Bəlkə Aqşin səhv edir? - Seyidov onun sözünü ağzında qoydu. - Məgər bu ola bilməz? Onun dediyi fikirlə işimizi qursaq biz özümüzü tamam dolaşdıracağıq.

- Siz deyən olsun. - Təhməzov dilləndi. - Lap tutaq ki, Aqşin verdiyi rəydə yanlışlığa yol verib, onda deyin görək Fəzayə nəyə görə



downloaded from KitabYurdu.org

qonşu otağa keçib yeməyini orada yeyib? Axı bu Ağasəməd özgə adam deyil, Mikayılın əmisi oğludur?!

- Bəlkə onların gizli söhbəti olub? Bəlkə Mikayıl özü arvadına deyib ki, keç o biri otağa! - Seyidov cavab verdi.

- Bilmirəm. - Nadir müəllim ayağa durub otaqda gəzişməyə başladı. - Görək hələ

Ağasəməddən nə çıxacaq. Ancaq mən şəxsən Təranədən şübhələnirəm. O cümlədən Oqtaydan da.

- Sən nə danışırsan? - Seyidov əlini yellədi.

Bu vaxt Mirağa müəllim içəri girdi. O

istintaq başlananda bizi qoyub harasa getmişdi.

- Çay içəcəksizsə tapşırım bura gətirsinlər.

VII - Yox, Mirağa müəllim, əyləşin, heç nə lazım deyil. - Təhməzov ona divanı göstərdi. Direktor keçib divanda əyləşdi. - Bu kənddə demək olar, hamı sizin şagirdiniz olub. Siz nə deyə bilərsiniz bu iş barədə?

Mirağa müəllim əli ilə ağ saçlarını dala darayıb dedi:

- İnsanları tanımaq çox çətindir. Bu barədə fikirləşəndə deyirəm ki, sizin işiniz doğurdan da çox çətin işdir. Mənim əlli ildən çox pedaqoji stajım var. Siz dediyiniz kimi bu kənddə əksəriyyətinə dərs demişəm. Ancaq nə qədər fikirləşirəm, nə qədər götür-qoy edirəm, yenə bir yana çıxa bilmirəm, bu işi kim edə bilər? Rəhmətlik Eybalının uşaqlarının dördü də ağıllı, tərbiyəli uşaqlar olub. Onlar pis işlərlə məşğul ola bilməzlər. Nə bilim, söz gəzir ki, yazıqları pula görə öldürüblər. İndi biz hansı əsrdə yaşayırıq ki, beş-on manat puldan ötrü insana əl qaldırasan? Bu ki, vəhşilikdən başqa bir şey deyil?..

... Çağırılanlardan birinci Bafadar gəldi. Mən yenə qarşıma təzə ağ vərəq qoyub protokol yazmağa başladım. Təhməzov söhbəti qısa elədi:

- Bu hadisə baş verən gecə harada idin?

- Oqtaygildə. - Bafadar o saat cavab verdi.

- Sən orada olanda Təranə nə vaxt evdən çıxdı?

- Saat doqquzda çıxdı. Oqtay dedi ki, on birə kimi qayıt gəl. Mən



downloaded from KitabYurdu.org

özüm on birə on beş dəqiqə qalmış Oqtaygildən çıxıb evimə getdim. Təranənin qayıtmasını görmədim.

- Oqtay səni ötürdü?

- Evin qapısından ötürdü. Sonra qapını örtüb evə girdi.

Bafadarın dindirilməsi bununla bitdi. O çıxıb gedən kimi Ağasəməd gəldi.

Ağasəməd olduqca arıq, səliqəsiz görkəmli bir adam idi. Adama baxanda tez-tez balaca gözlərini qırpırdı. İlk baxışdan çox əfəl təsiri bağışlasa da əslində çox işləməkdən və açıq havada çox qalmaqdan bədəni bərkimiş, rəngi qaralmışdı. Özü də araq tapandan-tapana bərk içən idi. Bir ara kolxozun mallarını otanrmış. İndi isə deyəsən fəhləlik edirdi. Qohum-əqrəba həmişə çətin, zir-zibilli işlərə onu çağırırdı. İndi də harada nə iş görmüşdüsə, üstü-başı tozlu idi. Köynəyinin bir tərəfi şalvardan çıxıb sallanmışdı.

VII

Mayor Seyidov iti baxışlarla onu başdan- ayağa süzüb çımxırdı:

Bu üst-baş nədi ə? Bizə hörmət qoymursan, heç olmasa ağsaqqal müəllimə hörmət elə. Çıx bayıra, özünü qaydaya sal, sonra gəl!

Ağasəməd dinməz-söyləməz otaqdan çıxdı. Beş dəqiqə sonra özünü düzəldib qayıdanda Nadir müəllim istintaqa başladı.

- Adın, familiyan!
- Səlimov Ağasəməd.
- Neçə yaşın var?
- Qırx...

Elə yazıq-yazıq danışırdı ki, deyirdin bundan sakit adam yer üzündə yoxdur. Ancaq eşitmişdim ki, məndən əvvəlki sahə müvəkkilinin dövründə bir-iki dəfə qoyun-keçi oğurluğu üstə ilişib, ancaq birtəhər qurtarıbmış.

- Nə işlə məşğul olursan?
- Fəhlə babayam. Əlimdən başqa iş gəlmir.
- Uşaqdan - zaddan nəyin var?
- Üç uşağım var. Böyük oğlum əsgərlikdədi. Kiçiyimin on yaşı var. Ortancıl qızdır. Səkkizinci sinifdə oxuyur.

...

downloaded from KitabYurdu.org

- Əmin oğlanlan sənə əl tutmur?
- Nə əl tutacaqlar? Hərə özünü güclə dolandırır.
- Niyə? Nəcməddin axınncı dəfə gələndə sənə pul vermədi?
- Yox, balamın canı üçün.
- Bəs Mikayıl üçün nə qədər gətirmişdi?
- Bilmirəm, vallah!
- Bilmirsən? Elə şey olmaz! Yaxşı fikirləş.

Ağasəməd guya bir az fikirləşdi.

- Balamın canı üçün bilmirəm. Mən hardan bilim?

Mayor Seyidov əsəbi halda çənəsini ovuşdurub nəsə demək istəyirdi ki, baş müstəntiq növbəti sualını verdi:

- Sentyabrın 14-ü axşamı Mikayılgilə getmisən?

VII - Bəli, getdim. Ancaq yatmışdılar.

- Necə yəni yatmışdılar? Əməlli danış görüm.
- Uşaqlar yatmışdı. Biz də yatmağa hazırlaşırdıq. Bayırda da bərk leysan tökürdü.

Gördüm ki, siqaretim qurtarıb. Yadıma düşdü ki, günorta Mikayıl küçədə Tofiqə dedi ki, səhər gəl məni evdən götür. Şəhərə gedəcəm. Dedim, Mikayıla pul verim, səhər mənə siqaret alsın.

- Məgər pulu səhər verə bilməzdin? - Təhməzov onun sözünü kəsdi.
- Səhər maşın kənddən tez çıxır axı. Mən bir az gec dururam.
- Yaxşı! Danış!
- Mehman müəllim bilir, bizim ev kəndə girəndə sağda ikinci evdir. Elə məktəbə gələn küçəyə yaxmam. Tini dönən kimi də Mikayılın evidir. Yüyürüb tini buruldum.
- Niyə yüyürürdün?
- Yağışa görə...
- Hə, sonra?
- Bu vaxt Təranə ilə üz-üzə gəldim. Mikayılgildən gedirdi. Başdan-ayağa su içində olduğu üçün hələ zarafat da elədim, dedim, əmi qızı bu nədi islanmış cücəyə dönmüsən, başına yaylıq örtə bilmirsən? Dedi hara gedirsən, dedim ki, Mikayılgilə. Dedi nə var bu gecə vaxtı,

...

downloaded from KitabYurdu.org

yatırlar. Dedim zərər yoxdu, söz deyib qayıdıram. Sonra ondan ayrılıb Mikayılgilin həyətinə girdim.

- Darvaza bağlanmamışdı?

- Yox. Yəqin yadlarından çıxmışdı. Həm də mal-qara yox həyətdə.

- Bəlkə Tofiqə görə açıq qoyublar, axı səhər tezdən Tofiq ora gəlməli idi? - mən fikrimi bildirdim.

- Sonra? - Təhməzov özünə yaraşmayan səbirsizliklə soruşdu.

- Evin işığı yanmırdı. Bir-iki ağız Mikayılı səslədim. Cavab vermədilər. Dedim ya yağışa görə eşitmirlər, ya da yataqlarına girdiklərinə görə cavab vermirlər. Daha orada dayanmayıb evimə qayıtdım.

- Elə bu? Başqa sözün yoxdur? - Mayor Seyidov açıq-aşkar istehza
VII ilə soruşdu.

- Başqa nə sözüm olacaq? Nə olubsa, dedim.

- Çıx bayırda gözlə!

Mən yazdığım protokolu Ağasəmədə göstərib qol çəkdirdim. Ağasəməd dəhlizə çıxdı. Mirağa müəllim də qalxıb:

- Gedim, tapşınm, çay gətirsinlər! - dedi və otaqdan çıxdı.

Seyidov qapıya baxıb dalğın halda dilləndi:

- Mənim bu Ağasəməddən gözüm su içmir. Şöbəyə aparmaq lazımdır. Sözə bax! Çağırdım cavab verən olmadı. Pul məsələsini də Paşa bundan eşitmişdi. Ancaq gördünüz, boynuna almadı.

- Bilirsiz, - dedim. - Ola bilər ki, Mikayılgil yorğun olublar. Təranəni yola salan kimi işığı söndürüb yerlərinə giriblər. Ağasəməd çağıranda səsini tanıyıb dinməyiblər. Fikirləşiblər ki, o da bir-iki saat oturub onları bezikdirəcək. Ağasəmədin o evdə hörməti olmayıb. Axı Təranə də deyib ki, getmə, yatmaq istəyirlər. Ya da,
Ağasəməd özü deyən kimi - yağışın səsindən eşitməyiblər.

Mayor Seyidov təəccüblə mənə baxdı:

- Mehman, yerlərinə giriblər sözünü necə işlədirsən? Özün görmədin ki, Mikayılgilin yataqları yığılmış şəkildə idi? Sonra da ki, Ağasəməd evə girməyibsə, bəs necə olub? Onları kim öldürüb? Təranə? Ya bəlkə Ağasəməddən sonra da kimsə gəlib ora? Mən bayaq



downloaded from KitabYurdu.org

ekspertizanın nəticəsinə şübhəmi bildirdim. Ancaq daha həmin müddəti uzadıb saat 12-yə çıxartmayacağıq ki!

- Düz deyirsiz! - dedim. - Ancaq hər şey ola bilər. Sonradan kimsə yad adam gəlsə, qalxıb yerlərini yığışdıra da bilərlər. Mən nədənsə Ağasəmədin bu işi etdiyinə inana bilmirəm. Qaldı Təranə, o barədə danışmağa dəyməz. Mikayılı süfrədə Mikayılla oturub araq içən kişi öldürüb.

- Boş şey danışırsan! - Təyyar müəllim əlini yellədi, - o gecə o bədbəxtlər nə yataqlarını açmayıblar, nə də yerlərinə girməyiblər. Fəzayə bişirdiyi xörək payını tam yeyib. Elə Mikayıl da! Mikayıl süfrə başında öldürülüb. Deməli, onlar axşam yeməyini elə ondaca, qonaqla birlikdə yeyiblər. Daha sənin dediyin kimi acqarına yerlərinə
VII girib, sonra durub xörək bişirməyiblər. Ağasəməd cəfəngiyat danışır. Buna şübhəm yoxdur. Mən elə bu gecə onun boynuna qoyacam cinayətini. Ancaq hər halda, bu işdə anlaşılmazlıqlar da yox deyil. Belə çıxır ki,
Mikayılgil Təranəni başdan eləyib sonra şam yeməyini hazırlamaq istəyiblər.

- Bir şey də var, - dedim. - On birə işləmiş televizorda maraqlı konsert olub. Təxminən ıı-ə 5 dəqiqə qalmış qurtarıb. Bəlkə buna görə Təranə orada olanda xörək bişirmək sadəcə olaraq, yada düşməyib. Axı Selcan Əsgərliyə indi hamı çox maraq göstərir?!

Təhməzov söhbətə qanşdı:

- Ağasəmədin qatil olmağına mən də inanmıram. Ancaq hər halda gəlin onun dediklərinin nə dərəcədə düzgün olduğunu yoxlamaq üçün arvadını da danışdıraq.

Mən otaqdan çıxdım. Ağasəməd məktəbin qapısı ağzında dayanmışdı. Əvvəl onu göndərmək istədimsə də, sonra fikrimi dəyişdim. Məktəbin yanındakı idman meydançasında oynayan kənd uşaqlarından birini səsləyib Ağasəmədin arvadı Həbibənin dalınca göndərdim.

Həbibə çox həyasız arvad idi. Ağzına nə gəldi danışa bilirdi. Kənddə elə bir arvad ola bilməzdi ki, onun qabağına çıxa bilsin.



downloaded from KitabYurdu.org

Ağasəməd özü də ondan it kimi qorxurdu. Gəlib otağa girən kimi bizi asıb-kəsməyə başladı:

- Nədir, nə istəyirsiz? Nə olub?

- Bir az sakit olun, sizdən bir kəlmə söz soruşacağıq. - Təhməzov təmkinlə dilləndi. - Deyin görək əmisi oğlu öldürülən gecə Ağasəməd onun evinə getmişdimi? Getmişdisə saat neçədə qayıtdı?

- Mən saat-maat bilmirəm. Siqaret tapşırmağa getmişdi. Getdi də, o saat qayıtdı da! Nədi, yoxsa onun boynuna yıxmaq istəyirsiz hə, bu işi? Ay siz öləsiz! Bütün rayonu bir-birinə vuraram. Elə bir o qalmışdı.

- Bəs qayıdanda nə dedi Ağasəməd? - Təhməzov heç elə bil onun sözlərini eşitməmişdi.

VII - Dedi ki, yatıblar. On dəqiqə çəkmədi gedib-gəlməyi. O atamın goru haqqı! İnanırsız?

- Yaxşı fikirləşin, bəlkə bir 15-20 dəqiqə çəkib? -Seyidov sual verdi.

- Müsəlman deyilsiz? Allaha and olsun, onda təqsir yoxdur. O adam öldürəndir? Eyibdi sizin üçün! Camaatı bir-birinə düşmən eləməyin! Gedin axtarın, adamınızı tapın! Bacısı onlardan gəlirmiş həmin gecə, bəlkə elə o eləyib?

- Niyə bilmədiyin şeyi danışırsan? - Seyidov əsəbiləşdi. - Bacı öz qardaşına əl qaldırar? Özü də elə ağıllı qadın!

- Əşi siz allah ağzımı açmayın! Mənim onsuz da adım vayqanlıdır. Abırlı qadın tapdınız! O qızıb. Qızan qadın da ki, pula görə qardaşına da əl qaldırar, hələ üstəlik atasına da. On min dollar az puldur?

- Haradan bilirsən pullann qədərini?

- Əşi nə pul? Mən pul zad bilmirəm. Sizə dedim ki, gedin adamınızı axtarın. Vallah sizə elə toy tutaram ki, adınız yadınızdan çıxar!

- Az danış! Qadınlığına hörmət elə! - Mayor Seyidov ona təpindi. Sonra üzünü Təhməzova tutdu.

- Gedək, Nadir müəllim. Bu tayfa ancaq şöbədə danışdırılanda quzuya dönür. Məktəbdə bunlarla danışmaq çətindir.

...

downloaded from KitabYurdu.org

Biz qalxıb həyətə çıxdıq. Həbibənin hay- küyünə əhəmiyyət verməyib Ağasəmədi polis maşınına mindirdik və rayon mərkəzinə yola düşdük.

Rayonda baş verən başqa bir hadisəyə Seyidovun başı müvəqqəti qarışdığı üçün həmin gün Ağasəməd danışdırılmadı. Səhəri gün isə mən yenə Qaradumanlı kəndinə getməli oldum. Qatilin tapılmaması məni hamıdan çox narahat edirdi. Mən hiss edirdim ki, biz haradasa səhvə yol veririk. Polis Akademiyasında bizə mühazirə oxuyan Qanbay Qasımlı deyirdi ki, «Bəzən ən adi bir söz, ən kiçik bir detal cinayətin sirrinin açılmağına səbəb ola bilər». Bəs biz hansı sözü unutmuşduq, hansı kiçik detalı nəzərdən qaçırmışdıq? Qasımlı bizə cəmi üç-dörd mühazirə oxusa da mən onu öz müəllimim hesab
VII edirdim və məndən cəmi beş yaş böyük olmağına baxmayaraq onun müdrikliyi və təcrübəsi qarşısında baş əyirdim. İndi qərara gəldim ki, Qanbay müəllimin dediyi kimi heç bir kiçik detalı gözdən qaçırmadan baş vermiş bu hadisəni özüm araşdıracağam.

Nadir Təhməzov yavaş-yavaş qəti qərara gəlirdi ki, cinayətkar Təranədir. Ancaq yaxşı ki, onun fikrinə etiraz edən təkcə mən deyildim. Rəisimiz də, mayor Seyidov da bu məsələdə Təhməzovun əleyhinə idilər. Seyidov özü isə təkid edirdi ki, cinayəti heç kəs yox, məhz Ağasəməd törədib. Əslində isə Təhməzovu da, Seyidovu da çaşdıran, düzgün yola düşməyə qoymayan tibb eksperti Aqşin Dadaşovun verdiyi başdansovdu rəy idi. Ancaq mən belə düşünürdüm ki, hadisə təxminən saat ıı ilə 12 arasında baş vermişdi və həmin hadisəni törədən şəxs nə Təranə, nə də Ağasəməd deyildi. Cinayətkar kimdirsə o, Ağasəməddən sonra gəlmiş, Mikayılgil də qalxıb onu mehribanlıqla qarşılamışlar. Yaxşı, bəs həmin adam kim ola bilərdi? Mənim məqsədim də nəyin bahasına olursa, olsun naməlum şəxsin kimliyini müəyyənləşdirmək idi. Bəlkə onda Təhməzov da, hətta təcrübəsinə hörmət etdiyim mayor Seyidov da etiraf edəcəkdilər ki, indi sahə müvəkkili olmağıma baxmayaraq cinayət axtarışı işini heç də onlardan az bilmirəm.

Əvvəlcə Həsənalı kişigilə gedib, onunla və ailə üzvləri ilə söhbət



downloaded from KitabYurdu.org

etdim. Onlar Namiqin həmin axşam gözlərinin qabağında olduğunu və hamama girib-çıxandan sonra bir az çay içib söhbət edərək, sonra yatdığını bildirdilər.

Namiqlə, necə deyərlər, üzülüşüb məktəbə getdim və Mikayılgilin ən yaxın qonşusu olmuş, Feyzi kişini oraya gətizdirdim. Feyzi kişi yetmiş beş yaşında qoca bir kişi olduğu üçün əvvəlcə ona elə bir əhəmiyyət verməmişdik. Onu sinif otaqlarının birində, təklikdə danışdırdım.

- Feyzi kişi, sən dünyagörmüş adamsan. Bəlkə bu işi açmaqda bizə kömək edəsən? Sən bu kənddə hamını yaxşı tanıyırsan. Sənin fikrincə bu işi kim eləmiş olar?

- Nə bilim, ay oğul. - Feyzi kişi başını buladı - Zəmanə elə xarab
VII olub ki, heç kimdən baş açmaq olmur. Gül kimi uşaqlar idi onlar. Özü də camaatın balalanna elm öyrədirdilər. Gərək nə qədər qansız, nə qədər allahsız olasan ki, o cür gəlinə əlin qalxa.

- Sən onların qonşususan. Heç həmin gün, ya bir gün əvvəl nəsə şübhəli görünən bir şeyə rast gəlməmisən?

Feyzi kişi bir az duruxub fikrə getdi. Cibindən təsbehini çıxarıb oynatmağa başladı.

- Feyzi dayı, - dedim. - Bir şey bilirsənsə məndən gizlətmə.

- Gizlətmə deyəndə ki, ay bala qorxuram qoca vaxtımda çaşmış olam, sizə də kömək etmək əvəzinə yolunuzdan yayındıram.

- Sən bildiyini de, qorxma, yayınmarıq.

Feyzi kişi təsbehini oynatmağı dayandırıb üzümə baxdı:

- Mən həmin axşam həyətə düşmüşdüm. Bayır yaman qaranlıq idi. Göyün üzünü bulud tutmuşdu. Lap uzaqlarda arabir şimşək çaxırdı. Birdən mənə elə gəldi ki... qonşuda çığırtı eşitdim.

- Necə? - stulumu bir qədər yaxma çəkdim. - Hansı qonşuda?

- Rəhmətlik Mikayılgildə deyirəm də?.. - Kimin səsi idi?

- Vallah ayıra bilmədim. Ancaq qadın səsi olmalıydı. Bəlkə də mən yanılıram, bəlkə elə qulağım məni aldadıb. Dəqiq deyə bilmərəm.

- Qışqırtı çox eşidildi?

- Yox! Elə bir dəfə ötəri eşitdim.

...

downloaded from KitabYurdu.org

- Feyzi dayı, yaxşı yadına sal, sən allah, bu saat neçədə oldu? - Hiss edirdim ki, kələfin ucu daha lap əlimin yaxınlığındadı.

- Saatı deyə bilməyəcəm, başına dönüm.

- Nə pis oldu bu?! - Əlimi özümdən asılı olmayaraq stola vurdum. -Bəs sonra? Sonra nə etdin?

- Nə edəcəm? Bir az yerimdə dayanıb qulaq asdım. Daha heç bir səs eşidilmədi. Fikirləşdim ki, qulağıma səs düşüb. Birdən yavaş-yavaş yağış yağmağa başladı. Mən də tələsik evə çıxdım.

- Demək həmin səsi eşidəndən az sonra yağış yağdı?

- Bəli başına dönüm, dörd-beş dəqiqə sonra.

- Deməli, həmin səsi ıı-ə 20 dəqiqə işləmiş eşitmisən.

- Daha onu deyə bilmərəm, yalançı olaram. Feyzi kişi gedəndən sonra başımı əllərimin

VII

arasına alıb otaqda tək qaldım. Deməli, saat 10- 20-də. Axı bu vaxt Təranə qardaşıgildə olub?! Fikirlərim tamam qarışdı. Yox! Yox! Min dəfə yox. Bu ola bilməz! Bu qətiyyən ola bilməz. Feyzi kişi düz demir! Bilərəkdən, bilməyərəkdən məni azdırır...

Direktor otağa girəndə fikirdən ayıldım.

- İşiniz yoxdursa, gedək bizdə nahar edək.

- Yox, sağ olun! - dedim. - Xahiş edirəm. Təranəni buraya çağırtdırın.

Qəti qərara gəldim ki, Təranə ilə ciddi söhbət edib, bu qaranlıq məsələni işıqlandırım.

Bir qədərdən sonra dəhlizdə acıqlı səs eşidildi:

- Nə olub yenə? Bir adamı neçə dəfə danışdırırlar?

Bu Oqtaym səsi idi. Mirağa müəllim onu sakitləşdirməyə çalışırdı. Onlar otağa birlikdə daxil oldular.

- Hanı Təranə? - deyə sakitcə soruşdum.

- Ondan nə soruşmaq lazımdır, soruşmusuz da! İndi nə soruşacaqsız?

Birtəhər hirsimi boğub dilləndim:

- Lazım gəlsə, hər ikinizi şöbəyə aparıb, gecəni də orada saxlatdıraram. Sizinlə mülayim

...

downloaded from KitabYurdu.org

rəftar etdikcə cızığınızdan çıxmayın! Burada söhbət iki insanın ölümündən gedir. Vacib olsa bir adamı yüz dəfə danışdıracağıq.

Oqtay nə deyəcəyini bilməyib üzümə baxırdı.

- Nə gözləyirsən? Get arvadını göndər gəlsin! Özün də buralarda ol!

Oqtay çıxdı. Bir az keçmiş Təranə ilə qayıdıb gəldi. Direktordan da, ondan da xahiş etdim ki, dəhlizə çıxsınlar. Təranəyə oturmağı təklif etdim. O stulda oturdu. Nədən başlayacağımı qət etməmişdim. Bir az fikirləşib sözə başladım:

- Təranə xanım, istintaq zamanı hər bir suala düzgün cavab vermək lazımdır. Ya qorxudan, ya əhəmiyyətsiz hesab etməkdən
yanlış verilən bir cavab istintaqı səhv yola salır və cinayətin
VII açılmasını yubadır.

- Mən nəyi düz demirəm ki? - kədərlə soruşdu.

- Siz o gecə qardaşmızgili sağ-salamat qoyub saat ıı-də onlardan çıxmısız, eləmi?

- Bəli. Daha doğrusu on birə beş dəqiqə qalmış.

- Orada sizdən başqa qonaq olmayıb ki?

-Xeyr!

- Çıxanda qardaşınız sizi yola saldı?

- Yox... həyətə düşmədi. Mən hiss edirdim ki, onlar yorulublar. Yatmaq istəyirlər. Konsert qurtaran kimi ayağa qalxıb sağollaşdım.

- Darvazanı bağlayan olmadı?

- Yox, darvazanı mən örtdüm.

- Ayrılanda nə danışdınız?

- Mən ayağa qalxıb dedim ki, «Gecəniz xeyrə qalsın, mən getdim!» Onlar da dedilər ki, «xeyrə qarşı». Ancaq dalımca həyətə düşmədilər.

- Belə çıxır ki, onlar sizə qarşı laqeydlik ediblər.

- Necə deyim... Bəlkə də...

- Yaxşı! Saat on birə iyirmi dəqiqə işləmiş Mikayılın evindən çığırtı səsi gəlib. Bu barədə nə deyə bilərsiz?

- On birə iyirmi dəqiqə işləmiş? - deyə təkrar etdi.

...

downloaded from KitabYurdu.org

- Bəli! Qadın çığırtısı səsi gəlib. Bunu eşidən olub. Çığırtı tez də kəsilib.

- O vaxt biz konsertə baxırdıq. Nə qışqırtı ola bilərdi?... Hə! Arada bir dəfə Fəzayə həyətə düşmüşdü. Mikayıl da açıq qapının ağzında durub gah televizora, gah da həyətə baxırdı. Fəzayə gecələr həyətə düşəndə yaman qorxurdu. Şəhərli qızı idi axı. Birdən o, Mikayılı çağırdı, ya bəlkə də qışqırıbmış, deyə bilmərəm. Televizorun səsindən yaxşı eşitmədim. Mikayıl bərkdən soruşdu ki, nə oldu? Fəzayə tələsik evə girdi və dedi ki, başımın üstündən yarasa uçdu, ona görə qorxdum...

Demək belə! Başqa cür ola da bilməz. Ancaq, bu işıqucu da əlimizdən belə çıxdı. O qoca həyətdə olanda eşitdiyi səs həmin bu
VII qışqırtı olub. Fəzayə yarasadan qorxub qışqırıbmış. Əgər belədirsə, Təranədən və onunla əlaqədar Oqtaydan şübhələnməyə dəyməz. Ya bu cinayəti Seyidovun dediyi kimi, Ağasəməd törədib, ya da Ağasəməd həyətdən çıxandan sonra kimsə ora gəlib. Ancaq əsas məsələ də odur ki, kim?..

- Onlan Ağasəməd öldürməyib? - deyə Təranə qəfildən soruşdu.

Onun gözlərinin içinə baxdım. Bu gözlərdə kədər də var idi, qorxu da. Ancaq yox! Kim nə deyir desin, o bu sualı ürəkdən, səmimiyyətlə verdi. Onu bir bacı kimi maraqlandırırdı ki, qardaşını Ağasəməd öldürüb, yoxsa başqası?

- Bilmirəm! - dedim.

- Siz məndən də şübhələnirdiz? - sakitcə soruşdu.

- Necə deyim? İstər-istəməz sizdən şübhələnməliydim. Tibb ekspertimiz cinayətin törənmə vaxtını elə müəyyənləşdirib ki, bu müddət sizin orada olduğunuz vaxtla təxminən üst-üstə düşür. Digər tərəfdən bu qışqırıq səsi...

Təranənin gözləri doldu.

- Mən Mikayılın barmağına tikan batmasına da razı olmazdım. Onu qardaşlarımın ikisindən də çox istəyirdim. Onlan öldürən alçağı əlimə versələr onu dişlərimlə parça-parça eləsəm də ürəyim uf deməz. Qardaşım heç kəsə pislik eləməmişdi...- azacıq susub yenə danışmağa

downloaded from KitabYurdu.org

başladı:

- Elə hesab eləyin ki, daha həyatım puç olub. Bu yandan Oqtay da həmin gün onların evində olmağıma görə məni tənələyir. Deyir qardaşmgilə getməyə vaxt tapdın. Yad kişilərin məni istintaq eləməsindən də çox əsəbiləşir. Çalışın ki, məni daha bu işə qatmayın. Xahiş edirəm! Mənim ailəmin dağılmağına razı olmayın!

Əlləri ilə üzünü örtüb hönkürtüylə ağlamağa başladı. Ağladıqca ətli çiyinləri atılıb-düşürdü.

- Ağlamayın, - dedim. - Qardaşınızın qatilini mütləq tapacağıq. Ancaq gərək siz də bu işdə bizə kömək edəsiniz.

Yaylığı ilə gözlərini qurulayıb üzümə baxdı:

- Mən nə kömək edə bilərəm?

VII - Sizin fikrinizcə bu cinayəti kim etmiş olar?

- Nə bilim... Deyə bilmərəm...

- Paşadan, ya Namiqdən şübhələnmirsiz ki?

Bu dəfə çiyinlərini çəkdi.

- Bəs Ağasəməd necə?

- Ondan şübhələnirəm. O gecə o məni görəndə özünü itirdi.

- Axı onun deməyinə görə, o hətta sizinlə zarafat da edib. Deyib ki, bu nədir, islanmış cücəyə dönmüsən.

- Özünü itirib söz tapmadı deməyə. Ona görə elə dedi. Qardaşımı o öldürüb! Ondan nə desən çıxar.

- Bizim Cinayət Axtarış bölməsinin rəisi Təyyar müəllim də ondan şübhələnir. Axı Ağasəmədin arvadı təsdiq edir ki, ərinin evdən çıxmağı ilə qayıtmağı bir olub. Çünki o, Mikayılgili səsləyibsə də cavab verən olmayıb. Təranə birdən qəzəblə dilləndi:

- Yalan deyirlər! Həbibə kimi həyasız, araqarışdıran qadın bütün kənddə yoxdur. Onlar yəqin ki, sözü bir yerə qoyublar.

Təranə ilə söhbəti bitirib rayon mərkəzinə qayıtdım. Namiqgildə və məktəbdə apardığım sorğu- sual barədə mayor Seyidova məlumat verdim. Təyyar müəllim o saat Ağasəmədi kabinetə gətirməyi tapşırdı. Onu özümlə gətirib içəri saldım və keçib oturdum. Axşam Ağasəmədin başına elə oyun açmışdılar ki, indi də ayaq üstə güclə



downloaded from KitabYurdu.org

dururdu.

- Hə, nə fikirləşdin Ağasəməd? - Seyidov istehza ilə soruşdu.
- Nə fikirləşəcəm, başına dönüm?
- Deyirdin Nəcməddinin nə qədər pul gətirməsindən xəbərin yoxdur, hə?
- Xeyr, mən hardan bilim, axı?
- Xəbərin var ki, öz işini dolaşdırırsan? Sən Paşaya deməmisən ki, Nəcməddin on min dollar pul gətirib Mikayıl üçün? Deməmisən ki, onun yerində olsaydım maşın alardım? Gətirim üzləşdirim sizi?

Ağasəməd başını aşağı saldı. Seyidov qalxıb onun yanma gəldi. Əli ilə çənəsindən tutub yuxarı qaldırdı.

- Səni elə hala salaram ki, sınmayan sümüyün qalmaz. Nə
VII soruşurlar düzgün cavab ver!

Ağasəməd yalvarmağa başladı:

- Qələt eləyib yalan demişəm. Qorxudan elə dedim ki,məndən şübhələnməyəsiz. Ancaq o əsgərlikdə olan oğlumun ölümü üçün mənim bu işdən xəbərim yoxdur.
- Hansı işdən?
- Ölüm işindən. Möhkəm yağış yağırdı. Çağırdım eşitmədilər, qayıdıb getdim.
- Pulun qədərini kimdən eşitmişdin?
- Mikayılın özündən! Dedim Nəcməddin pul gətiribsə evini düzəltdir. Dedi cəmi on min pul gətirib.
- Dollar?
- Yəqin elə olar da...
- Ağasəməd, bu cinayəti sənə sübut edəcəyəm. Ancaq gəl xoşluqla boynuna al.
- Ay başına dönüm, mən öldürməmişəm axı onları!..
- Bəs kim öldürüb?
- Haradan bilim.... - bir az fikirləşib əlavə etdi! - Bəlkə Vaqif öldürüb?
- Vaqif kimdi ə? - Seyidov səsini ucaltdı.

...

downloaded from KitabYurdu.org

- Kəndin həkimi. Mikayılgildən iki ev o yana tək olur. Kirayədə qalır.

- Nəyə görə deyirsən ki, o öldürə bilər?

- Bu hadisədən bir həftə əvvəl klubun qabağında onların mübahisəsinin üstünə çıxdım. Ancaq təkcə Mikayılın bir sözünü eşitdim. Vaqifə dedi ki, - «Başına oyun açaram» sonra məni görüb söhbətlərini kəsdilər.

- Daha kim var idi orada?

- Heç kim...

- Ayın neçəsində olub bu söhbət?

- Sentyabrın 6-sı, 7-si olardı...

- Sənin fikrincə, nəyə görə Mikayıl elə söz deyirdi?

VII - Bilmirəm, vallah!

Seyidov mənə baxdı.

- Bunu apar aşağı. Sonra da maşın götür get həmin Vaqifi təcili gətir bura! - biz çıxmaq istəyəndə Ağasəmədi saxladı. - Ora-bura azdırma işi, səndən əl çəkən yoxdu. Get fikirləş!

Ağasəmədi kameraya salıb şöbənin maşını ilə kəndə getdim. Vaqifi evindən götürüb polis şöbəsinə gətirdim. Mayor Seyidov bizi gözləyirdi. Həkimi onun kabinetinə çıxartdım. Nadir müəllim də kabinetdə idi. O, ucaboylu, yaraşıqlı görkəmi olan Vaqifi başdan ayağa süzüb ona oturmağa yer göstərdi.

- Əyləş!

- Mənim nə günahım var? - Vaqif yolda dəfələrlə mənə verdiyi sualı Təhməzova da verdi.

- Otur, bilərsən, əvvəl özünü təqdim elə.

- Fərəcov Vaqif Fikrət oğlu.

- Neçə yaşın var?

- İyirmi dörd.

- Buralısan?

- Bəli. Bakıda institutu bu il bitirmişəm. Müvəqqəti kəndə göndərdilər.

- Nə vaxtdan işləyirsən orada?



downloaded from KitabYurdu.org

- Altı ay olar...

- Mikayılla münasibətin necə idi?

- Pis olmayıb. Bacısı məntəqədə mənimlə işləyir. Özü ilə də qonşu kimi idik.

- Sentyabrın 6-7-də klubun qabağında Mikayılla nə üstündə mübahisə etmisiz?

- Biz mübahisə etməmişik.

- Axı eşidən olub!

- Yəqin səhv eşidiblər.

Təhməzov bizə baxıb başını yellədi və yenə üzünü Vaqifə tutdu:

- Nəzərinə çatdınm ki, suallara düzgün cavab verməsən, vəziyyətin pisləşəcək. De görüm, sentyabrın 14-ü gecəsi harada idin?

VII - Evdə.

- Hansı evdə?

- Əlbəttə, öz evimdə. Yəni kirayədə qaldığım evdə.

- Nə işlə məşğul idin?

- Heç nəylə. Təzə rəngli televizor almışam. Oturub ona baxırdım.

- O gecə hansı verilişlərə baxdın?

- Konsert oldu... Sonra xəbərlər proqramı başladı.

- Konsert nə vaxt qurtardı?

- On birdə. Ya on birə beş dəqiqə qalmış.

- Bizi əsas ondan sonrakı verilişlər maraqlandırır. Sonra nəyə baxdın?

- Xəbərlərə...

- Nə xəbər yadında qaldı onda?

- Nə bilim...- fikrə getdi.

- Bəs sonra nəyə baxdın?

- Sonra yatdım.

- Bəs nə ilə sübut edə bilərsən ki, saat on birdən sonra evdə olmusan?

- Bilmirəm necə sübut edim... Axı mən tək yaşayıram?

Hiss olunurdu ki, Vaqif daxili həyəcanını güclə boğur. Tez-tez udqunurdu. Fikirləşdim ki, biz nəyə görə indiyə kimi ondan



downloaded from KitabYurdu.org

şübhələnməmişdik? Axı o yeganə adam idi ki, kənddə tək yaşayırdı. Paşanın, Namiqin, Ağasəmədin hadisə baş verən radələrdə evdə olmalarını təsdiq edənlər var idi. Düzdür, onlar həmin şəxslərin ailə üzvləri idilər. Ancaq hər halda, öz sözlərinin üstündə qətiyyətlə dururdular. Vaqifin isə həmin vaxt evdə olduğuna şahidlik edə biləcək adam yox idi. Fikirləşdim ki, Ağasəməd Mikayılgilin həyətindən çıxandan sonra Vaqifin oraya gəlməsi və o qanlı hadisəni törətməsi necə də ağlabatandır!

- Siqaret çəkirsən? - Təhməzov soruşdu.
- Yox! Ömrümdə çəkməmişəm.
- Deməyəcəksən, Mikayılla nə üstündə mübahisə etmisiz?
- Axı mən onunla mübahisə etməmişəm? ! Mayor Seyidov

VII barmağı ilə Vaqifi hədələyib

acıqlı halda dilləndi:

- Ə bura bax, özünü uşaq kimi aparma! Bizim vaxtımız yoxdur səhərə kimi səninlə çənə döyək. De görüm sənin bu işdən xəbərin var, yoxsa yox?
- Mən adam öldürməmişəm... - Vaqif dili ilə qurumuş dodaqlarını islatdı.
- Bəs kim öldürüb onlan?

Vaqif başını aşağı salıb handan-hana dilləndi:

- Bilmirəm...

Əsəbiləşmiş bölmə rəisi üzünü mənə çevirdi:

- Daha gecdi. Protokolu tamamla, ver qol çəksin. Özünü də apar sal aşağı. Bircə gecə orada qalsa, səhər bildiklərini danışacaq.

Vaqif protokola qol çəkib Seyidova baxdı:

- Məni buraxın gedim evimizə. Səhər gələrəm.
- Hansı evinizə ? - Təyyar müəllim istehza ilə sual verdi.
- Atamın evinə. Burada şəhərdədir. Səhər nə vaxt desəniz gələrəm.
- Yox, olmaz!

Vaqifi kameraya salıb evimizə getdik. Necə xəbər tutmuşdularsa, Vaqifin atası və yaxın qohumlan səhər polis şöbəsinə bizdən də tez gəlmişdilər. Şöbənin qabağında gözləyirdilər. Təyyar müəllim Vaqifin



downloaded from KitabYurdu.org

atasını mənim iştirakımla qəbul etdi.

- Mənim oğlum nə edib ki, gətirib bura salmısız? - Fikrət kişi səsi titrəyə-titrəyə soruşdu.

- Kənddə bir ər-arvadı öz evlərindəcə öldürüblər. Bəzi şeylərdə oğlundan şübhələnirik.

- Mənim oğlum adam öldürməz!

- Hamı elə deyir! Ancaq oğlun bir həftə əvvəl öldürülən oğlanla mübahisə edib. Səbəbini demək istəmir. Həm də hiss edirik ki, onun bu işdən xəbəri var. Cinayətkar tapılana qədər oğlunu buraxan deyilik!

- Mən şikayət edəcəm! - kişi birdən-birə səsini qaldırdı.

- Get haraya şikayət eləyirsən, elə! - Seyidov əli ilə ona otaqdan çıxmağı əmr etdi.

VII

- Nəcməddin özünü mərhumların dəfninin yeddi günlüyü mərasiminə güclə çatdırdı. Onun Rusiyadan gəldiyini eşidib kəndə getdim. Söhbətimizdə məlum oldu ki, o, həqiqətən sonuncu dəfə kəndə gələndə Mikayıla pul veribmiş. Ancaq on min ABŞ dolları yox, on min rus rublu. Bu məbləğ isə dollarla müqayisədə xeyli kiçik bir məbləğ idi. Bunu Mikayıldan eşidən Ağasəməd səhvən rubl əvəzinə dollar başa düşmüş və yanlış xəbər onun vasitəsilə ağızdan- ağıza kəndə yayılmışdı.

Ağasəməd ilə Vaqifi polis şöbəsində saxlayırdıq. Onları dəfələrlə danışdırmışdıq. Bu müddətdə Həbibə neçə dəfə polis şöbəsinə gəlib başımızı ağrıtmış, Vaqifin qohumları ora-bura əl atıb üstümüzə minnətçi göndərmişdilər. Ancaq Seyidov inadından dönmürdü. Nəyin bahasına olursa olsun, cinayətkarı müəyyən edib işi bitirmək istəyirdi.

Polis şöbəsinin rəisi polkovnik Əlizadə və əməliyyat işi üzrə rəis müavini mayor Nuriyev də son günlər digər işlərini bir yana qoyub bu işlə məşğul idilər. Paşa, Həbibə, Namiq və onun ailə üzvləri, Ağasəmədin uşaqları və daha başqaları gündə şöbəyə çağırılıb danışdırılırdılar. Prokurorluğun baş müstəntiqi Nadir Təhməzov da əsasən Oqtay və Bafadan, bir dəfə isə Təranəni prokurorluğa çağırıb danışdırmışdı.

...

downloaded from KitabYurdu.org

Ümumiyyətlə, Qaradumanlıda camaat bir-birinə dəymişdi. Bu işlə əlaqəsi olan da, olmayan da səksəkə ilə gözləyirdi ki, onu da nə vaxtsa polis şöbəsinə aparacaqlar. Kənd sakinləri gecələr də narahat yatırdılar. Mən isə gecə-gündüz bilmədən tez-tez kəndə gedir, kimlərisə maşına mindirib ya rəisin, ya mayor Seyidovun, ya da müstəntiq Təhməzovun yanma aparırdım. Əsl cinayətkar isə tapılmırdı ki, tapılmırdı.

Bütün rayonu sarsıtmış, hamının müzakirə obyektinə çevrilmiş bu qanlı cinayət hadisəsindən artıq iyirmi gün keçmişdi. Şöbə rəisi əməliyyatda iştirak edənlərin hamısını kabinetinə yığdı. Əsəbiləşdiyi aşkar hiss olunurdu. Hamımızı bir-bir süzüb, nəhayət, baxışlarını mayor Seyidovun üzündə saxladı.

VII - Sənə verdiyim vaxtı neçə dəfə uzatmışam. Mənə elə gəlir ki, daha bəsdir. İndi buyur, axınncı dəfə öz qəti fikrini de!

Təyyar müəllim ayağa qalxıb danışmağa başladı.

- Son qənaətimizə görə hadisə saat ıı ilə 11.30 arasında olub. Bu eyni zamanda Dadaşovun verdiyi rəyə müəyyən dərəcədə uyğun gəlir. Saat 11-ə kimi Mikayılın bacısı Mikayılgildə olub. Hadisəni o törədə bilməzdi. Çünki Mikayılın Təranədən sonra daha bir qonağı olub və həmin qonaq Mikayılla araq içib.

- Bunu nəyə görə qəti deyirsən?

- Çünki süfrədə yanmçıq araq şüşəsi və araq stəkanı var idi.

- Nə olsun? Araq stəkanı ki bir dənə idi. Bəlkə Mikayıl arağı tək içib?

- Axı rəis, araq şüşəsindən üç yüz qram içilib. Ekspert isə göstərir ki, həmin gecə Mikayıl yüz qram araq içib.

- Bəlkə araq şüşəsi əvvəlcədən yanmçıq olub? - Əlizadə istehza ilə soruşdu və bizə baxdı.

Seyidov əvvəl dinmədi. Sonra bir az fikirləşib dilləndi:

- Lap süfrədə oturan qonaq araq içməsə də, o Təranə ola bilməzdi. Mikayıl nə üçün kiçik bacısını stolda otuzdurub arvadını qonşu otaqda yemək yeməyə məcbur edir?

- Yaxşı, davam elə! - rəis diqqətini toplayıb qulaq asmağa başladı.

...

downloaded from KitabYurdu.org

- Vurulan zərbələr qüvvətli olub. Bu onu göstərir ki, həmin zərbələri vuran güclü kişi olub. Təranə evdən çıxandan sonra oraya Ağasəməd gəlib. Onun hərəkətləri Təranəyə də şübhəli görünüb. Eyni zamanda onun öz danışdıqları da inandırıcı deyil. O, guya evin qabağında dayanıb Mikayılı səsləyib, ancaq ona heç kəs cavab verməyib. Sual olunur: bəs Ağasəməd nə üçün qapını döyməyib?

- Ağasəməd Mikayılı yağışın altında dayanıb səsləyib? - rəis soruşdu.

- Xeyr. Mikayılgilin evinin qapısından həyət darvazasına qədər yolun üstü şiferlə örtülüdür.
Ancaq Ağasəməd evə məhrəm adamdır. Qapını döyə bilərdi.

- Sonra?

VII - Mənim fikrimcə qətli törədən Ağasəməddir. Mikayılgildə olan puldan birinci onun xəbəri olub. Deyib ki, o pullar mənim olsaydı, maşın alardım. Hansı ki, istintaq zamanı o bunu bizdən gizlətdi. Düzdür, Ağasəməd cinayəti boynuna götürmür. Arvadı da onun həmin vaxt evə çox tez qayıtdığını deyir. Ancaq bu bizim üçün əsas ola bilməz. Qaldı Vaqif, doğrusu, o da özünü çox şübhəli apanr. Neçə gündən bəri burada saxlanmağına baxmayaraq Mikayılla nəyin üstündə mübahisə etdiyini demir. İndi şəxsən mənə belə gəlir ki, həqiqətən
Vaqiflə Mikayılın arasında heç bir mübahisə olmayıb. Bu Ağasəmədin bizi azdırmaq üçün əl atdığı hiylədən başqa bir şey deyil. Axı Vaqifin guya Mikayılla mübahisə etdiyini bizə o demişdi?!

- Əyləş! - rəis üzünü Təhməzova çevirdi: - Siz necə, Nadir müəllim, yenə öz fikrinizin üstündə durursunuz?

Baş müstəntiq rəisin yanında oturmuşdu. Nədənsə kədərli görünürdü. Ağır-ağır danışmağa başlayanda da heç kəsin üzünə baxmırdı.

- Mən, əlbəttə, Təranədən çox şübhələnirdim. Nəyə görə? Ona görə ki, birinci növbədə Aqşinin verdiyi rəydə göstərilən müddətlə Təranənin Mikayılgildə olduğu müddət üst-üstə düşürdü. Daha sonra ona görə ki, Təranəni ötürən, darvazanı bağlayan olmamışdı. Təranə



downloaded from KitabYurdu.org

Ağasəmədə demişdi ki, getmə, Mikayılgil yatmaq istəyirlər. Ağasəməd də həyətə girəndə görüb ki, evin işıqları sönüb və onun çağırışma cavab verən olmayıb. Baxın, bu faktlara görə mən Təranədən şübhələnirdim. Ancaq mən onu dərindən öyrənəndən və bir daha prokurorluqda danışdırandan sonra inandım ki, o cinayətkar ola bilməz. Sonra şübhələrim Oqtaya qarşı yönəldi. Ancaq onu deyim ki, bu şübhələr də özünü doğrultmadı. - Nadir müəllim dərindən ah çəkib davam etdi: - Doğrusunu deyim ki, mən ömrümdə bu cür dolaşıq işə rast gəlməmişəm. Hazırkı fikrimi soruşsanız deyərəm ki, gecə saat ıı-dən 12-nin yansına kimi həmin evə gələn adamı axtarmalıyıq. Çünki, mən Aqşinlə bu barədə ciddi söhbət etmişəm. O, hadisənin baş vermə müddətini heç cür on ikinin yansından o yana
VII keçirməyə razı olmur. Saat ıı-ə qədər isə Mikayılgil sağ olublar. Çünki Təranə ıı-də oradan çıxıb.

- Bəs indi kimdən şübhələnirsiz? - rəisin sualına azacıq istehza qatılmışdı.

Nadir müəllim özünü o yerə qoymadı:

- Mən bu barədə bir daha xeyli düşünmüşəm. İstintaq protokolları yadınızdadırsa Kamil demişdi ki, Namiq darvazadan çıxıb Mikayılgilin küçəsi tərəfə bir addım atdı. Lakin mənim gəldiyimi hiss edib geri
döndü və darvazanın qabağında dayandı. Namiq də, ailəsi də onun həyətdə, evdən aralı olan hamama getdiyi və oradan çıxdığı vaxtı dəqiq göstərmirlər. Belə də ola bilər ki, Namiq heç hamama girməz, birbaş Mikayılgilə gedər. Hər halda bunu dəqiq araşdırmağa imkanım olmayıb.

Əlizadə əlini çənəsinə söykəyib bir az fikrə daldı. Sonra əməliyyat işi üzrə müavinə söz verdi:

- Sən danış, görək!

Mayor Nuriyev oturduğu yerdə danışmağa başladı.

- Mən o gün də sizə dedim. Ağasəməd cinayətkar deyil. O Mikayılgilə cinayət məqsədilə gəlmiş olsaydı da, Təranəni görəndən sonra fikrini dəyişərdi. O nə qədər axmaq olsa da fikirləşərdi ki,


downloaded from KitabYurdu.org

Təranə onu gördüyünü gizlətməyəcək. Bu belə! Sonra, Mikayıl şəxsən Ağasəmədə xüsusi hörmət qoyub onun üçün süfrəyə təzə külqabı gətirməzdi. Gətirsəydi də Ağasəməd heç olmasa bir siqaret çəkərdi.

- Bu barədə sizinlə şərikəm, - Nadir müəllim Nuriyevin sözünü kəsdi.

- Bəli! - Mayor Nuriyev sözünə davam etdi: - Ağasəmədə görə Fəzayə keçib o biri otaqda oturmazdı.

- Bəlkə onların söhbətinə mane olmaq istəməyib? - Seyidov əsəbi halda dilləndi.

- Təyyar müəllim, icazə verin sözümü deyim. - Əməliyyat işi üzrə müavin azacıq fasilə verib yenə danışmağa başladı: - Mənim fikrimcə, bu cinayəti törədən Vaqifdir. Onun özünü aparmağından və
VII danışıqlarından hiss edirəm ki, bu işdən xəbəri var. Lap buna sizi əmin edə bilərəm. Bundan başqa Vaqifin əleyhinə dəlillər çoxdur. Məsələn, o, saat on birdə başlanan «xəbərlər» proqramına baxdığını deyir, ancaq həmin verilişdən heç nəyi xatırlaya bilmir. Kənddə yeganə adamdır ki, ölüm hadisəsi baş verən vaxt evdə olduğunu sübut edən şahidi yoxdur. Hadisədən bir həftə əvvəl Mikayılla deyişib, ancaq boynuna almır. Kifayətdir, yoxsa yenə sayım?

Deyəsən heç kəs rəis müavininə etiraz etmək fikrində deyildi. Onsuz da hamımız başımızı itirmişdik. Bir də ki, kimdənsə şübhələnməklə iş bitmir axı! Gərək şübhələndiyin adamı ciddi fakt qarşısında qoyasan ki, o da çarəsiz qalıb etdiyi cinayəti boynuna ala. Yoxsa Vaqif o gecə evdə olduğuna şahid göstərə bilmirsə bu o demək deyildir ki, o, Mikayılgildə olub.

Polkovnik Əlizadə başı ilə mənə işarə etdi:

- Sən dur görək nə deyirsən, Mehman!

Ayağa qalxdım.

- Mən də Ağasəmədin qatil olmağına inana bilmirəm. Mənim fikrimcə Ağasəməd o gecə Mikayılgilin həyətindən çıxandan sonra kimsə naməlum bir adam oraya gəlib. Saat on birlə on iki arasında. Düzdür, mən də hiss etmişəm ki, elə bil Vaqif nəsə bilir. Bunu Təyyar müəllim də başa düşmüşdü. Ancaq bu hələ o demək deyil ki, cinayəti



downloaded from KitabYurdu.org

Vaqif özü törədib! Ola bilər ki, Vaqif o gecə şübhəli adama rast gəlib, ancaq hansı səbəbə görəsə onu satmaq istəmir.

Rəis acıqlı halda əlini yellədi.

- Vaqif şübhəli adama harada və necə rast gələ bilərdi? - Bu sualın cavabı məndə əvvəldən hazır idi:

- Bəlkə həmin adam qonşu kənddən gəlib? Axı Gülabaddan meşə ilə piyada gələn adam Vaqifin evinin yanından keçməlidir?!

- Bəsdir, qurtarın bu «bəlkə»lərlə! - Əlizadə əlini stola vurdu. - Boynunuza alm ki, bu işdən baş çıxara bilmədiniz. Hər halda bu bir həqiqətdir ki, sentyabrın 14-də Qaradumanlı kəndində iki insanı qətlə yetiriblər. Öldürən özü də yəqin təsdiq eləyirsiz ki, adamdır. Nə iblis, nə də ruh deyil. Həm də o adam Mikayılgilin tanıdığı adamlar dairəsindədir. Bununla belə biz həmin adamı tapa bilməmişik. Daha gecdir. Vaqifin adamları yuxarılara yol tapıblar. Nazirlikdən mənə dedilər ki, bu işi açmaq üçün buraya xüsusi ekspert göndərirlər. - qolundakı saata baxdı. - İndi saat on birin yarısıdır. Günortadan sonra, təxminən saat 3-də həmin şəxs burada olacaq. O gələn kimi sizi çağıracağam. Gedə bilərsiniz.

VII

Kabinetdən çıxdıq. Dəhlizdə Nadir müəllimin mayor Seyidova dediyi sözləri eşitdim:

- Şeytan da gəlsə bu işdən baş aça bilməyəcək. Onda ki, ola hansısa xüsusi ekspert.

- İyirmi gündür rahatlığım yoxdur. - Seyidov dilləndi. - Bircə bu iş dəqiq sübut olunsaydı. Mən bilərdim neylərdim o əclafa.

Şöbənin bufetinə gedib çay sifariş verdim və oturub çay içə-içə hər şeyi bir daha götür-qoy etməyə başladım.

Deməli, hadisə baş verən gecə saat doqquzdan on birə beş dəqiqə qalmışa kimi Təranə mərhumların yanında olub. Söhbət edib televizorda konsertə baxıblar və Təranə çıxıb öz evlərinə gedib. Həmin vaxt Ağasəməd həyətə girib. Evin işıqlarının söndürüldüyünü görəndə Mikayılgili narahat etmək istəməyib və geri qayıdıb. Tibb eksperti hadisənin baş vermə müddəti kimi on bir radələrindən uzaqlaşmağın qəti əleyhinədirsə deməli, həmin vaxt təzədən oraya



downloaded from KitabYurdu.org

kimsə gəlib. Bu şəxsin kimliyi və necəliyi haqqında demək olar ki, bizim heç bir təsəvvürümüz yoxdur və qatil hadisə yerində heç bir iz də qoymayıb. Bəs o adam kim ola bilər? Axı nə üçün biz heç cür onun izinə düşə bilmirik?

Üçə on dəqiqə qalmış şöbə rəisi mayor Seyidovla məni kabinetinə çağırdı. İkimiz də tələsik onun yanma getdik. Otaqda rəisdən başqa bir nəfər də var idi. Həmin adam stolun arxasında oturub qoşalaşmış əllərini çənəsinə dayaq vermişdi. Biz içəri girəndə hər ikimizi ani nəzərlərlə süzüb diqqətini mənim üzümdə cəmlədi.

Əyninə nazik, qara plaş geyib, başına həmin rəngdə şlyapa qoymuş, anq, azacıq donqar burnu təmiz qırxılmış sifətinə yaraşıq verən, gözünün üstünə enmiş nazik sərt qaşları, adamın yeddi

VII qatından keçən iti baxışları olan bu adamı tanımaya bilərdimmi? Bu haqqında sizə danışdığım polkovnik Qanbay Qasımlı idi.

- Xoş gəlmisiniz, Qanbay müəllim! - deyə onunla görüşdüm.

Qanbay Qasımlı zəndlə üzümə baxıb:

- Akademiyanı keçən il bitirmisiz? - deyə soruşdu.

- Bəli, - dedim. - Bizə bir neçə mühazirə oxumuşunuz. Mən həmişə arxada otururdum.

- Yadıma düşdü, - Qasımlı mehribanlıqla başını tərpətdi. Sonra ciddiləşib üzünü rəisə tutdu: - Axşam mütləq Bakıda olmalıyam. Vacib işim var. Məndən qeyri-rəsmi olaraq xahiş ediblər ki, sizdə baş vermiş cinayət hadisəsini araşdınb həkim Vaqif Fərəcovun günahsızlığını sübut edim. Əlbəttə, əgər doğrudan da günahsızdırsa. Odur ki, xahiş edirəm, məni topladığınız bütün materiallarla tanış edin!

Rəisin qanı bir az qara idi. Deyəsən Qasımlınm bu işə qarışdırılması onu o qədər də açmırdı. Ancaq başqa çarəsi yox idi. Yuxandan belə məsləhət görmüşdülər. Bir az da düşünüb dilləndi:

- Materiallarla sizi tanış edəcəyik. Ancaq siz tələsirsinizsə, bilməlisiz ki, bu işin açılması çox uzun vaxt tələb edə bilər. Bəlkə heç özünüzü yormağa dəyməz? Biz hər şeyi dərindən araşdırmışıq və şübhəli şəxslərin istintaqı hələ davam edir. İnanınq ki, zəhmətimiz öz



downloaded from KitabYurdu.org

nəticəsini verəcək.

Bakıdan gələn qonaq dinmədi. Yaranmış xoşagəlməz sükutun mənasını başa düşən rəis Təyyar müəllimə baxdı: - Verin protokolları, tanış olsun! - dedi.

Mayor Seyidov qalın kağız qovluğu Qanbay Qasımlının qarşısına qoydu.

- Hamısı budur? - Qasımlı soruşdu.

- Bəli! - Seyidov cavab verdi.

- Mən hadisə yerinə də baş çəkmək istəyirəm. - Qasımlı qovluğu götürüb dedi: - İcazə verin sənədlərlə yolda tanış olum. Mənimlə bu baş leytenant getsə kifayətdir: - deyə-mənə baxdı. - Başqa heç kəsə ehtiyac yoxdur. Kəndə mənim gəldiyim maşınla gedərik.

VII - Necə istəyirsiz, elə də olsun! - rəis razılaşdı.

Qaraqabaq xəfiyyə ayağa qalxıb kabinetdən çıxdı. Mən də rəisin göstərişi ilə onun arxasınca gedib həyətə düşdüm. O, ağ rəngli Volqada gəlmişdi. Qapını açıb məni sükan arxasına dəvət etdi:

- Siz sürün!

- Maşın özünüzündür? - deyə sükan arxasında oturub soruşdum.

- Yox, qonşumundur! - dedi. - Maşına qulluq etməkdən zəhləm gedir.

Qasımlı arxada əyləşib qovluğu yanma qoydu və biz Qaradumanlı kəndinə yola düşdük. O, yol boyu qovluqdakı istintaq protokollarını bir-bir diqqətlə oxuyurdu. Ona görə də dinib- danışmırdıq. Düzünü deyim ki, onun kimi adamın mənimlə yol-yoldaşı olmasından qürur hissi duyurdum. Akademiyada bir müəllimin Qasımlı haqqında danışdıqları yadıma düşdü. O deyirdi ki, cinayətkarların ən təhlükəli düşməni olan Qasımlı Rusiyanın vilayətlərində istər milis işçiləri, istərsə də cinayətkar qruplar arasında «qara xəfiyyə» adı ilə tanınırmış. Onun iştirak etdiyi bütün əməliyyatlar müvəffəqiyyətlə nəticələnirmiş. Müəllimimiz deyirdi ki, Qanbay Qasımlımn ailəsi intiqam qurbanı olub tələf olandan sonra istefaya çıxıb vətəninə qayıdanda, onun ölkədən uzaqlaşması cinayətkar mühitin əsl bayramına çevrilib. İndi həmin bu adam iyirmi gündən bəri baş açа



downloaded from KitabYurdu.org

bilmədiyimiz qaranlıq cinayət işini araşdırmaq üçün mənimlə Qara-dumanlı kəndinə gedirdi. Görəsən «qara xəfiyyə» o qaranlıq, yağışlı gecənin sirrini aça biləcəkdimi?

Artıq yolu yarıdan keçmişdik. Maşınımız meşənin içindən salınmış narahat yolla irəliləyirdi. Qasımlı materiallarla işini qurtardı. Qovluğu bağlayıb bir siqaret yandırdı və dilləndi:

- Sahə müvəkkili Mehman Cəfərov sizsiz?
- Bəli, - dedim.
- Mehman müəllim, indi hadisə barədə bildiklərinizi və gördüyünüz işləri danışın.

Hadisə baş verən gündən nə olmuşdusa, sizə danışdığım kimi ona da danışdım. Qasımlı mənə diqqətlə qulaq assa da heç nə demədi.

VII Kəndə girəndə xahiş etdi ki, hadisə ilə bağlı danışdırılan adamlann evlərini göstərim. Maşını asta-asta sürməklə əsas küçə ilə gedib sıra ilə Ağasəmədin, Namiqin, Oqtaym, nəhayət, Kamilgilin evlərini göstərdim. Sonra maşını döndərib geri qayıtdım və məktəb küçəsinə döndüm. Burada da maşını irəli sürüb sonuncu evin - Vaqifin evinin yanından döndərdim və geri qayıdaraq sağdan Vaqifin, Rüstəmin, Feyzi kişinin, solda Paşanın və yenə sağda Mikayılın evini tanıtdırdım. Maşını da elə buradaca - hadisə baş verən evin qarşısında saxladım. Sahibsiz qalmış həyətin darvazası qıfıllı idi.

Qasımlı düşüb darvazadan küçənin tininə qədər yola nəzər saldı və çevrilib soruşdu:

- Təranə Ağasəməd ilə harada rastlaşıb?

Mən Mikayılın darvazasından əsas küçəyə
tərəf dörd-beş metr addımlayıb durduğum yeri göstərdim.

- Təxminən burada!

Bu vaxt Rüstəmlə Kamil Rüstəmgilin həyət qapısından çıxıb yanımıza gəldilər və bizimlə görüşdülər. Qasımlmı onlara çox qısa təqdim etdim.

- Bakıdan gəlib...

Rüstəm darvazanı açaraq dedi:

- Kamillə çay içirdik. Uşaq dedi ki, buraya maşın gəldi. Ona görə



downloaded from KitabYurdu.org

də tez durduq...

Həyətə girdik. Rüstəm evin də qapısını açarla açıb özü həyətə düşdü. Biz içəri daxil olduq. Evdən çox pis qoxu gəlirdi. Döşəmədəki qan ləkələri hələ təmizlənməmişdi. Nədənsə çox qaşqabaqlı görünən Qasımlı otaqları gəzib sonra dəhlizdəki yemək stoluna göz gəzdirdi. Büllur külqabını götürüb üzünü mənə çevirdi:

- Deyirsiz burada bir siqaret çəkilib?

- Bəli-dedim, - İçində təkcə bir kötük var idi. Onu da Mikayıl özü çəkib.

- Buradakı kül bir siqaret üçün çoxdur. Bura iki siqaretin külü tökülüb.

Qasımlı bunu deyib külqabıdakı külü stolun üstünə boşaltdı və içini mənə göstərdi. Külqabının içində iki dairəvi qara ləkə qalmışdı.

VII - Görürsünüzmü? Burada iki siqareti basıb söndürüblər. Külqabı süfrəyə təzə gətirilibsə, deməli həmin vaxt burada iki nəfər siqaret çəkib və qatil gedəndə çəngəllə araq stəkanı kimi çəkdiyi siqaretin kötüyünü də özü ilə aparıb.

Mən dinmədim. Deməli, Təhməzovla mayor Seyidovun arasında fikir ayrılığına səbəb olan bu məsələ belə həll olundu. Görəsən, bu Vaqifin cinayətkar olmadığını sübut etmək üçün kifayət idimi? Yəqin ki, yox! Mayor Nuriyevə bunu sübut kimi təqdim etmək mümkün deyildi. Ancaq deyəsən Qasımlı özü də siqaret məsələsinə o qədər əhəmiyyət vermirdi.

Həyətə düşdük. Qasımlı başını qaldırıb evdən darvazaya qədər olan yolun üstünü örtən şifer örtüyə baxdı. Sonra küçəyə çıxdıq. Rüstəmlə Kamil küçədə dayanıb söhbət edirdi. Qasımlı Rüstəmə:

- Xahiş edirəm Təranəni, bir də Namiqi məktəbə çağırın, - dedi.

Rüstəm bir uşaq tapıb deyilənləri çağırmağa göndərdi. Sonra gözətçiyə məktəbi açdırıb özü Kamillə maşının yanında dayandı. Biz müəllimlər otağında oturub gözləməyə başladıq. Birinci Təranə gəldi. Otağa daxil olan kimi ərklə üzünü mənə tutdu:

- Mehman müəllim, sizə dedim axı, daha məni çox aparıb-gətirməyin. Vallah Oqtay günümü qara eləyir.

...

downloaded from KitabYurdu.org

- Nə üçün? - Qasımlı soruşdu.

- Kənd yeridir də... - Təranənin əvəzinə mən cavab verdim. - Əri razı olmur yad kişilər onu təklikdə danışdırsın.

Qasımlı Təranəni diqqətlə süzüb dedi:

- Narahat olmayın, sizi çox saxlamayacağıq. Bir-neçə sualımıza cavab verib gedəcəksiz. Xahiş edirəm, deyin, həmin gecə qardaşımzgildə saat neçəyə kimi olmusunuz?

- On birə beş dəqiqə qalmışa qədər. - Təranə cavab verdi.

- Nə ilə məşğul idiniz orada?

- Söhbət edirdik...

- Sonra da konsertə baxdınız, düzdür?

- Bəli... Selcanm konsertinə.

VII - Selcan həmin konsertdə hansı rəngdə paltar geymişdi?

- Qırmızı! - Təranə tərəddüd etmədən dilləndi. - Qırmızı don, yaxası və kəmər yeri ağ!

- Ondan əvvəlki veriliş yadınıza gəlmir?

- Nə isə məktəb barədə veriliş idi. Danışıqlardan yadımda qalıb. Ancaq baxmırdıq. Söhbət edirdik.

Qasımlı yenə nə isə soruşmaq istədi. Ancaq soruşmadı. Bir siqaret yandırdı. Yaman dilxor görünürdü. Görəsən onu düşündürən nə idi?

- Qardaşınızgildən çıxanda Ağasəmədə rast gəldiniz? - bir azdan yenə sual verdi.

- Bəli.

- Sizin fikrinizcə, bu işi Ağasəməd edər?

- Bəli. Ondan başqa kim eləyə bilər ki?

- Bəlkə Vaqif öldürüb qardaşınızı?

- Yox. Yox! Nə danışırsınız? Vaqif heç vaxt elə şey eləməz. Onu günahsız tutublar. Mən nəyə desəz and içə bilərəm.

- Gedə bilərsiniz...

Qasımlı özü də ayağa qalxdı. Namiq hələ gəlməmişdi. Maşının yanma getdik. Rüstəmlə Kamil hələ burada idilər. Həmin vaxt Namiq də gəlib çıxdı. Onu Qasımlıya tanıtdırdım. Qanbay müəllim Namiqin qolundan tutub bizdən araladı və kənarda söhbət etməyə başladılar.

...

downloaded from KitabYurdu.org

Onlar aralanan kimi Rüstəm soruşdu:

- Hələ heç kəsə sübut edə bilməmisiniz cinayəti?

- Yox! - dedim.

- Bu müstəntiqdir? - Qasımlım göstərdi.

- Yox, müstəqil xəfiyyədir.

- İradəli adama oxşayır...

Qanbay müəllimlə Namiq bizə yaxınlaşdılar.

- Daha kimi çağırmaq lazım olacaq? - deyə soruşdum.

- Heç kimi, getmək lazımdır. Bu oğlan da bizimlə gedəcək, - Namiqi göstərdi.

Bu vaxt Kamillə baxışdıq. Kamil mənalı tərzdə başını tərpətdi. O sanki demək istəyirdi:

VII - Axı mən sizə demişdim?!

Qanbay Qasımlı Rüstəmgillə sağollaşdı. Rüstəmlə Kamil nə qədər xahiş etsələr də heç olmasa çay içmək üçün dayanmaq istəmədi.

Keçib Namiqlə arxada oturdular. Bir şey başa düşməsəm də Qanbay müəllimə sual vermək istəmədim. Çarəsiz maşına minib onu işə saldım və yola düşdük.

Qanbay Qasımlınm hərəkətlərini başa düşə bilmədiyimə görə maşını çox fikirli sürürdüm. Deməli, Namiq hamımızı, o cümlədən məni də aldadıb? ... Onun müvəqqəti saxlama kamerasında mənə yalvarmağı yadıma düşdü. «Hamamda olmuşam... Hamamdan sonra çay içib yatmışam ».

- Bu meşələri təkcə siz qoruyursuz? - Qasımlınm səsi məni fikirdən ayırdı.

- Xeyr! - Namiq cavab verdi. - Bir meşəbəyimiz də Gülabaddandır.

- Qanunsuz ağac kəsənlər çox olur?

- Bəli, əsas da rayon mərkəzində qaz kəsiləndə işimiz çətinləşir. Hamı odun aparmaq üçün axışıb meşəyə gəlir.

Qasımlı daha dinmədi. Meşə yolunun qurtarmağına az qalmış Namiq:

- Burada saxla, Mehman müəllim! - dedi.

Maşını saxlayıb təəccüblə ona baxdım.

...

downloaded from KitabYurdu.org

Namiq maşından düşüb:

- Sağ olun, işiniz avand olsun! - dedi və qapını örtdü.

Bu dəfə heyrətlə laqeyd görkəmli Qasımlıya baxdım. Qaraqabaq xəfiyyə nəyə görəsə gülümsəyib:

- Sürün! - dedi.

Mühərriki işə salıb maşını hərəkətə gətirdim və bir qədər sürüb ondan soruşdum:

- Bəs Namiqi şöbəyə aparmırdıq?

- Yox... Niyə ki? - Qasımlı çiynini çəkdi. - O xahiş etdi ki, şəhərə gedirsinizsə məni də meşə yolunun başına qədər aparın. Mən də razılaşdım.

- Hə... - dərindən nəfəs aldım. - Yaxşı, bəs sizin bu iş barədə fikriniz nədir? Qatil tapılacaq, yoxsa yox.?

VII

- Elə hesab edin ki, qatil tapılıb.

- Kimdir qatil? - özümdən asılı olmayaraq maşını saxladım və geri çevrildim.

- Sürün, mənim vaxtım azdır. Qatili isə soruşursunuzsa deyərəm. Qatil Kamildir!

- Nə danışırsınız? - maşını işə salıb soruşdum.

- Bəli. Mən protokollan oxudum. Namiq demişdi ki, mən darvazamızın qabağında dayanıb siqaret çəkəndə Kamili şübhəli şəkildə Mikayılgil tərəfə gedən gördüm. Sonra Rüstəm istintaq zamanı bildirib ki, Kamil evə girəndə dedi ki: «Saat hələ on olmayıb, nə tez yatmısmız?» Bax bu cümlə özü məni şübhələndirmişdi. Kamil Rüstəmgilə on birin yansında daxil olub. Daha doğrusu on birə iyirmi yeddi dəqiqə işləmiş. Mən bayaq Namiqlə söhbət edəndə soruşdum ki, həmin gecə darvazanın ağzında siqaret çəkəndən nə qədər sonra yağış yağdı. Cavabından belə çıxdı ki, azı otuz-qırx dəqiqə sonra. O, siqareti çəkib qurtarandan sonra dəyişik paltarlarını evdən götürüb hamama gedib, təxminən yanm saat yuyunub.

Hamamdan çıxandan sonra evdə oturub çay içib. Yalnız bundan sonra yağış yağmağa başlayıb.

Belə çıxır ki, Kamil Namiqgildən Rüstəmin evinə qədər olan üç-dörd



downloaded from KitabYurdu.org

dəqiqəlik yolu azı yanm saata gedib.

- Dayanın, Qanbay müəllim. - dedim. - Sizin fikrinizcə bu ölüm hadisəsi nə vaxt baş verib?

Bu vaxt artıq asfalta çatmaq üzrə idik. Qasımlı sualıma cavab verməyib:

- O arxamızca gələn maşın, sizcə hara gedir? - deyə soruşdu.

Arxamızca gələn Tofiqin UAZ-ı idi.

- Mikayılın qardaşıdır, - dedim. - Rayon mərkəzinə gedir, yəqin ki...

- Xahiş edirəm, onu saxlayın! Siz onunla rayon mərkəzinə gedərsiz. Mən isə artıq vaxt itirməmək üçün buradan birbaş Bakıya.

Bakıya getmək üçün asfalta çıxıb sola dönmək lazım idi. Rayon mərkəzinə getmək üçün isə sağa dönüb on-on iki kilometr maşın sürməliydik. Tofiqin maşınını saxladıb ona gözləməyi tapşırdım və yenə Volqaya qayıdıb sualımı təkrar etdim:

VII

- Hadisə saat neçədə olub?

- Saat on birə iyirmi dəqiqə işləmiş. Feyzi kişinin qışqırıq səsi eşitdiyi vaxt. Yağışın yağmağa başlamasından və Kamilin Rüstəmgilə girməsindən yeddi dəqiqə əvvəl. Sizin tibb ekspertiniz vaxtı düz göstərib.

- Mən başa düşə bilmirəm - dedim. - Axı həmin vaxt Təranə qardaşıgildə olub!

Qanbay Qasımlı başını buladı:

- Təranə ümumiyyətlə, o gecə qardaşıgildə olmayıb!

- Olmayıb? - heyrətlə onun sözünü təkrar etdim.

- Bəli əzizim, olmayıb. Mən gərək elə birinci bundan başlayaydım. Mən də sizin kimi Kamildən bir o qədər şübhələnməz və Namiqi sorğu- suala tutmazdım. Əlbəttə, əgər Təranədən şübhələnməsəydim. Məsələ burasındadır ki, mən
hələ protokollarla tanış olanda bir şey diqqətimi cəlb etdi. Kənddə isə fikrim bir qədər də dəqiqləşdi. Ağasəmədin izahatında göstərilir ki, o Təranəni tamamilə islanmış, özü də başıaçıq vəziyyətdə görüb. O saat mənim üçün bir neçə sual meydana çıxdı. Mikayılgildə evdən

...

downloaded from KitabYurdu.org

darvazaya qədər yolun üstü örtülüdür. Ağasəməd isə Təranəni darvazanın dörd-beş addımlığında görüb. Necə olmuşdur ki, Təranə kiçik bir məsafədə möhkəm islanıb?! Ağasəməd demiş, islanmış cücəyə dönüb?. Təranə nəyə görə qardaşıgildən çıxanda başına örtməyə bir şey istəməyib və onlar da bunu təklif etməyiblər? Bax onda ağlıma gəldi ki, Ağasəməd Təranəni görəndə
qardaşıgildən yox, başqa evdən, tamamilə yad bir evdən gəlirmiş.

- Kimin evindən? - deyə soruşdum. Ancaq daha özüm də nəsə başa düşmüşdüm.

- Əlbəttə, Vaqifin! Düşündüm ki, Təranə o gecə qonaq olduğu yeri belə cidd-cəhdlə gizlədirsə, bu ancaq Vaqifin evi ola bilər. Axı o küçədə tək yaşayan yalnız Vaqifdir. Artıq mən bunun dəqiqliyini yoxlamışam. Deyəsən siz bunu hiss etmədiniz.

VII

-Nəyi?

- Mən Təranədən soruşdum ki, müğənninin paltarı hansı rəngdə idi? O, paltarın rəngini yerli- yataqlı təsvir etdi.

- Nə olsun ki?

- Necə yəni nə olsun, axı siz Mikayılın evində neçə dəfə olmusuz, məgər onun televizoru rənglidir?

- Yox... - deyə xəcalətlə dilləndim. - O kənddə rəngli televizor ancaq Vaqifdədir.

- Bəli. - Qasımlı əllərini yana açdı - mənə elə gəlir ki, daha sizə hər şey aydındır. Təranə Vaqiflə gizlin sevişirmiş. O, ərinin qorxusundan açıb deyə bilməzdi ki, həmin gecə saat doqquzdan on birə kimi tək yaşayan yad bir kişinin yanında olub?!

- Hər şey aydındır, - dedim. - Ancaq şöbədə Ağasəmədlə Vaqifdən yaman şübhələnirdilər.

Qasımlı fikirli halda başını yellədi.

- Siz hamınız şübhələnmisiniz ki, Vaqif guya nəsə bilir, ancaq gizlədir. Bunu hesabatlarınızda göstərmisiniz. Bəli, Vaqif çox güman ki, Kamilin qatil olmağını başa düşüb. Kəndə yayılıb ki, Təranə filan saatda qardaşıgildə olub və Kamil də bununla əlaqədar bəraət qazanıb polis şöbəsindən buraxılıb. Axı kim bilməsə də Vaqif bilirdi ki,



downloaded from KitabYurdu.org

Təranə o gecə orada olmayıb. Elə Təranə özü də. O bəlkə də qatilin Kamil olduğunu düşünmürdü. Ancaq o dəqiq bilirdi ki, Ağasəməd eləməyib bu işi.

- Bəs axı o son izahatlarında cinayəti Ağasəmədin boynuna yıxmağa çalışırdı?

- Düzdür! Siz Təranəyə demişdiniz ki, Feyzi kişi saat 10.20-də Mikayılgildə çığırtı səsi eşidib.

Onda artıq Təranə başa düşmüşdü ki, hadisə məhz elə həmin vaxt baş verib. Ancaq Təranə onu da bilirdi ki, əsl qatil üzə çıxsa, hadisənin dəqiq vaxtı müəyyənləşəcək və o özü ifşa olacaq. Ona görə də Təranə qardaşının ölümünə görə nə qədər yansa da, onların qatilinin tapılmağını istəmirdi.

VII - Bəli... - deyib başımı aşağı saldım. - Hər şey aydındır. İndi qalır ancaq Kamili danışdırmaq.

- Siz əvvəlcə Kamilin arvadını danışdırın. O ya bilərəkdən ya da bilmədən ərini müdafiə edib deyir ki, əri evdən on birin yarısında çıxıb. Ancaq siz ondan Kamil evdən çıxandan nə qədər sonra yağışın başladığını soruşun. Ondan sonra Kamil qoy izah etsin görək evdən çıxandan sonra yanm saatdan çox müddətdə harada olub. O ki qaldı Təranəyə, onun sirrini açıb-açmamaq sizin öz insafınıza qalır. İndi isə burada mənlik iş qalmadığına görə getsəm yaxşıdır.

Hər ikimiz maşından düşdük. Qanbay Qasımlı mənimlə görüşüb sükan arxasına keçdi. Volqa asfalta çıxıb sola döndü və sürətlə Bakıya doğru yol aldı. Bir müddət onun arxasınca baxıb fikrə getdim. Gəlib yanımda dayanan Tofiqin səsi məni fikirdən ayırdı:

- O kim idi, Mehman müəllim?

- O çox böyük adamdı, Tofiq! - deyə cavab verdim.

- Bir saat sonra polis şöbəsinə məxsus UAZ-la yenə də Qaradumanlıya qayıtmalı oldum. Bu dəfə yanımda iki nəfər silahlı polis işçisi var idi. Qanbay Qasımlım yola salıb şöbəyə gedən kimi hər şeyi rəisin özünə danışdım. Polkovnik Əlizadə mənə adam qoşub tapşırdı ki, Kamillə arvadını təcili polis şöbəsinə gətirim. Deyilən kimi də elədim. Kamillə Fəridəni şöbəyə gətirib Kamili kameraya



downloaded from KitabYurdu.org

saldıq, arvadını isə rəisin yanma çıxartdıq. Mayor Nuriyevlə Təyyar müəllim də orada idilər. Fəridəni rəis özü danışdırdı:

- Sentyabrın 14-də, gecə əriniz nə vaxt evdən çıxdı?
- Dəqiq bilmirəm, ancaq on birin yarısı olardı.
- Nəyə görə deyirsiniz ki, on birin yarısı olardı?
- Kamil də qayıdanda dedi ki, gör Rüstəmlə başımız söhbətə necə qarışıb. Evdən çıxanda saat on birin yarısı idi, indi ikiyə işləyib.
- Əriniz evdən çıxandan nə qədər sonra yağış yağmağa başladı? Axı o gecə yağış yağırdı?

Fəridə bir az fikirləşdi.

- Kamil getdi, sonra başladım xörək bişirməyə...
- Nə bişirdin?

VII - Göyərti qovurdum. Uşaqları yedizdirib yerlərini açdım. Onlar yatdılar. Sonra qabları yuyub özüm də yerimə girdim. Bu vaxt yağış yağmağa başladı.

- Dəqiq deyirsiz bunu?
- Bəli, lap dəqiq! Yağış yağanda mən yatağımda idim.
- Axı yağış on birə iyirmi beş dəqiqə işləmiş yağıb! Belə çıxır ki, Kamil evdən saat ona on-on beş dəqiqə qalmış çıxıb.

Fəridə boynunu əydi:

- Ola bilər. Mən saata baxmamışdım.

Rəis mənə tapşırdı ki, protokol yazıb Fəridəyə qol çəkdirim. Bundan sonra onu buraxdı. Fəridə kabinetdən çıxanda soruşdu:

- Kamili həyətdə gözləyim?

Rəis istehza ilə dilləndi:

- Yox, onu həyətdə gözləməyə səbriniz çatmaz. Gedin evə! Kəndə getməyə maşın yoxdursa, burada bir qohumunuzun evində qalın.
- Kamili nə vaxt buraxacaqsınız?
- Dedim ki, gedin evə!

Sonra polkovnik Əlizadə Vaqifi gətirməyi tapşırdı. Vaqifi kameradan çıxarıb kabinetə gətirdim.

- Hə, yoldaş həkim, - rəis güclə sezilən istehza ilə sözə başladı. -



downloaded from KitabYurdu.org

Deyirsən Mikayılgili sən öldürməmisən? Qohumların aləmi töküb üstümüzə.

- Xeyr, rəis!

- Dəqiq sübut olunub ki, cinayət saat 10:20- də baş verib. Həmin vaxt evdə olduğunu nə ilə sübut edə bilərsən?

- Mən onda konsertə baxırdım.

- Yanında adam var idi təsdiq etməyə?

- Xeyr rəis... - Vaqif özünü itirdi.

- Gəl, məsələni uzadıb mənim başımı ağrıtma. Sənin işçin və sevgilin Təranə artıq boynuna alıb, izahat verib ki, həmin vaxt, yəni doqquzdan on birə kimi sənin yanında olub!

Vaqifin rəngi dəyişildi. Dili topuq vurmağa başladı.

VII - Cənab rəis, xahiş edirəm, bu sirri açmayın. Bir işdi olub. O özü mənə yaxınlaşmışdı.

- Harada?

- Həkim məntəqəsində. Məni buraxın, bir də o kəndə getməyəcəyəm. Çıxıb Bakıya gedərəm.

Rəis başını buladı.

- Vəzifənə yaraşmayan işlərlə məşğulsan. Hələ bir deyirsən ki, səni buraxaq? De görüm o qız neçə dəfə gecələr yanma gəlib? Görək burada da sözləriniz düz gələcəkmi?

- Bu dördüncü dəfə idi...

- Mikayılla nə üstə mübahisə etmişdiz?

- Bu işdən nəsə eşitmişdi. Dedi ki, özünü yığışdır. Daha başqa söhbətimiz olmadı.

- Otur Təranə ilə münasibətləriniz necə olubsa, başdan-ayağa hamısını yaz, səni buraxaram.

Vaqif izahatı yazandan sonra onu aparıb yenidən kameraya saldıq. Səhər işə gələn kimi rəis Təranəni şöbəyə gətirməyi tapşırdı. Mən Təranənin sirrinin açılmasına razı deyildim. Ancaq rəis deyəndən sonra mən kim idim ki? Təranəni camaatın gözü qabağında polis maşınına mindirib şöbəyə gətirdim. Oqtay yalvar-yaxar elədiyi üçün onun da maşına minməyinə icazə verdim.

...

downloaded from KitabYurdu.org

Rəis artıq söhbətə yer vermədən Vaqifin izahatını Təranəyə göstərdi və oxumağı tapşırdı. Təranə izahatı oxuyan kimi:

Ay Allah, rüsvay oldum! - deyib əlləri ilə üzünü tutdu və ağlamağa başladı.

Polkovnik Əlizadə ona acıqlandı:

- Bəsdir, qurtar görək! Özünü artistliyə qoyma, həyasızın biri həyasız! Bir aya yaxındır ki, bu boyda polis şöbəsini ələ salırsan sən! - səsinin tonunu aşağı salıb barmağı ilə stolu taqqıldatdı.
- Səni həbs edəcəm. Ancaq hər şeyi olduğu kimi boynuna alıb yazsan bəlkə sənə rəhmim gəldi.

Təranə hər şeyi olduğu kimi yazıb, hətta Ağasəmədin tutulmağını bilərəkdən istədiyini boynuna alandan sonra rəis onu buraxmağı
VII tapşırdı. Mən bilirdim ki, daha bu sirr gizli qalmayacaq. Bizdə də, belə bir iş tutmuş, yəni ərinə xəyanət etmiş, özü də bu cür yaraşıqlı qadını tanıdılar, qurtardı...

Həmin gün Kamil də danışdırıldı. Namiqin, Fəridənin, Rüstəmin izahatlan bir fakt kimi onun qarşısına qoyuldu. Kamil evdən çıxandan Rüstəmgilə girənə qədər keçmiş yanm saatdan çox müddətdə harada olduğunu izah edə bilmədi və çarəsiz qalıb cinayətini boynuna aldı. Onun yazmış olduğu izahatı olduğu kimi sizə çatdırıram:

« Klubun yanında bir neçə adamın yanında Paşadan eşitmişdim ki, Nəcməddin Mikayıl üçün on min ABŞ dolları məbləğində pul gətirib. Mən mühasiblikdən çıxandan sonra dolana bilmirdim. Fəhləliklə çörək qazanmaq isə mənim bacardığım iş deyildi. Bir dəfə Bakıda alverlə məşğul olmaq istəmişdimsə də alınmamışdı. Bununla əlaqədar borca da düşmüşdüm. Fikirləşdim ki, Mikayılgildəki pullar mənim olsa,
borclarımı verər, həm də Bakıya köçüb layiqli bir iş tapardım. Nəhayət, necə oldusa, Mikayıl və arvadını öldürüb pulları götürmək ağlıma gəldi. Sentyabrın 14-də saat ona iyirmi dəqiqə qalmış bıçaq götürüb oraya getdim. Mikayılgil məni bir az təəccüblə də olsa, yaxşı qarşıladılar. Axı mən heç vaxt onların evində olmamışdım?! Fəzayə tez qayğanaq bişirib süfrə açdı. Mikayıl süfrəyə bir bütöv araq da



downloaded from KitabYurdu.org

qoydu. Sonra Fəzayə o biri otağa keçib orada oturdu. Bir az yemək yeyib siqaret yandırdıq. Fikirləşdim ki, daha vaxtdır. İçdiyim iki yüz qram araq da məni cəsarətləndirmişdi. Siqareti söndürüb yavaşca bıçağı cibimdən çıxartdım. Ayağa qalxıb oturduğu yerdə Mikayılın kürəyinə bir bıçaq zərbəsi vurdum.

Fəzayə olan otağın qapısını açanda onunla üz-üzə gəldim. Vəziyyəti görən Fəzayə elə dəhşətlə qışqırdı ki, əvvəlcə özümü itirdim. Sonra onun ağzını tutub hədələdim ki, səsini çıxartsa öldürəcəm. Pulları tələb edəndə Fəzayə əli ilə qonşu otağı göstərdi. Onu tutub həmin otağa apardım. Fəzayə şkafı açıb pulları çıxartdı. Ancaq bu pullar rus pulu idi. Başa düşdüm ki, aldanmışam. Ancaq daha gec idi. Fəzayənin saçından tutub başını əydim və bıçaqla kürəyinə iki zərbə vurdum. O
VII kürəyi üstə yerə yıxıldı. Qanlı bıçağı onun paltarına silib cibimə qoydum. Bu vaxt yağış asta-asta yağmağa başladı. Otağa girib xörək yediyim çəngəli, araq stəkanımı və çəkdiyim siqaretin kötüyünü götürdüm və onları da cibimə qoydum. Fikirləşdim ki, onlarda əl izi qala bilər. Sonra işığı söndürüb qapını örtdüm və Rüstəmgilə getdim. Dedim qoy sonra Rüstəm şahid olsun ki, mən onlarda olmuşam. Evdən çıxanda da bu cür plan qurmuşdum. Bu tərəfdən də Namiq məni küçədə görmüşdü. İçəri girəndə Rüstəmə dedim ki, saat 10 olmayıb, nə tez yatırsız? Belə dedim ki, qoy Rüstəm sonradan mənim oraya saat 10-dan tez gəldiyimi xatırlasın. Ancaq bu alınmadı. Rüstəm divar saatına baxdı. Saat on birə iyirmi yeddi dəqiqə işləmişdi. Mən onlarda oturub gecə saat ikiyə işləmiş çıxıb evimizə getdim. Sonra eşitdim ki, Təranə guya o gecə saat doqquzdan on birə kimi qardaşıgildə olub. Əvvəlcə bunu başa düşmədim. Sonra hər şey mənə aydın oldu. Bildim ki, Təranə o gecə qardaşıgildə yox, Vaqifin yanında olub. Fəridə mənə demişdi ki Ağasəmədin arvadı Həbibə Təranənin Vaqiflə gizli münasibətdə olduğunu deyir. Onda buna inanmamışdım. İndi başa düşəndə isə sevindim ki, mən şübhədən birdəfəlik uzaq olacağam. Təranə ağlına da gətirmirdi ki, onun o gecəki sirrini mən bilirəm.

Namiq məni küçədə gördüyünü xəbər verdiyi üçün ondan intiqam



downloaded from KitabYurdu.org

almaq istədim. İstintaqda dedim ki, mən Namiqi görəndə o Mikayılgil tərəfə gedirdi. Məni görüb geri qayıtdı. Bunu mən yalan demişdim.

Mən çox böyük cinayət etdiyimi dərk edirəm və etdiyim hərəkət üçün peşmançılığımı bildirirəm ».

O gün Ağasəməd və Vaqif evlərinə buraxıldılar.

Məhkəmə Kamili ən ağır cəzaya layiq gördü. Vaqif işdən çıxıb Bakıya getdi. Təranəni isə əri boşadı. İndi o, Mikayılgilin boş qalmış evində tək yaşayır. Oqtay uşaqlan ona vermədi.

Onu da deyim ki, məni də oradan çıxarıb başqa kəndlərə sahə müvəkkili göndərdilər. Ancaq üstündən neçə ay keçməsinə baxmayaraq, o günləri unuda bilmirəm. Həmişə gecələr yağış yağanda Qaradumanlı kəndində baş vermiş həmin qanlı cinayəti xatırlayıram. Axı o dəhşətli gecədə də yağış yağırdı?!

VII May - 2001

İTMİŞ QIZIN AXTARIŞI

May ayının 17-si idi. Axşam öz mənzilimdə oturub televizora baxırdım. «Xəbərlər» proqramında on altı yaşlı bir məktəbli qızın itkin düşməsi barədə elan verdilər. Qız təxminən bir ay əvvəl - aprel ayının 12-də məktəbdən evə qayıdarkən yoxa çıxıbmış. Televizorda qızın şəklini də göstərdilər. Onu görənlərdən xahiş olunurdu ki, rayon polis idarəsinin 4-cü polis bölməsinə məlumat versinlər. Polis bölməsinin telefon nömrəsi bir neçə dəfə təkrar olundu. Onuncu sinifdə oxuyan bu qız - Nəsirova Tahirə Bəxtiyar qızı olduqca gözəl bir qız idi. İfadəli baxışlanndan təmizlik, qürur və kədər oxunurdu.

Bəlkə də qızın baxışlarında oxuduğum kədər mənim hislərimin məhsulu idi. Amma hər halda, mənə elə gəlirdi ki, Tahirə ona baxan insanlara «Məni axtarın, tapın, xilas edin!» deyirdi.

Bir siqaret yandırıb balkona çıxdım. Bakının gündüzündən heç də az gözəl olmayan gecəsinə baxanda, bu dəfə şəhər mənə çox qəmli və müdhiş göründü. Fikirləşdim ki, gur işıqları sayrışan bu evlərə sakit-sakit baxırıq, amma xəbərimiz yoxdur ki, bu evlərdə nə hadisələr baş verir. Bax, Tahirə adlı o gözəl qız da bu evlərin hansmdasa yaşayırmış. Onun da yəqin atası, anası var. Onlar indi Allah bilir, nə



downloaded from KitabYurdu.org

çəkirlər. Qız özü indi sağdırsa, yəqin ki, bu evlərin hansmdasa gizlədilib. Son vaxtlar gənc qızların oğurlanıb xarici ölkələrə böyük məbləğə satılmaları haqqında da eşitmişdim. Hadisədən bir ay keçib. Kim bilir, Tahirə indi haradadır?

Jurnalistlik işimlə bağlı müxtəlif insanların qəribə taleləri ilə tanışlığım olsa da, heç vaxt bədbəxt hadisələrə biganə qala bilmirdim. Tahirənin surəti beynimə həkk olunmuşdu və hiss edirdim ki, onu yadımdan çıxarmaq o qədər də asan olmayacaq.

Gecə narahat yatdığıma görə Tahirəni yuxuda gördüm. Gördüm ki, dərsdən çıxıb səki ilə evlərinə doğru addımlayır. Tahirənin yanında qara rəngli bir maşın dayanır. Maşından iki nəfər üz-gözündən vəhşilik yağan kişi düşüb qızın qollanndan yapışır və onu maşına tərəf
VII sürüyürlər. Tahirənin ciddi müqavimət göstərməsinə baxmayaraq onu maşına salırlar və maşın yola düşür. Bu zaman qızın tükürpərdici qışqırığı maşından bütün şəhərə yayılır və həmin anda şəhərin bütün küçələrində maşınlar dayanır. Adamlar ayaq saxlayıb dəhşətlə ətrafa boylanırlar.

Yuxunun bu yerində ayıldım. Qərara gəldim ki, səhər hadisəni dərindən öyrənib, bu barədə
işlədiyim qəzetdə geniş məlumat dərc etdirim.

* * *

Səhər 4-cü polis bölməsinə gedib rəisə özümü təqdim etdim və xahiş etdim ki, hadisə haqqında öz fikrini bildirsin. Polkovnik-leytenant Səmədov xahişimi yerə salmadı.

- Siz yəqin ki, axşam televizorla verilən elanı eşitmisiniz. Hadisə isə bir ay bundan əvvəl olub. Elə həmin gün-aprelin 12-də qızın atası bizə məlumat verib. İşi kapitan Mehdiyevə tapşırmışıq. Zirək oğlandır. Ancaq təəssüf ki, qızın izinə düşə bilməmişik. Elə bil yağlı tikə olub göyə çəkilib. Atası elan verməyimizə razı olmurdu. Qızını dilə-dişə salmaq istəmirdi. Axırda çarəsiz qalıb televizorla elan verdirdik və şəklini çoxaldıb əməkdaşlanmıza payladıq. Görək nə çıxacaq?

- Xahiş edirəm, hadisənin necə baş verməsi haqqında bildiklərinizi


downloaded from KitabYurdu.org

danışın.

- Qız həmin gün saat 13.10-da dərsdən çıxıb. Rəfiqəsi ilə « Durna qatarı» kafesinin yanma kimi gəliblər. Orada rəfiqəsinin yolu ayrılır. Tahirənin isə ondan sonra evə qədər təqribən 150 metr yolu qalır. Tahirə də, rəfiqəsi də məktəbə piyada gedib-gəlirlər. Çünki məktəb evlərindən çox da uzaq deyil. Bizim qənaətimizə görə qız həmin 150 metr yolda yoxa çıxıb. Bina sakinlərinin heç biri onu evə qayıdan görməyib. Yeri gəlmişkən, onu da deyim ki, həmin vaxt qızgilin mənzillərində heç kəs olmayıb. Atası Bəxtiyar Nəsirov bənnadır, o gün də Keşlədə bir evdə işləyirmiş. Anası Leyla xanım həkimdir. Qardaşı Tahir isə xarici ticarət firmasında işləyir. Onlar da həmin vaxt işdə olublar. Birinci evə qayıdan Leyla xanım qızın evdə olmadığını
VII görüb narahat olur və oğlunu evə çağınr. Sonra isə ərinə xəbər göndərir. Özləri bir-iki yerə zəng vurub xəbər tuta bilmirlər və qızın atası bizə müraciət edir. Baxın, hadisə haqqında bildiklərimiz bunlardır. - Səmədov danışığına bir qədər ara verib, əlavə etdi: - Onu da deyim ki, hadisədən ötən bir ay beş gün müddətində əlimizdən gələni etmişik. Tahirənin müəllimləri, sinif yoldaşları hamısı dindirilib. Rəfiqəsindən ayrılandan sonra keçdiyi yolda olan mağaza, köşk və digər obyektlərin işçiləri dönə-dönə yoxlanılıb və danışdırılıb. Amma heç bir nəticə olmayıb.

Rəisə verməyə başqa sualım yox idi. Onunla sağollaşıb ayrılmaq istəyəndə gözüm stolun üstündəki qara cildli kitaba sataşdı. Bu, qonşum, kriminalistika doktoru Qanbay Qasımlının məhkəmə ekspertizasına aid kitabı idi. Kitaba işarə edib:

- Müəllifi tanıyırsız? - deyə soruşdum.

- Şəxsən yox! Amma haqqında eşitmişəm. İstefada olan polkovnikdir. Rusiyada cinayət- axtarış işində işləyib. İndi Bakıda, deyəsən, elmi işlə məşğuldur.

- Qonşumdur! - dedim. O heç də hər işə baş qoşmur. Ancaq bu məsələ onu maraqlandıra bilsə, sizə kömək etməyə razı olar.

- Nə deyirəm, - Səmədov əllərini yana açdı. - Belə işlərdə hamı əlindən gələn köməyi etməlidir.

...

downloaded from KitabYurdu.org

Rəisin yanından çıxıb redaksiyaya getdim. Tahirənin rəisdən aldığım şəklini və yazdığım qısa məlumatı müvafiq şöbəyə verib tələsik evə qayıtdım. Öz mənzilimə girməmiş qonşumla görüşdüm. Nədənsə, çox istəyirdim ki, o bu işlə məşğul olsun. Ancaq ağzımı açan kimi Qanbay Qasımlı bildirdi ki, mayın 19-da, yəni sabah axşam xaricə uçmalıdır. Artıq bilet də hazırdır. Tam açıq deməsə də izahatından belə başa düşdüm ki, o bu səfərə hansısa böyük rütbəli şəxsin gizli tapşırığı ilə gedir.

Qasımlıdan əlimi üzüb öz mənzilimə keçdim. Tahirənin fikrini birdəfəlik beynimdən çıxarmaq istədimsə də alınmadı. Nahar vaxtı həyat yoldaşımla söhbətdə özümdən asılı olmayaraq itkin qızdan söhbət saldım. Fədayə axşamkı elanı eşitməmişdi.

VII - Bəlkə qız özü kiməsə qoşulub qaçıb? - dedi.

- Heç inanmıram, - dedim. - Şəklindən çox ağıllı qıza oxşayır.

- Nə bilim vallah! - Fədayə canıyananlıq elədi. - Yazıq onun anasının halına. Təsəvvür edirəm indi o nə çəkir.

Ağlıma gəldi ki, nahardan sonra gedib qızın anası ilə də görüşüm. Kimlərinsə itkin düşməsi, hətta öldürülməsi hadisələrini çox eşitsəm də heç vaxt bu cür hissiyyata qapılmamışdım. Ona görə də bir qızın itməsinin ürəyimi beləcə təlatümə gətirməsinin səbəbini özüm də başa düşə bilmirdim. Yəqin ki, insan eşitdiyi, gördüyü hadisəni heç də həmişə tam reallığı ilə dərk edə bilmirmiş. Bəlkə Tahirənin şəklində gördüyüm qüssəli gözlər idi bu işə qeyri-adi münasibətimin səbəbi? Deyə bilmərəm. Ancaq yoxa çıxmış qızın və onun valideynlərinin keçirdiyi əzabları duymağa başlamışdım.

Həkim Leyla Nəsirovam işlədiyi poliklinikada, öz kabinetində tapdım. Leyla xanım ilk baxışda mənə yaxşı təsir bağışladı. İlahi, Tahirənin gözləri anasının gözlərinə necə də oxşayırdı. Ancaq Leyla xanımın canlı gözlərində kədər daha dərin kök salmışdı. Nə qədər kədərli olsa da, məni mehribanlıqla qarşıladı. Deyəsən məni xəstə hesab etmişdi.

Mən müxbir olduğumu və Tahirənin yoxa çıxması ilə maraqlandığımı bildirdim. Leyla xanım o saat tutuldu. Bir qədər sükut

downloaded from KitabYurdu.org

yarandı. Hiss edirdim ki, bacardığı qədər çalışır ki, ağlamasın. Ancaq deyəsən özünü ələ almağı bacaran qadın imiş. Mənim gözlədiyimi görüb danışmağa başladı:

- Heç elə bil mənim o adda qızım olmayıbmış. Elə bil bu on altı ildə gördüklərim xəyal imiş. Atası həmin gündən işə getmir, nə də evdə dayana bilmir. Havalı kimi küçələri gəzib qızı axtarır. Gündə neçə dəfə polisə gedib-gəlir. Qardaşı yazıq bacısı itən gündən elə bil lal olub. Evdə heç nə danışmır. Onun dərd çəkməyi ürəyimi daha da parçalayır. Atası da, mən də

çalışırıq onun yanında qızdan söhbət salmayaq. Axşamlar yerinə girib yuxuya gedəndən sonra çarpayısının yanında oturub üzündən öpürəm, saçlarını tumarlayıram. Tahirənin də qoxusunu ondan almaq istəyirəm. Necə eləyim? Əlimdən heç nə gəlmir. Gəlib işdə otursam da qız bir dəqiqə yadımdan çıxmır...



Leyla xanım danışıqlarına ara versə də mən dillənməyib onun yenidən danışacağını gözlədim. O, gözlərini döşəməyə zilləyib bir qədər susduqdan sonra dərindən ah çəkib başını qaldırdı:

- Bilirsiniz necə yaxşı uşaq idi? Ağıllı, işgüzar. Tez-tez deyirdi: «Ana sənə qurban olum, necəsən?», «Ana qurban olum, sən dincəl, filan işi mən görərəm.»- yenə ah çəkdi. - Yazıq balamın başına nə faciə gəldi, bilmirəm. Hər dəqiqə səsi qulağıma gəlir ki, ana, məni niyə axtarmırsan? Axı necə axtarım? Harada axtarım?

- Ümidinizi kəsməyin, - dedim. - Mən səhər polis idarəsində oldum. Onlar axtarışı davam etdirirlər.

- Daha ümidimi demək olar ki, kəsmişəm. Tapsaydılar indiyə kimi tapardılar. Düz otuz altı gün keçib uşağın itməyindən.

Hiss etdim ki, Leyla xanım bu sözləri çox böyük əzabla dedi. Həmin vaxt onun halına nə qədər acıdığımı dillə deyə bilmirəm. Bir qədər fikirləşib nəhayət qəti qərara gəldim:

- Mən sizə bir nəfərin ünvanını verə bilərəm. Yaxşı olar ki, axtarış üçün ona da müraciət edəsiniz.

- O kimdir ki? - tələsik soruşdu.

- Məşhur xəfiyyədir, - dedim. - Rəsmi olaraq işləməsə də çətinə

downloaded from KitabYurdu.org

düşənlərə kömək əlini uzadır. Ancaq onu da deyim ki, sabah axşam o xaricə uçmalıdır. Bilmirəm, sizə razılıq verəcək ya yox.

- Hər halda, xahiş edirəm, onun ünvanını verin! Mən bir övladı kimi onun ayaqlarına düşüb yalvarmağa da hazıram.

Mən bloknotumdan vərəq cırıb Qanbay Qasımlımn ünvanını yazdım.

- O siz fikirləşən kimi yaşlı deyil. Cəmi qırx bir yaşı var. Ancaq buna baxmayaraq təcrübəli və bilikli adamdır. Buyurun, bu da onun ünvanı.

Leyla xanım ünvanı məndən alan kimi getmək üçün hazırlaşmağa başladı. Mən onun bu hərəkətini başa düşdüyüm üçün incimədim. Sağollaşıb kabinetdən çıxdım və redaksiyaya yollandım. Redaksiyada

VII iş vaxtımın sonunu gözləməyə səbrim çatmadı. İşdən bir qədər tez çıxdım. Evə qayıdanda bir bəhanə ilə üzbəüz qonşumun yanma getdim. Qanbay Qasımlı məni görüb gülümsündü:

- Axır ki, məni yola gətirdiniz, Nemət müəllim! Mən itmiş qızın axtarışı ilə məşğul olmağa razılıq verdim. Səfərimi isə mayın 26-na keçirtdirmişəm. Gedin hazırlaşın, polis idarəsinə gedəcəyik.

- Sizə hər cür kömək etməyə hazıram! - deyə sevincək cavab verdim.

- Onda vaxt itirməyək!

Biz mənim maşınımla hadisə baş vermiş rayonun dördüncü polis bölməsinə yollandıq.

* * *

Bölmə rəisi ayağa qalxıb bizimlə hörmətlə görüşdü və əyləşməyi təklif etdi. Məşhur xəfiyyə rəisin sağ tərəfində - göstərilən stulda oturan kimi vaxtı uzatmadan sözə başladı:

- İtkin düşən Nəsirova Tahirə Bəxtiyar qızının anası onun axtarışında iştirak etməyimi məndən xahiş edib. İcazə versəniz, mən sizə qeyri-rəsmi kömək edəcəyəm. Adımı heç yerdə hallandırmaq lazım deyil. İşi kimə tapşıransınız?

- Əməliyyat müvəkkili kapitan Mehdiyevə!

- Səmədov düyməni basıb Mehdiyevi yanma çağırdı. Kapitan otağa

downloaded from KitabYurdu.org

girən kimi rəis onu bizimlə tanış etdi: - Qanbay müəllim təcrübəli cinayət - axtarışı ekspertidir. Müstəqil adamdır. Nəsirova Tahirənin axtarışında bizə kömək etmək istəyir. Ona lazım olan imkanı yaradın!

- Oldu, rəis!

Səmədov kapitana da oturmağa yer göstərib üzünü Qanbay Qasımlıya tutdu:

- Bakıda yəqin ki, bilirsiniz, bu cür qız uşaqlarının yoxa çıxması hadisəsi təsadüfü deyil. Bizim bölmənin ərazisində, mənim rəisliyim dövründə bu ikinci hadisədir. Bu il fevralın yeddisində doqquzuncu sinifdə oxuyan Quliyeva Aygün Nəsib qızı da yoxa çıxıb. O da məktəbdən evə qayıtmamışdı.

Rəis stolun siyirməsindən bir qız şəkli çıxarıb Qasımlmm qarşısına
VII qoydu.

- Biz məktəbdə çoxlarını dindirdik. Məlum oldu ki, itməmişdən bir həftə əvvəl gənc bir oğlan onun arxasınca düşürmüş. Yoxa çıxandan bir gün əvvəl Aygünün rəfiqələri hətta onu Aygünlə söhbət edən də görüblər. Onlar Aygündən oğlanın kimliyini soruşublarmış. Dediklərinə görə, oğlan institut tələbəsi imiş. Hansı institutun olmağı deyilməyib. Ancaq oğlanın əlamətlərini də demişdilər. Orta boylu, qarasaç, yaraşıqlı bir oğlan imiş. Üst dodağından azacıq yuxanda, sağ tərəfdə kiçik xal varmış. Vəssalam. Axtarışlarımız heç bir nəticə verməyib. Qız hələ də tapılmayıb.

- Siz bu iki hadisə arasında əlaqə görürsünüz? - Qasımlı soruşdu.

- Demək olar ki, yox! Qızlar ayrı-ayn məktəblərdə oxuyurdular. Aygünü dediyim oğlanla görüblər. Tahirəni isə bir dəfə də olsun elə bir oğlanla görən olmayıb. Onun heç oğlan dostu da yoxdur. Ümumiyyətlə, Tahirə ciddi ailənin qızıdır. Haqqında deyilənlərdən, çox tərbiyəli qızdır. Şəklinə baxmaq istəyirsiz?

- Xeyr! Anasından almışam. Siz mənə daha nə məlumat verə bilərsiniz?

- Təəssüf ki, heç bir şübhəli şeyə rast gəlməmişik. Tahirə « Durna qatan» kafesinin qabağında rəfiqəsindən ayrılıb. Kafedən evə qədər

downloaded from KitabYurdu.org

olan yüzmetrlik bir məsafədə yoxa çıxıb.
Bu yol boyu onu görə bilən bütün adamlarla söhbət aparmışıq. Görən olmayıb.

- Bəlkə rəfiqəsi nəsə bilir? Bəlkə sizə yalan danışıb? - deyə mən soruşdum.

- Yox! Tahirə ilə rəfiqəsi həmişə həmin yerdə aynlıblar. Buna şahidlər var. Həm də, rəfiqəsi öz evlərinə rahat getmək üçün məhz həmin yerdə Tahirədən aynlmalıdır.

Qasımlı ayağa qalxdı:

- Mən Leyla xanıma söz verdiyim üçün qızın axtarışı ilə məşğul olacağam. Təəssüf ki, vaxtım azdır. Bizə icazə verin, Mehdiyevin kabinetinə gedib onun topladığı izahatlarla tanış olaq.

VII Kapitan Mehdiyevin otağına keçdik. Kapitan qonşumun qarşısına bir qovluq qoydu. Qasımlı cibindən «Kent» siqaret qutusunu çıxarıb bir siqaret yandırdı və qovluğu açdı. Sənədləri bir- bir gözdən keçirməyə başladı.

Mən və kapitan Mehdiyev sakit oturub danışmırdıq. Müəmmalı işlərdən baş çıxarmağın ustası olan xəfiyyə bütün diqqətini izahatlara verib, sanki bizim otaqda olduğumuzu da unutmuşdu. Görəsən, bu cansız kağızlar sirli şəkildə yoxa çıxmış bədbəxt qız haqqında bir şey deyə bilərdimi? Qasımlı bir sənədi oxuyandan sonra mənalı tərzdə mənim qarşıma qoydu və özü digər kağızları oxumağa başladı. Qarşıma qoyulan sənəd Tahirənin sinif rəhbəri Solmaz müəllimənin izahatı idi. İzahatda yazılmışdı: «Mən altı il Nəsirova Tahirənin sinif rəhbəri olmuşam. Tahirə təkcə sinifdə yox, bütün məktəbdə seçilən ən ağıllı, tərbiyəli şagirdlərdən biri idi. Dərs əlaçısı, ictimaiyyətçi şagird idi. Utancaq olmaqla yanaşı, qürurlu və möhkəm təbiətli qız idi. Onu yoldan çıxarmaq mümkün ola bilməzdi. Verilən suala cavab olaraq bildirirəm ki, onun oğlan dostu yox idi və məktəbdən kənarda da hansısa oğlanla tanışlığına inanmıram. Anası Leyla xanım təmiz qadındır və qızma qarşı da çox tələbkar idi. Onun qızı şübhəli adamlara qoşula bilməzdi. Tahirənin əsas rəfiqəsi və evə gedərkən yolun çox hissəsində onunla yol yoldaşı olan Zibeydə də təmiz ailənin

downloaded from KitabYurdu.org

uşağıdır və ondan da heç bir narazılığım yoxdur ».

İzahatı oxuyub Qasımlıya qaytardım. O bu dəfə qarşıma Tahirənin yazdığı «Mənim arzum» mövzusunda inşa yazısını qoyub Mehdiyevdən soruşdu:

- Sənədləri siz toplamısız?
- Bəli! - kapitan cavab verdi.

- Yaxşıdır! Baxın, bu inşa qızın daxili psixologiyasını daha çox açır və mənim üçün başqalarının onun haqqında yazdıqları xasiyyətnamələrdən daha qiymətlidir.

Kapitan dinmədi. Mən inşanı oxuduqca Tahirəyə valeh olurdum. Necə isti ürəyi, təmiz hissləri var imiş. Ən böyük arzusu anası kimi həkim olmaq imiş bədbəxtin. Yazıda Tahirənin insanlara məhəbbəti o qədər qabarıq əksini tapmışdı ki, istər-istəməz düşünməli oldum: Əgər Tahirə sağdırsa, görəsən insanlara məhəbbəti azalmayıb ki? Axı onu oğurlayıb valideynlərindən, qardaşından ayrı salanlar da insanlardır. Amma yox! Onlar insan deyillər. Lap yəqin ki, insan deyillər! Yalnız xarici görünüşdən insana bənzəyən iblisdirlər!



Təcrübəli ekspert bütün izahatlarla tanış oldu. Mehdiyev Tahirənin müəllimləri, sinif yoldaşları ilə yanaşı, yaşadığı binanın sakinləri və ailə üzvlərindən də izahatlar alıb qovluğa doldurmuşdu.

Biz kabinetdən çıxanda Qasımlı kapitan Mehdiyevdən telefon nömrələrini aldı. Mehdiyev bildirdi ki, bu gecə növbətçidir və yerində olacaq.

Maşına minən kimi:

- Hara gedəcəyik? - deyə soruşdum.

- Sür Tahirəgilin məktəblərinə. Sonra isə evlərinə gedib atası ilə görüşərik.

- Bilirsiniz saat neçədir? Axşama az qalıb. Məktəbdə kim var ki, indi?

- Məktəb ki yerindədir! - Qasımlı gülümsədi. Mən bir söz deməyib mühərriki işə saldım. Maşın məktəbin qarşısında dayananda polkovnik maşından düşüb:

- Siz məni Tahirəgilin evinin qabağında gözləyin. Mən piyada

downloaded from KitabYurdu.org

gələcəm, - dedi və evin
ünvanı yazılmış kağızı mənə verdi.

* * *

Ev uzaqda deyildi. Maşını sürüb düz blokun qarşısında saxladım. Düşüb gəzinə-gəzinə Qasımlım gözləməyə başladım. Qasımlı iyirmi dəqiqəyə gəlib çıxdı. Biz dördüncü mərtəbəyə qalxıb 43-cü mənzilin zəngini çaldıq. Qapını Tahirənin atası açdı. Bu orta boylu, sadə görkəmli bir kişi idi. Bəxtiyar bizi tanımadı. Mən özümüzü təqdim edəndən sonra bizi şübhəli nəzərlə süzüb sənəd istədi və göstərdiyim vəsiqəni görəndən sonra bizi içəri dəvət etdi. Leyla xanım və oğlu Tahir də evdə idilər. Bədbəxt ana bizi mehribanlıqla qarşılayaraq tez çay hazırlamağa başladı. Biz stol arxasında oturanda üzücü sükut
VII yarandı və nəhayət bu sükutu Qasımlı pozaraq Bəxtiyara müraciət etdi:

- Söz yox ki, sizin izahatlarınızı oxumuşam. Leyla xanımla söhbət etmişəm. Ancaq yenə ehtiyac duydum ki, sizin hər üçünüzü dinləyim. Hadisə haqqında nə bilirsiniz? Nə kimi yeni fikirləriniz var?

Bəxtiyar Nəsirov başını aşağı dikib bir qədər susdu. Sonra qəhərlənib əllərini yana açdı və sözə başladı:

- Nə bilim? Elə iş orasındadır ki, heç nə ağlımıza gəlmir, heç kimdən, heç nədən şübhəmiz də yoxdur. Beş addımlıq yolda qız hara qeyb olub, ağlıma gətirə bilmirəm. Mən bir dəfə ona nəsihət vermişəm ki, məktəbə gedəndə başını aşağı sal get, başını aşağı sal qayıt, heç bir yoldaşına qoşulub heç yana getmə! O da həmişə sözümə əməl edib. Bu on ildə tək bir dəfə - üç il əvvəl bir sinif yoldaşının - qız xeylağının ad gününə getməyə icazə vermişəm. Onda da anası ilə gedib. Vəssalam. - Bəxtiyar bir az ara verib yenə danışmağa başladı: - Nə bilim? Bənna adamam. Həmişə halal çörəyimi yemişəm. Heç kəsə pisliyim dəyməyib. Düşmənim də yoxdur.
Bu nə işdi Allah başıma gətirdi bilmirəm. Aydan çoxdu işə çıxmıram, hər gün ora-bura qaçıram. Neçə baxıcının, falçının yanma getmişəm. Çoxu deyib ki, uşaq sağdı, ancaq əlçatmaz yerdədi. Nə bilim? Əlimdən nə gəlir? - Bəxtiyar yenə əllərini çarəsiz yana açıb sözünü

downloaded from KitabYurdu.org

qurtardı.

- Bacınızın yoxa çıxması haqqında siz nə deyə bilərsiniz? - Qasımlı bayaqdan sakitcə atasına qulaq asan Tahirə üz tutdu. Tahir təqribən iyirmi beş yaşında arıq bir oğlan idi. Nazik qara bığlan sifətinə yaraşıq verirdi. Danışdıqca həyəcanlanır, çəkdiyi əzabı açıq-aşkar büruzə verirdi:

- Mən həmin gün işdə idim. Xarici firmada kompüterdə işləyirəm. Anam saat 6-da mənə zəng vurub dedi ki, qız evdə yoxdur, bilmirsən haradadır? Dedim yox. Dedi tez evə gəl. Mən gəldim. Sonra atamı çağırmağa getdim. Atam gəlib polisə xəbər verdi.

- Sizin deməyə təzə sözünüz yoxdur ki, Leyla xanım? - Qasımlı süfrəyə çay stəkanlarını düzən ev sahibəsindən soruşdu.

VII - Yox! Allaha yalvarıram ki, ürəyimə qüvvət versin, ölməyim, qızın ölüsündən, dirisindən xəbər bilim. - Leyla xanım ağlamağa başladı.

Qasımlı ona ürək-dirək vermək fikrindən vaz keçib Bəxtiyara növbəti sualını verdi:

- Bakıda qohumdan-qardaşdan kiminiz var? Bu işdə sizə yardım etmək istəyənlər varmı?

- Qohum-qardaş deyəndə ki, bir o qədər yaxınlarımız yoxdur. Mən özüm buralıyam. Bir bacım var, Yasamalda olur. Əri ticarətlə məşğul olur. Rusiyadadır. On yaşında bir oğlanları var. Leyla Gəncədəndir. Orada iki qardaşı var. İkisi də müəllimdir. Biri ali, biri orta məktəbdə. İkisinin də körpə uşaqları var. Doğrusu əlaqələrimiz zəifdir. Az-az gedib-gəlirik. Onlar da hadisəni biləndən sonra gəldilər. Ürək-dirək verdilər. Pul təklif elədilər. Onların əllərindən nə gələcək? Bir də üzbəüz qonşumuz Ağaəhməddi. Tahirlə arası yaxşıdır. O da hərdən əlindən gələni edir, təskinlik verir. Bir-iki dəfə baxıcı yanma gedəndə öz «Jiquli»si ilə apanb.

- Bina sakinlərindən kiminlə gediş-gəlişiniz var? Tahirə bibisigilə, ya qeyri yaxınların mənzilinə gedirdimi?

- Yox, yox! Heç yerə! Heç kimlə əlaqəsi yox idi. Bir sinif yoldaşları ilə ola bilərdi. Onlarla da ancaq məktəbdə.

downloaded from KitabYurdu.org

- Yaxşı, indi icazə verin Tahirənin şəxsi əşyaları ilə tanış olum. Əsasən məktəb ləvazimatlarını nəzərdə tuturam.

- Buyurun, buyurun! - Bəxtiyar bizi qonşu otağa dəvət etdi.

Biz göstərilən otağa keçdik. Qasımlı Tahirənin kitab şkafındakı hər şeylə dərindən maraqlanmağa başladı. Kitabları, şkafın alt qapalı siyirməsindəki dəftərləri və şəkil albomunu səbirlə vərəqləyirdi. Albomdakı fotoların əksəriyyəti bayram süfrələrində çəkilmiş ailə şəkilləri idi. Tahirənin tək və sinif yoldaşları ilə də şəkilləri var idi. Albomu örtüb yerinə qoyandan sonra Qasımlı bir stulu yaxma çəkib əyləşdi və dəftərləri vərəqləməyə başladı.

Dəftərlər çox idi və demək olar ki, hamısı eyni formalı dəftərlər idi.

Biz xəfiyyəyə mane olmamaq üçün ona yaxınlaşmırdıq. O, bütün

VII dəftərləri gözdən keçirib, onlardan birini kənara qoydu və digər xırda əşyalara nəzər yetirdi. Daha sonra ayağa qalxıb:

- Biz getməliyik! - dedi. Ancaq qızınız haqqında daha məlumatlı olmaq üçün qonşularla da danışmağım pis olmazdı. Xahiş edirəm, üzbəüz qonşunuzla bizi tanış edin və sonra mənzilinizə qayıdın.

- Yaxşı, nə deyirəm.

Biz mənzildən çıxanda bizi yola salan Leyla xanım heç nə deməsə də Qasımlı deyəsən onun yalvaran baxışlarının mənasını başa düşdü.

- Arxayın olun, Leyla xanım, mən sizə söz vermişəm!

Yazıq ananı qəhər boğduğu üçün heç nə deyə bilmədi.

Bəxtiyar mənzildən çıxıb qonşunun qapısmdakı düyməni basdı. Qapını qırx yaşlannda, hündür boylu, sağlam bədənli, qalın bığları olan bir kişi açdı. Əvvəlcə Bəxtiyara, sonra bizə baxdı. Bəxtiyar:

- Ağaəhməd, bunlar qızla əlaqədar gəliblər,

- dedi.

- Başa düşmədim... - Ağaəhməd təəccübləndi.

- Polisdəndirlər. Qonşu kimi səninlə danışmaq istəyirlər. Bəxtiyar bunu deyib daha yanımızda dayanmadı və öz mənzilinə keçdi. Ağaəhməd bizi evə dəvət etdi. Biz içəri keçdik. Stolun üstündəki iki boşqabda xörəklər yarımçıq qalmışdı. Qasımlı tələsdiyini söyləyib oturmaq istəmədi. Ağaəhmədin gənc arvadı o biri otaqdan gəlib salam

downloaded from KitabYurdu.org

verdi və maraqla bizə baxmağa başladı.

Qanbay Qasımlı salamı alıb mehribanlıqla Ağaəhmədə baxdı:

- Allah saxlasın, bu yaşda elə bircə körpə uşağınız var?

- Bəli, yaşımıza baxmayın, doğurdan da birinci övladımızdır. Nədən bildiniz?

- Bunu bilməyə nə var ki? - Qasımlı əli ilə divanın üstünə tökülmüş çörək qırıntılarını göstərdi. - Ancaq çətinliklə və belə gec tapılmış uşağı yad adamlar içəri girəndə qonşu otaqda gizlədərlər. - Qasımlı güldü. Lakin tez də ciddiləşib əlavə etdi: - Bağışlayın, zarafat etdim. Bir valideyn kimi qonşularınızın halını başa düşməmiş olmazsınız. Mən Leyla xanıma söz vermişəm ki, qızını tapım. Bəxtiyar sizi yaxşı adam hesab edir. Onu uzaqlaşdırdım ki, açıq danışa biləsiniz. Əgər
VII onlara kömək etmək istəyirsinizsə, düzünü deyin, Tahirəni hər hansı oğlanla görüşən görmüsünüzmü və ümumiyyətlə, onunla maraqlanan olubmu? Tahirənin özü haqqında fikriniz nədir?

Birinci Ağaəhmədin arvadı dilləndi:

- Yox, yox, qardaş, nə danışırsınız? Heç elə şey olar? Mən hələ indiyə qədər onun kimi utancaq, mərifətli qız görməmişəm. O ki hələ uşaqdı, onun nə vaxtıdı ki, oğlanla da görüşsün?

Ağaəhməd arvadının sözünə qüvvət verdi:

- Dördüncü polis bölməsindən kapitan Mehdiyev də bizi bu barədə sorğu-sual etmişdi. Ona da dedim. Həqiqətən, Tahirə kimi qız mən hələ görməmişəm. Qızım olsun, çox həyalı uşaqdır. O ki qaldı onunla maraqlanan, ya görüşən, vallah, nə görməmişəm, nə də eşitməmişəm. Sakitcə məktəbə gedib-gəlirdi. Yazığın başına nə faciə gəldi, Allah bilir, baş açmaq çətindir.

Qasımlı fikrə getdi. Elə bil çıxılmaz vəziyyətə düşmüşdü və daha nə soruşacağını bilmirdi. Nəhayət dilləndi:

- Bağışlayın, sizi narahat etdim. Amma hər halda ola bilər ki, digər qonşular nə isə bilib qızın valideynlərindən gizlətsinlər, elə bir şey olub eləsə mütləq xəbər verin.

- Arxayın olun!

Biz mənzildən çıxıb aşağı düşdük və maşına mindik. Hava

downloaded from KitabYurdu.org

qaralmışdı. Qanbay Qasımlı evə sürməyi xahiş etdi. Evə çatanda qonşumun xahişi ilə ikimiz də onun mənzilinə girdik. Qasımlı şlyapasını və pencəyini çıxanb şkafdan asdı. Pencəyin cibindən bir dəftər çıxarıb açdı və
stolun üstünə atıb barmağını «5 aprel» yazısının üstünə qoydu:

- Buradan oxuyun!

* * *

Mən dəftərin Tahirənin şkafından götürüldüyünü başa düşüb təəccüblə qonşuma baxdım və divanda oturub tələsik yazını oxumağa başladım. Bu Tahirənin gündəliyi idi.

«5 aprel. Bu gün bir oğlan uzaqdan dalımızca düşmüşdü. Zibeydə ayrılıb gedən kimi oğlan arxadan mənə yaxınlaşıb, tanış olmağı təklif etdi. Mən onun üzünə baxdım və heç nə demədən çevrilib yoluma davam etdim. Daha bilmədim, yenə dalımca gəldi, yoxsa yox».



«6 aprel. Bu gün Kazım müəllim dedi ki, səndən yaxşı ədəbiyyat müəllimi olacaq. Dinmədim. Ancaq mən həkim olmaq istəyirəm. Anam kimi. Anama qurban olum, onu elə istəyirəm ki! İstəyirəm ki, o həmişə belə cavan, gözəl qalsın, heç vaxt qocalmasın! Elə atam da. Mənim üçün o qədər əziyyət çəkir ki, yazıq...»

«7 aprel. Gecə saat 2-dir. Kimyadan dərsimi indi hazırlayıb qurtardım. Hamı yatıb. Təkcə mən oyağam. Tibb universitetinə qəbul olunsam, yəqin ki, bütün əziyyətlərimi unudacaq və bu günlərimi xoş xatirə kimi anacağam. Bu gün axşam evə qayıdanda Tahirin başı ağrıyırdı. Naxoş kimi idi. Başının ağrısı mənə gəlsin, ay qardaş!»

«8 aprel. Bu gün Solmaz müəllimə uşaqlann qarşısında məni xeyli tərifədi. Doğrusu lap xəcalət çəkdim. Solmaz müəllimə hamımız üçün ikinci anadır. Ancaq istəmirəm ki, məni belə çox tərifləsin ».

«9 aprel. Bu gün bazar günüdür. Bəzi ev işlərini görəndən sonra «Qətl günü» romanını oxuyub qurtardım. Aprelin 12-də məktəbdə müzakirəsini keçirəcəyik. Əsas məruzəçi mənəm. Roman barədə fikirlərimin hamısını anamla bölüşdüm. Yəqin ki, onu xeyli yordum».

«10 aprel. Bu gün Zibeydədən ayrılandan sonra həmin oğlan yenə mənə yanaşdı. Deyəsən o hər gün arxamızca gəlir. Ancaq görmürük.

downloaded from KitabYurdu.org

Yaxınlaşıb adının Zaur olduğunu, universitetin kimya fakültəsində oxuduğunu dedi və mənim adımı soruşdu. Mən cavab verməyib addımlanmı sürətləndirdim və özümü evə çatdırdım.
Bilmirəm bunu anama deyim, yoxsa yox? Amma deyib qayğısını artırmaq da istəmirəm».

«ıı aprel. Bu gün axşamüstü oturub dərslərimi hazırlayanda Tahir gəlib yanımda dayandı. Nə çox oxuyursan? - dedi. Elə bil mənə yazığı gəlirdi. Yəqin imkan olsaydı alıb dərslərimi mənim əvəzimə oxuyardı. Əlini saçlarıma çəkib getdi. Lap kövrəldim. Tahiri dünya qədər istəyirəm. Onun ayağına daş dəysə ürəyim partlayar. Ondan ayn bircə gün də dözmərəm. Sabah «Qətl günü» romanının müzakirəsidir. Yaman həyəcanlanıram ».

VII Gündəlik burada yarımçıq qalmışdı. Dəftərin əvvəlini açdım. Tahirə gündəliyi sentyabrın 19- dan, 15 yaşı tamam olduğu gündən yazmağa başlamışdı. Gündəlik elə bu sözlərlə də başlayırdı. «Bu gün on beş yaşım tamam oldu».

Başımı qaldırdım. Qasımlı mənə mənalı tərzdə baxırdı. Deməli, Zaur adlı bir oğlan həmin günlər Tahirə ilə maraqlanırmış. Əslində yəqin ki, adını yalandan uydurub. Bu elə Aygün adlı qızı aldadıb tora salan xallı oğlan olmasın?

Qasımlı qəhvə dəmləyib hərəmizə bir fincan süzdü. Gündəliyi məndən alıb kreslosunda oturdu. Dəftəri bir daha diqqətlə oxuyub bir siqaret yandırdı və elə dərin fikrə daldı ki, deyəsən, süzdüyü qəhvəni içmək də yadından
çıxmışdı. Mən çalışırdım ki, səs salıb onun düşünməyinə mane olmayım. Divanda oturan bu sadə, mehriban, ancaq bəzən kimlər üçünsə olduqca təhlükəli olan insana tamaşa edirdim. Artıq onunla tanışlığımızın, daha doğrusu, bizim binaya - mənimlə üzbəüz mənzilə köçməsinin müddəti iki ilə yaxınlaşırdı. Ancaq hələ də onun şəxsi həyatı mənim üçün müəmmalı idi. Bu da ondan irəli gəlmişdi ki, Qanbay Qasımlı ümumiyyətlə, özündən danışmağı sevmirdi. On beş ilə yaxın Rusiyada Baş Cinayət Axtarış idarəsində çalışmış bu adam necə olmuşdu ki, qırx yaşındı istefaya çıxıb öz vətəninə -

downloaded from KitabYurdu.org

Azərbaycana qayıtmışdı? Nəyə görə indiyə kimi ailəsizdir? Onun qapalı və kədərli həyat sürməsinin səbəbi nədir? Qasımlı qapalı adam olmasaydı, bu sualların cavabını çoxdan onun özündən alardım. Ancaq o qapalı və dərdli adam idi. Hərdən qəfil başağrıları tuturdu ki, üzə vurmaq istəməsə də buna çox çətinliklə dözürdü. Onu təsadüfü vaxtlarda gülümsəyən görürdüm. Bu da adətən istehzalı gülüş olurdu. Əslində Qasımlı yumor hissindən məhrum adam deyildi, ancaq hansı bir səbəbsə onu şənlənməyə qoymurdu.

Qonşum düşüncələrdən ayrılıb soyumuş qəhvədən bir qurtum içdi. Ayağa qalxıb telefon aparatına yaxınlaşdı və dəstəyi qaldırıb nömrəni yığdı:

- Alo! Mehdiyev, sizsiz? Qasımlıdır. Sabah səhər yoxlayın, Universitetin kimya fakültəsində Zaur adlı oğlan varmı? Varsa, səs-küy yaratmadan onu idarəyə, öz kabinetinizə gətirib təcili mənə xəbər verin... Eybi yoxdur. Neçə Zaur varsa gətirin! Sağ olun!

Mən həqiqətən təəccübləndim. Qasımlıdan çıxmayan iş.

- Niyə belə tələsirsiniz, Qanbay müəllim? Duyuq salmaq nəyə lazımdır?

O gəlib kreslosunda oturdu. Gündəliyi əlinə götürüb yelləməyə başladı.

- Nemət müəllim, bu gündəlikdə yazılanlar sizə nə deyir?

- Mənə deyir ki, Zaur Tahirənin itməsi ilə bağlı adamdır. Yadınızdadırım, Səmədovun dedikləri? Bundan əvvəl itmiş qızın da bir cavan oğlanla-institut tələbəsi ilə görüşdüyünü görmüşdülər. Ancaq əlbəttə ki, bu işdə Zaur əsas sima deyil. O, hansısa başqa naməlum adamların göstərişini yerinə yetirib.

- Nəyə görə belə düşünürsünüz?

- Ona görə ki, - fikrimi əsaslandırmaq üçün bir az baş sındırmalı oldum. - Cavan bir oğlan təkbaşına belə qorxulu və əclaf işə girişməyə cəsarət etməz.

- Bilirsiniz, Nemət müəllim, - başladığı iş sona yetməmiş düşüncələrini bölməyə adət etməmiş Qasımlı çətinliklə dilləndi. - Tahirə haqqında topladığım məlumatlar əsasında onu tamamilə



downloaded from KitabYurdu.org

öyrənmişəm. Onun hər dalınca düşən təsadüfü oğlanın şirin dilinə iki-üç gün ərzində uymağı və hətta yolunu dəyişib onunla harasa getməyi mümkün deyil. Gündəlikdən görünür ki, Zaur qıza aym 5-də və 10-da yanaşıb. Özü də Zaur həyasız gəncə oxşamır. Fikir verirsinizmi, 5-dən 10-dək arada qıza yaxınlaşmağa cəsarət etməyib. Həmin günlər və bir də 11-də o qıza yaxınlaşsaydı, bu barədə gündəlikdə bir qeydə rast gələrdik. Zaur Tahirəyə iki dəfə yaxınlaşıb və heç birində Tahirə ona bir kəlmə söz deməyib. Deməyibsə və aprelin 11-də Zaurun haqqında nəsə bir kəlmə yazmayıbsa, deməli, qız Zaura bir o qədər də ciddi fikir verməyib. Bu işin ikinci başı da var. Qız Zaura bir kəlmə də söz deməyibsə, deməli, Zaur yenə onun arxasınca düşməyə davam edəcəkdi. Lakin aprelin ıı-də qıza yaxınlaşmayan Zaur 12-də
VII yaxınlaşıb ciddi bir üstünlük əldə edə bilməzdi. Tahirənin xarakteri bunu deməyə əsas verir.

- Ümumiyyətlə, bu iş barədə siz nə fikirdəsiniz? - deyə soruşdum. Ancaq heç inanmırdım ki, o mənə qəti bir söz deyə.

- Bu iş dolaşıq işdir. İzahatlar və həm də gündəlikdən, görünür, ki, Tahirənin bizə məlum olmayan gizli bir dostu və ya tanışı yoxdur. Olsaydı, gündəlikdə bu barədə kiçik də olsa, bir işarəyə rast gələrdik. Mən Bəxtiyara qohumlar barədə sual verdim. Onların arasında da, elə bir adam yoxdur ki, Tahirə kimi ciddi, valideynləri qarşısında məsuliyyətini dərk edən bir qızı evlərinə beş-on addım qalmış yoldan eləyib xoşluqla harasa apara bilsin. Zaur isə Tahirənin həyatında təzə adam olub və o da bu tezliklə qızın üzərində güclü təsirə malik ola bilməzdi. Qalır kimlərinsə qıza hücum edib zorakılıqla onu qaçırması, buna da inana bilmirəm. Çünki həmin yol kənannda obyektlər çoxdur və səkidə də həmişə gediş-gəliş olur. Zorakılıq olsaydı bunu çoxlan görüb bilərdi.

- Zaurun qızın oğurlanması ilə əlaqədar olmadığına inanırsınızsa, onda o sabah sizin nəyinizə lazımdır?

Qanbay Qasımlı əllərini yana açdı:

- Axı izah etdim?! Mən inanıram ki, Zaur aprelin 12-də də qızın dalınca düşüb. Bəlkə də bu belə deyil. Ancaq hər halda mənim

downloaded from KitabYurdu.org

ümidim Zauradır. Sabah kapitan Mehdiyevin kabinetində hər şey aydın olar. Mənimlə getmək istəsəniz sabah işə getməyin.

Qonşumun söhbətindən elə bir şey anlamasam da sabahkı görüşü gözləməyi qərara
aldım.

* * *

Səhəri gün, mayın 19-u, gündüz saat 12-də Qanbay Qasımlı mənzilimə zəng vurub bildirdi ki, dördüncü polis bölməsində Mehdiyev bizi gözləyir. Geyinib tələsik mənzildən çıxdım. Qonşum məni blok qapısının ağzında gözləyirdi.
Əynində tünd boz rəngli kostyum, başında da həmin rəngdə nazik şlyapa var idi. Biz maşına minib özümüzü polis bölməsinə çatdırdıq.

VII Mehdiyevin kabinetində, divar boyu düzülmüş stullarda iki oğlan oturmuşdu. Onlardan birinin boyu normadan xeyli qısa, burnu əyri idi. Sırtıq görkəmi adamda heç də xoş duyğular oyatmırdı. O biri isə normal boylu, sarışın, nisbətən yaraşıqlı bir gənc idi. Hər ikisi nə üçün çağırıldıqlarını bilmədikləri üçün bizə təəccüblə baxırdılar. Mən onlara xüsusi fikir verdim: heç birinin üst dodağından yuxarıda qara xalı yox idi.

Qasımlı balacaboy oğlana:

- Çıxın, bayırda gözləyin! - dedi və əyləşib nəzərlərini o birinin sifətinə tuşladı:

- Xahiş edirəm özünüzü təqdim edin!

- Cabbarov Zaur. Universitetdə, kimya fakültəsinin dördüncü kursunda oxuyuram.

- Hansı rayondansan Zaur? - polkovnik ona «sən» deyə müraciət etməyə başladı.

- Göyçaydan.

- Zaur, - Qasımlı çox sakit və arxayın danışırdı. - Görürəm pis oğlana oxşamırsan. İlk sözündən düzgün danışmağa başlasan, sənin haqqında müsbət fikrim özünü doğruldacaq. De görüm, - əlini pencəyin yaxasına salıb cibindən Tahirənin şəklini çıxartdı - aprelin 5-də və 10-da tanışlıq məqsədilə bu qıza yaxmlaşmısanmı?

downloaded from KitabYurdu.org

Zaur şəkli görən kimi tutuldu. Bir-iki dəfə udqunub, nəhayət, dilləndi:

- Tarixi dəqiq bilmirəm, amma yaxınlaşmışam. Nə olsun ki?

- Heç nə! Xahiş edirəm, suallara düzgün cavab ver. Aprelin 10-da özünü təqdim edib adını demisən və onun adını soruşmusan. O sənə cavab verməyib. Bəs sonra, səhəri, ya o biri gün yenə onun dalınca düşmüsənmi?

- Bəli, mən onunla yaxşı mənada tanış olmaq istəyirdim. Bir-iki həftə əvvəl səkidə təsadüfən rastlaşmışdım və doğrusu ondan xoşum gəlirdi. Ancaq sonra gördüm ki, mən istəyən qız deyil və əl çəkdim.

- Başa düşmədim. Bir az açıq danış! - Qasımlı diqqətini toplayaraq Zaura tərəf əyildi. Mən və kapitan Mehdiyev söhbətə qarışmadan
VII sakitcə qulaq asırdıq.

- Mən o qıza yaxınlaşıb adımı dediyim günün səhəri də onların dalınca düşmüşdüm. Ancaq yaxınlaşmağa cəsarət eləmədim. O biri gün, yəni sizin dediyiniz tarixə görə aprelin 12-si yenə qızla danışmağı qət etmişdim. Qız rəfiqəsindən həmişəki yerdə ayrılandan sonra on- on beş metr getmişdi ki, səkinin kənannda dayanmış bir xarici markalı maşından onu çağırdılar. Onu necə səslədiklərini eşitmədim. Ancaq səsləyən adam maşının arxa qapısını açmışdı. Maşının şüşələri qara rəngdə olduğu üçün nə sürücünü, nə də arxada oturan oğlanı görə bilmirdim. Qız onu səsləyənə baxıb sevincək gülümsədi. Sonra arxada oturan oğlan ona nə dedisə, qız dedi ki, gedim paltanmı dəyişim, çantamı evə qoyum. Oğlanın dediyini yenə başa düşmədim və həmin vaxt maşının yanından keçdim. Arxaya çevriləndə gördüm ki, qız maşına mindi və maşın yerindən götürüldü.

- Sən nə bildin ki, onu səsləyən oğlan idi?

- Birincisi onun səsini eşitdim, ancaq başa düşmədim. İkincisi də ki, onun qıza tərəf uzanan sağ əlini də gördüm. Maşının yanından keçəndə onun sifətini görmək istəsəm də alınmadı. O, qızı maşına oturtmaq üçün o biri tərəfə çəkilmişdi.

- Oğlanın əlində xüsusi bir əlaməti yox idi ki?

- Yox, adi əl idi. Oğlan, deyəsən qolsuz köynək geyinmişdi.

downloaded from KitabYurdu.org

- Maşın hansı markadan idi, tanıya bilmədin?

- Necə tanımadım? Tünd göy rəngli «Hunday» idi. Hələ nömrəsini də götürdüm. - Zaur kapitandan vərəq istədi və nömrəni yazıb Qasımlıya verdi.

- Mingəçevir nömrəsidir, - deyə Zaurun yazdığı vərəqə baxan kimi Mehdiyev dilləndi.

Qanbay Qasımlı ona tərəf çevrildi:

- Xahiş edirəm, şübhə yaratmadan öyrənin. Həmin rəngdə və həmin nömrədə «Hunday» varmı Mingəçevirdə? Özü də elə bu saat! O biri oğlanı da buraxın getsin.

Mehdiyev otaqdan çıxdı. Polkovnik yenə üzünü Zaura tutdu:

VII - İndi sənə bir vacib sual verəcəyəm. De görüm, qız onu çağıran adamı görəndə özünü necə apardı? Dedin ki, sevinclə gülümsədi. Bu gülümsəmək utancaqlıqla idi, ya necə deyim, sərbəst, fikir vermədin ki?

- Elə iş orasındadır ki, qız özünü çox sərbəst apanrdı. - Zaur o saat cavab verdi.

- Qız səni gördümü?

- Bəli, mən maşının yanından keçəndə ani olaraq çevrilib üzümə baxdı. Ancaq deyəsən, onda bir az qızardı.

- Sonra nə deyə bilərsən?

- Daha heç nə! Qız maşına minib getdi. Maşının nömrəsi beynimə həkk olsa da, əslində daha mən onunla maraqlanmaq fikrində deyildim. O gündən də arxasınca düşməmişəm. Ancaq başa düşə bilmirəm, mənim nə günahım var?

- Sənin heç bir günahın yoxdur. - Qasımlı sakitcə dilləndi. - Gedə bilərsən. Ancaq buradakı söhbət barədə, yaxşı olar ki, heç kəsə danışmayasan.

- Yaxşı! - Zaur dərindən nəfəs aldı və kabinetdən çıxdı.

Qasımlı üzünü mənə çevirdi:

- Gördünüzmü? Mən də elə ona ümid edirdim ki, Zaur aprelin 12-də Tahirəni izləyibsə, onun oğurlanmasını da görə bilər.

downloaded from KitabYurdu.org

Bu vaxt kapitan Mehdiyev otağa daxil oldu.

- Cənab polkovnik! Maşının nömrəsi saxta olub. Ümumiyyətlə, Azərbaycanda bu nömrədə «Hunday» yoxdur.

Polis bölməsindən çıxanda Qasımlı bəzi başqa yerlərə baş çəkəcəyini bildirib məndən aynıdı. Mən isə öz redaksiyamıza getdim. Hadisənin mahiyyəti məni o qədər cəlb etmişdi ki, öz işimə həvəsim qalmamışdı. Səhər şənbə idi. İki gün boş olacaqdım və sevinirdim ki, axtarışda sərbəst iştirak edəcəyəm. Redaksiyada tökülüb qalan işlərimi tələsik yoluna qoydum. Saat 18-də işdən çıxıb evə gəldim. Fədayənin təkidinə baxmayaraq, çay içməkdən imtina edib qonşumun mənzilinə getdim. Qonşum nədənsə çox fikirli görünürdü. Hiss etdim ki, mənim gəlişimə sevindi. Mənim üçün də qəhvə süzüb yerində
VII əyləşdi və narahatlığını mənimlə bölüşməyə başladı:

- Mayın 26-na təyyarə biletim də hazırdır. Daha bu dəfə xaricə getmək vaxtımı uzada bilməyəcəm. Əlimdə olan bu vaxt ərzində qızı tapıb anasına təhvil verməliyəm.

- Elədir, - dedim. - Zaurun danışdıqları işi bir az da mürəkkəbləşdirdi. Tahirə haqqında düşüncələrimiz alt-üst oldu.

Qasımlı cavab vermədi. Gözünü harasa bir nöqtəyə zilləyib durdu. O, həqiqətən dilxor idi. Düşündüm ki, Tahirə haqqında tam qətiyyətlə verdiyi xasiyyətnamə üçün xəcalət çəkir. Doğrudan da heç kəsin ürəyinin sirrini dərindən bilmək olmazmış. Tahirənin bizim üçün naməlum olan tanışlarının olması artıq həqiqət idi. Əslində biz Tahirə haqqında nə öyrənmişdik? Heç nə! Ailə üzvlərinin, müəllim və yoldaşlarının fikirlərini, vəssalam! Məgər onlar səhv edə bilməzdilər? Qızın şəklini xəyalıma gətirib onda əvvəlcə qiymətləndirə bilmədiyim xüsusiyyətləri indi özüm üçün aydınlaşdırdım. Tahirənin baxışları və gözəl ətli dodaqları daxili ehtirasdan xəbər verirdi. Onun sadəliyi, qapalı mühitdə böyüməsi isə göstərirdi ki, onu yoldan çıxarmaq əslində o qədər də çətin deyil.

Bu məsələlər barədə söhbət salıb təcrübəli xəfiyyə olduğu qədər, həm də təcrübəli psixoloq olan Qanbay Qasımlım pərt etmək istəmədim. Söhbəti dəyişib bir qədər başqa mövzulardan danışdıq.

downloaded from KitabYurdu.org

Səkkizin yarısında telefon zəng çaldı.

Ev sahibi dəstəyi götürdü. Dodaqlarının kilidlənməsindən başa düşdüm ki, nə isə faciə baş verib. Qasımlı:

- Bu saat gəlirəm! - deyib dəstəyi yerinə qoydu və üzünü mənə çevirdi: - Dənizdən cavan qız meyiti tapılıb!

Dəhşətdən quruyub yerimdə qaldım. Nəsə demək istədimsə də bacarmadım. Elə bil harada olduğumu da unutmuşdum. Yalnız Qasımlının pencəyini geyinib şlyapasını başına qoyandan sonra qarşımda durduğunu görüb ayağa qalxdım və:

- Mən də sizinlə gedirəm! - dedim.

* * *

Kapitan Mehdiyev də bölmə rəisinin kabinetində idi. Hadisə barədə

VII Səmədov özü bizə məlumat verdi:

- Yarım saat əvvəl Şıxov çimərliyində dənizdən qız meyiti tapılıb. Meyitə ağır dəmir parçası bağlayıb suya atıblarmış. Qızın şəxsiyyəti hələ müəyyənləşməyib. Bizə rayon polis idarəsindən bildirdilər. Meyit tapılan rayonun polis idarəsi meyiti ekspertizaya göndərib. Bir azdan televizorda da elan veriləcək. Biz ərazimizdə itkin düşmüş hər iki qızın şəkli ilə əməkdaşımız Fərəcovu ora göndərdik. Ancaq dediklərinə görə meyit tanınmaz haldadır.

Qasımlı başını əlləri arasına aldı. Otaqda xeyli müddət sükut hökm sürdü. Birdən o ayağa qalxıb cibindən bir həb çıxardı. Rəis stolunun üstündəki qrafindən stəkana su süzüb ona verdi. Qasımlı həbi qəbul edib qapıya tərəf getdi.

- İcazə verin, biz Mehdiyevin kabinetində bir qədər dincələk. Xahiş edirəm, meyitin şəxsiyyəti müəyyənləşən kimi bizə xəbər verin.

Polkovnik-leytenant Səmədov:

- Arxayın olun! - dedi. - Siz keçin dincəlin, mən bu saat kapitan Mehdiyevi də oraya göndərəcəyəm.

Mehdiyevin kabinetinə keçdik. Qasımlı ayaqqabısını da çıxarmadan meşin üzlü divanda uzandı. Mən isə stol arxasında stulların birində oturdum. Kapitan hazırlaşıb kabinetdən çıxdı. Otaqda ikimiz qaldıq. Mən və Qanbay Qasımlı. O da divanda uzanıb gözlərini

downloaded from KitabYurdu.org

yummuşdu.
Deyəsən, yenə başı bərk ağrıyırdı. Qasımlı nə qədər möhkəm adam olsa da, yüzlərlə müdhiş cinayətlə tanış olmuş bu adamın indiki halını da başa düşürdüm. O, həmişə qarşısına qoyduğu məqsədə, nəyin bahasına olur olsun, nail olmağa adət etmişdi. İndi də Leyla xanıma söz vermişdi ki, Tahirəni tapacaq. Əlbəttə, əslində bu o demək idi ki, dirisini, ya da ölüsünü. Taleyin işinə heç kəs müdaxilə edə bilməz.

Ürəyimə dammışdı ki, dənizdə tapılan Tahirənin meyitidir. Doğrudur, Zaurun verdiyi izahat Tahirə haqqında rəyimi bir qədər dəyişmişdi. Ancaq buna baxmayaraq, düşünürdüm ki, yazıq qız əvvəlcədən kiminsə toruna düşüb, kiməsə inanıb, özünü bədbəxt edib.
VII Qara xallı oğlan xəyalımda iblis kimi canlanırdı. Elələri üçün Tahirə kimi məsum qızların qəlbində məhəbbət hissi alovlandırmaq və onlan yoldan çıxarmaq nə çətin iş idi ki?

Tahirənin gündəlikdə və inşa yazısında yazdıqlarını xatırladım. Onun puç olmuş arzuları, odlu ürəyindəki ana, ata, qardaş məhəbbəti içimdə acı bir gizilti yaratdı. Bir siqaret yandırıb gözlərimi kabinetin bir küncünə qoyulmuş gül dibçəyinə zillədim. Nə qədər beləcə oturmuşdum, bilmirəm. Dəhlizdə eşitdiyim səs- küy məni xəyaldan ayırdı. Qasımlıya baxdım, gözləri yenə yumulu idi. Yatıb-yatmadığını bilmək olmurdu. Dəhlizə çıxdım. Heç kəs yox idi. Səs-küy indi Səmədovun kabinetindən gəlirdi.

- Balamı verin! - deyə nalə çəkən səsin Bəxtiyara məxsus olduğunu başa düşəndə, özümdən asılı olmayaraq, etika qaydalarını da gözləmədən rəisin kabinetinə girdim. Hirsini- hikkəsini boşalda bilməyən Bəxtiyar indi stulda oturub başını əlləri ilə tutaraq ağlayırdı. Səmədov bədbəxt atanın qarşısında ayaq üstə durub onu sakitləşdirməyə çalışırdı:

- Bəsdir! Siz kişisiniz, axı! Özünüzü ələ alın! Hələ meyitin şəxsiyyəti müəyyənləşdirilməyib. Səbriniz olsun!

- Daha nə səbir? Daha nə səbir?! Televizorda xəbəri eşidən kimi

downloaded from KitabYurdu.org

anası ölüm halına düşdü. Bu saat xəstəxanada Tahiri onun yanında qoyub gəlmişəm. O da öldü, qaldı xəbərim yoxdur. Allahın mənimlə nə düşmənçiliyi var, bilmirəm!

- Yaxşı, durun gedin evə! Ölənin kimliyi məlum olan kimi sizə xəbər verərəm. Gedin!

Daha içəridə qalmayıb, sakitcə dəhlizə çıxdım. Mehdiyevin kabinetinə girib əvvəlki yerimdə oturdum. Qasımlının gözləri yenə yumulu idi.

- Leyla xanımı xəstəxanaya aparıblar! - dedim.

Onun dodaqları bir-birinə sıxıldı. Gözlərini açıb, yenə yumdu. Daha danışmadım. Beləcə gözləməyə başladıq. Gecə saat on ikinin yarısında qapı açıldı və kapitan Mehdiyev içəri girdi. Qasımlı
VII gözlərini açaraq durub oturdu. Sualedici baxışlarını kapitanın üzünə dikdi. Mehdiyev öz yerinə keçib danışmağa başladı:

- Meyit Quliyeva Aygün Nəsib qızınındır. Fevralın 7-də itkin düşən qızm. Yaxşı ki, mən getdim. Şəxsiyyəti müəyyənləşdirmək çətin olacaqdı. Aygünün ağzında bir dənə qızıl diş olduğunu bilirdim. Ancaq onu da deyim ki, meyit şişib çox pis hala düşmüşdü. Deməli qızın ölümündən 36-38 sutka keçib. Ona heç bir işgəncə vermədən iynə ilə öldürüblər. Bakirəliyi əvvəlcədən pozulubmuş... Vəssalam! Bu qədər.

Qanbay Qasımlı ayağa qalxıb otaqda gəzinməyə başladı və fikirli halda dilləndi:

- Deməli, Tahirənin yoxa çıxması ilə bu qızın ölümü təxminən eyni gündə olub. Eyni gündə...

Biz daha polis bölməsində qalmadıq. Qarışıq
fikirlər içərisində oranı tərk edib evə yollandıq.

* * *

Səhəri gün - həyatımda ən yaddaqalan və ən müdhiş günlərdən biri olan mayın 20-də yuxudan çox gec ayıldım. Fədayə də, oğlum da məktəbə getmişdilər. Fədayə məktəbdə ingilis dili müəllimi işləyirdi və əksər vaxtlar dördüncü sinifdə oxuyan oğlum İlhamla məktəbə bir gedib, bir gəlirdilər. Saat 12 idi. Əslində gecə yata bilməmişdim.

downloaded from KitabYurdu.org

Demək olar ki, səhərə yaxın gözümə yuxu gəlmişdi. Aygün adlı qızın ölümü və neçə gündən bəri mənimlə Qasımlınm həyatına əməlli-başlı daxil olmuş Tahirənin müəmmalı taleyi fikrimi qarışdırmışdı. Bu dəfə üst dodağından bir qədər yuxanda qara xalı olan bir oğlan yuxuma girmişdi. Oğlan nifrətlə üzümə baxaraq, ağzını açıb yumurdu. Amma dediklərini eşidə bilmirdim. Qara xalı gözümün qarşısında getdikcə böyüməyə başlayanda iki əlimlə oğlanın
boğazından tutub boğmağa başladım və bu vaxt oğlan sirli şəkildə yoxa çıxdı. Deyəsən elə həmin vaxt yuxudan ayılmışdım.

Əl-üzümü yuyub çay qoydum və mətbəxdə Fədayənin stolun üstündə hazır qoyub getdiyi səhər yeməyini yedim. Yalnız bundan sonra paltarımı dəyişib mənzildən çıxdım və qonşumun zəngini çaldım.

VII

Qapını açan polkovnik məni içəri dəvət etdi. İş otağındakı divanda, həmişəki yerimdə oturan kimi gördüyüm yuxunu ona danışdım. Qasımlı gülümsəyib başını buladı:

- Əgər mən də sizin kimi romantik yuxupərəst olsaydım, onda gərək bu gecə yuxuda uzun, arıq, qulaqları radiolakator kimi qabağa çıxmış, çənəsində köhnə çapıq yeri olan bir mədəni oğlan görəydim. Elə bir mədəni oğlan ki, bir dəqiqənin içində adamı öldürər və elə o saat da meyitin üstündə əyləşib iştahayla günəbaxan tumu çırtlayar.

- Necə də ideal bir insan surəti yaratdınız! - deyə zarafat etdim.

- Yox, mən yaratmamışam bu surəti. Dünən mənə belə bir adam rast gəldi və mənə elə gəlir ki, o bizim apardığımız işlə əlaqədardır.

- Üst dodağında qara xal var idi? - tələsik soruşdum.

- Yox, yox! Üst dodağı ilə donqar bumu arasındakı sahə tərtəmiz, gül kimi idi. -
Qasımlının da elə bil zarafat etməyə həvəsi gəlmişdi.

- Bəs niyə onu güdmədiniz?

Özüm də hiss etdim ki, onu tabeliyimdə olan işçi kimi məzəmmət edirəm.

- Mən onu necə güdəydim ki, o özü məni güdürdü.

- Bu nə vaxt olub?

downloaded from KitabYurdu.org

- Dünən Mehdiyevin kabinetində Zaurla söhbət edib sizdən ayrılandan sonra. Gecə də sizinlə evə qayıdandan bir qədər ötmüş pəncərədən baxıb onu həyətdə gördüm. Qoltuğunda uzun, bükülü bir şey var idi və bu snayper də ola bilərdi ki, onunla istənilən adamı ağaclann arasından balkonda, ya elə otağın
içində vurub öldürmək olardı. Mən belə bir silahlı qoruyucum olduğu üçün işıqlan söndürüb çox rahat yatdım. Sizin kimi yuxuda xallı oğlanlarla dartışmaq isə heç ağlıma da gəlmədi.

Məni həyəcan bürüdü. Deməli Qanbay Qasımlımn izinə düşüblər. Görəsən onlar kimlərdir? Qanbay müəllimi nə üçün öldürmək istəyirlər? Axı o hələ axtarışda elə bir irəliləyiş etməyib ki, kimin üçünsə qorxu törətsin?.. Qonşumun səsi məni düşüncələrimdən ayırdı:

VII - Nemət müəllim, deyirəm, gəlin gedək xəstəxanada Leyla xanıma baş çəkək. Leyla xanım yaxşı insandır. Və həm də həddindən artıq bədbəxt bir anadır.

- Elədir! - dedim. - Gedək. O, həqiqətən bədbəxtdir.

- Yox, siz heç təsəvvür də edə bilməzsiniz ki, o necə bədbəxtdir. Hətta özü də...

Mübahisə etmək istəmədim. Qasımlı stolun siyirməsindən tapançasını götürüb arxadan şalvarına keçirtdi və pencəyini geyinib:

- Getdik! - dedi.

Maşına minib yola düşdük. Xəstəxana Tahirəgilin evlərinə yaxın idi. Yolüstü bir az meyvə alıb xəstəxanaya girdik. Palatada cəmi iki nəfər qadın yatırdı və kənar şəxs yox idi. Leyla xanım bizi görən kimi qızardı və yatağında dikəlmək istədi. Mən:

- Uzanın, uzanın! Xahiş edirəm, narahat olmayın! - dedim və əlimdəki sellofan torbanı onun çarpayısı yanındakı kiçik şkafın üstünə qoydum.

- Necəsiniz? - deyə Qasımlı qayğıkeşliklə soruşdu.

Leyla xanım utancaq cavab verdi:

- Sağ olun! İndi bir az yaxşıyam. Qan təzyiqim qalxmışdı. İndi normaya düşüb. Tahirədən nə xəbər var?

- Darıxmayın, tapılacaq! Axı mən sizə söz vermişəm?!

downloaded from KitabYurdu.org

- O bədbəxt qızı niyə öldürüblər?

- Hələ ki, məlum deyil...

- Yalvanram sizə, elə bilin ki, öz doğma qızınızı axtarırsınız... - Leyla xanımın gözləri doldu.

Qanbay Qasımlım heç belə tutulan görməmişdim. Baxışlarını xəstədən yayındıra bilsə də, mən ani olaraq onun gözlərini gördüm və gördüyüm kədərqanşıq dəli nifrət məni
diksindirdi.

* * *

Keçmiş xəfiyyə daha palatada qalmaq istəmədi və biz Leyla xanıma tez ayağa qalxmasını arzu edib çıxdıq. Maşına oturan kimi:

- Polisə baş çəkəcəyik? - deyə soruşdum. Qasımlı, deyəsən çox fikirli olduğu üçün

VII

sözümü eşitmədi. Odur ki, təkrar etməli oldum.

- Hara gedəcəyik?

- Gedək, bir sakit yerdə oturaq, nəsə içmək istəyirəm, - dedi.

Bu təklif mənim də ürəyimdən oldu. Maşını işə salıb bir az getdikdən sonra "Şah xörəkləri" restoranının qabağında saxladım.

- Yox, burada istəmirəm, gedək! - Qasımlı cəld dilləndi.

- Niyə axı? Nahar da edərik...

- Yox, sakit yerə gedək!

- Nə deyirəm, - Maşını kiçik bir qəlyanaltının yanma sürdük.

Qasımlı konyak və soyuq yeməklər sifariş verdi. Konyak gətirilən kimi ondan stəkana süzüb başına çəkdi və siqaret yandırdı.

- Niyə belə fikirlisiz? - deyə konyakdan hər ikimizin stəkanına süzüb soruşdum.

- Heç! Elə bir şey yoxdur. Moskvadakı günlərimi xatırladım. - O, konyakla dolu stəkanını qaldırıb mənimkinə toxundurdu. - Sizin şərəfinizə! - İçib soyutma toyuq ətindən götürdük.

- Bayaq xəstəxanada deyəndə ki «elə bilin, öz qızınızı axtarırsınız», siz yaman pis oldunuz. Mən o saat hiss elədim. Axı nəyə görə?

- Ona görə ki... - Qasımlı boş stəkanı əlinə götürüb diqqətlə onun

downloaded from KitabYurdu.org

içinə baxdı. Elə bil orada nə isə axtarırdı. - Ona görə ki, mənim də qızımın adı Tahirə idi...

- Necə? Sizin qızınız olub? Bəs indi o haradadır?

- O indi yoxdur!..

- Necə yəni, yoxdur? Qanbay müəllim, çox xahiş edirəm, öz həyatınızı məndən gizlətməyin. Görün nə vaxtdır, biz yoldaşlıq edirik, ancaq hələ də mən sizi yaxşı tanımıram.

- Deyirsiniz, tərcümeyi-halımı sizə danışım?

- Danışanda nə olar ki?

- Yaxşı, nə deyirəm. Mən öz dərdlərim haqqında kiməsə danışmağın qəti əleyhinəyəm. Xüsusilə onda ki, bu dərdlər başqası üçün maraqlı deyil. Ancaq siz özünüz məcbur edirsiniz.

VII - Xahiş edirəm, danışın!

- Onda qısa danışacağam. - Qasımlı ondan çoxdan gözlədiyim söhbətə belə başladı. - Bakıda doğulmuşam. Əsgərliyə gedəndə Moskvaya düşdüm. Daxili qoşunlara. Əsgərliyi bitirəndə məni Ali Milis məktəbinə göndərdilər. Məktəbi bitirən kimi işlə təmin etdilər və Moskvada qaldım. Bakıda məni gözləyən yox idi. Hələ on iki yaşım olanda mənzilimizdə qaz partlamışdı və valideynlərim həlak olmuşdular. Həmin vaxt evdə olmadığım üçün sağ qalmışdım. Bacıdan, qardaşdan da heç nəyim yox idi. Hə... Moskvada Baş Cinayət Axtarış İdarəsində işləyirdim. Podpolkovnik rütbəsində idim. Təkbaşına neçə cinayət işi açmışdım. Artıq məni çoxlan tanıyırdı. Əslən tatar türklərindən olan bir qızla evləndim. Bir qızımız oldu. Adını Tahirə qoydum... Həmin vaxtlar Rusiyanın bir neçə şəhərində fəaliyyət göstərən bir banda var idi. Heç cür izinə düşə bilmirdilər. Sonra elə oldu ki, işi mənə tapşırdılar. Fəaliyyətə başladım. İş əsnasında hiss edirdim ki, bandanı və onun başçısı Sergey Babayan adlı ermənini milisdə himayə edən və lazım gələndə duyuq salanlar var. Mənim planımla əməliyyat hazırlandı və adamöldürmə, oğurluq, qarət, zorlama və daha nələrlə məşğul olan quldur dəstəsinin bütün üzvləri eyni gündə ələ keçdi. Yeri gəlmişkən deyim ki, mənə polkovnik rütbəsini də onda verdilər. Ancaq bandanın başçısı aradan

downloaded from KitabYurdu.org

çıxa bildi. Onu yenə duyuq salan olmuşdu.

Banda üzvləri həbs olunandan dörd gün sonra, axşam evə gələndə arvadımın və qızımın öldürüldüyünü gördüm. - Qasımlı söhbətə ara verib bir siqaret yandırdı. Onun özünü necə təmkinli aparmağı məni təəccübləndirirdi...

- Hər ikisi bıçaqla öldürülmüşdü. Mənzilin döşəməsi başdan-başa qan içində idi. Qızımın meyitinin üstündə bir kağız parçası gördüm. Orada yazılmışdı: «Məşhur türk xəfiyyəsinə hədiyyə». Məsələ aydın idi. Bu ancaq Sergey Babayanm işi ola bilərdi.

Əzizlərimi dəfn elədim və o gündən qərara aldım ki, həyatımı onlann intiqamını almağa həsr edim. Əvvəlcə gözləyirdim ki, qatil özü məni də öldürməyə gələcək və onunla haqq-hesabı çürüdəcəyəm. Ancaq əclaf məndən uzaq gəzirdi və demək olar ki, izsiz-soraqsız itmişdi. Onda mən özüm onu axtarmağa başladım. Az qala yalvarırdım ki, onu tapana qədər mənə heç bir tapşırıq verməsinlər. Bandasım ləğv edərkən kimlərinsə onu duyuq saldığını bildiyim üçün, indi təkbaşına hərəkət edirdim və planlarımı da heç kəsə açmırdım. Düzdür, Boris adlı bir zirək köməkçim var idi. Onda kapitan idi. İndi deyəsən mayor olub. Ona da yalnız lazımi tapşınqlar verirdim ki, işin əsil mahiyyətindən xəbəri olmurdu. Bəlkə də o vaxtlar məndə belə bir xarakter formalaşdı ki, iş sona çatana kimi düşündüklərimi heç kəsə, hətta ən inandığım adamlara da demirəm.

- Bu işinizə görə əvvəllər Sizdən inciyirdim. - deyə onun sözünü kəsdim. - Ancaq sonra sizi başa düşdüm və buna alışdım.

- Gərək inciməyəsiz, işin xüsusiyyəti bunu tələb edir.

- Danışın, sonra necə oldu?

- İvanovka adlı bir kənddə Sergeyin keçmiş məşuqəsi yaşayırdı. Adı Mariya olan bu qadın da erməni idi. Bandanı ləğv edərkən ona toxunmamışdıq. Ümumiyyətlə, onun varlığından milisdə məndən başqa heç kəsin xəbəri yox idi. Tutulanlar da istintaqda onun adını çəkməmişdilər. Mariya dəstənin fəal üzvlərindən deyildi, ancaq hər halda dəstənin fəaliyyətindən xəbəri var idi və əsas üzvləri tanıyırdı. Onu əsas əməliyyatın səhəri günü həbs edəcəkdim, ancaq Sergey

downloaded from KitabYurdu.org

aradan çıxdığı üçün onun həbsini sonraya saxlamışdım. Artıq ailəmin tələf olmasından iki ay keçmişdi. Sergey Babayan isə elə bil iynə olub dənizə düşmüşdü. Onu tapa bilmirdim ki, bilmirdim.

- Başqaları necə, onu fəal axtarırdılarmı? - özümü saxlaya bilməyib soruşdum.

- Necə deyim, gözdən pərdə asmaq üçün nəsə edirdilər. Əslində isə yox! -Təzədən bir siqaret yandırıb sözünə davam etdi. - Sergeyin son vaxtlar Mariyadan soyuduğu barədə məlumatım olduğu üçün gizlənməyə onun yanma getməyəcəyini bilirdim. Onda mən belə bir sonuncu varianta əl atmalı oldum. Həmişə müxbirlərin hay-küyündən, özümü reklam etdirməkdən uzaq qaçmağıma baxmayaraq mətbuat konfransı təşkil etdim. Bunu çoxdan gözləyirmiş kimi xeyli qəzet müxbiri yığıldı. Bandanı necə ələ keçirməyim barədə müxbirlərin sualına bilərəkdən belə bir cavab verdim ki, əslində mən o bandanı heç cür ələ keçirə bilməzdim, əgər Sergeyin məşuqəsi olmuş Mariya adlı bir qadının köməyi olmasaydı. Vəssalam. Yağdırılan suallara baxmayaraq, Mariyanın kimliyi və harada yaşaması haqqında əlavə heç nə demədim. Düşündüyüm kimi, bu xəbər sensasiya doğurdu və mən qoca bir saqqallı kişi qiyafəsində İvanovkada peyda olub düşmənimi gözləməyə başladım. Guya həmin kənddə yaşayan türkəçarəçinin yanına sol əlimin işləməyən barmaqlarını müalicə etdirməyə gəlmişdim. Onun yanında doğrudan da sol əlimin barmaqlarını yarıbükülü halda saxlayırdım. O yazıq da masaj və otların köməyilə əlimi açmağa cəhd edirdi. Sergeyin bandasmda satqını bağışlamırdılar. Bilirdim ki, Sergey qəzetləri oxuyan kimi uydurduğum yalana inanacaq və Mariyanı cəzalandırmaq qərarına gələcək. Banda başçısının bu uydurmaya inanmağı üçün iki şey kömək edirdi. Birincisi, Sergey Mariyanı bir məşuqə kimi atmışdı, ikincisi də biz Mariyanı həbs etməmişdik.

Doğrudan da iki həftə sonra qrimlənmiş Babayan kəndə gəldi. Onun heç bir qrimi məni aldada bilməzdi. Hələ banda tutulmamış mən onu çox izləmiş, dərindən öyrənmişdim. Sergey Babayan hava qaralanda gəlmişdi və birbaş Mariyanın həyətinə girdi. Həyətdəki it



downloaded from KitabYurdu.org

onu tanıdığı üçün hürmədi. Birmərtəbəli evdə Mariya tək yaşayırdı. Evin üç tərəfə açılan pəncərələri var idi. Mariyanın həyəti ilə demək olar ki, üzbəüz, küçənin o biri tərəfində türkəçarəçinin həyətində dayanıb düşünürdüm. Əgər o qadına bir şey eləməmiş onun başının üstünü almaq istəsəm, bu çox çətin olacaq. Elə bilməyin ki, ondan qorxurdum, qətiyyən yox! Ancaq mən tək idim və səs-küy salan kimi o, pəncərədən çıxıb qaça bilərdi. Mən isə bunu heç cür istəmirdim. Artıq səbir kasam dolmuşdu. Ona görə də gizlicə həyətə girib özümlə gəzdirdiyim zəhərli ət parçası ilə iti zəhərlədim. Sonra isə həyətin işıq düşməyən yerində dayanıb gözümü qapıya zillədim və gözləməyə başladım. Təxminən yanm saat sonra içəridən çox gur musiqi səsi eşidildi. İki dəqiqə sonra isə Babayan arxayın-arxayın qapıdan çıxdı.
VII Gizləndiyim yerdən işığa çıxıb özümü ona göstərdim. Aramızda 3-4 metr məsafə var idi. Saqqalı çıxartdığım üçün Sergey məni o saat tanıdı. Özünü itirib nə edəcəyini bilmədi. Hiss etdim ki, əllərimi yanıma salmağıma baxmayaraq, silahını çıxarmağa cəsarət etmir. Əclaf yəqin ki, vaxtilə atıcılıq üzrə ölkə çempionu olduğumu bilirdi. Bir neçə dəqiqə nifrətlə gözlərinin içinə baxdım. Əslində ona deyiləsi sözüm çox idi. Ancaq heç nə deyə bilmədim. Nifrətimin çoxluğu buna imkan vermədi. Sonradan özümü müdafiə etdiyimi sübut etmək üçün onun silahını çıxartmağını istəyirdim və axır ki, o bunu etdi. Əlimi plaşımın cibinə salıb tapançamı çıxartdım və o tətiyi çəkməyə macal tapmamış güllələrin altısını da sinəsinə boşaltdım. Sonra bu əleyhimə yönələn bir sübut oldu ki, mən onu bilərəkdən öldürmüşəm. Ancaq məni nüfuzlu şəxslərdən müdafiə edənlər də oldu və mən istefa verib Bakıya qayıtmalı oldum.

- Bəs Mariya necə olmuşdu? - deyə sual verdim.

- Sergeyi vurandan sonra evə girdim və gördüm ki, Mariya başından aldığı güllə yarasından ölüb.

- Deməli o da sizin uydurmanızın güdazına getdi? - deyə soruşdum və özlüyümdə fikirləşdim ki, Qanbay Qasımlı həqiqətən, düşməni üçün çox təhlükəli olan bir adamdır.

Qasımlı əli ilə çənəsini ovuşdurub bir anlıq xəyala getdi və cavab

downloaded from KitabYurdu.org

verdi:

- Bizdə bir misal var. Pis adam öləndə deyərlər ki, itin biri azaldı. Həmin axşam isə o həyətdə üç it birdən azaldı. Əslində mən zəhərləyib öldürdüyüm itin ölümünə daha çox acıyırdım.

O, söhbəti kəsib ofisiantı çağırdı. Qəlyanaltının pulunu ödəyib gümrah halda ayağa qalxdı. Elə bil danışıb ürəyini boşaltmış və yüngülləşmişdi.

* * *

Biz oradan çıxıb birbaş itmiş qızın axtarışını aparan 4-cü polis bölməsinə getdik. Mehdiyevin otağı bağlı idi. Rəisin kabinetində isə şikayətçi var idi. Ona görə də qəbul otağında xeyli gözləməli olduq. Kabinetə girəndə Səmədov nədənsə bizi soyuq qarşıladı.

VII - Nə kimi yenilik var? - deyə oturan kimi Qasımlı sual verdi.

Bölmə rəisi əvvəl dinmədi. Elə bil Qasımlıya hesabat verməyi özünə sığışdırmırdı. Nəhayət əsəbi halda danışmağa başladı:

- Başqa işlərimiz tökülüb qalıb. Bu iş mənim başımı tamamilə xarab eləyəcək deyəsən. O Bəxtiyardır - nədir, itən qızın atasını deyirəm, günorta gəlmişdi yenə. Qanımı qaraltdı tamam. Deyirəm, get otur xarabanda, bir xəbər olan kimi bildirəcəm. Gedəndən bir saat keçməmiş şikayət gəlir ki, gedib ATS-də bir işçini təhqir edib, üstəlik əl də qaldırıb. Adam göndərdim ki, gətirib salsın aşağı. Gəlib məlumat verdi ki, qapısı bağlıdır. Zəngin səsinə də qapını açan yoxdur. Hansı ki, həyətdə bir nəfər deyib ki, Bəxtiyar bir az əvvəl evə çıxdı. Lap axmaq adam imiş demə bu!..

- Bəxtiyar sizin yanınızdan nə vaxt çıxıb? - Qasımlı onun söhbətini kəsdi.

- Saat 2-də. Yox 3-ə on beş dəqiqə işləmiş olardı.

- ATS-ə nə vaxt gedibmiş? İşçini nə üçün təhqir edib?

- Başı xarabdı də! Tələb eləyirmiş ki, tez olun deyin, indicə mənzilimdən hara ilə danışıblar?

- Mənzilimdən, ya mənzilimə?

- Hər ikisi! Ümumiyyətlə, mən heç nə bilmirəm. - Rəis bir qədər acıqlı dilləndi. - İdarəmizdən zəng eləyib bu qızın işilə əlaqədar məni

downloaded from KitabYurdu.org

danladılar. İşin irəli getmədiyi üçün və həm də əməkdaşlarımız dura-dura qeyri-rəsmi şəxsləri, yəni sizi işə cəlb etdiyim üçün. Xahiş edirəm daha bu işə qanşmayasız. Özümüzün
əməliyyat qrupumuz var. Mehdiyevin rəhbərliyi ilə işləyir. Sizə ehtiyacımız yoxdur!

Mən yaman pərt oldum. Qasımlı danışmaq istəyirdi ki, bir polis leytenantı kabinetə girdi.

- Rəis, xəstəxanadan zəng vurdular. Nəsirov Tahir Bəxtiyar oğlu adlı biri başından xəsarət alaraq ora gətirilib.

- Nə vaxt?

- Yaralını oraya 16.20-də gətiriblər. Təxminən saat yanm bundan əvvəl. Ayılanda deyibmiş ki, pilləkəndən yıxılmışam. Baş həkim



orada yox imiş. İndi gəlib və baxan kimi şübhələnib bizə zəng vurub.

- Gərək şübhələnməmiş bizə bildirəydilər! - Rəis hirslə dilləndi. - Mehdiyev hələ Bəxtiyargilə getməyib ki?

- Xeyr! Hələ buradadır. Aşağıda, növbətçi otağında.

- Mənim adımdan de ki, əvvəlcə xəstəxanaya getsin, sonra isə Bəxtiyarın dalınca! Özü ilə adam da götürsün!

- Baş üstə, rəis! - leytenant çıxdı.

Qasımlı və onun ardınca mən də ayağa
qalxdıq. Keçmiş polis xəfiyyəsi kabinetdən çıxanda çevrilib Səmədova baxdı:

- İdarədən kim danlayıb sizi?

- Bunun əhəmiyyəti yoxdur... - rəis dodaqaltı mızıldandı.

Qasımlı tutuldu. Ancaq bu çox çəkmədi. Başını mənalı tərzdə yelləyib kabinetdən çıxdı.

Həyətə düşdük. Həyətdə Mehdiyev və bir baş leytenant radiolaşdırılmış polis maşınına minirdilər. Mehdiyev bizi görüb:

- Xəstəxanaya gedirsiz? - deyə soruşdu.

- Hə! Siz gedin, gəlirik! - Qasımlı mənim maşınıma oturdu. Maşını onların arxasınca sürməyə başladım.

Tahir başı sarıqlı halda çarpayıda uzanmışdı. Palatada ondan başqa xəstə yox idi. Biz onun başına yığışmışdıq. Həkim də yanımızda idi.

downloaded from KitabYurdu.org

Tahirin halı o qədər pis deyildi. Danışa bilirdi. Qasımlı stul çəkib onun çarpayısının yanında oturdu.

- Tahir, niyə gizlədirsən? Sən pilləkəndən yıxılmamısan. - Əli ilə onun boynundakı solğun göy ləkələri göstərdi. - Səni döyüblər. Hətta boğmaq da istəyiblər. Bu kimin işidir?

Tahir ağır-ağır danışmağa başladı:

- Boynuma almağı özümə sığışdırmadım. Evə gələndə şam ağaclarının arasında iki nəfər qabağımı kəsdi. Məni cığırdan kənara, xəlvətə çəkmək istədilər. Dedilər ki, sənə sözümüz var. Mən razı olmadım. Yaxamdan yapışdılar. Birini vurdum. O biri dəmir linglə məni vurdu. Yıxıldım. Deyəsən məni ölmüş bilib qaçdılar. Bir təhər özümü evə çatdırdım. Blokun ağzında qonşumuz Ağaəhmədə rast
VII gəldim. Məni maşına qoyub bura gətirdi. Maşında huşumu itirmişəmmiş. Burada ayıldım...

- Həmin adamları tamdınmı?

- Yox... Tanımadım. Birinci dəfə idi görürdüm.

- Bəs bilmədin səndən nə istəyirlər?

- Yox, bilmədim...

- Xahiş edirəm, yarasını açın! - Qasımlı həkimə baxdı. Həkim bir söz deməyib sarğını açdı. Polkovnik Tahirə doğru əyilib yaranı gözdən keçirtdi. Əlini yaralının boğazında gəzdirdi. Birdən ona nə oldusa, stuldan dik qalxdı. Rəngi bircə anda dəyişmişdi.

- Bağlayın!

- Nə oldu? - Mehdiyev cəld soruşdu.

- Heç bir şey! - Qanbay Qasımlı pəncərəyə tərəf gedib həyətə baxdı və yenə təkrar etdi: - Heç bir şey! İndi siz nə etmək istəyirsiniz?

- Həmin iki nəfərin əlamətlərini soruşub öyrənəcəyəm. Sonra rəis tapşınb ki, Bəxtiyarın dalınca gedim.

- Əlamətləri sonra öyrənərsiz, gedək, mən də sizinlə gedirəm. Bəxtiyargilə getmək mənə də lazımdır. Rəis deyirdi qapını açan yoxdu, hə? Tahirin açarı buradadırsa, onu da alın, gedək!

downloaded from KitabYurdu.org

Qasımlı bunu deyib tez palatadan çıxdı. Mən də onun dalınca getdim. Biz maşına minəndə Mehdiyev və baş leytenant xəstəxanadan çıxdılar. Kapitanın əlində Bəxtiyann mənzilinin açarı var idi. Maşınlarımız bir də Tahirəgilin blokunun qabağında dayandı. Tələsik yuxarı çıxdıq.

Kapitan Mehdiyev zəngin düyməsini bir neçə dəfə basdı. Qapını açan olmadı. Ağaəhməd mənzilindən çıxıb bizimlə salamlaşdı və yanımızda dayandı.

- Evdə yoxdur?
- Bilmirik! - mən cavab verdim.
- Mehdiyev açarı cibindən çıxarıb polkovnikə baxdı:
- Açıram!
- Aç! Bir az tez ol! - Qasımlı hökm etdi. Mehdiyev açarı qıfıla salıb burdu. Qıfılın dili

şaqqıltı ilə hərəkət etdi. Kapitan qapını itələdi. Ancaq qapı yenə açılmadı.

- İçəridən bağlanıb! - deyə Mehdiyev bizə baxdı.
- Qapını kəsmək üçün alət gətizdirin! - Qasımlı məsləhət gördü. Onun səsi azacıq titrəyirdi.

Baş leytenant Mehdiyevin tapşırığı ilə usta dalınca getdi.

- Bu nə deməkdir? - Ağaəhməd qapıya yaxınlaşıb bir də zəngi basdı və - Bəxtiyar, qapını niyə açmırsan, Bəxtiyar! - deyə qışqırdı.

Biz susub danışmırdıq. Dəqiqələr çox ağır keçib gedirdi. Mehdiyev Ağaəhmədin mənzilinə keçib bölməyə zəng vurdu və geri qayıtdı:

- Dedim, qoy əməliyyat qrupu göndərsinlər. Burada nəsə xoşagəlməz iş baş verib. Bəlkə də bədbəxt oğlunun ürəyi partlayıb?
- Partlayar da, onun yerində kim olsa, ürəyi partlayar. - deyə dilləndim.

Axır ki, baş leytenant gəlib çıxdı. Özü ilə iki nəfər usta gətirmişdi ki, onlann da əlində kəsici aləti var idi. Tək bir dəfə mənzildə olmuş Qasımlı

qapının cəftəsinin yerini dəqiq yadda saxlamışdı. Əlini cəftə olan yerə qoyub:

downloaded from KitabYurdu.org

- Buradan kəsin! - dedi.

Qapı açılan kimi içəri girdik. Bəxtiyarın mənzilindəki hər iki balkon dəmir çərçivəli şüşəbəndlə tutulmuşdu. Yazıq Bəxtiyar balkonların birində şüşəbəndin açılıb-örtülə bilən pəncərəsi altında kürəyi üstə yerə sərilmişdi. Pəncərənin cəftələri bağlanmışdı. Otaqlar demək olar ki, başdan başa qan içində idi. Bəxtiyarın qarın nahiyəsində bıçaq yarası aydın bilinirdi. Uzun, qanlı bir fin bıçağı balkonda yox, otaqların birində döşəmənin üstünə düşüb qalmışdı. Mehdiyev vəziyyəti görən kimi ucadan:

- Hamıdan xahiş edirəm, mənzildən çıxsın! Bu saat əməliyyat qrupu gələcək, - dedi və baş leytenanta əmr elədi:

- Rəisə zəng vur, vəziyyəti bildir!

Qasımlı halını pozmadan dilləndi:

- Biz bu saat çıxıb gedəcəyik! Mənə imkan verin, bir qədər müşahidə aparım.

- Buyurun! Ancaq məsələ aydındır: Bəxtiyar özünü öldürüb, -deyə kapitan izah etdi: - gördüyünüz kimi qapı və pəncərələr içəridən bağlı idi.

- Aydındır! İntihar olmağına sözüm yoxdur. Məni başqa şey maraqlandınr. - Rusiya Baş Cinayət Axtarış idarəsinin sabiq əməkdaşı bunu deyib Tahirənin otağına girdi. O hara getsə, mən də onun arxasınca düşürdüm. Qasımlı şkafın alt siyirməsini çəkdi və Tahirənin albomunu çıxarıb vərəqləməyə başladı. Sonra albomu yerinə qoyub tələsik ayağa qalxdı və əvvəlki otağa qayıtdı. Telefon aparatına diqqətlə baxandan sonra dəstəkdə və dəstəyin qoyulduğu yastıqdakı düymələrdə güclə bilinən qan ləkələrini mənə göstərdi. Öz-özünə danışırmış kimi astadan dilləndi:

- Telefonla harasa zəng etmək istəyib, bəs görəsən niyə zəng etməyib?

- Nədən bilirsiz etməyib?

Dinmədi. Mən təəccüblə çiyinlərimi çəkdim. O, sonra otağı və balkonu gəzib hər şeyə diqqətlə baxmağa başladı. Meyit uzanan balkonun

downloaded from KitabYurdu.org

pəncərəsini gözdən keçirtdi. Dizini yerə atıb bıçağa baxdı. Çünki Mehdiyev heç nəyə əl vurmamağı tapşırmışdı. Telefon olan otaqda stolun üstündəki büllur külqabını yaylığı ilə götürüb altına elə baxdı ki, elə bil onun hansı firma tərəfindən hazırlandığını bilmək istəyirdi. Nəhayət, bir qədər qapını və qapının cəftəsini gözdən keçirib mənzildən çıxdı. Ağaəhməd və qapını açan ustalar burada dayanmışdılar. Qasımlı bir siqaret yandırıb başını qaldıraraq divarlara və bir daha mənzilin qapısına göz gəzdirdi.

- Belə-belə işlər... - deyə dodaqaltı mızıldandı və əlavə etdi: - Özünü öldürüb.

Ağaəhməd təəssüflə başını yırğaladı:

- Səhər həyətdə soruşdum ki, təzə xəbər varmı? Dedi ki, heç nə, daha mənim özümü öldürməkdən başqa çarəm yoxdur. Mən bədbəxt oğlu nə biləydim ki, bu onun ciddi sözüdür. Yoxsa, axır nəsə eləyərdim ki, buna imkan verməyim.

Qanbay Qasımlı bir qədər fikrə getdi, sonra birdən məndən saatı soruşdu.

- Doqquza iyirmi dəqiqə qalıb, - dedim. Daha axşamdır!

- Nemət müəllim, siz evə gedin, mənim bir başqa yerdə vacib işim var. Gecə saat 12-yə çəkər. 12-də yenə xəstəxanaya getməliyəm. Tahirin yanma.

- Nə üçün? - deyə tez soruşdum.

Bayaq o işarə etdi ki, mənə deməyə nə isə gizli sözü var. Dedim ki, gecə gələcəyəm.

Mən etiraz etmədim. Biz aşağı düşdük.Qasımlı bir daha:

-Gedin evə! - deyib binanın tinini buruldu və gözümdən itdi.

Mən maşına minib evə yollandım.

* * *

Mənzilimə girən kimi Fədayəyə çay qoymağı tapşırıb divanda uzandım və bir siqaret yandırıb xahiş etdim ki, məni narahat etməsin.

Aləm beynimdə bir-birinə qarışmışdı. Fikrimi bir yerə toplaya bilmirdim. Bugünkü hadisələr elə sürətlə bir birini əvəz etmişdi ki, bu hadisələrin yaratdığı təəssürat beynimi əməlli- başlı yormuşdu. Ayrı-

downloaded from KitabYurdu.org

ayrı epizodlar pərakəndə halda gözümün qarşısında canlanırdı. Leyla xanımın göz yaşları içində Qasımlıya yalvarması, keçmiş xəfiyyənin kədərli hekayəti, Bəxtiyarın ruhi sarsıntı içində polisə gəlməsi, ATS işçisinə əl qaldırması, nəhayət keçirdiyi iztirablara dözməyib özünə qəsd etməsi, Səmədovun bizimlə soyuq davranışı, Tahirin naməlum adamlar tərəfindən döyülməsi... Görəsən, o iki nəfər kim olub? Tahirdən nə istəyirlərmiş? Tahir gecə saat 12-də Qasımlıya nə deyəcək? Bəlkə o, həmin iki nəfəri tanıyıb və bizim yanımızda demək istəmədi?...

Bu suallara cavab tapmaq üçün qonşumu gözləməkdən başqa çarəm qalmamışdı.

Televizoru qoşub qabağında oturdumsa da, başımı qarışdıra bilmədim. Bəxtiyarın meyiti gəlib gözlərimin qarşısında dayanırdı. Bədbəxt oğlunun səbri çatmamışdı ki, yaşayıb, heç olmasa qızının öldü-qaldısmdan bir xəbər bilsin.

Saat ıı olmuşdu. İlham oturub televizora baxırdı. Fədayə isə, deyəsən, o biri otaqda nəsə yazırdı. Bu vaxt telefon zəng çaldı. Mehdiyevin səsini bir az gec tanıdım. Yavaşdan danışırdı. Elə bil kimdənsə gizlin zəng eləmişdi.

- Nemət müəllim?!
- Hə, mənəm kapitan, xeyir ola?..
- Bilmirsiniz Qanbay müəllim haradadır? Mənzilinə zəng vururam, cavab verən yoxdur.
- Yox, bilmirəm. Elə mən də onu gözləyirəm.
- Onun cib telefonunun nömrəsini necə, bilmirsiniz ki?
- Yox! - dedim. - Təzə nömrəsini bilmirəm.

Qanbay müəllim cib telefonunun nömrəsini dəyişmişdi. Doğrudan da onun yeni nömrəsini bilmirdim.

- Nə olub ki? - deyə narahatlıqla soruşdum.
- Bilirsiniz?... - Mehdiyev səsini bir az da alçaltdı. - İndicə xəstəxanadan növbətçi həkim zəng etmişdi. On dəqiqə bundan əvvəl Tahiri palatasında öldürüblər!..
- Necə?! Nə üçün? - Az qaldı dəstək əlimdən düşsün.

downloaded from KitabYurdu.org

- İynə vurub öldürüblər. Tibb bacısı onun palatasından çıxan yad bir adamla rastlaşıb.

Çənəsində çapıq yeri olan bir adamla... - o bir az susub:

- Mən indi ora gedirəm. Dedim Qanbay müəllim də bilsəydi, yaxşı olardı. Sağ olun! - dedi və dəstəyi qoydu.

Mən ayaq üstə quruyub qalmışdım. Fədayə o biri otaqdan gəldi:

- Kim idi?

Cavab vermədim.

- Deyirəm, kim idi, nə olub?

- Heç, Qanbay müəllimi axtarırlar - dedim və yavaş-yavaş divana çökdüm.

Yazıq Tahir... Bu nə olan işdir? Onun nə günahı var idi? Əvvəl döymüşdülər, indi də... Leyla xanım bu zərbələrə necə dözəcək? Bu tərəfdən də, deməli, Qasımlı Tahirlə görüşə bilməyəcək. Axı onlar saat 12-də görüşməli idilər. İndi isə saat 11-dir. Görəsən o, Qasımlıya nə deyəcəkdi? Bu çənəsi çapıq oğlan haradan çıxdı. Qasımlınm deməyinə görə onu da güdürmüş.

Peşman olmağa başlamışdım. Nahaq biz bu işə baş qoşduq. Nahaq Qanbay Qasımlım yolundan elədim. İtmiş qızın izinə düşə bilməmişdik və belə görünürdü ki, heç düşə bilməyəcəyik də! Narahatlığım daha da artmağa başladı. Daha olan olmuşdu. İndi Qasımlım xilas etmək lazım idi. Bu şübhəsizdi ki, onun həyatı təhlükədə idi. Ancaq necə xilas etmək? O indi haradadır?

Balkona çıxıb qonşumun mənzilinə boylandım. Mənzilin işığı yanırdı. Sevincək çıxıb onun qapısının zəngini çaldım. Qapını açan olmadı. Peşman halda mənzilimə qayıtdım və sakitcə gözləməyə qərar verdim. Gecə saat ikinin yansında yenə balkona çıxdım. Blokun qapısı qarşısındakı ağaclıqda bir nəfər ucaboy adam gözümə sataşdı. O bizim balkona san baxırdı. Məni görən kimi gizləndi. Bu yəqin ki, Qasımlınm dediyi adam idi və onun dalınca gəlmişdi. İçəri keçib telefonla qonşumun mənzilinə zəng vurdum. Cavab verilmədi. Bəs indi nə edim? - deyə fikirləşdim. Mehdiyevin telefon nömrəsini götürməməyimə təəssüfləndim. Qasımlı nə vaxtsa evə qayıdanda bu

downloaded from KitabYurdu.org

adam onu vuracaqdı. 02-yə zəng vurmağı qərara aldım.

- Növbətçi serjant Qurbanov eşidir!
- Bizim binanın qarşısında şübhəli bir adam var..
- O nə edir ki?
- Hələlik heç nə, amma...
- Onda, yerinizə girib yatın!

Əlaqə kəsildi. Mən də dəstəyi yerinə qoydum. Özümü gülünc vəziyyətə saldığım üçün qanım qaraldı. Mən o kütbeyin və laqeyd seıjanta necə başa salacaqdım ki, olduqca lazımlı bir insanın həyatı üçün narahatam.

Mehdiyev də daha zəng eləmirdi. Görəsən Qasımlım tapmayıb ki? Bəlkə də Mehdiyev indi yatıb. Yox, Tahirin ölümü ilə əlaqədar, yerində olmalıdır. Bəlkə Qasımlı da oradadır. Ehtiyatla balkona çıxıb həyətə boylandım. Heç kəs görünmürdü. Bina sakinləri də yuxuda idilər. Qərara gəldim ki, maşına minib birbaş 4-cü polis bölməsinə sürüm. Qanbay müəllim orada olmasa da, hər halda Mehdiyevi tapa bilərəm. Qərarımı qətiləşdirdim. Fədayə də, İlham balam da çoxdan yatmışdılar. Mənzildən çıxıb aşağı düşdüm və ehtiyatla blokun qarşısında saxladığım maşına minib mühərriki işə saldım. Bu vaxt bir nəfər elə bil yerdən çıxıb maşınımın qapısını açdı.
Əlindəki tapançanı başıma dirəyib, o biri əli ilə dal qapının düyməsini qaldırdı və açaraq arxada oturdu.

- Sür! Başqa fikirlərə düşsən, inan ki, təpəni dağıdacağam!
- Siz kimsiz? Məndən nə istəyirsiz?
- Dedim ki, sür. Yolda danışarıq!
- Hara sürüm? - deyə taleyimlə barışmış halda soruşdum.

O, cavab verməк əvəzinə, bir əli ilə tapançanı kürəyimə dirəyib, o biri əli ilə cib telefonunu çıxartdı və kiməsə zəng vurdu. Zəng vurduğu adam çox gec cavab verdi.

- Şef, mənəm, - sərnişinim dilləndi, - Qasımlım hələ tapmamışam. Ancaq dostunu tapmışam. O, maşını ilə harasa getmək istəyirdi. Neyləyim?

downloaded from KitabYurdu.org

Mənə elə gəldi ki, həmin adam bir qədər tərəddüddən sonra:

- Onu bura gətir! - dedi.

- Baş üstə! - yeni tanışım cavab verib telefonu qapadı və tapançanın lüləsini kürəyimə basdı.

- Hələlik aeroport tərəfə sür, sonra deyərəm! Tabe olmaqdan başqa əlacım qalmadı.

Şübhəsiz ki, bu elə Qasımlı deyən adam idi. Əlamətləri də tamamilə uyğun gəlirdi. Kvartalı arxada qoyan kimi soruşdu:

- Qonşun haradadır?

- Bilmirəm, evdə yoxdur...

- Bilməmiş olmazsan. Mənzilin işığı yanırdı axı. Gizlənməyin mənası yoxdur. Onsuz da tapacağam.

Fikirləşdim ki, bu adam məni şəhərdən kənara aparırsa, sağ buraxmayacaq. Ona görə də sözümü ürəyimdə saxlamamaq qəranna gəldim:

- Hər sizin kimilər axtaranda Qanbay Qasımlım tapa bilsəydilər, onda o Qanbay Qasımlı olmazdı.

- Deyəsən yerini bilirsən, əzizim!

- Yox, həqiqətən bilmirəm! - dedim. Küçələrdə çox təsadüfü maşınlar görünürdü.

Aeroport yoluna çatandan sonra gedəcəyimiz yeri «sağa», «sola», «düz get» kimi əmrlərlə başa salmağa başladı. Fikirləşməyə də vaxtım yox idi. Kor-koranə, hara deyilirdisə, ora da döndərirdim. Axır ki, «saxla» əmri verildi. Böyük hasarlı bir həyətin darvazası qarşısında dayanmışdıq. Həyətdəki böyük evin bayır divarına bərkidilmiş projektor ancaq həyətə işıq saçırdı. Darvazadan bayıra isə işıq çox zəif düşürdü. Arzuolunmaz sərnişinin göstərişi ilə siqnal verdim. Darvaza aralanmağa başlayanda, o, «sür içəri» əmrini verdi. Maşını həyətə saldım. Darvaza o saat örtüldü. Həyət gündüz kimi işıqlı idi. Həyətdə bir tünd göy rəngli «Hunday», dörd dənə isə polis maşını var idi. Əllərində avtomat tutmuş yeddi-səkkiz nəfər polis işçisi o saat maşınımı dövrəyə aldılar. Qapılan açıb, silahları bizə tuşladılar və çıxmaq əmri verdilər. İkimiz də maşından çıxdıq. Yanımdakının

downloaded from KitabYurdu.org

tapançasını əlindən aldılar. O özünü itirmiş, dili tutulmuşdu.
Elə mən də həyəcanlı vəziyyətdə idim. Məni də onunla birlikdə hasara tərəf itələyəndə, ucadan tanış bir səs eşitdim:

- Onunla işiniz olmasın!

Geri çevriləndə evin pilləkənlərinin yanında polis formasında olan bir mayorla yanaşı dayanmış Qanbay Qasımlım gördüm. Tez ona tərəf atıldım.

- Bu nə deməkdir, Qanbay müəllim? Qasımlı mənə cavab verməyib, yanındakı
mayoru göstərdi:

- Tanış olun! Mayor Namazov. Dostumdur. Şəhər Baş Polis İdarəsində işləyir.

Tanışlıqdan sonra Namazov Qasımlıdan soruşdu:

- Yəqin ki, daha getmək olar?
- Hə, tapşır, qızı bizə versinlər. Bizim maşınla getsin.
- Qızı gətirin! - Mayor həyətdəki adamlardan birinə göstəriş verdi. Həmin adam qaçaraq evə çıxdı.

Başımı yuxan qaldıranda gördüm ki, əynində ev xələti olan gənc bir qız pilləkənlərlə aşağı düşür. İşıqda onun kədərli, solğun sifəti aydın görünürdü. Heyrətimdən keçirdiyim hissləri indi təsvir edə bilmirəm. Bəli, bu o idi... Bizim iki gündən bəri axtardığımız Tahirə idi. Polis işçiləri onu mənim maşınıma mindirdilər. Sonra evdən alçaq boylu, dolu bədənli, sir- sifətindən hakimiyyət nişanəsi yağan bir adamı qolubağlı düşürtdülər. Onu polis maşınlarından birinə oturdanda Qasımlı ucadan səsləndi:

- Xahiş edirəm, bir dəqiqə dayanın!

Polis işçiləri dayanıb bizə tərəf boylandılar.
Qanbay Qasımlı həbs olunan kişiyə yaxınlaşıb əlini onun çiyninə qoydu və düz onun gözlərinin içinə baxdı. Sanki baxışları ilə onu didib- parçalamaq istəyirdi. Ancaq birdən fikrini dəyişib nifrətlə əlini yellədi:

- Get, Babaşov! Get!.. Kişi nə isə demək istəyirdi ki, imkan vermədilər və onu maşına itələdilər. Daha iki-üç nəfər tutulan var idi.

downloaded from KitabYurdu.org

Məni oraya gətirən canini də onlara qatıb maşınlara mindirdilər. Maşın karvanı darvazadan çıxıb şəhərə üz tutdu.

- Tahirəni də özümüzlə birbaş qonşumun mənzilinə gətirdik. Qasımlı qıza yataq otağında dincəlməyi tapşırıb mənimlə iş otağında oturdu. Gecədən xeyli keçməsinə baxmayaraq, mən bir çox suallarıma cavab tapmamış yatmaq istəmirdim. Onsuz da səhərin açılmağına bir şey qalmamışdı. Odur ki, divanda yerimi rahatlayıb Qasımlım danışmağa məcbur etmək istədim.

- Bu üç gündə baş verən hadisələri aydmlaşdırana qədər yatmağa gedən deyiləm.

Yuxusuzluqdan gözləri qızarmış qonşum cəld ayağa qalxıb qəhvə dəmləmək üçün mətbəxə keçdi. Çaydanı qaz plitəsinin üstünə qoyaraq elə oradan dilləndi:

Sizi əsas nə maraqlandırır?

- Hər şey!

İki fincan qəhvə ilə gəlib öz yerində oturdu. İsti kofedən bir qurtum içib siqaret yandırdı. Bir qədər fikrə gedib danışmağa başladı:

- Özünüz bildiyiniz kimi, Leyla xanımla ilk görüşdən və Tahirə haqqında toplanmış yazılı materiallan oxuyandan sonra məndə qəti əminlik yaranmışdı ki, Tahirə asanlıqla pis yola düşən qız deyil. Elə ona görə də onun birdən-birə yoxa çıxması, özü də kiçik bir məsafədə, həmişə gur olan səkidən yoxa çıxması mənim üçün həqiqətən müəmmalı idi. Mən qız haqqında daha dəqiq məlumata malik olmaq üçün onun evdəki əşyalanna, dərs ləvazimatına baxmağı vacib saydım və həmin gündəlik əlimə keçdi. Gündəlikdə Zaur haqqında oxuyanda sevindim. Ona görə yox ki, Zaurun mütləq qızın oğurlanmasında əli olmalı idi, ona görə ki, Tahirəni hər gün izləyən adam var idi və o, aprelin 12-də də Tahirəni izləmişdisə, deməli, onun başına gələn hadisənin şahidi olmalı idi. Gündəlik üzərində düşüncələrim əsasında mən Zaurdan şübhələnmirdim. Ona görə də təcili Zauru tapdırdım və o, həmin gün gördüklərini bizə danışdı.

Yadmızdadı, Nemət müəllim, Zaurun danışığından sonra sizdə Tahirə haqqında verdiyim rəyə inamsızlıq yarandı. Ancaq yox! Mən

downloaded from KitabYurdu.org

öz müşahidələrimə həmişə inanmışam və yenə də öz fikrimin üstündə qəti dururdum. Belə olanda isə meydana bir sual çıxırdı. Maşında kim ola bilərdi ki, Tahirə onu görəndə özünü sevincək və həm də Zaurun dediyi kimi, sərbəst aparsın, kimlərinsə görə biləcəyindən ehtiyat etməyərək könüllü surətdə yad maşına minsin? Bizim bildiyimizə görə, qızın qohumları və tanışları arasında belə bir adam olmamalı idi. Məhəbbətlə bağlı bizə naməlum olan bir şəxs olsaydı, gündəlikdə bu barədə kiçik də olsa işarəyə rast gələrdik. Axı Tahirə nisbətən adi hadisəni - Zaurun ona yaxınlaşmasını gündəlikdə qeyd etmişdi. Bax belə olan surətdə, məndə qızın qardaşına qarşı şübhələr meydana gəlməyə başladı.

- Siz nə demək istəyirsiniz? - deyə dəhşətlə dilləndim.

- Qulaq asm, gecə keçir, yatmaq lazımdır. - Qasımlı təmkinlə siqaretini sümürüb davam etdi:

- Gündəlikdə axınncı gün - aprelin ıı-də Tahir haqqında yazılanlar şübhəmi daha da artırırdı. Tahir həmin gün axşam bacısına yaxınlaşıb onun başını sığallamışdı. Həmin anda o bilirdi ki, bacısı səhər evə qayıtmayacaq. O hesab edirdi ki, Tahirəni bir daha görməyəcək. Mən polis bölməsində Zauru danışdırandan sonra sizdən ayrıldım və Tahirin iş yerinə gedib ehtiyatla onun haqqında bəzi məlumatlar öyrəndim. Tahir işdə bir ay imiş ki, özünü qəribə aparırmış. Gah işdən çıxacağından, gah özünün şəxsi restoranı olacağından danışırmış. Son vaxtlar isə tamamilə əsəbi olubmuş. Əlbəttə, bunu bacısı yoxa çıxmış bir qardaş üçün təbii də saymaq olardı. Amma mən bir şeyi də öyrəndim: Tahir həmin hadisə baş verən gün - aprelin 12- də nahar fasiləsi zamanı ofisdən çıxmış və qayıdarkən işə bir saata yaxın gecikmişdir. Bunun üçün də şöbə müdiri tərəfindən töhmətləndirilmişdir. Tahirin saat 13-dən təxminən 15-ə kimi ofisdə olmaması və Tahirənin də məhz həmən zaman fasiləsində, saat 13. 20-də yoxa çıxması ağlıma gələn fikri bir qədər də möhkəmləndirdi. Eyni zamanda öyrəndim ki, Tahir qonşuları Ağaəhmədlə tez-tez görüşür və Ağaəh- mədin işlədiyi «Şah xörəkləri» restoranına gedib-gəlir.

downloaded from KitabYurdu.org

Necə ki, sizə demişdim, Tahir haqqında bu məlumatlan toplayıb qayıdanda həmin çənəsi çapıq adamın məni izlədiyini başa düşdüm. Düzdür, mən sizə onu güdə bilmədiyimi demişdim. Ancaq əslində belə deyildi. Mən bir avtobus dayanacağında asanlıqla onun gözündən itdim və onun gülünc vəziyyətdə ora-bura vurnuxaraq məni axtardığını gizlicə müşahidə etməyə başladım. O məni itirdiyinə əmin olandan sonra küçənin o biri tərəfinə keçib avtobusa mindi və bu dəfə mən onu izləməyə başladım. Həmin adam birbaş «Şah xörəkləri» restoranına getdi. Mən onun oradan çıxmağını gözlədim və çıxandan sonra da taksi tutub onu güdməyə başladım. Çapıq Tahirənin saxlandığı bağ evinə getdi. Mən öyrəndim ki, həmin bağ evi də, Ağaəhmədin müdirlik etdiyi restoran da böyük bir idarənin rəhbəri olan Babaşova məxsusdur. Bu və Babaşov haqqında digər məlumatları toplamaqda dostum - mayor Namazov mənə kömək etdi. Namazovdan bir də xahiş etdim ki, adamları vasitəsilə öyrənsin, görək həmin bağda qız uşağı saxlamlırmı?

Sonra o biri bədbəxt qızın - Aygünün ölümünü eşitdik. Mən onun ölüm tarixi ilə Tahirənin oğurlanmasının eyni vaxta düşməsini biləndə, söz yox ki, Tahirə üçün narahat oldum. Eyni vaxtda onu da düşündüm ki, Aygündən qat- qat gözəl olan Tahirəm tezliklə öldürməyəcəklər. Ancaq hər halda tələsməyi qərara aldım.

Bundan sonra hadisələr bir-birini sürətlə əvəz etməyə başladı. Bəxtiyarın rəisin yanından çıxıb evə getməsi, lakin bir az keçmiş sorağının ATS-dən gəlməsi, ATS işçisini təhqir etməsi və nəhayət Tahirin xəstəxanaya düşməsi. Bəxtiyar ATS-də tələb edirmiş ki, onun mənzilindən yanm saat əvvəl hara zəng olunduğunu, yaxud haradan onun mənzilinə zəng edildiyini desinlər. Bu tərəfdən də Tahirin müəmmalı döyülməsi. Mən onsuz da ondan şübhəli idim və onun nağılına inanmırdım. Yarasına baxandan sonra gördüm ki, başına lingə yox, nə isə dairəvi və naxışlı bir əşya ilə zərbə vurulub. Eyni zamanda onu boğmaq da istəmişdilər. Düşünürdüm ki, Bəxtiyar mənzildən başqa yerə zəng vurulmasından danışıbsa, deməli danışan özü olmayıb. Çünki özü hara zəng etdiyini bilməmiş olmazdı. Onda

downloaded from KitabYurdu.org

deməli mənzildən danışan Tahir imiş. Mən Bəxtiyarın polisdən evə, evdən ATS-ə getdiyi yollan və buna sərf edilən vaxtı tutuşdurub belə qərara gəldim: Bəxtiyar polis bölməsindən çıxıb evə gələndə Tahir kiminləsə qızın oğurluğu barədə telefonda, özü də ucadan danışırmış. Yəqin ki, nəsə tələb edirmiş. Mən öyrəndim ki, Tahir həmin vaxt «Şah xörəkləri» restoranı ilə danışırmış. Burada iki variant ola bilərdi. Birincisi odur ki, Tahir həmin vaxt mənzilin qapısını ümumiyyətlə açıq qoyubmuş, ikinci və daha inandıncı odur ki, Tahir qapını örtüb və daha içəridən qıfıllamayıb və nə də cəftəni vurmayıb. Onların qıfılında əsas dildən başqa, kiçik dil ki, var, bunun vasitəsilə qapını örtəndə avtomatik bağlanır. Bu zaman qapını çöldən açarla açmaq mümkündür. Beləliklə Bəxtiyar qapını öz açan ilə açıb mənzilə girib və Tahirin danışığını eşidib. Qızının yoxa çıxmasında oğlunun əli olduğunu başa düşüb və ona hücum edib. Atası Tahiri əlləri ilə boğa-boğa kiminlə danışdığını, qızın harada olduğunu soruşub. Tahir cavab verməyib. Bəxtiyar stolun üstündən külqabını götürüb onun başına vurub. Sonra Tahiri bayılmış vəziyyətdə qoyub ATS-ə qaçıb. Yadınızdadırsa, mən onların mənzilində
olanda külqabıya diqqətlə baxdım. Onun altında azacıq qan ləkəsi və bir neçə baş tükü var idi.

Telefon xəttinin o biri başında olan Ağaəhməd Bəxtiyarın Tahirə hücumunu başa düşüb və tələsik onlara gəlib. Tahiri ayılmış, lakin pis vəziyyətdə görüb xəstəxanaya apanb və şərtləşiblər ki, Tahir pilləkənlərdən yıxıldığını desin.

Mən yenə deyirəm, Zaurun söhbətindən sonra onsuz da başa düşmüşdüm ki, Tahirin bu işdə əli var. Bu hadisədən sonra isə fikrim tamam qətiləşdi. Tahirəni öz qardaşının əli ilə oğurlamışdılar! - Qasımlı söhbətə ara verib:

İstəyirsinizsə, hələ yatmayıbsa, qızın özünü danışdıraq, - dedi.

Mən razılaşdım. Ev sahibi qonşu otağın qapısını aralayıb qızı çağırdı. Tahirə yatmamışdı. Durub yanımıza gəldi. Qasımlı ona stulda oturmağı təklif edib dedi:

- Tahirə, qızım, başına gələnləri qısaca bizə danışa bilərsənmi?

downloaded from KitabYurdu.org

Şəkildə gördüyüm Tahirədən əsər-əlamət qalmamışdı. Arıqlamış, gözlərinin altı qaralmış bədbəxt qız başını aşağı dikib dizinin üstünə qoyduğu əllərinə baxırdı. Bizi çox gözlətməyib ağır-ağır sözə başladı:

- Həmin gün məktəbdən yenə Zibeydə adlı sinif yoldaşımla birlikdə çıxdıq. Ondan ayrılandan sonra yolun kənannda, səkiyə yaxın dayanmış bir maşından məni çağırdılar. Gördüm ki, Tahirdir. Dalda oturmuşdu. Maşını da üzü çapıqlı bir kişi sürürdü. Sonra onu tez-tez həmin həyətdə görürdüm. Adı Fəzail idi. Tahir dedi ki, atamın dostu hamımızı öz bağına, ad gününə dəvət edib. Atamla anam oraya getdilər. Mənə də tapşırdılar ki, sən dərsdən çıxan kimi səni də götürüb gəlim. Bayaqdan səni gözləyirəm. Mən dedim ki, qoy gedim paltarımı dəyişim. Dedi, lazım deyil, gecikirik. Mən çarəsiz qalıb maşına mindim. Maşın bizi həmin hasarlı həyətə apardı. Evin sahibi həyətə düşdü. O həyətə düşən kimi Tahirlə Fəzail yenə maşına minib getdilər. Həyətdə bağban işləyən kişi qapını bağladı. Mən əvvəl heç nə başa düşmədim. Ancaq sonra ev sahibi məni başa saldı. Ağlayıb darvazaya qaçdım. Bağban ağzımı tutub qollarımı burdu və məni məcbur evə apardı... Evdə mənim yaşda bir qız da var idi. Əyninə bahalı ev xalatı geymişdi. Onun kim olduğunu bilmədim. Axşam qonşumuz Ağaəhməd əmi öz maşını ilə bağa gəldi. Fəzail də onda bağda idi. Onlar həmin qızı Ağaəhməd əminin maşınına mindirib harasa apardılar. Sonra daha onu görmədim... Neçə dəfə qaçmaq istədim. Qoymadılar. Ağaəhməd əmi həmişə ora gələndə imkan tapıb ona yalvanrdım. O da deyirdi ki, səni imkan olan kimi evinizə aparacağam, ancaq ağıllı ol, gözlə...

Tahirə sözünü kəsib ağlamağa başladı. Ev sahibi qalxıb əlini onun çiyninə qoydu:

- Yaxşı, ağlama, get, qapını ört, yat! Heç kimdən qorxma, səni səhər evinizə özüm aparacam!

- Anam, atam bilirlər ki, məni Tahir apanb ora? - qız əlinin dalı ilə gözlərini silib soruşdu.

- Yox, bilmirlər. Vaxtı gələndə bilərlər. Get yat!

downloaded from KitabYurdu.org

- Onlan nə vaxt görəcəm?
- Sabah görərsən!

Tahirə yataq otağına keçib qapını örtdü. Başqalarından hər cür təhqir, ən yaxın adamından xəyanət görmüş bu qızın xilaskarı olan keçmiş polis xəfiyyəsinə az vaxtda isinişməsi və ona dərin məhəbbətlə baxması məni
qəhərləndirmişdi. Qasımlı mənalı nəzərlə mənə baxıb başını yellədi.

- Tahiri nə üçün öldürdülər? - astadan soruşdum. Biz Tahirənin eşitməməsi üçün yavaş səslə danışırdıq.

Qasımlı sanki sualımı eşitməyibmiş kimi söhbətinə davam etdi:

- Biz xəstəxanada Tahirin yanında olanda mən onun yarasına baxdım. Yara heç də qorxulu deyildi. Əslində məni yaranın əlamətləri maraqlandırırdı. Onun üzünə tərəf əyiləndə nazik bığının tükləri arasında sağ tərəfdə kiçik qara xal gördüm. Düzünü deyim ki, onda özümü ələ almaq mənim üçün bir qədər çətin oldu. Tahirənin albomundakı kollektiv şəkillərdə Tahir bığsız idi. Necə olmuşdu ki, mən o şəkillərə diqqətlə baxmamışdım. Bu heç də mənim üçün bağışlanan xəta deyildi. Mən tez Bəxtiyarın mənzilində olmaq və şəkillərə bir də baxmaq istədim. Həm də ürəyimə dammışdı ki, Bəxtiyarın başında nəsə bir iş var. Beləliklə biz ora getdik.

Nemət müəllim, siz fikir verdinizmi, Mehdiyev açarı qıfıla salıb buranda qıfılın əsas uzun dili şaqqıltı ilə hərəkət etdi.

- Başa düşmədim, nə olsun ki? - deyə soruşdum.
- Mehdiyev də başa düşmədi. Necə yəni nə olsun? Qapı bayırdan açarla bağlanmışdı.
- Demək istəyirsiniz ki, - mən ayağa qalxdım.
- Əyləşin! Bəli qapı içəridən cəftə ilə bağlanmışdı, çöldən isə açarla. Qapının qıfılı içəridən bağlansaydı, o, çöldən açılmazdı. Bu qıfılların xüsusiyyəti belədir. Mən otağa girən kimi birinci Tahirənin albomundakı fotoşəkillərə baxdım. Əmin oldum ki, Tahir həqiqətən bığ saxlamağa təzə başlayıb və onun üst dodağından yuxarı sağ tərəfdə kiçik qara xal var. Deməli, Aygünü institut tələbəsi adı ilə yoldan çıxarıb Babaşovun adamlarma təhvil verən də o imiş. Şəxsən

downloaded from KitabYurdu.org

mən buna əmin idim.

Daha sonra mən telefon aparatına diqqət yetirdim. Telefonun dəstəyində qurumuş qan izləri nəzərə çarpırdı. Belə ləkələrə telefon dəstəyinin yatağındakı düymələrin birində də rast gəlmək olurdu. Ona görə də ağlıma gəldi ki, Bəxtiyar harasa zəng etmək istəyib, ancaq etməyib. Çünki telefon işləmirmiş. Buna mən mənzildən çıxandan sonra divara göz gəzdirəndə bir daha əmin oldum. Mənzilə gələn telefon xətti kəsilib sonra birləşdirilmişdi. Deməli Bəxtiyar yaralı vəziyyətdə, tələsik telefonun dəstəyini götürübmüş, dəstəkdə siqnal səsi eşitmədiyi üçün düymələri bir neçə dəfə döyəcləmiş, sonra dəstəyi yerinə qoymuşdu. O harasa zəng etmiş olsaydı, nömrə yığan hərləcdə də qan izlərinə rast gələrdim. Bəxtiyar qanlı bıçağın atılıb qaldığı otaqda vurulmuşdu. Qanı axa-axa qapıya qədər gəlib onun cəftəsini keçirmişdi. Cəftədə də qan ləkələri bilinirdi. Deməli, Bəxtiyar qapını vurulandan sonra bağlamışdı. Nə üçün? Məni əsas düşündürən bu oldu. O otaqlarda qanı axa- axa gəzmiş, telefona əl atmış, nəhayət, balkonun pəncərəsini açmağa çalışmışdı. Hətta pəncərənin iki cəftəsindən birini açmışdı. Bunu da pəncərədəki qanlı əl izi sübut edirdi. İkinci cəftəni açmağa taqəti qalmamış, yıxılıb ölmüşdü. O pəncərəni niyə açırdı? Əlbəttə, köməyə adam çağırmaq üçün. Telefonun dəstəyinə də ona görə əl atmışdı. Burada belə bir sual ortaya çıxır: Bəxtiyar intihar etmişsə və ya kimsə onu vurmuşsa, əgər o köməyə kimisə çağırmağı qərara alırsa, niyə qonşunu çağırmır? Əksinə, qapını içəridən bağlayır? Deməli, onun qorxduğu məhz elə qonşusu imiş. Bayırda, telefon məftilinin kəsilib sonradan birləşdirilməsi də bu fikri doğruldur. Məftilə heç kəsin əli çata bilməzdi. Mütləq ayaq altına nəsə qoymaq lazım idi. Bunu isə kənar adamın etdiyinə inanmaq çətindir.

Nəhayət, məsələ belə olub: Ağaəhməd Tahiri xəstəxanaya qoyandan sonra evə qayıdıb. O düşünüb ki, Bəxtiyar bu işi belə qoymayacaq və axır ki, Tahirin telefonda Ağaəhmədlə danışdığını öyrənəcək. Qapının zəngini çalıb və Bəxtiyar qapını açıb. Otaqda Ağaəhməd onunla nə söhbət edib bilmirəm, ancaq qəfil zərbə ilə

downloaded from KitabYurdu.org

bıçağı onun qarnına vurub. Bıçağı özü çıxarmayıb və ikinci zərbəyə də ehtiyac görməyib. Onun əlində yəqin ki, əlcək olub və düşünüb ki, Bəxtiyar bıçağı özü çıxarsa əl izləri bıçaqda qalar. Beləliklə istintaq Bəxtiyarın intihar etməsi qəranna gələr. İkinci zərbəni həm də ona görə vurmayıb ki, intihar edən şəxsin birinci qüvvətli zərbədən sonra özünə ikinci zərbə vurması o qədər də ağlabatan sayılmazdı. Beləliklə, Ağaəhməd Bəxtiyarı öz öhdəsinə buraxır ki, qanaxma nəticəsində ölsün. Telefon məftilini otağa girməmiş kəsibmiş. Açan Bəxtiyann cibindən çıxanb, və yəqin onu hədələyib ki, səs- küy salmasın. Çıxıb qapını açarla bağlayıb və söz yox ki, burada böyük səhvə yol verib. Bəxtiyar isə onun qayıdacağından qorxub birinci növbədə qapının cəftəsini keçirib və özü də bilmədən burada Ağaəhmədin xeyrinə hərəkət edib. Əsas dəlillərdən biri qapı cəftəsindəki qanlı əl izidir ki, bu da diqqəti çox az cəlb edirdi. Əməliyyat qrupu bunu və digər detalları görüb, ya yox, bilmirəm, məni maraqlandıran Tahirənin tapılması idi ki, o da tapıldı. Qalan şeyləri qoy istintaq həll etsin. Söz yox ki, lazım bilsələr, istintaqa köməyim dəyə bilər.

- Axı bəs Tahiri nə üçün öldürdülər? - bayaqkı cavabsız qalmış sualımı təkrar etməli oldum. - O sizə nə deyəcəkdi?

Qanbay Qasımlı fincamndakı soyumuş qəhvəsindən bir qurtum içdi. Tələsmədən bir siqaret götürüb yandırdı.

- Hər şey mənə aydın olandan sonra, birdən-birə məndə Tahirə qarşı dəhşətli nifrət oyandı. Məndə çox az hallarda insana qarşı nifrət oyanır. Əksər vaxtlar ən qatı cinayətkara da nifrət etmirəm. Əksinə onlara yazığım gəlir. İndi də Ağaəhmədə yox, məhz Tahirə nifrətim oyandı.

Elə həmin anda da onu öldürmək qərarına gəldim. Ağaəhməd eşitsin deyə ucadan sizə bildirdim ki, gecə saat 12-də xəstəxanada Tahirin yanında olacağam. Guya o mənə nə isə deyəcəkdir. Mən bilirdim ki, Ağaəhməd bunu təcili öz şefinə çatdıracaq və Tahir saat 12-yə qədər aradan götürüləcək.

- Deməli belə çıxır ki, Tahirin ölümünə siz bais olmusuz?

downloaded from KitabYurdu.org

- Bəli... Bunu ancaq sizə deyirəm və inanıram ki, siz də bu sirri özünüzdə saxlayacaqsınız. Bir də lap saxlamasaz da, heç kəs bunu mənə sübut edə bilməz. - Qasımlı gülümsədi.

- Bəxtiyargildən saat doqquzun yarısında çıxandan sonra siz hara getdiniz?

Tahirə görə Qanbay Qasımlım ittiham etmək fikrində deyildim. Tahir sağ qalsaydı, yəqin ki, gündə on dəfə ölüb diriləcəkdi. İstər həbsxanada, istərsə də azadlıqda...

- Sizdən ayrılan kimi birbaş xəstəxanaya - Tahirin yanma getdim. Mənə demək olar ki, artıq hər şey məlum olsa da Tahirənin saxlandığı yeri dəqiq bilmək istəyirdim. Bu işdə qətiyyən riskə yol vermək olmazdı. Hər hansı düşünülməmiş addım qızın aradan götürülməsinə səbəb olardı. Xəstəxanaya gedəndə yolda cib telefonum zəng çaldı. Bu dünəndən, daha doğrusu srağagündən gözlədiyim zəng idi. Namazov xəbər verdi ki, onun adamlan öyrənib, bağda həqiqətən bir qız uşağı saxlanılır. Ancaq qızın kimliyi məlum deyil. Xəstəxanada hər şeyi Tahirə izah etdim.

Bildirdim ki, atası da onun ucbatından öldürülüb. Başa saldım ki, mənə kömək edib bacısının yerini desə, mən də ona kömək edərəm. O da məni başa düşüb hər şeyi danışdı. Ağaəhmədin onu yoldan çıxarmasını, ilk dəfə Aygünü Babaşov üçün oğurlamaqda kömək etməyi ona tapşırdığını danışdı. Aygün məsələsindən sonra Tahir onlann yanında gözükölgəli olubmuş. Nəhayət, Tahirədən xoşu gələn Ağaəhməd onun haqqında Babaşova danışır və onu da bağ evinə aparmağa şefinə söz verir. Yavaş-yavaş Tahiri bu işə hazırlayır. Söz verir ki, bu işi təşkil etsə, Babaşov restoranı ona tapşıracaq. Həm də eyhamla başa salıb ki, bacısını verməsə, Aygünə görə onu ilişdirəcəklər. Bu alçaq da inanıb. Nə isə... Tahir bacısının Babaşovun həmin bağ evində olduğunu bildirdi.

- Siz Tahirə nə cür kömək etməyi boynunuza götürmüşdünüz?

- Əslində mən həmin köməyi etdim! - o bir anlıq susub söhbətini yekunlaşdırdı. - Xəstəxanadan çıxıb şəhər polis idarəsində Namazovla görüşdüm. Ona əvvəlcədən işin mahiyyətini açmamışdım.

downloaded from KitabYurdu.org

İndi məsələni danışıb kömək etməsini xahiş etdim. Biz əməliyyatı uğurla həyata keçirdik. Qalanı da sizə məlumdur. Bircə Babaşovun çənəsi çapıq əlaltısım, yəni Fəzaili tuta bilməmişdik ki, onu da siz vaxtında gətirdiniz.

- O məni gətirdi! - deyə düzəliş verdim.

- Nə fərqi var ki? - gülmək istədisə də bacarmadı. - O, Babaşova zəng vuranda Babaşov artıq polisin nəzarəti altında idi. Mənim xahişimlə onu məcbur etdilər ki, səni bağ evinə gətirmək əmrini versin.

Deyəsən Qasımlmm yenə başağrısı başlamışdı. Divana baxmağından başa düşdüm ki, uzanıb dincəlmək istəyir. Ayağa qalxıb mənzilimə getdim. Səhərin açılmağına az qalmışdı. Bu gün bazar günü idi. Doyunca yatacaqdım. Ayrılanda soruşdum:

- Bəs Ağaəhməd?

- Həbs olunub! - dedi.

- Yuxudan çox gec ayıldım. Qanbay Qasımlı artıq Tahirəni də götürüb getmişdi. Qayıdanda məlum oldu ki, qızı xəstəxanada anasına təhvil verib. Eşitdim ki, Leyla xanım ərinin və oğlunun ölümünü mətanətlə qarşılayıb. Düzdür yenə halı pisləşibmiş, ancaq həkimlər vaxtında tədbir görüb onu özünə gətiriblər. Leyla xanım həmin gün xəstəxanadan çıxıb qızı ilə evinə gedib.

Bazar ertəsi günündən istintaq başlandı. İstintaqda iki-üç gün Qasımlı da iştirak etdi. Ancaq mayın 26-da xaricə uçduğu üçün məhkəmədə iştirak edə bilmədi.

Məhkəmədə Ağaəhməd hər şeyi boynuna aldı. Fəzail ilə birlikdə Aygünü öldürüb öz maşınında dəniz qırağına aparmasını, boynuna ağır dəmir bağlayıb dənizə atmasını, Bəxtiyan öldürməsini və Tahirənin oğurlanması planını hazırlamasını. Aşkar oldu ki, Ağaəhməd telefonla Babaşova Tahirin gecə saat 12-də Qasımlıya hər şeyi danışacağını bildirib. Babaşov Tahiri təcili aradan götürmək barədə Fəzailə göstəriş verib və Fəzail xəstəxanaya gələrək bu göstərişi yerinə yetirib.

Məhkəmədə Zaur da iştirak edirdi. Tahirənin başına gələnlərin onu

downloaded from KitabYurdu.org

necə hiddətləndirdiyi açıq- aşkar görünürdü.

Məhkəmə Babaşova ömürlük, Ağaəhmədlə Fəzailin isə hər birinə on beş il həbs cəzası kəsdi.

Qasımlınm Bakıda olmamasından təəssüflənən Leyla xanım qiyabi olaraq minnətdarlığını bildirməkdən yorulmurdu. Bəxtiyardan söz düşəndə gözünün yaşını saxlaya bilməyən Leyla xanım Tahirin adını belə çəkmək istəmirdi.

Bir qədər sonra eşitdim ki, Leyla xanım ərinin qırxım verən kimi evi satıb Tahirə ilə birlikdə Gəncəyə köçüb.

Bir də il yanm sonra qəflətən Zaur redaksiyaya mənim yanıma gəldi və mənimlə Qanbay Qasımlım öz toyuna dəvət etdi. Onun Tahirə ilə evləndiyini eşidəndə çox sevindim.

Zaur təyinatını Gəncəyə alıb orada yaşamağı qərara alıbmış.

Həmin vaxt Qasımlı yenə Bakıda deyildi. Onu vacib işlə əlaqədar Qazaxıstana dəvət etmişdilər. Mən Zaurun toyunu təbrik edərək Qasımlınm adından üzrxahlıq etdim və özümün mütləq toya gələcəyimi bildirib Tahirənin işləri ilə maraqlandım. Onun qəbula hazırlaşa bilmədiyini və instituta daxil olmaq fikrindən birdəfəlik daşındığını eşidəndə bu xəbər məni çox ağrıtdı.

Dekabr, 2000

## hekayələr

downloaded from KitabYurdu.org

# UŞAQ OĞRULARI

Muxtar Fərəcli həyatından razı idi. Səlimə adlı gözəl, ağıllı və mədəni həyat yoldaşı, on iki yaşlı Valeh adlı oğlu və on yaşlı Xədicə adlı qızı var idi. Rayon mərkəzində yaşayırdı və rayonun hörmət olunan adamlanndan biri idi. İkimərtəbəli evindən bir qədər aralı, şəhərin mərkəzində böyük bir mağaza açmışdı. O bu işə var-dövlətini qoymaqla, əlavə borca düşsə də, gələcəyinə böyük ümidlər bəsləyirdi. Qazancda irəli getdikcə fərəhlənir, uçmağa qanadı olmurdu. Hər gün beynində yeni planlar qurur, imkanlarını artırmağı, böyük xeyriyyəçilik işləri ilə məşğul olmağı arzu edirdi.

Onun bugünkü səhəri də fərəhlə açılmışdı. Yuxudan tez durmuş, üzünü qırxaraq yuyunmuş, səhər yeməyini yemişdi. İndi öz otağında təzə paltarını geyinirdi. Eyvandan qızının səsi gəldi:

- Ana, mən getdim məktəbə!

- Get, qızım, amma yolda özünü maşından gözlə!

- Yaxşı, ana, sağ ol! Ata, sən də sağ ol!

- Yaxşı yol, anam! - Muxtar ucadan cavab verdi.

Xədicə birinci, qardaşı isə ikinci növbədə oxuyurdular. Muxtar uşaqlarının ikisini də sevməyinə baxmayaraq, nədənsə Xədicəni daha çox istəyirdi. Rəhmətlik anasının adını daşıdığı üçün Muxtar ona anam deyirdi. Səlimə uşaq həkimi idi. Ancaq Xədicə doğulandan işləmirdi. Evdə oturub uşaqlarının tərbiyəsi və digər qayğıları ilə məşğul olurdu. Maddi cəhətdən də onun işləməyinə ehtiyac yox idi. Ərinin qazancı ailənin tələbatını ödəməyə kifayət edirdi.

Muxtar Səlimə ilə sağollaşıb həyətə düşdü.

- Valehi də oyat, durub dərslərinə baxsın. Yatmaqdan bir şey çıxmaz! - deyib qırmızı rəngli “Jiquli”sini işə saldı və həyətdən çıxdı. Bu gün mağazanın işləri ilə əlaqədar bəzi yerlərə baş çəkməli idi.

* * *

Xədicə çantasını əlində yelləyə-yelləyə nisbətən dar və xəlvəti bir küçə ilə addımlayırdı. Birdən yanında göy rəngli bir «Qaz-24» dayandı.



downloaded from KitabYurdu.org

Sükanın arxasında qalın bığlı, çopur, üzündə çapıq yeri olan bir kişi idi. Yanında qırmızı qalstuklu bir cavan oğlan, arxada isə üz-gözünü abırsızcasma boyamış arıq bir qadın oturmuşdu. Qadın arxa qapını açıb yalançı mehribanlıqla Xədicəni səslədi:

- Xədicə, gəl otur, səni maşınla aparaq. Xədicə tanımadığı qadına baxıb, başını
buladı.

- Yox! Sağ olun, özüm gedəcəm. Məktəbə az qalıb.

Qadın əl çəkmədi:

- Mən sənin xalanam e... Mamanın dostuyam. Səlimə mənim bacımdır. Gəl otur, qoy yoldaşların desinlər ki, Xədicə xalasının maşınında gəlib. Bunlar da papanın dostlarıdır,
- o, maşındakı kişiləri göstərdi. Kişilər də Xədicəyə baxıb dişlərini ağardırdılar.

Xədicənin dodaqlan qaçdı. Keçib arxada, qadının yanında oturdu. Qadın qapını örtən kimi maşın yerindən tərpəndi. Xədicə oxuyan məktəbin yerləşdiyi kvartal arxada qalanda, Xədicə qadının qolundan yapışdı.

- Məktəbi keçdik xala! Məktəbimiz odey ordadı!

Qadın cəld çantasından kiçik bir şüşə qab çıxartdı. Yaylığını qabdakı maye ilə isladıb qızın sifətinə basdı. Xədicə o saat yuxuya getdi. Qadın uşağı kobudluqla maşının arxa oturacağına uzadıb: - Saxlayın, mən düşüm! - dedi.

Maşın şəhərin çıxacağmdakı dayanacaqda dayandı. Sükanın arxasında oturan kişi arxaya çevrilib həyasızlıqla hırıldadı:

- Buyurun düşün, Ellada xanım! Kürən ərciyəzinizə deyin, keçən dəfəki kimi araq şüşəsinin içinə girməsin. Bir azdan zəng eləyəcəm.

Ellada adlandırılan qadın:

- Get tullanmağının dalınca! - deyib qapını hirslə çırpdı və bir qədər şəhərdən uzaqlaşmaqda olan maşının dalınca baxdı. Dayanacaqda başqa adam yox idi. Dayanıb geriyə qayıtmaq üçün maşın gözləməyə başladı.

***

downloaded from KitabYurdu.org

Günortaya yaxın Muxtarın evində telefon zəng çaldı. Xətdə xırıltılı kişi səsi eşidildi:

- Alo! Muxtarın evidir?

- Bəli. Muxtar evdə yoxdur. Bir azdan naliara gələcək. Kimdi soruşan?

- Heç...

Dəstəyi asdılar.

Səlimə Xədicənin gecikməyindən narahat olmağa başlamışdı. Uşağın dərsdən qayıtmaq vaxtı idi. Valeh artıq ikinci növbəyə getməyə hazırlaşırdı.

- Ana qurban, bir az tez get, yolda Xədicəni görsən tələsdir, tez evə gəlsin.

- Bu saat, ana!

Valeh evdən çıxandan on dəqiqə keçməmiş Muxtar içəri girdi.

- Salam! Yeməyə nə var?

- Əl-üzünü yu, bu saat yemək gətirirəm. Muxtar əl-üzünü yuyub qurulanırdı ki,
telefon səsləndi. Dəsmalı yerindən asıb dəstəyi götürdü.

- Bəli!

- Muxtardır?

Muxtar bu xırıltılı səsin sahibini tanıya bilmədi.

- Bəli, bəli, eşidirəm. Kimdi danışan?

- Kimliyimi bilməsən də olar. Onu bilsən kifayətdir ki, qızın bizim əlimizdədir. Əgər onu sağ-salamat geri almaq istəyirsənsə, sözlərimə qulaq as...

- Sən kimsən?!

- Qulaq as! Baharlı kəndinə gedən yolun solunda bir çinar ağacı var. Ağacın dibindəki kolluğa yetmiş min dollar pul qoymalısan. Sənə iyirmi dörd saat vaxt verirəm. Polisə-filana xəbər verməyi heç ağlına gətirmə. Deyilən vaxta qədər həmin ərazi nəzarətdə olacaq. Bircə şübhəli şey görsək, yaxud pul vaxtında yerində olmasa, özündən küs. Qızını diri görməyəcəksən. Sonra əgər meyitini almaq istəsən, onu ayrı danışarıq. O ucuz başa gələcək. İyirmi min dollara.

***

downloaded from KitabYurdu.org

- Axı...

Əlaqə kəsildi. Muxtar əlində telefonun dəstəyi ayaq üstə quruyub qalmışdı. Başına qəfil ağrı sıçramışdı. Beyni coşmuş dəniz kimi uğuldayırdı. Düşünmək qabiliyyətini tamamilə itirmişdi.

- Nə olub? - Səlimə təəccüblə soruşdu. Muxtar key kimi Səlimənin üzünə baxırdı...

- Nə olub? Səninlə deyiləm? Kim idi danışan?

- Qızı... Xədicəni... oğurlayıblar.

Səlimənin sifəti kağız kimi ağardı. Dizləri
üstə döşəməyə düşdü. Muxtar özünə gələrək onu sürüyüb divana uzatdı. Üz-gözünə su çilədi. Səlimənin ayılması uzun çəkdi.

Yalnız bir saatdan sonra onlar ayıq başla məsələni müzakirə etməyə başladılar. Söhbətdə Muxtarın kiçik qardaşı - Muxtarın öz mağazasında işləyən Rəsul da iştirak edirdi. Onu Muxtar çağırmışdı.

- Gərək polisə xəbər verim. - Muxtar stulda oturub başını əlləri arasına alaraq dilləndi.

- Sən nə danışırsan? - Səlimə elə bil od götürdü. Balamı güdaza vermək istəyirsən?

- Elə edərik ki, polisə xəbər verməyimizi bilməzlər.

- Hə, elədir. Kamilə bildirmək pis olmaz. - Rəsul böyük qardaşının fikri ilə şərik oldu.

Kamil Yunusov Muxtargilin qohumu idi. Rayon polis şöbəsində Cinayət Axtarış
Bölməsinin rəisi işləyirdi.

- Yox! - Səlimə qəti etiraz etdi. - Nə bilirsən ki, oradan sirr çıxmayacaq? Biz balamızı gözümüz görə-görə öldürtdürə bilmərik. Qızıllarımı, ev-eşiyi, maşını ver, qızı qurtar!

- Axı Səlimə, - Muxtar sanki yalvarırdı: - Onlar ev-eşik, qızıl, nə də ki, maşın istəyirlər. Onlar pul istəyirlər. Mən təzədən onlarla harada danışıb şərtləşə bilərəm? Vaxt çox azdır. Hələ pulumuz da yoxdur. Özün bilirsən ki, borcumuz var.

- Yenə borc al! - Səlimə də yalvanşa keçdi.

- Alacam. Çarəm nədir ki?.. Axtarıb pul tapmalıyam.

***

downloaded from KitabYurdu.org

Evə ölüm sükutu çökdü. Fikirləşməkdən az qalırdı ki, Muxtarın başı partlasın. İmkanı olsaydı bu saat bütün rayonu ələk-vələk edib Xədicəni tapardı. Qızı oğurlayanları tikə-tikə etsəydi, yenə ürəyi soyumazdı. Ancaq özü də başa düşürdü ki, əlindən heç nə gəlməyəcək. Acizliyini başa düşmək ona bir az da artıq əzab verirdi. Birdən əlini stola çırpıb:

- Alçaqlar! Əclaflar! - deyə bağırdı və sonra uşaq kimi hönkürüb ağlamağa başladı. Rəsul ikinci dəfə ürəyi gedən Səliməni ayıltmaq üçün su gətirməyə çıxdı...

... O məşum telefon zəngi günorta saat birdə olmuşdu. Artıq saat üç idi. Belə vəziyyətlərdə elə bil zaman da öz sürətini artırır. Muxtar saata baxanda elə bildi ki, bu dəqiqə əqrəblər sürətlə fırlanıb deyilən vaxtı göstərəcək və hardasa naməlum bir yerdə, naməlum adamların çirkin, qanla suvanmış əlləri onun körpə Xədicəsini parçalayacaq. Qəti qərara gəlib ayağa qalxdı. Telefona yaxınlaşıb hansısa nömrəni yığdı və danışmağa başladı:

- Kamil, salam! Muxtardı danışan. Səninlə təcili görüşmək istəyirəm... Yox, idarədə yox! Sən
get evinə, mən də ora gələcəm... Hə, vacib iş var.

* * *

Muxtarla Kamil Yunusov stol arxasında üzbəüz oturmuşdular. Yunusovun arvadı hər ikisi üçün çay süzmüşdü. Amma heç birinin yadına çay içmək düşmürdü. Hər ikisi dərin fikrə
getmişdi. Nəhayət, sükutu birinci olaraq mayor Yunusov pozdu:

- Vəziyyət çox pisdir. İşin tərsliyindən, rəisimiz də rayonda yoxdur. Bir də ki, lap olsa da, indi bu saat neyləyə bilərik? Üç il bundan əvvəl Qurdbaşı kəndinin yaxınlığında, asfaltın kənarında yeddi yaşlı oğlan uşağının meyiti tapılmışdı. Yəqin ki, sən də eşidərdin.

- Hə, eşitmişdim. - Muxtar yerində narahatlıqla qurcuxdu.

- Yazıq uşağın başını əzib, sonra da meyiti gətirib yolun qırağına atmışdılar ki, tapılsın. Uşağın atası uşağın oğurlanmış olduğunu bizə meyit tapılandan sonra dedi. Naməlum şəxslər uşağı oğurlayıb



downloaded from KitabYurdu.org

telefonla ondan da pul istəyiblərmiş. Pulu qoymaq üçün həmin Baharlıya gedən yoldakı çinarın altını nişan vermişdilər. Sənə deyilən sözlər ona da deyilibmiş. Ona da iyirmi dörd saat vaxt verilmişdi. Amma ondan otuz min dollar istəmişdilər. İndi əclaflar azğınlaşıb qiyməti qaldırıblar. Çoxlu qoyunu olan bu kişi üzdən varlı görünsə də o qədər nağd pulu yox imiş. Borc-filan bir təhər iyirmi min düzəldir və pulun qalanını axtaranda deyilən vaxt gəlib çatır. Kişi topladığı pulu götürüb özünü tək çinarın yanma çatdırır. Dayanıb gözləyir ki, uşaq oğruları gələndə onlara yalvar-yaxar eləsin ki, iyirmi mini alıb uşağı qaytarsınlar, pulun qalanını sonra verər. Deyilən vaxt tamam olanda da, ondan sonra da çinarın yanına heç kəs gəlmir. Kişi bədbəxt gecəni də orada keçirir. Səhər tezdən ona xəbər gətirirlər ki, qoyun otaranlar uşağın meyitini tapıblar. Biz bütün rayonu ələk-vələk elədik. Bütün şübhəli adamları yoxladıq. Amma qatilləri tapa bilmədik.

- Onlar uşağı niyə öldürüblər ki? - Muxtar kədərlə soruşdu.

- Ona görə ki, kişi şərti pozub. Pulu həmin yerə qoymaqdansa özü həmin yerdə dayanıb.

Belə çıxır ki, qatillər onu görüb və başa düşüblər ki, kişi pul gətirməyib və minnətə gəlib.

- Ondan sonra daha belə hadisə olmayıb ki?

- Ölüm hadisəsi yox, uşaq oğurluğu isə yəqin ki, olub. Ola bilər ki, tələb olunan pullar ödənilib və oğrular uşağı buraxıblar. Hər halda bizim belə şeylərdən xəbərimiz olmayıb. Yəqin ki, uşağın ölümü çoxlarına dərs olub və heç kəs qorxudan bizə məlumat verməyib.

Muxtar dərindən ah çəkib:

- Kamil, mən lap başımı itirmişəm, - dedi:

- Əlbəttə, lap faizlə də olsa pul tapacam. Sonra mağzanı, maşını, hətta evi də sataram. Mən əslində sənin yanma məsləhətə gəlmişəm. Buraya gəlməyimi də heç kəs bilməsin.

Yunusov ayağa qalxıb əsəbi halda otaqda gəzişməyə başladı. Bir qədər o baş-bu başa gedib- gələndən sonra telefon aparatı qoyulmuş kiçik stolun qabağında dayandı. Dəstəyi əlinə götürüb
fikrə getdi. Nəhayət, kodla Bakını alıb danışmağa başladı:

***

downloaded from KitabYurdu.org

- Cənab Qasımlı? Hər vaxtınız xeyir! Mayor Yunusovdur danışan. Sizə yenə işim düşüb. Vacib bir məsələ var. Uşaq oğurlanıb. Bəli... Bəli, - susub dinlədi. - Bəli, əgər imkanınız varsa. Xeyr, evimizdə gözləyəcəm. Çox sağ olun, təşəkkür edirəm! - Yunusov sonra ev ünvanını deyib dəstəyi yerinə qoydu və saata baxdı: - Gecəyə kimi burada olar. Sən get, pulları axtarmaqla məşğul ol, amma bu barədə heç kimə bir kəlmə də söz demə. Axşam səni gözləyirəm. Yenə də maşmsız gəl. Çalış, görən olmasın.

- Kiminlə danışırdın? - Muxtar getmək üçün ayağa qalxıb soruşdu.

- Yaxın adamdır. Bir vaxt Rusiyada ən güclü detektiv idi. Bir az var ki, Azərbaycana qayıdıb, hələlik heç yerdə işləmir. Qırx yaşı var, di gəl ki, polkovnikdir. - Yunusov bir qədər ara verib yenə dilləndi: - Bir də deyirəm, çətin məsələdir. Hər halda, sən pul axtar. Axşam gözləyəcəm.

Muxtar mayor Yunusovun evindən çıxıb borc pul verə biləcək tanışlarına baş çəkməyə
getdi.

* * *

Jurnalist Nemət Sabirli redaksiyada idi. Qonşusu, keçmiş cinayət axtarış polisi polkovnik Qasımlı redaksiyaya zəng vurub Nemətdən xahiş etdi ki, bütün işlərini atıb tez evə gəlsin. Nemət düşünmədən kağızlarını yığışdırıb stolun siyirtməsinə qoydu və maşınına minib evə sürdü. İki ay əvvəl Qanbay Qasımlı rayonda baş vermiş bir cinayəti aydınlaşdıraraq Nemətin şübhə hədəfi olan qardaşını təmizə çıxarmışdı. Ondan sonra Nemətlə polkovnikin arasında dostluq münasibətləri yaranmışdı.

Qasımlı Nemətə çağırışının məqsədini izah
etdi:

- Dostumuz Yunusov zəng eləmişdi. Rayonda uşaq oğurlanıb. İstəyirəm sənin maşınınla gedək. Əlbəttə, Yunusovun xatirinə yox, uşağın xatirinə.

Nemət polkovnik Qasımlınm dərin zəkasına, fövqəladə diqqətliliyinə və güclü iradəsinə pərəstiş edirdi. Tez-tez dəhşətli



downloaded from KitabYurdu.org

başağnlarmdan əzab çəkən bu adam bir dəfə də olsun şikayət etməzdi və öz halını büruzə verməməyə çalışardı. Nemət Sabirli polkovnikin araşdırdığı hər hansı işə böyük maraq göstərirdi. Düzdür, bir jurnalist kimi Qasımlıdan qəzetə heç nə yazmayacaqdı. Çünki Qasımlı bunu qətiyyən xoşlamırdı və bu barədə Nemətə qəti şəkildə bildirmişdi. Amma hər halda iş başında Qasımlınm yanında olmaq özü də maraqlı idi.

Qasımlınm Yunusov haqqındakı « dostumuz » sözünü yüngül istehza ilə deməsi Nemətin nəzərindən qaçmadı. Yunusov Nemətin qardaşının günahsız yerə ilişdiyi cinayət işini aça bilməyərək kələfi dolaşdırmışdı. Polkovnik Qasımlı cinayətkarı aşkar edəndən sonra isə qəzetlər onun gördüyü işi Yunusovun adına bağlamışdılar. Lakin Qasımlı bundan inciməmişdi. O, bir dəfə Nemətə demişdi: «Mənə baş sındırmaq üçün dolaşıq məsələlərdən, ədalətə xidmət etməkdən duyduğum məmnunluqdan və normal yaşamaq üçün lazım olan minimum məbləğdə puldan başqa heç nə lazım deyil».

Qanbay Qasımlmm ailəsi-uşağı olmasa da uşaqları çox sevirdi. Onun rayonda baş verən hadisəyə heç də laqeyd yanaşmadığını hiss edən Nemət Sabirli:

- Nə vaxt getmək lazımdır? - deyə soruşdu.
- Elə bu saat!

Qasımlı plaşını geyinib, şlyapasını başına qoydu. Nemət öz mənzilinə keçib əlində portfel oradan çıxanda Qasımlı artıq pillələri düşdü. Onlar Nemətin ağ rəngli, təzə «QAZ - 24»
markalı maşınına minib yola düşdülər.

* * *

Qasımlı və Nemət mayor Yunusovun evinə girəndə hava artıq qaralmışdı. Muxtar da burada idi. O, bir neçə nəfərdən yüksək faizlə pul ala bilmişdi. Beləliklə də lazım olan məbləği toplayaraq evə qoymuşdu. İndi isə yanm saatdan çox idi ki, mayorun evində oturub Bakıdan gələn qonağı gözləyirdi. Yunusov gələnləri çox mehribanlıqla qarşıladı və onlan Muxtarla tanış etdi. Muxtar polisdən çox elmi işçiyə oxşayan Qasımlı və əynində idman gödəkcəsi geymiş



downloaded from KitabYurdu.org

sadə
görkəmli Nemət Sabirli ilə ikiəlli görüşüb, sonra yerində əyləşdi.

Möhkəm bədənli, boksçuya oxşayan Yunusov qonaqlara o saat yemək təklif etdi. Lakin Qasımlı imtina edərək qəhvə istədi və qəhvəsini içdiyi müddətdə hadisənin məlum olan bütün tərəflərini soruşub öyrəndi. Sonra üzünü Muxtara tutub soruşdu:

- Telefonda eşitdiyiniz sözlərin hamısını dediniz, yoxsa nəyisə unutmuşunuz?

- Xeyr! Mən o sözləri heç vaxt unuda bilmərəm. - Muxtar cavab verdi.

Bu dəfə Qasımlı Yunusova sual verdi:

- Rayonda belə hadisə olub, nə vaxtsa?

- Olub! - mayor üç il bundan əvvəl Qurdbaşı kəndində baş verən və ölümlə nəticələnən uşaq oğurluğunu olduğu kimi danışdı.

- Deməli, onda da pulu Baharlı yolundakı çinann altına qoymağı tələb etmişdilər?

- Bəli, elədir.

- Həmin çinar Qurdbaşıya yaxındır?

- Xeyr, Baharlı kəndi ilə Qurdbaşı rayon mərkəzinin əks tərəflərində yerləşir.

- Baharlı kəndi buradan neçə kilometr aralıdır?

- On kilometr olar...

- Bəs çinar ağacı?

- Dörd-beş kilometr.

Qasımlı saatına baxıb:

- Saat on birdir. İxtiyarımızda hələ on dörd saat var. Söhbətimizi sonra davam etdirərik, - dedi və ayağa qalxıb Muxtara üz tutdu: - Bizimlə gedək, həmin çinar ağacına baxmaq istəyirəm.

O birilər də ayağa qalxdılar. Yunusov soruşdu:

- Mən də sizinlə gedimmi?

- Yox, ehtiyac yoxdur. Nemət, Muxtar və mən gedəcəyik. Siz isə bizi evdə gözləyin. Gəlib sizinlə axşam yeməyini yeyərik.

Onlar Nemətin maşınına minib yola düşdülər. Muxtar bələdçilik



downloaded from KitabYurdu.org

edirdi. Maşın şəhərdən çıxıb magistral yolla Bakı istiqamətində iki yüz metrə qədər getdikdən sonra sağa döndü və Baharlı kəndinə gedən torpaq yola düşdü. Təxminən üç kilometr torpaq yolla, açıq düzənliyin ortası ilə irəliləyib yolun solunda olan tənha çinar ağacına çatdılar. Ay işığında çinar ağacının çox qəmli görkəmi var idi. Qasımlı ətrafına boylanaraq:

- Dayanma, sür kəndə tərəf! - dedi.

Çinar ağacından xeyli uzaqlaşandan sonra Qasımlı maşını saxlatdırdı və yerə düşüb bir siqaret yandırdı. Bir qədər irəlidə, Baharlı kəndinin işıqları görünürdü. Nemət maşının işıqlarını söndürdü. Heç kəs danışmırdı. Ətrafdakı sükutu hərdən gecə quşunun kədərli səsi pozurdu. Siqareti çəkib qurtarandan sonra Qasımlı maşına əyləşdi.

- Döndər, geriyə qayıdaq. Yavaş sür!

Nemət maşını döndərib şəhərə tərəf sürməyə başladı. Yolun sağında qalan çinara çatanda Qasımlı açıq pəncərədən diqqətlə ağaca, ağacın dibindəki kola və ümumiyyətlə, ətrafa göz gəzdirdi. Ay işığı olduğu üçün ətraf aydın görünürdü. Torpaq yolun sağı və solu böyük düzənlik idi. Bu düzənlikdə kiçik bir qaraltı da olsa, o saat görünərdi. Çinann dibində olan kolluğa əslində heç kolluq demək olmazdı. Onun dalında heç tülkü də yaxşı gizlənə bilməzdi. Qarşıda şəhər görünməli idi. Ancaq asfaltla şəhərin arasında qalan bir uzun təpə şəhəri görməyə imkan vermirdi. Maşın magistral yola düşdü. Gəldiyi yolla Tbilisi istiqamətində gedərək sağa burulub təpənin arxasına keçdi və şəhərə daxil oldu. Şəhərin içi ilə bir qədər getdikdən sonra, qaranlıq bir döngədə polkovnik maşını saxlamağı xahiş etdi. Maşın dayananda o, yerə düşüb Nemətə:

- Siz evə gedin, mən bir azdan gələcəm, - dedi və əllərini plaşın cibinə qoyub qaranlıqda gözdən itdi.

... Muxtargil mayor Yunusovun evində Qasımlım çox gözlədilər. Gecə saat birdə polkovnik gəlib çıxdı və Yunusovdan yemək gətirilməsini xahiş etdi. Üzünə zillənən sual dolu baxışları hiss etsə də özünün gecə gəzintisi haqqında heç bir söz demədi. Yeməyi yeyib



downloaded from KitabYurdu.org

qurtarandan sonra üzünü Muxtara tutub dedi:

- Siz indi evinizə gedin. Sabah saat ıı-də topladığınız pulu öz maşınınızda apanb həmin kolluğun altına qoyun. Əlbəttə, çalışın pulu qoyanda sizi görən olmasın. Sonra geri qayıdıb birbaş evinizə gedin. Heç bir şübhəli hərəkətə yol verməyin. Bu başdan bildirim ki, sizə heç bir ümidverici söz deyə bilməyəcəyəm. Əsas işimiz, pulla da olsa, uşağı geri almaqdır. Onun həyatı ilə risk edə bilmərik. Sizə yaxşı yol!

Muxtar ayağa qalxıb ümidsiz halda sağollaşdı və çıxıb evinə getdi. Evdə qardaşından başqa kənar adam yox idi. Tapşırmışdı ki, qohumlar da məsələni bilməsin. Evə girən kimi Səlimə ağlamaqdan şişmiş gözlərini onun üzünə dikdi. Muxtar heç nə deməyib divanda oturdu və
başını aşağı saldı. Səlimə yenə ağlamağa başladı. Muxtar ona təskinlik verməyi özünə borc bildi.

- Ağlama, Səlimə! Onsuz da deyilən pulu yığmışam. Sabah yəqin Xədicəni buraxarlar. Düzdür, borcu qaytarmaq üçün hər şey əlimizdən çıxacaq. Amma cəhənnəm olsun hər şey! Ağlama, get yat.

Bu zaman Yunusovun evində Qasımlı mayora öz tapşırıqlarını verirdi:

- Sabah bizə əlavə üç nəfər zirək oğlan lazım olacaq. Bir də bir maşm. Şübhə doğuran maşın olmasın. Şəhəriniz kiçikdir. Yəqin ki, burada bütün şəxsi maşınları tanıyırlar. Həmin maşınla bizim aramızda etibarlı telefon əlaqəsi olmalıdır, - bir qədər susub, üz-gözünü turşutdu, cibindən
bir tabletka çıxarıb ağzına atdı və əlavə etdi: - hə, bir də bir binokl tapın.

- Nə? - Yunusov təəccüblə soruşdu.
- Binokl.

Nemət Sabirli polkovnikin vəziyyətinin yaxşı olmadığını görüb dedi:

- Qanbay müəllim, gecə keçir, sizə yatmaq lazımdır.

Qasımlı gülümsəyərək:

- Elə sizə də! - dedi və üzünü yenə Yunusova tutdu: - Köməkçilər



downloaded from KitabYurdu.org

mülki geyimdə olsunlar. Onlan sabah səhər saat onun yarısında burada gözləyəcəm. İndi isə, bizim yatacağımız yeri göstərin və özünüz də dediyim işləri təşkil edib sonra yatın.

Yunusov qonaqları qonşu otaqların birinə aparıb yataqların göstərdi. Sonra özü bir neçə yerə zəng edib lazımi tapşırıqlarını verdi. Yalnız bundan sonra özü də soyunub yatağına girdi və yatdı.

Muxtarla Səlimə isə o gecə yatmağı ağıllarına belə gətirmədilər. Təkcə Valehin gözü gecədən xeyli keçmiş yuxuya getmişdi. Rəsul isə Muxtarın tələbi ilə divana uzansa da yata
bilmədi.

* * *

Səhər saat 9.30-da üç nəfər mülki geyimli polis işçisi yaşıl rəngli «Jiquli»də Yunusovun evinə gəldilər. Yunusov onlan Qanbay Qasımlıya təqdim etdi:

- Bu kapitan Səfərovdur. Mənim bölməmdə işləyir. Bu isə baş leytenant Quliyevdir. Yaxşı sürücüdür. Maşını bu gətirib. Əmisi oğlunundur. Bu da seıjant Həsənov.

Qasımlı onlarla görüşüb dedi:

- Tanış olmağıma şadam. Qoy Quliyevlə Həsənov maşınla «Zəfəran» restoranının qabağına getsinlər və orada dayanıb telefonla verəcəyim əmri gözləsinlər. Bu restoran magistral yola nisbətən yaxındır.

Sonra Qasımlı baş leytenantdan soruşdu:

- Silah və telefon götürmüsüz?

- Bəli! - deyə Quliyev cavab verdi və telefon nömrəsi yazılmış bloknot vərəqini Qasımlıya uzatdı.

- İndi isə, Sizə yaxşı yol!

Quliyev və Həsənov evdən çıxdılar və maşına minib göstərilən yerə getdilər. Onlar hələ də nə üçün çağırıldıqlarını bilmirdilər.

Baş leytenantla serjant çıxan kimi Qasımlı Yunusova dedi:

- Siz də hazırlaşın, gedək! Kapitan da bizimlə olacaq. Binokl yaddan çıxmasın!

- Mən hazıram. - deyə Yunusov boz rəngli pencəyini əyninə



downloaded from KitabYurdu.org

geyərək dilləndi və qonşu otaqdan bir binokl gətirib Qasımlıya verdi.

Dördü də həyətə düşdü. Yunusov darvazanı taybatay açdı. Onlar Nemətin dünəndən həyətə salınmış maşınına minib həyətdən çıxdılar.

- Mehmanxanaya sür! - deyə Qasımlı qısaca göstəriş verdi. Sonra isə əlavə etdi: - Maşını mehmanxananın yan tərəfində saxla.

Onlar maşından düşən kimi mehmanxanaya girdilər. Qasımlının yoldaşları buraya nə üçün gəldiklərini anlaya bilmirdilər. Soruşub öyrənməyə isə imkan yox idi. Birinci mərtəbədə onları 50-55 yaşlı kök bir kişi qarşıladı. Kişi mayorla kapitanı tanıyıb salamladı:

- Xoş gəlmisiniz!

- Siz burada nə işləyirsiz? - Qasımlı soruşdu.

- Nəzarətçiyəm.

- Müdir haradadır?

- Bakıya gedib. Bu gün olmayacaq.

- Mehmanxanada sizdən başqa kim var?

- Heç kim...

- Düzünü deyin. - Qasımlı çox sakit danışırdı.

- Heç kim deyəndə ki... - kişi Yunusova ötəri nəzər salıb üzünü yenə Qasımlıya tutdu. - Qurban adında bir işçimiz var. Yuxanda, doqquzuncu mərtəbədədir. Arvadı da bizdə xadimə işləyir. Hərdən aralan soyuyanda Qurban gecəni də burada qalır. Bu gecə də burada yatıb. Mehmanxanada başqa heç kəs yoxdur. Rayon yeridir də. İndi kimdir gəlib mehmanxanada yer tutan. Bizdə hərdən yayda adam olur.

- Onun qaldığı otağa divar qonşusu olan otağın açannı verin! Cəld olun!

Nəzarətçi tələb olunan açan gətirib dinməzcə Qasımlıya verdi. O, özünü itirib təəccüblə gah mayor Yunusova, gah da tanımadığı şlyapalı kişiyə baxırdı. Qasımlı onu kapitan Səfərova göstərib:

- Bu kişini yanınızdan buraxmayın. Mehmanxanaya kim gəlsə, onu da tutub saxlayın. - dedi və Yunusovla Nemətə başı ilə arxasınca gəlməyi işarə etdi. Sonra o, liftin yanından keçib pillələrlə yuxarı qalxmağa başladı. Yolun yansında özünün cib telefonunu çıxarıb söndürdü və Nemətlə Yunusova da onun kimi etməyi tapşırdı. Onlar



downloaded from KitabYurdu.org

da sakitliyi gözləməyin son dərəcə vacib olduğunu başa düşüb telefonlarını söndürdülər. Doqquzuncu mərtəbədə Qasımlı yoldaşlarına sakit olmağı işarə ilə başa salıb sağdan ikinci qapıya yanaşdı və əlindəki açarla qapını açıb mayorla Neməti sakitcə boş otağa dəvət etdi.

Sonra onlar balkona keçdilər. Burada Qasımlı sakit olmağı bir daha işarə etdi. Bir- birinə bitişik olan balkonlar nazik beton arakəsmə ilə ayrılırdı. Sağdakı balkondan taqqıltı səsi gəldi. Deyəsən, kimsə stulun yerini dəyişdi. Sonra yenə sakitlik çökdü.

Bütün şəhər onların ayaqları altında qalmışdı. Şəhərin bir tərəfini divar kimi tutan təpənin arxasında Bakı-Tbilisi yolu aydın görünürdü. Asfalt yolda hər iki istiqamətdə maşınlar şütüyürdü. Asfaltdan o tərəfdə böyük çöllük, çöllüyün ortası ilə uzanıb gedən torpaq yol görünürdü. Bu Baharlı kəndinə gedən yol idi. Yolun solunda bir yerdə kiçik qaraltı nəzərə çarpırdı ki, bu da yəqin, həmin tənha çinar ağacı idi.

Qasımlı plaşının cibindən binoklu çıxarıb ətrafı bir qədər müşahidə etdi. Bu zaman o çalışırdı ki, şəhərdən baxan olsa onu görməsin. Sonra yanındakılara işarə ilə başa saldı ki, otağa keçib sakitcə divanda otursunlar. Özü isə otaqdan stul götürüb yenidən balkona çıxdı. Stulda oturub binoklu dizlərinin üstünə qoydu. Bu hərəkətləri o elə ustalıqla etdi ki, azacıq da olsun səs çıxarmadı.

Otaqdakılar üçün hər bir dəqiqə bir il kimi gəlib keçirdi. Mayorla Nemət arxası onlara tərəf oturmuş Qasımlının kürəyinə baxmaqdan bezmişdilər. Qasımlı isə onların otaqda olduqlarını unudubmuş kimi sakitcə oturmuşdu. Yalnız hərdən saatına baxırdı.

Nəhayət, saat on bir oldu. Qasımlı yavaşca ayağa qalxıb yenə binoklla müşahidəsini davam etdirməyə başladı. On dəqiqə keçməmiş asfaltda bir qırmızı«Jiquli» göründü. O torpaq yola buruldu və Baharlı kəndinə tərəf getməyə başladı. Maşın çinar ağacına çatanda dayandı. İçəridən bir adam çıxıb əlində portfel ağaca yaxınlaşdı. Portfeli kolun altına qoyub maşına qayıtdı.

Maşın bir qədər irəli getdikdən sonra dönüb

***

downloaded from KitabYurdu.org

şəhərə qayıtdı. Bu Muxtarın maşını idi. Maşın şəhərə girib binalann arasında görünməz oldu.

Elə bu vaxt sağdakı balkondan naməlum kişi səsi eşidildi:

- Alo! Hərif pulu yerinə qoydu. Şübhəli heç bir şey yoxdur...

Yenə sakitlik çökdü. Qasımlı daha binoklu gözündən ayırmırdı. Uzun dəqiqələr bir-birini çox çətinliklə əvəz edirdi. Beləcə yanm saatdan çox keçdi. Birdən Qasımlı qonşu balkondan cib telefonunun zəif siqnalını eşitdi. Yenə bayaqkı naməlum səs eşidildi:

- Eşidirəm. Yox, hər şey qaydasındadır. Heç nə yoxdur!

Qasımlı yenə asfaltda arabir şütüyən maşınları diqqətlə müşahidə edirdi. Tbilisi tərəfdən gələn göy rəngli bir «QAZ-24» sürəti azaldaraq sağa döndü və Baharlıya gedən yola düşdü. Qasımlı diqqətlə baxsa da maşının nömrəsini görə bilmədi. Maşın çinar ağacını keçib kəndə tərəf getdi və birdən dönüb geriyə - şəhər istiqamətində gəlməyə başladı. Çinarın tuşunda maşın dayandı. Sağ tərəfdən bir adam düşüb kolluqdan portfeli götürdü və yenə maşına mindi. Maşın asfalta çıxan kimi Tbilisi istiqamətində orta sürətlə irəliləməyə başladı və rayon mərkəzinə burulan döngəni arxada qoydu. Qanbay Qasımlının dodaqları bir-birinə möhkəm kiplənmişdi. Üz-gözündən sanki zəhrimar yağırdı. O, bütün diqqətini səfərbər edib binoklu sol əlinə aldı və sağ əli ilə plaşın cibindəki tapançanı çıxardı.

Qonşu balkondan səs gəldi:

- Sakitlikdir. Sizə yaxşı yol! Malı tez gətirin. Mən yatmaq istəyirəm.

Sükut çökdü. Birdən Qasımlı binoklu stulun üstünə qoyub beton arakəsmədən yapışdı. Balkonun dəmir məhəccərinə çıxıb fırlanaraq sol ayağını qonşu balkonun məhəccərinə qoydu və qonşu balkona tullandı:

- Əllərini qaldır!

Onun qəfil hərəkətini görən və amiranə səsini eşidən mayor Yunusov və Nemət əvvəlcə nə edəcəklərini bilmədilər. Sonra özlərinə gəlib qonşu otağın qapısına şığıdılar. Mayor qapını təpiklə vurdu. Qapını Qasımlı açdı. O, bir əlində tapança, bir əlində isə cib telefonu



downloaded from KitabYurdu.org

tutmuşdu.

Yunusov özünü itirib əllərini qaldırmış 35- 40 yaşlarında kürən, anq kişinin üst-başını axtarıb qollarına qandal vurdu. Onun cibindən tapdığı bıçağı və stolun üstündəki cib telefonu ilə binoklu götürdü.

Qasımlı vaxt itirmədən balkona çıxıb telefonla baş leytenant Quliyevə göstəriş verdi:

- Cəld magistral yola çıxıb Tbilisi istiqamətində gedən göy rəngli «QAZ-24»-ü izləyin! Saxlamaq olmaz! Şübhə yaratmayın! Arxanızca gəlirik.

Sonra o, qolları qandallı Qurbana ani bir nəzər salıb yoldaşlanna:

- Tez olun, getdik! - dedi.

Onlar yüyürə-yüyürə aşağı düşdülər. Kapitanın yanından keçəndə Qasımlı:

- Qurbanı da bura gətirin! - deyib həyətə çıxdı və keçib «QAZ-24»ün sükanı arxasında oturdu. Yunusov və Nemət maşına minən kimi maşın yerindən götürüldü.

Nemətin təəccübdən elə bil nitqi tutulmuşdu. O, özünə gəlməmiş maşın artıq magistral yolda qeyri-adi sürətlə irəliləyirdi.

- Quliyevlə danışın! - Qasımlı gözünü yoldan çəkmədən dilləndi.

Yunusov telefonla baş leytenantdan vəziyyəti soruşdu.

- Yol polisi postunu təzəcə keçmişik. Onları görürük, - deyə Quliyev cavab verdi.

Yunusov Qasımlıya:

- Quliyevin deməyinə görə, uşaq oğruları bizdən çox da uzaqda deyil, - dedi.

Bir az keçmiş onlar doğrudan da Dövlət Yol Polisi postuna çatdılar. Yol polisləri böyük sürətlə gələn ağ rəngli «QAZ-24»-ə saxlamaq işarəsi verdilər. İşarəyə əhəmiyyət verilmədiyini gördükdə öz maşınlarına minib onun arxasınca düşdülər. Qovhaqov başlandı.

Bir azdan Qasımlı baş leytenantın sürdüyü «Jiquli»ni ötüb keçdi. Beş dəqiqə sonra isə qabaqda göy rəngli «Qaz-24» görünürdü. Təxminən ıo dəqiqəyə kimi Qasımlı sürəti azaldaraq, arada müəyyən məsafə saxlamaqla, onun arxasınca getdi. Artıq onlar başqa rayonun



downloaded from KitabYurdu.org

ərazisinə girmişdilər. Yol düz xətt boyunca uzanırdı və ətrafı hündür ağaclarla örtülmüşdü.

Yunusov qabaqdakı maşına baxa-baxa Qasımlıdan soruşdu:

- Görəsən, bizdən şübhələnməyiblər ki?

- İndi onlar hər şeydən şübhələnirlər, - deyə polkovnik cavab verdi və güzgüdən arxaya baxanda onlara çatmağa çalışan yol polisi maşınını gördü. Elə bu vaxt uşaq oğrularının maşını sağa burulub qonşu rayona məxsus qəsəbəyə gedən yola düşdü və ağaclardan görünməz oldu. Qasımlı əyləci basdı. Maşın bir qədər asfaltda sürüşüb dayandı. Dövlət yol polisi işçiləri də onlardan bir neçə metr qabaqda maşını saxlayıb düşdülər. Onlardan biri kapitan, digəri isə seıjant rütbəsində idilər. Kapitan yaxınlaşan kimi mayor Yunusovu tanıdı və onunla görüşüb təəccüblə Qasımlıya və Nemətə baxdı. Həmin anda Qasımlmm gözü asfalt yolla Tbilisi istiqamətindən gələn narıncı rəngli «Moskviç»ə sataşdı və cəld kapitana dedi:

- O maşını saxlayın!

Heç nə başa düşməyən kapitan ani olaraq çevrilib «Moçkviç»ə əl elədi. «Moçkviç»in sürücüsü maşını saxlayıb yerə düşdü. Maşında sürücüdən başqa heç kəs yox idi. Polkovnik Qasımlı:

- Maşın bizə lazımdı. Qoy sürücü və bizim maşınımız burada qalsın, - deyib «Moçkviç»in sükanı arxasında oturdu. Sürücü və yol polisləri özlərinə gəlməmiş Nemətlə mayor da «Moçkviç»ə mindi və Qasımlı maşını qəsəbə yoluna saldı.

Qəsəbə lap yaxında idi. Qasımlının sürdüyü maşın göy «QAZ-24» dən 20-30 metr arxada gedirdi. Uşaq oğrulan maşını hündür hasarlı bir evin darvazası önündə saxlayıb siqnal verdilər. Bir dəqiqə keçmiş darvaza açıldı. Maşın həyətə girdi. Darvaza örtülməyə macal tapmamış «Moçkviç» az qaldı ki, arxadan «QAZ-24»ə toxunsun. Qasımlı və Yunusov sürətlə maşından çıxıb əllərində silah həyətdəkilərin üstünə atıldılar. Həyətdəki üç kişidən ikisi Qasımlının əmri ilə əllərini qaldırdılar. Maşının sürücüsü olan dolu bədənli, qalın bığlı, üzündə çapıq nişanəsi olan kişi isə pencəyinin cibindən tapançasını çıxartdı. Amma tapançasını qaldırmağa imkan tapmamış,



downloaded from KitabYurdu.org

sərrast atıcılığı ilə bir vaxt Rusiya milisində məşhur olmuş polkovnikin atdığı güllə silahı onun əlindən yerə saldı.

Hər üç kişi tərk-silah olunan kimi Qasımlı evə çıxdı. Evdə otuz yaşlarında, qarayanız, yazıq görkəmli qadından və kiçik bir qız uşağından başqa heç kəs yox idi. Uşağın ağlamaqdan gözləri qızanb şişmişdi. Ömründə birinci dəfə görsə də
Qasımlı ona qorxa-qorxa baxan qızı tanıdı: bu Xədicə idi. Qanbay Qasımlı əlindəki tapançanı plaşının cibinə qoyub Xədicəni qucağına götürdü. Bu anda Nemət onun üzünü görsəydi, yəqin ki, təəccüblənərdi: qırx illik ömrünün yansını ağır cinayətlərin açılmasına həsr edən
polkovnikin gözləri yaşarmışdı...

* * *

Asfalt yolla üç nəfər qolu bağlı uşaq oğrusunu gətirən dövlət yol polisi avtomobili şütüyürdü. Onun dalınca baş leytenant Quliyevin sürdüyü «Jiquli» gəlirdi. Lap arxada gələn ağ rəngli «QAZ-24» də sükan arxasında Nemət Sabirli oturmuşdu. Onun sağında əyləşən mayor Yunusovun dizləri üstündə pulla dolu portfel var idi. Arxa oturacaqda polkovnik Qasımlı balaca Xədicə ilə yanaşı oturmuşdu.

Yunusov hər iki əli ilə dizi üstündəki portfeli nağara kimi çalırdı. Kefi yaman kök idi. Amma birdən yadına nə isə düşübmüş kimi çalğısını yanmçıq qoyub arxaya çevrildi və:

- Bu mehmanxana məsələsi sizin ağlınıza haradan gəldi? - deyə Qasımlıdan soruşdu.

- Burada qeyri-adi bir şey yoxdur, - Qasımlı dilləndi. - Oğruların, yaxud daha dəqiq desək qatillərin telefonla dediklərindən belə məlum olurdu ki, onlar tək çinarın geniş ətrafına hardansa nəzarət edə bilirdilər. Siz deyəndə ki, üç il əvvəl Qurdbaşı kəndindən olan kişiyə həmin yeri nişan vermişdilər, başa düşdüm ki, bu yer onlar üçün ən əlverişli yerdir. Axşam çinann yanında müşahidə aparanda gördüm ki, şəhərin qabağını kəsən təpə təkcə mehmanxananın sonuncu mərtəbəsini gizlədə bilmir. Deməli, oradan da həmin yer görünməlidir. Beləliklə, ağlıma gəldi ki, mehmanxananın doqquzuncu



downloaded from KitabYurdu.org

mərtəbəsində onların adamı ola bilər. Ancaq, hər halda, bu mənim üçün dəqiq deyildi. Gecə Nemətgildən şəhərdə ayrılandan sonra mehmanxananı xeyli müşahidə etdim və fikrim qətiləşdi. Doqquzuncu mərtəbədə adam var idi və o özünü çox şübhəli aparırdı, otağın işığını yandırmırdı. Bir də axı, bütün nömrələr boş ola- ola kiməsə sonuncu mərtəbədə niyə yer verilməliydi?

- Aydındır, - Yunusov başı ilə razılığını bildirdi. - Ancaq onu deyim ki, siz balkona tullananda biz çox həyəcan keçirtdik. Boynuma alıram ki, şəxsən mən onu bacarmazdım.

- Balkonlar birinci mərtəbənin olsaydı necə?

- Onda bacarardım, -Yunusov gülə-gülə cavab verdi.

- Mən də elə təsəvvür etdim ki, birinci mərtəbədəyəm.

Mayor Yunusov:

- Mən indi dəqiq inanıram ki, Qurban çoxdan bu dəstə ilə əlbir imiş. Onun bir əxlaqsız arvadı da var. Adı Elladadır. O da yəqin ki, bunların köməkçisidir, - dedi və yenə Qasımlıya tərəf çevrilib sual verdi: - Bəs nəzarətçini niyə tutub saxlamağı tapşırdınız? Mən onun belə işlərə baş qoşmağına inanmıram.

- Mən də inanmıram. Ancaq təsadüfən o, bunların adamı ola bilərdi və telefonla lazımi məlumat verərdi, - deyə Qasımlı Xədicənin başını sığallayıb əlavə etdi: - Mən bu uşağın həyatı ilə heç cür oynaya bilməzdim.

Xədicə mehribanlıqla başını polkovnik
Qasımlımn qoluna söykədi.

* * *

... Həmin hadisədən bir həftə keçmişdi. Uşaq oğruları tamamilə ifşa olunmuş, etdikləri əməlləri boyunlarına almışdılar. Qurdbaşı kəndindən olan yeddi yaşlı uşağı qətlə yetirən qalın bığlı, üzündə çapıq yeri olan kişini ömürlük həbs cəzası gözləyirdi. Sağ olsun Qanbay Qasımlı! Xədicəni və borc alınmış pulları gətirib Muxtara təhvil verəndən sonra Muxtar nə qədər yalvarsa da Qasımlı və Nemət heç işlətdikləri benzinin də pulunu götürmək istəməmişdilər.

İşə getmək üçün öz otağında paltarını geyinən Muxtar Fərəcli



downloaded from KitabYurdu.org

bunlan düşünürdü ki, qızının səsi onu fikirdən ayırdı:

- Ana, mən getdim məktəbə!
- Get, qızım, ancaq pis adamlardan özünü gözlə!
- Yaxşı, ana, sağ ol! Ata! Sən də sağ ol!
- Yaxşı yol, anam!

Muxtar geyinib həyətə düşdü. Səliməyə:

- Valehi də oyat, durub dərslərinə baxsın. Yatmaqdan bir şey çıxmaz, - dedi və qırmızı rəngli «Jiquli»sini işə salıb həyətdən çıxdı. Mağazanın işləri ilə əlaqədar bəzi yerlərə baş çəkməli idi.

May, 2000

FAKTLAR ONUN ƏLEYHİNƏDİR

Günortadan bir az keçmiş, kəndin mərkəzində « Qurbanın budkası» deyilən ticarət köşkünün böyründə, iri çürük kötüyün üstündə şıdırğı qumar gedirdi. Oynayanlar dörd nəfər idilər. Kənddə yeganə yük maşını olan köhnə «Zil»-in sürücüsü Beydulla, camaatın Nataraz Əli adlandırdığı, mal oğurluğu üstündə üç il türmədə yatıb-çıxan və ondan sonra arabir Rusiyaya alverə gedib-gələn Əli, köşkün sahibi Qurban özü, bir də sısqa Namaz.

Qırx üç yaşında olan, anq, çilli, dişləri çürümüş Namaz Allahın bədbəxt bəndəsi idi. İyirmi səkkiz yaşlı gözəl-göyçək, işgüzarlıqda od parçası olan arvadı Səkinənin əziyyətlə yetişdirib bazarda satdığı bostan məhsullarının pulunu uduzub ciblərini boşaldaraq bir kənarda oturmuşdu.

Əlinin vəziyyəti Namazmkmdan da pis idi. Bir ay əvvəl Rusiyadan kalan pulla qayıtmışdı ki, məqsədi də həmin pula Bakıda ikiotaqlı mənzil və bir maşın almaq idi. İndi isə gərək rayon mərkəzində yaşayan bacısına saxlamaq üçün verdiyi həmin pullan qəpiyinə kimi alıb Beydullaya verəydi. Bütün pullarını uduzduğuna görə kənara çıxıb qanıqara halda oynayanlara tamaşa edirdi.

Bir azdan Qurban da köşkdən manat-manat qazanıb yığdıqlarını Beydullaya “peşkəş” elədi və kənd qumarının qanunlarına görə, oyun qurtardı. Amma imkan olsaydı, Beydulla yenə oynayardı. Kefi kök halda əlindəki kartları qarışdıra-qarışdıra Namaza sataşdı:



downloaded from KitabYurdu.org

- Hə, Sısqa! Get gör Səkinədən bir şey qopara bilərsənsə, gəl oynayaq.

- Yox, verməz, - Namaz yazıq-yazıq dilləndi.

- Əlbəttə, verməz! Beydulla gülüb Qurbana göz vurdu: - O qız sənin nəyinə gedib, bilmədim ki, bilmədim də!

Bu sözü orda-burda elə hamı deyirdi. Sısqa Namaza kəndin ən çirkin qızları da ərə getməzdi. Səkinə isə, bəlkə də kəndin ən yaraşıqlı qızı idi. Ancaq məsələ burasındadır ki, Namaz onun böyük əmisinin oğlu idi. Əmisi ölməmişdən bir az əvvəl ağıldan seyrək və sir-sifətdən kasıb oğlunun ömürlük subay qalacağından qorxub ondan on beş yaş kiçik Səkinəni oğluna istəmişdi. Nə qardaşı, nə də qardaşı qızı bu istəyə qarşı çıxa bilməmişdi. Səkinənin anası isə, o hələ uşaq ikən vəfat etmişdi. Qardaşının narazılığına baxmayaraq atası onu Namaza verdi. Toydan bir il sonra Namazın, iki-üç il sonra isə Səkinənin atası vəfat etdi. Onlann bir oğlu oldu. Səkinə də hər şeydən əlini üzüb uşağımın atasıdır, həm də əmim oğlu - deyərək oturmuşdu. Namazın heç bir sənəti olmadığına və əlindən heç bir iş gəlmədiyinə görə özü həyətdə-bacada işləyib ailəni saxlayırdı.

Beydullanm atmacası Namaza toxundu:

- Sənə dəxli yoxdur, nəyimə gəlib!

- Necə yəni, dəxli yoxdur? - Qumardan əvvəl Əli və Qurban ilə bir şüşə arağı boşaltmış və buna görə də bir az keflənmiş Beydulla əl çəkmədi: - Mənim üçün maraqlıdı də! O cür ətli- əndamlı arvad sənin kimi sısqadan bir şey görür yəni?

- Bəs Pakizə səndən nə görür? - Namaz qıpqırmızı qızarıb xoruzlandı.

- Onu sənə demərəm, get Səkinəni yolla yanıma, ona deyim.

Həyasız sürücünün bu sözlərindən özündən çıxmış Namaz onu vurmaq üçün ayağa qalxdı. Ancaq Beydulla ondan tez tərpənib yumruğu ilə elə vurdu ki, Namaz bayaq üstündə oturduğu daşa ilişib kürəyi üstə yerə sərildi. Gözü qızmış Beydulla onu var qüvvəsi ilə təpikləməyə başladı. Səs-küyə adamlar yığışdı. Ancaq bundan sonra Əli ilə Qurban canfəşanlıq edib birtəhər Namazı Beydullanm əlindən

***

downloaded from KitabYurdu.org

aldılar. Namazın burnundan axan qan sir-sifətini və köynəyinin yaxasını bulamışdı. Tozlu-torpaqlı yerdə uzanıb, bədəninin ağrısından ayağa qalxa bilmirdi.

Səsə yığışanlardan kimsə Səkinəyə xəbər vermişdi. Səkinə nəfəsi təngişə-təngişə qaçaraq özünü mərəkəyə çatdırıb ərinin qolundan yapışdı. Onu qaldırıb üst-başınm tozunu çırpdı, yaylığı ilə üzünün qanını təmizlədi və çəkə-çəkə evə aparmaq istəyəndə dönüb Beydullaya dedi:

- Əclaf oğlu əclaf! Sənin başına bir oyun gətirim ki, sən də görəsən!

- Nə oyun gətirəcəksən? De, biz də bilək.

- Görəcəksən! Sən get o həyasız arvadının dərdini çək!

- Get! Get! İtəoxşayanmı da götür rədd ol burdan!

- İtə sən oxşayırsan!

Beydulla daha dinmədi. Namazın bir qolundan arvadı yapışmışdı. Dartınıb o biri qolunu Beydullaya uzatdı və ağzı köpüklənə-köpüklənə qışqırdı:

- Sən öləsən, Beydulla, səni bu gecə öldürməsəm kişi deyiləm!

- Gəl görüm bu yana! - Səkinə ərinə acıqlanıb onu tamaşaya yığılanların arasından çıxartdı və evə apardı.

Beydulla onların arxasınca nəsə demək istədisə də Əli imkan vermədi:

- Yaxşı, qurtar görək! Baş qoşmağa adam tapmırsan deyəsən. Onu Allah vurub da!

Ara sakitləşən kimi camaat dağılışıb hərəsi öz işinə getdi.

Gecə saat on iki olardı. Beydullanın ailəsi evin ikinci mərtəbəsindəki divarları suvanmış yeganə otaqda yatmağa hazırlaşırdı. Birdən həyətdən taqqıltı səsi gəldi. Kimsə taxta pilləkənin tutacağım döyürdü. Beydullanın arvadı Pakizə deyindi:

- Xeyir ola, kimdi görəsən gecənin bu vaxtı? Beydulla:

- Kimsən? Gəlirəm! - deyib qapını açdı. Yanlan açıq eyvana ayağını qoyan kimi ov
tüfənginin gurultulu səsi pəncərələri titrətdi. Beydulla inildəyib kürəyi



downloaded from KitabYurdu.org

üstə evin içinə yıxıldı. Qızı İlahə əlləri ilə başını tutub elə dəhşətlə qışqırdı ki, tüfəngin səsi bu səsin yanında zəif olardı. Pakizə cəld pəncərəyə tərəf yüyürüb pərdəni araladı. Pəncərədən həyətə süzülən zəif işıqda həyət qapısının əksinə qaçan kölgəni görə bildi. Qaçan adamın qəribə yerişi var idi. O, yuyulmuş paltarları asıb qurutmaq üçün iki ağac arasında tanm çəkilib bağlanmış mis məftilə ilişdi və az qaldı ki, yıxılsın. Amma özünü düzəldib həyətin içərilərində, zülmət qaranlıqda yox oldu.

Pakizə ərini dartıb içəri saldı və bundan sonra özünü açıq eyvana atıb fəryad qopardı:

- Ay camaat hey! Köməyə gəlin! Evim yıxıldı! Ay Beydulla heey!

Səsə qonşular gəldilər. Onların dalınca kəndin icra nümayəndəsi olan Kazım müəllim də özünü çatdırdı. Evə çıxıb döşəmədə uzanan Beydullanm üzərinə əyildi.

- Beydulla, sənə nə oldu? Kim vurdu səni?

Ev sahibinin sinəsindən hələ qan axırdı. Ov tüfənginin patronuna doldurulmuş iri qurğuşunlar sinəsini parçalamışdı. O, ağır-ağır gözlərini açıb əvvəl kəndin rəhbərinə, sonra isə arvadına baxdı. Güclə dodaqlarını aralayıb «Na...» - deyə zandı. Sözünü tamamlaya bilməyib elə o saat da keçindi. Pakizə qalxıb yenə şivən qopartdı:

- Namaz öldürüb! Namaz oğraş! Özüm gördüm qaçanda. O idi. Qıçları dolaşa-dolaşa qaçırdı, əyri qıçları sınmış!

Kazım müəllim onu birtəhər sakitləşdirdi. Həyətə düşüb, küçəyə, qapı ağzına yığılanlara həyətə girməyi qadağan elədi:

- Heç kəs həyətə girməsin! Bəlkə ayaq izləri qalıb? Mən gedib idarədən polisə zəng edəcəm.

Beydullanm arvad-uşağının ağlaşma səsi kəsmək bilmirdi. Küçəyə yığışıb, Kazım müəllimin qorxusundan həyətə girə bilməyən kənd qadınları da elə küçədəcə vay-şivən qurmuşdular. Kişilərdən kimsə molla dalınca qaçdı. Digər kişilərin səsləri qadınların ağlaşma səsi arasında adda-budda eşidilirdi:

- Ə, nə olub burada?

***

downloaded from KitabYurdu.org

- Beydullanı güllə ilə vurublar!
- Kim vurub?
- Nə bilim, deyəsən, Namazın adını çəkirlər?
- Nə danışırsan, ə? Niyə vurub Namaz onu?
- Eşitmədiz? Günorta dedi ki, səni öldürməsəm kişi deyiləm.
- Ölüb görəsən?
- Bəs ölməyib?
- Bədbəxt oğlu bədbəxt! Evini təzəcə tikib hazırlamışdı.
- Fani dünyadı daa! Belə də deyirlər, sən saydığını say!
- Ancaq aləm qarışacaq.
- Hə, çox adamın başı ağrıyacaq. Polisə xəbər verilib görəsən?
- Kazım müəllim getdi zəng eləməyə.
- Yazıq qız yetim qaldı.
- Hə, bayaq elə çığırırdı ki, tüklərim biz-biz olmuşdu.
- Neyləsin atasıdır da!
- Gözləyək, görək polis işçiləri nə vaxt
gələcək?

* * *

Gecə rayon mərkəzindən kəndə heç kəs gəlmədi. Növbətçi polis telefonla Kazım müəllimə dedi ki, idarədə bekar adam yoxdur. Özün hadisə yerində ol, səhər mütləq əməliyyat qrupu göndərərlər.

Doğrudan da səhər hava təzəcə işıqlanmışdı ki, Beydullanm darvazasının qabağında polis maşını dayandı. Gələnlər rayon polis idarəsi rəisinin əməliyyat işləri üzrə müavini mayor
Cəfərli, prokurorluğun müstəntiqi Əlizadə, məhkəmə tibb eksperti Rafiq həkim və kəndin sahə müvəkkili kapitan Həsənov idilər. Onları bütün gecəni yatmayıb həyətin keşiyini çəkmiş və buna görə də çox yorğun görünən Kazım müəllim qarşıladı.

Əməliyyat işləri üzrə rəis müavininin əlliyə yaxın yaşı var idi. Rayonda hamı onu kobud, özündən razı, söyüş söyməkdə mahir, lakin eyni zamanda zirək və bacarıqlı əməliyyat işçisi kimi tanıyırdı. Mayor Cəfərli rayonda işlədiyi müddətdə bir çox cinayətlərin üstünü açmışdı.

Müstəntiq Əlizadə rayon prokurorluğuna təzə göndərilmişdi. Ona



downloaded from KitabYurdu.org

görə də onu rayonda çox az adam tanıyırdı. Həkim Rafiq İzzətov bu işində çoxdankı idi və təcrübəli ekspert kimi tanınmışdı. Ancaq onun mayor Cəfərli ilə gizli iş əlbirliyindən söhbətlər də gəzirdi ki, bu söhbətlərin danışdığımız əhvalatla heç bir əlaqəsi olmadığı üçün onların üzərində dayanmırıq.

Kapitan Həsənov bir ildən çox idi ki, kəndin sahə müvəkkili idi və özündən əvvəlki sırtıq sahə müvəkkili ilə müqayisə edilərək kənd camaatının hörmətini qazanmışdı.

Ancaq hər halda gələnlərdən diqqət mərkəzində olan əsas mayor Cəfərli idi və küçədə dayanmış kənd sakinləri də qorxa-qorxa ona baxırdılar.

Qaşqabaqlı mayor dəstənin qabağında eyvana çıxdı və eyvanda görünən tək-tük adamı küçəyə qovlayaraq içəri keçdi. Meyitin yanında kəndin mollası, Pakizə və İlahədən başqa heç kim yox idi. Molla və mərhumun qızı gələnləri görüb ayağa qalxdılar və çəkilib bir kənarda dayandılar. Ayaq üstə dayanmış Pakizə isə əməliyyat qrupunun qarşısına yüyürdü:

- Balamı yetim qoyanı sizdən istəyirəm. O Namaz köpək oğlunu tutun verin mənə, onu tikə- tikə eləyim.

Cəfərli ona çımxırdı:

- Ay arvad, çəkil görüm kənara! Onu biz araşdıracağıq ki, cinayətkar kimdir!

Pakizə qorxudan səsini kəsib kənara çəkildi. Mayor meyitə diqqətlə baxıb onu həkimin ixtiyarına verdi və üzünü Kazım müəllimə tutdu:

- Namaz kimdir?

- Bu kənddəndir. Başıaşağı, yazıq adamdır,

- deyə icra nümayəndəsi izahat verməyə başladı:

- Hələ Beydulla keçinməmiş mən ondan səni kim vurdu? - deyə soruşdum. O da «Na» deyib sözünün sonunu gətirə bilmədi və keçindi. Arvadı deyir ki, güllə atılan kimi pəncərədən baxdım. Pəncərədən baxıb və dediyinə görə Namazı qıçları bir-birinə dolaşa-dolaşa qaçdığını görüb. O qaçanda həyətdə paltar qurutmaq üçün çəkilmiş telə ilişib.

***

downloaded from KitabYurdu.org

- Mən tanıyıram onu, - sahə müvəkkili söhbətə qarışdı: - Başı xarabın biridir. Sifətindən də adama oxşamır. Ondan nə desən çıxar. Ayaqları da ki, doğrudan da əyridir.

- Aha! - mayor başını yellədi və yenə Kazım müəllimin üzünə baxdı. Kazım müəllim dünən günorta kəndin mərkəzində Beydullanm Namazı döydüyünü danışdı və qeyd etdi ki, Namaz da Beydullanı öldürəcəyi ilə hədələyib.

- Bəs nə üçün vaxtında tədbir görüb cinayətin qarşısını almamısmız? - deyə bayaqdan dinib-danışmayan müstəntiq Kazım müəllimdən soruşdu.

- Mən o məsələni ölüm işi baş verəndən sonra bilmişəm. Mənə deyən olmayıb.

Əlizadə daha dinmədi. Mayor Cəfərli və onun ardınca o birilər həyətə düşdülər.

Həmişə adi məftillə bağlanan həyət qapısından pilləkənin ayağına kimi on metrə qədər dar cığıra daş döşənmişdi. İki ay əvvəl divarlarının iç üzünü suvamaq üçün Beydulla qonşu kəndin kənarından iki maşın gilli san torpaq gətirmişdi ki, bunlann da birini həyətə, digərini isə küçəyə boşaltmışdı. Torpaq işlənib qurtarmışdısa da yerdə qalanı ayaq altında yayılıb küçəni, küçə qapısından evə qədər hər yeri sapsan eləmişdi. Nəm və saqqız kimi elastik olan bu torpaq üzərində, daş cığırdan azacıq kənarda uzunboğaz çəkmə izləri lap aydın görünürdü. Bu izlərlə eyni olan digər izlər isə həyətin aşağısına tərəf gedirdi. Həyətin qara torpağı üzərindəki izlər gilli torpaqdakı kimi aydın bilinməsə də hər halda onlan görmək üçün o qədər də itigözlü olmağa ehtiyac yox idi.

Mayor Cəfərli izləri diqqətlə tədqiq etməyə başladı. Müstəntiq daha aydın görünən izlərin fotoşəklini çəkdi. Mayor belə izlərdən birinə daha çox diqqətlə baxdı. Sonra bir vedrə gətizdirib ağzı üstə ləpirin üstünə qoydu. Kazım müəllimə tapşırdı ki, vedrəyə heç kəs toxunmasın. Bu işləri qurtarandan sonra üzünü təkəbbürlə müstəntiq Əlizadəyə tutdu:

- Evə gələn və evin qabağından həyətə doğru gedən izlərin hər



downloaded from KitabYurdu.org

birində pəncə dabana nisbətən daha bərk basılıb. Cani bərk qaçdığı üçün izlər belə düşüb. Onun çəkmələrinin sağ tayında çəkmənin altı və böyrünün bir hissəsini əhatə edən iri kəsik var. Aydındır ki, bu kəsik balta ilə odun doğrayarkən, yaxud digər bir iş görərkən
yaranıb. Kəsik kifayət qədər böyükdür. Bu ayaq izlərindən aşkar görünür.

Cəfərli sözünü bitirib mənalı-mənalı Kazım müəllimə və onun tədqiqatını izləyən Pakizəyə baxdı. Sonra irəli keçib paltar asmaq üçün çəkilmiş mis məftilə göz yetirdi və Pakizədən soruşdu:

- Deyirsən qatil qaçanda bu məftilə toxundu? Nədən bildin?

- Telin səsini də eşitdim. Qəfil atıldığına görə bərk səs çıxartdı. Həm də Namaz tellə toqquşanda az qaldı ki, yıxılsın.

Mayor:

- Aha! Aydındır! - deyib taxta pilləkənə yaxınlaşdı və onun ətrafım diqqətlə axtarmağa başladı. Yerdə patrondan çıxıb yayılmış çox xırda kağız qırıntıları tapdı. Onlan bir kağıza büküb portfelə qoydu. Sonra isə pilləkənin altından nisbətən böyük, əzilib yumurlanmış bir kağız parçası tapdı və ehtiyatla açdı. Kağızda uşaq xətti ilə yazılmış beş-altı söz oxumaq mümkün idi.

- Şagird dəftərindən cırılıb! - deyə yaxınlaşıb kağız parçasına baxan Əlizadə bildirdi.

- Elədir, şagird dəftərindən cırılıb və patronun ağzına tıxanıb. Güllə atılanda isə çıxıb buraya düşüb, - deyə Cəfərli bu kağızı da portfelinə qoydu və müstəntiqə dedi: - Siz yaxşı olar ki, Rafiq həkimlə məktəbin yanma gedib bizi orada gözləyəsiz. Biz bu saat Namazgilə baş çəkib gəlirik.

Bu vaxt həkim də eyvana çıxdı. Cəfərli onu görüb:

- Vəziyyət necədir ?- deyə soruşdu.

- Mənə elə gəlir ki, xəstəxanaya aparıb yarmağa xüsusi ehtiyac yoxdur. Hər şey aydındır. Güllə təqribən dörd metr məsafədən, aşağıdan yuxarı atılıb. Patronda iri qırmalar olub və yaxından atıldığı üçün sinəsini parçalayıb.

Mayor Cəfərli onunla razılaşıb Kazım müəllimi də özü ilə götürdü



downloaded from KitabYurdu.org

və kapitan Həsənova maşını Namazgilə sürməyi əmr etdi.

Namaz həyətdə taxta kətilin üstündə oturmuşdu. Gələnləri görüb ayağa qalxdı. Qorxudan boğazı qurudu. Bütün gecəni yata bilmədiyinə görə gözləri də qıpqırmızı olmuşdu.

Mayor Cəfərli və kapitan Həsənov ona məhəl qoymayıb evin ətrafında axtarış aparırdılar. Onlar evin böyründəki balaca daxmadan bir cüt uzunboğaz çəkmə tapdılar. Mayor çəkmənin sağ tayının altına göz yetirib mənalı tərzdə Həsənova baxdı: Çəkmənin altında iri kəsik var idi. Eyni zamanda çəkmənin altı san palçığa bulaşmışdı. Palçıq qurumuşdu. Tüfəngdən ötrü apanlan axtarış isə nəticə vermədi. Evdə tüfəng yox idi. Mayor Cəfərli sahə müvəkkilinə göstəriş verdi:

- Bas bunu maşına!

Bir anda Namazın üzünə meyit rəngi çökdü. Dili açıq-aşkar topuq vurmağa başladı.

- Rəis, mənim günahım yoxdur. Vicdanım haqqı onu mən öldürməmişəm.

- Səsini kəs, qoduq! Olmayan şeyə and içmə. Orada boynuna alacaqsan neyləmisənsə!

Namaz əlacsız qalıb Kazım müəllimə üz tutdu:

- Kazım müəllim, vallah, o balamın ölmüşü üçün mən heç nə bilmirəm.

Kazım müəllim faktlar qarşısında özünü aciz hiss edib üzünü yana çevirdi. Kapitan Həsənov dal qapını açıb Namazı maşına mindirdi. Çəkmələri də gətirib maşına atdı. Bu vaxt Səkinə çiynində səhəng gəlib çıxdı. Yəqin ki, bulaqdan gəlirdi. Səhəngi yerə qoyub maşına yüyürdü.

- Onu hara aparırsız? Qoymayacam.

Anamın qəbri haqqı qoymayacam aparmağa. Onun günahı yoxdur.

***

downloaded from KitabYurdu.org

Cəfərli onun qolundan tutub kənara itələdi.

- Çəkil o yana! Həyasızlıq eləmə!

Bu sərt hərəkətdən canına qorxu düşən Səkinə dayandı. Maşına minməyə hazırlaşan kişilərə baxıb nə edəcəyini bilmədi. İndi o özünü dünyada ən köməksiz bir insan hesab edirdi. Birdən yazıqlaşıb ağlamağa başladı:

- Qurban olum sizə, onu buraxın, o yazığın təqsiri yoxdur.

Kazım müəllim ona ərklə acıqlandı:

- Yaxşı, bəsdir, ayıbdır, keç həyətə!

Maşının qapılan çırpıldı və maşın yola düşdü.

Onlar birbaş kəndin məktəbinə gəldilər. Həyət qapısının yanında müstəntiq və həkim də onlara qoşuldu. Məktəbin direktoru gələnləri qarşılayıb öz kabinetinə apardı. Cəfərli direktora tapşırdı ki, bir uşaq yollayıb Qurban və Əlini məktəbə çağırtdırsın. Sonra isə onun xahişi ilə direktor məktəbin bütün şagirdlərinin sinif dəftərlərini gətirib stolun üstünə qoydu. Məktəbdə cəmi doxsan dörd şagird oxuyurdu. Mayor Cəfərli və müstəntiq Əlizadə Beydullanın pilləkəninin altından tapılmış kağızdakı yazı ilə dəftərdəki yazılan tutuşdurmağa başladılar. Birdən Cəfərli:

- Baxın, bu yazılar pilləkənin altından tapılmış vərəqdəki yazılarla eyni uşaq tərəfindən yazılıb, - dedi və dəftərin üz qabığını çevirib oxudu: - Dördüncü sinif şagirdi Zəkiyev Elçin Namaz oğlu.

Müstəntiq dərindən nəfəs alıb qarşısındakı dəftərləri kənara itələdi və direktordan soruşdu:

- Bu həmin Namazın oğludur?
- Bəli.
- Bunun müəllimi kimdir?
- Səmayə müəllimə...
- Çağırın onu, qoy o da gəlib şagirdinin xəttini təsdiq etsin. Hə, bir də gələndə uşağın çantasını da gətirsin. Kitab-dəftərləri ilə birlikdə.

Direktor kabinetdən çıxdı və bir dəqiqə sonra Səmayə müəllimə ilə geri qayıtdı. Gənc müəllimənin əlində bir şagird çantası da var idi.

Əlizadə əzik kağız parçasını Səmayə müəlliməyə göstərib onun



downloaded from KitabYurdu.org

fikrini soruşdu. İbtidai sinif müəllimi çox düşünmədən:

- Elçinin yazısıdır! - dedi.

Müstəntiq çantanı ondan alıb ələk-vələk elədi. Elçinin ana dilindən ev dəftəri də sinif dəftərinin eyni idi. Dəftərdə bir tərəfi cırılmış səhifə yox idi. Əlizadə axtardığını tapmayıb çantanı geri qaytardı. Beydullanın həyətindən tapılmış əzik vərəqdəki yazının Elçinə məxsus olması barədə akt tərtib olundu. Akta iştirakçıların bir qismi, o cümlədən Səmayə müəllim imza etdilər. Sonra Səmayə müəllim icazə alıb yanmçıq qalmış dərsi davam etdirməyə getdi.

Bu vaxt xəbər gətirdilər ki, Əli və Qurban gəlib məktəbin həyətində gözləyirlər. Mayor Cəfərli əvvəlcə Qurbanı içəri çağırmağı tapşırdı. Qurban kabinetə daxil olub qapının ağzında durdu. Mayor onu yaxma çağırıb sorğu-suala başladı:

- Adın nədir?
- Qurban.
- Dünən nə qələt eləmisiz dükanın yanında?

Qurban başını aşağı dikdi.

- Rəis, vallah heç nə. Oturub sakitcə kart oynayırdıq. Pulsuz. Dördümüz idik. Rəhmətlik Beydulla, Nataraz, mən, bir də ki sısqa Namaz.

- Nataraz kimdi ə? Adam kimi danışa bilmirsən?

- Əlini deyirəm. Dilimiz öyrəşib də. Kənddə düz səkkiz Əli var axı?..

- Hə, dalını danış!

- Beydulla Namazla zarafat elədi. Namaz da ona ağır cavab verdi. Rəhmətlik dözməyib onu vurdu. Sısqa da dedi ki, səni bu axşam öldürməsəm kişi deyiləm.

- Otur, nə olubsa, hamısını düzgün yaz!

Cəfərli ona ağ vərəq və qələm verdi. Qurban izahatını yazıb qurtaran kimi mayor ona:

- Çıx həyətdə gözlə! - dedi və Əlini kabinetə çağırmağı tapşırdı. Ucaboy, enlikürək Əli içəri girib bir addım qabağa gəldi və ayaq üstə durdu.

***

downloaded from KitabYurdu.org

- Əli, üç il yatmısan, hələ ağlın başına gəlməyib? Yenə də axmaq işlərlə məşğulsan?

Əli başını yırğalayıb dedi:

- Rəis, mən oranı görmüşəm, bir də görmək istəmirəm. Allah oranı düşmənimə də göstərməsin. Dünən halallıqla qazandığım pulla qumar oynadım, uduzdum. Özümə söz vermişəm ki, daha bir də qumar adı çəkməyim.

- Deməli, qumar oynayırdız?

- Hə! - Əli cavab verdi. - Mən ömrümdə yalan danışmamışam. Sözün gərək düzünü deyəsən. Beydulla həqiqətən pis elədi. Namazın arvadı haqqında pis söz dedi. Sonra da yazığı o ki var döydü. Əlindən güclə aldıq.

- Bəs Namaz nə deyib ona?

- Dedi ki, kişi deyiləm, səni bu axşam öldürməsəm.

- Gəl otur, izahat yaz!

Əli stolun arxasında oturub dünən kəndin mərkəzində olan hadisəni yerli-yataqlı yazdı. Cəfərli onu buraxıb yenə Qurbanı içəri çağırdı.

- Ə, axmaq oğlu axmaq, məni aldadırsan? Bəs deyirdin pulla oynamırdıq?

Qurbanın qorxudan rəngi ağardı.

- Vallah, rəis, elə-belə baş qarışdırırdıq.

- Dayan, sənin başını elə qanşdınm ki, özün də afərin deyəsən! - rəis müavini barmağını onun üstünə silkələdi: - Sabah gələrsən rayona!

O dükan səni qudurdub deyəsən.

- Baş üstə, rəis!

Sonra Cəfərlinin göstərişi ilə kapitan Həsənov Namazı maşından çıxarıb məktəbə gətirdi.

- Dünən Beydulla səni döyəndən sonra, ona nə demisən? - Namaz kabinetə girən kimi mayor Cəfərli qəfil soruşdu.

- Heç nə, rəis. - Namaz qıçları əsə-əsə başını aşağı dikib döşəməyə baxırdı.

- Ə, it oğlu it! Deməmisən ki, səni öldürməsəm kişi deyiləm?

***

downloaded from KitabYurdu.org

- Yox, başına dönüm, mən elə söz deməmişəm.

Cəfərli qalxıb ona bir qapaz ilişdirdi.

- Ə, məni dolayırsan?

Yerə sərilən Namaz birtəhər ayağa qalxıb, ikinci zərbədən özünü qorumaq üçün əllərinin dalmı üzünə sipər elədi.

- Demişəm, demişəm ! Yadıma düşdü...

- Darıxma, idarədə hələ çox şey yadına düşəcək! - deyib əsəbiləşmiş rəis müavini kapitana tapşırdı ki, Namazı maşına aparsın. Kazım müəllim:

- Gedək bizim evdə bir tikə çörək yeyin, yəqin indi ac olarsız - deyib rayondan gələnləri evinə dəvət etdi.

Maşını Kazım müəllimin darvazasının qarşısında saxlayaraq qonaqlar evə keçdilər. Süfrə artıq hazır idi. Qonaqlar üçün toyuq çığırtması bişirilmişdi. Cəfərli oturan kimi əlini yeməyə uzatdı.

- Həmişə evinə şadlığa gələk!

- Çox sağ olun, qapım həmişə üzünüzə açıqdır.

Kazım müəllim kiçik stəkanlara araq süzdü:

- Maraqlıdır, Namaz tüfəngi kimdən alar, görəsən? Onun özünün tüfəngi yoxdur.

- Kimlər qanunsuz tüfəng saxlayır, siz yəqin ki, bilərsiz. Onlann siyahısını dəqiqləşdirib bizə verərsiz, - deyə müstəntiq badəsini əlinə götürdü. - Bir də ki, Namaz özü deyəcək, tüfəngi kimdən alıb.

Birdən Kazım müəllimin yadına düşdü ki, Namaz maşında ac oturub. Uşaqlardan birini səsləyib üzünü mayor Cəfərliyə tutdu:

- Uşaqlara deyim, o bədbəxt oğluna da bir tikə çörək versinlər, elə maşmdaca yesin.

- Lazım deyil, qoy otursun gözləsin! - deyib Cəfərli də araq stəkanını əlinə götürdü. - Kazım müəllim, bunu içək sizin sağlığınıza. Yeməyiniz həmişə bol, süfrəniz də bax beləcə açıq olsun.

- Sağ olun! Çox sağ olun!

İçdilər. Sonrakı sağlıqlar növbə ilə
qonaqlann şərəfinə deyildi. Yeyib doyandan sonra Cəfərli ayağa qalxdı:

***

downloaded from KitabYurdu.org

- Daha biz gedək. Tələsirik.

Kazım müəllim onları yola saldı. Maşına minəndə mayor tapşırdı ki, sabah Namazın arvadı, mərhumun arvadı və qızı, Əli və bir də Qurban rayon polis idarəsinə gəlsinlər.

- Arxayın olun, deyərəm, gələrlər!

Maşın kənddən çıxıb dərədə axan kiçik çayı keçdi və dağ yolu ilə üzüyuxarı qalxmağa başladı. Bu zaman həyətlərində dayanıb maşının arxasınca baxan Səkinə dərsdən təzəcə qayıtmış
oğlunu qucaqlayıb ağlayırdı.

* * *

Səhəri gün gündüz saat ıı-də Səkinə rayon polis idarəsində, əməliyyat işi üzrə rəis müavininin kabinetində, onunla üzbəüz oturmuşdu. Cəfərli Səkinənin heç də xoşuna gəlməyən həyasız baxışlarla onun hər yerini gözdən keçirtdi. Nəhayət özünü tox tutub ciddi şəkildə sözə başladı:

- Hadisə baş verən gün, gecə saat 12 radələrində əriniz harada idi?

- Evdə. Yatmışdı.

- Səninlə yatmışdı? - Cəfərli istehza ilə soruşdu.

Səkinə qızardı. Belə adama nə cavab verəcəyini bilmədiyi üçün cavabı gecikdirdi:

- Xeyr! O saat ıo-da çarpayısına uzanıb yatdı. Mən də ıı-in yarısında oğlumla yatdım.

- Elə yaxşı eləyib onunla yatmırsan. Adam onu görəndə iştahası qaçır.

Səkinə yenə də söz tapmayıb boğula-boğula qaldı. Dünən həyətlərində Cəfərimin sərt üzünü görmüşdü. Ona görə də artıq söz deməyə qorxurdu. Ömründə birinci dəfə idi ki, polis idarəsinə ayaq basmışdı. Buranın divarları da ona soyuq və qorxunc görünürdü.

- Bəs niyə görə iddia edirsən ki, ərin saat 12- də evdə olub. Bəlkə sən yatandan sonra durub çıxıb?

- Axı onun heç tüfəngi yoxdur... - Səkinə ağlamsındı.

- «Tüfəngi yoxdur» - Cəfərli onu yamsıladı. - Tüfəngi başqasından da almaq olar. - Kağız- qələmi Səkinəyə tərəf itələdi. - Həmin gün nə



downloaded from KitabYurdu.org

baş verib, nə bilirsən, hamısını yaz! Sən gözəl qadınsan. Özünə yaraşmayan adamı yalandan müdafiə eləmə! Mənim sözümə baxsan, axırın yaxşı olar.

Səkinə birdən hirsindən əsə-əsə ayağa qalxdı:

- Mən heç bir izahat-zad yazmayacam! - dedi və qapını çırpıb çıxdı. Oradan birbaş rəisin kabinetinə getdi. Bədəninin titrəməyini heç cür saxlaya bilmirdi.

Rəis bir qədər mülayim adam idi. Səkmənin icazəsiz kabinetə girməyini irad tutmadı. Onun hıçqıra-hıçqıra dediyi sözləri dinlədi və təmkinlə dedi:

- Qızım, səbirsizlik eləmə! Əməliyyat qrupu bu işi araşdırıb. Öldürülənin həyətində ərinin ayaq izləri müəyyən olunub. Ölənin arvadı ərini gözləri ilə gördüyünü təsdiq edib. Öldürülən özü də son nəfəsində ərinin adını çəkib. Mən hələ hamısını saymıram. Ümumiyyətlə bütün bu faktlar tamamilə onun əleyhinədir. Amma
Cəfərlinin dediyinə görə o, hələ də cinayəti boynuna almır. İstintaq hələ qurtarmayıb. Mən sizə onu söz verə bilərəm ki, ona günahsız yerə cəza verilməyəcək. Durun gedin, səbirli olun!

Səkinə polis idarəsindən çıxıb, rayon mərkəzində yaşayan qardaşıgilə getdi. Qardaşının da, qardaşı arvadının da Namazdan zəhlələri gedirdi. Səkinə qardaşının razılığı olmadan Namaza ərə getmişdi. Ona görə də toy günündən qardaşı ilə aralarında soyuqluq yaranmışdı. Onu yenə də könülsüz qarşıladılar. Əhvalatı hardansa eşidiblərmiş.

Qardaşı:

- Bu əclaf niyə belə hərəkət edib? - deyə soruşdu.

- Nə edib ki? - Səkinə sərt şəkildə suala sualla cavab verdi.

Qardaşı hirsləndi.

- Daha nə edəcək? Adam öldürmək azdır? İndi bir on beş il iş kəsəcəklər, sən də qalacaqsan yollarda, onunçün yemək daşımağa. Həm də oturub yetimini saxlayacaqsan. Əmimin goru çatlasm, necə öz meymunaoxşayanmı sırıdı da bizə.

- Niyə elə danışırsan, qardaş? Onun nə günahı var? Yazığı



downloaded from KitabYurdu.org

günahsız tutublar.

Qardaşı hirslə əlini yellədi:

- Yalandan müdafiə eləmə!

Açıq görünürdü ki, ondan kömək gözləmək əbəsdir. Səkinə qardaşının evində qərar tuta bilməyib şəhərə çıxdı. Mağazadan beş qutu siqaret, bir çörək, bir parça pendir alıb torbaya qoydu və polis idarəsinə getdi. Nahar fasiləsi idi. Növbətçi otağında iki seıjant söhbət edirdi. Torbanı onlara göstərib xahiş etdi ki, Zəkiyev Namaza çatdırsınlar. Serjantın biri torbaya baxıb qımışdı və razılaşdı:

- Verərəm, niyə vermirəm?

- Sağ olun! Çox sağ olun! - Səkinə təşəkkürünü bildirdi.

- Dəyməz, qəşəng qız!

Səkinə binanın qapısından çıxan kimi torbanı alan polis siqaretin ikisini yoldaşına verib, üçünü öz cibinə soxdu. Çörəklə pendiri stolun üstünə qoyub:

- Ye, nuş olsun! - dedi. - O Namazdı, nə tuladı, yesə qudurar, elədiklərini boynuna qoymaq olmaz.

Yoldaşı qəhqəhə çəkdi:

- Ancaq arvadı yaman şeydi ha!

- Hə! Görəsən, onun nəyinə gedib bu?

Yazıq qız bu sözlərdən xəbərsiz acqarına
küçələri gəzirdi və özü ac olsa da toxtaqlıq tapırdı ki, yaxşı adama rast gəlib çörəklə siqareti Namaza ötürə bildi. Namaz yeməyinin və siqaretinin vaxtını ötürəndə dözə bilmirdi.

Bir qədər hərlənib yorulandan sonra qalmağa başqa yeri olmadığına görə yenə qardaşıgilə getdi. Axşama qədər küsülü kimi oturandan sonra yatağını saldırıb soyunaraq
yerinə girdi. Ancaq səhərə qədər gözünə yuxu getmədi. Səhər tezdən yerindən durub qardaşıgili oyatmadan evdən çıxdı və yenə polis idarəsinə yollandı. İdarənin qabağında bir az dayanmışdı ki, işə gələn sahə müvəkkilini görüb tanıdı. Tərəddüd etmədən ona yaxınlaşdı.

- Qardaş, kömək elə Namazı görüm, nə olar?

Kapitan Həsənov:

***

downloaded from KitabYurdu.org

- Gözlə görək! - deyib idarəyə girdi və on dəqiqə sonra çıxıb Səkinəni kənara çəkdi. - Bacı, kömək eləyə bilməyəcəm. Namaz Beydullanı öldürməyini bu gecə boynuna alıb. Sabah Bakıya ötürəcəklər. İndi hələlik istintaqı ona görə davam etdirirlər ki, tüfəngi harada gizlətdiyini boynuna
almır. Sən onu yəqin ki, bir də məhkəmədə görə biləcəksən.

Səkinənin ayaqları elə bil asfalta yapışdı. Yer-göy başına fırlandı. Həsənov daha onun yanında dayanmayıb binaya girdi. Köməksiz qadın onun arxasınca baxa-baxa qaldı.

Namaz Beydullanı öldürməyini boynuna alıb? Yəni doğurdan da Namaz Beydullanı öldürüb? - Atalar sözüdür, deyir, xəmir yeyənin acizi olmaz. Deməli, Namaz gecə məni yuxuya verib evdən çıxıb? Səkinənin gözləri qaraldı. Dünən rəisin dediyi sözlərin mənasını elə bil indi anlayırdı. Ayaq izləri, Pakizənin Namazı tanıması, Beydullanın Namazın adını çəkməsi... Rəis dedi ki, faktlar onun əleyhinədir! Səkinə tamamilə süstləşmişdi. Nə edəcəyini bilmirdi. Kəndə qayıtsmmı? Uşağı da qonşuya tapşırıb gəlmişdi. Ondan ötrü də yaman nigaran idi. Amma yox! Namazı yiyəsiz, köməksiz qoymaq olmaz! Namaz günahsızdır... O adam öldürə bilməz... Birdən bir fikir onun beynində oyanıb işıq saçmağa başladı:

- Bakıya! Ancaq Bakıya! Ümid Bakıyadır!

Bir taksiyə minib özünü avtobus vağzalına çatdırdı. Vağzalda dayanmış bir avtobusda yerlərin dolmağına az qalmışdı. Səkinə çıxıb boş yerlərin birində oturdu. Oturacaqların hamısı dolan kimi avtobus Bakıya yola düşdü.

Bakıda soraqlaşıb nazirliyin binasını tapdı. Ancaq onu içəri buraxmaq istəmədilər. Səkinə xahiş etdi, yalvardı, ağladı, ancaq bütün bunların heç bir əhəmiyyəti olmadı. Bu gün qəbul günü deyil, - deyib durdular. Hər yerdən əli üzülən Səkinə küçəyə çıxıb özünü ora-bura şütüyən maşınların altına atmaq istədi. Onun məqsədini vaxtında başa düşən növbətçi polislərdən biri Səkinəni tutub içəri apardı və qərara gəldilər ki, şikayətçini nazirliyin yüksək rütbəli işçilərindən birinin qəbuluna göndərsinlər. Həmin şəxs Səkinəni mehribanlıqla qarşılayıb


downloaded from KitabYurdu.org

dinlədi və o saat telefonla rayona zəng vurub polis idarəsinin rəisi ilə danışdı:

- Xahiş edirəm, Zəkiyev Namaz Zəki oğlunun işi barədə məlumat verin.

Bir qədər susub dinlədikdən sonra «Aydındır!» - deyib dəstəyi yerinə qoydu və ona böyük ümidlərlə baxan Səkinəyə üzünü tutdu:

- Səkinə xanım! Əriniz Zəkiyev Namaz ona qarşı göstərilən faktların qarşısında çarəsiz qalıb etdiyi cinayəti boynuna almışdır. Mən sizi başa düşürəm və ərinizin xilası üçün mübarizə aparmağınızı alqışlayıram. Amma təəssüf ki, sizə kömək edə bilməyəcəm. Biz hamımız qanuna tabeyik. Qanun isə faktlara əsaslanır.

Artıq sözə ehtiyac yox idi. Səkinə deməyə, ərini müdafiə etməyə əsaslı dəlil tapmırdı. O gecə Namazın onun gözü qabağında yatağına girməsi faktı da hələ rayonda Cəfərlinin bir kəlmə sözü ilə mənasını itirmişdi. Səkinə bircə onu deyə bilərdi ki, mən ərimin qatil olmağına inanmıram. Vəssalam. Onun sözü ilə kim oturub-dururdu ki?

Nazirlikdən çıxıb yenə soruşa-soruşa adını çox eşitdiyi qəzet redaksiyalarından birini axtarıb tapdı. Redaksiyada onu dinləyib bəzi qeydlər götürdülər, ancaq bildirdilər ki, Namazın xeyrinə bir söz demək mümkün deyil. Bununla belə, ona başqa bir qəzetin ünvanını verdilər və dedilər ki, həmin qəzet kriminal hadisələrə daha çox yer verməklə, bəzən qanunsuzluqla qarşılaşanlara kömək əli də uzadır.

Səkinə yavaş-yavaş ümidsizliyə qapılsa da, qərara gəldi ki, bu redaksiyaya da gedib dərdini desin. Redaksiyada nə üçün gəldiyini öyrənib onu Nemət Sabirli adında şöbə müdirinin yanma ötürdülər. Sabirli onu qayğıkeşliklə dinlədi və bir qədər fikrə gedib, nəhayət dilləndi:

- Danışdıqlanmzdan belə çıxır ki, bu məsələ çox dolaşıq məsələdir. Sizin səmimiyyətinizə inanıram. Ancaq siz hissiyyata da qapıla bilərsiniz. Ümumiyyətlə, inanmıram ki, qəzet vasitəsilə sizə kömək edə bilək. Amma razı olsanız mən sizi bir şəxsi tanışımla görüşdürə bilərəm.

- O kimdir ki? - Səkinə tələsik soruşdu.

***

downloaded from KitabYurdu.org

- İstefada olan polis polkovnikidir. Məşhur xəfiyyədir. Kriminalistika doktorudur. Onu da deyim ki, çox yaxşı insandır.

Əslində elə bir savadı olmayan Səkinə şöbə müdirinin əvvəlki sözlərindən bir şey anlamasa da «yaxşı insandır» ifadəsi ona kifayət etdi.

Onun indi yaxşı insana ehtiyacı daha çox idi.

- Razıyam, məni onunla görüşdürün!

Nemət Sabirli saatına baxdı.

- Onda on-on beş dəqiqə bayırda gözləyin.

İş vaxtımız bir azdan qurtaracaq. Sizi maşınla apararam. Ancaq adınızı heç demədiniz?

- Səkinədir adım.

- Hə, Səkinə xanım, incimirsinizsə məni həyətdə gözləyin.

Səkinə həyətə çıxdı. Redaksiyanın qabağında dayanıb fikirləşməyə başladı: «Görəsən bu adamla gedimmi? Kim bilir, nə cür adamdır? Məni hara aparır? Bakıda bir nəfər də tanıdığım adam yoxdur. Axşama düşsəm, rayona necə qayıdacam?.. Ancaq yox! Bu axınncı ümid yeridir. Nə olar, olar!»

Nemət bir azdan çıxıb onu redaksiyanın qarşısında dayanmış ağ rəngli Qaz-24-ə dəvət etdi. Səkinə çəkinə-çəkinə keçib arxada oturdu.

Maşın bir doqquzmərtəbəli binanın 2-ci blokunun qapısı ağzında dayananda Nemət düşüb arxa qapını açdı. Səkinə yerə düşüb ətrafına boylandı. Onlar üçüncü mərtəbəyə qalxdılar. Sağdakı qapının üstünə 24 rəqəmi və «Nemət Sabirli» yazılmış lövhə, soldakı qapıya isə sadəcə 23 rəqəmi yazılmış lövhə vurulmuşdu. Nemət 23 saylı mənzilin zəngini çaldı.

Qapını mənzilin yeganə sakini və sahibi Qanbay Qasımlı açdı. O, uzunsov sərt sifətli, ortaboylu, üzü tərtəmiz qırxılmış qırx yaşlarında bir kişi idi. Yana daradığı qara saçlarının bir topası geniş alnına dağılmışdı. Ev sahibi gələnləri simasına yaraşmayan mehribanlıqla içəri dəvət etdi.

- Xoş gəlmisiz, buyurun içəri!

Otağa girib Qasımlının göstərdiyi divanda əyləşən kimi Nemət



downloaded from KitabYurdu.org

Sabirli təzə tanışını ev sahibinə təqdim etdi:

- Cənab Qasımlı, tanış olun, bu xanımın adı Səkinədir.

- Çox şadam!

- Nemət qadının haradan və hansı səbəbə görə gəldiyini danışmağa başladı. O danışdıqca Qasımlı qəhvə dəmləməklə məşğul idi. Hərdən mətbəxə girib çıxırdı. Stolun üstünə çörək, yağ, pendir düzüb bir fincana qəhvə süzdü və qonşusu sözünü qurtaran kimi ona dedi:

- Mən hələlik bir şeyi dəqiq deyə bilərəm ki, Səkinə xanım möhkəm acdır. Gəlin biz sizinlə balkona çıxıb bir siqaret çəkək və belə bir şərt qoyaq ki, biz qayıdana kimi Səkinə xanım bu yeməklərdən yeyib, qəhvəni içməsə, onu dinləməyək, - sonra üzünü Səkinəyə tutdu:

- Səkinə xanım, utanmayın, özünüzü evinizdəki kimi hiss edin.

Nemət ayağa qalxıb Qasımlının arxasınca balkona çıxdı. Onlar siqaret çəkməyə başladılar. Keçmiş xəfiyyə kənddən gəlmiş qonağı haqqında öz fikrini bildirdi:

- Hiss olunur ki, qız vaxtında çox şən və gözəl qız olub. İndi isə günü yaxşı keçmir. Çox işləyir. Sizin söhbətdən eşitməsəydim, doğrusu ilk baxışdan onun dul olduğunu deyərdim. Sifətindən görünür ki, sağlam olmasına baxmayaraq, ər-arvad münasibəti görmür. Əri üçün etdiyi fədakarlıq isə göz qabağındadır. Ümumiyyətlə, mənim ilk qənaətim belədir ki... - o, sözünə bir qədər ara verib yenidən başladı. - Bu qadının əri xəstədir. Qohumlarla da münasibəti yaxşı deyil. Özü də bəlkə birinci
dəfədir ki, Bakı kimi şəhərdə olur. Mənim sadə mənzilimə elə heyranlıqla tamaşa edir ki, sanki dəbdəbəli saraya düşüb. Nə isə... Sizin işləriniz necə gedir?

- Pis deyil... Eşitdim Polis Akademiyasında işə girmisiz?

- Yox, işə girməmişəm. Ancaq hərdən mühazirə oxumağa razılıq vermişəm. İşləməkdən danışmayın. Daha mən kimlərdənsə asılı olmağı istəmirəm.

Siqareti çəkib qurtarandan sonra otağa keçdilər. Bütün günü dilinə heç nə dəyməyən Səkinə yeməyi yeyib, qəhvəni də içmişdi. Ev sahibi

***

downloaded from KitabYurdu.org

məmnunluqla gülümsəyib kresloda əyləşdi, əllərini sinəsində çarpazlaşdırıb yerini rahatladı və Səkinəyə:

- Buyurun, indi sizi dinləyirəm! - dedi.

Səkinə bu mehriban adama baxdıqca onda əsil kişilərə xas olan cəhətlər görürdü və bu onun sıxıntısını xeyli azaldırdı. O, Qasımlmm mayor Cəfərlidən nə qədər fərqli bir adam olduğunu anlayaraq özünü tamamilə ələ aldı. Qumar dəsgahının gedişi və xoşagəlməz sonluğu haqqında həmin axşam Namazın evdə danışdıqlarından tutmuş, bu mənzilə gəlib çıxana qədər öz başına gələnlərin hamısını yerli-yataqlı ona çatdırdı.

Danışıq müddətində Qanbay Qasımlı heç yerindən dəbərmədi də. Nüfuzedici baxışlarını
Səkinəyə zilləyib bütün diqqəti ilə ona qulaq asırdı. Qadın danışıb qurtarandan sonra kiçik bir sükut yarandı. Yaranmış sükutu nəhayət Qasımlınm təmkinli səsi pozdu:

- Deməli əriniz and içdi ki, Beydullanı öldürəcək?
- Bəli.
- Yəqin o, bir o qədər də çox pul uduzmamışdı?
- Orası elədir. O birilərə baxanda onun uduzduğu heç nə idi. Bizim o qədər pulumuz haradadır ki?
- Namaz danışmadı ki, Beydulla udduğu pulların hamısını nağd alıb, yoxsa yox?
- Namazdan alıb, o birilərinki isə nisyə olub.
- Namaz uduzduğuna, ya döyüldüyünə görə evdə Beydullanm arxasınca nə danışırdı?
- Söyürdü, deyirdi ki, gedib onu öldürəcəm. Ancaq mən onu sakitləşdirdim. Yerinə girib yatdı. Saat ıo-da.
- Namazın tüfəngi var?
- Xeyr, yoxdur!
- Mən rəsmi surətdə belə işlərlə məşğul deyiləm. Ancaq sizin xatirinizə sabah səhər tezdən sizinlə rayona gedəcəm. Artıq hava qaralıb. Gecəni də burada qalarsız. - Qasımlı ayağa qalxıb televizoru yandırdı. - İndi isə siz televizora baxın, mən bu saat qayıdıram.

***

downloaded from KitabYurdu.org

O, pencəyini geyinib şlyapasını başına qoydu və evdən çıxdı. Səkinəni yenə də narahatlıq bürüdü. Televizora baxmaq heç yadına da düşmürdü. Birdən-birə Elçin üçün danxdı. Kənddən çıxanda qonşuya yalvarmışdı ki, Elçini gözdən qoymasın, məktəbə də buraxmasın, uşağa düşmənçiliklə nəsə edərlər. Bu yandan da Namazın dərdi. İndi görəsən Namaz nə edir?
Onu yenə incidirlərmi? Səkinə fikirləşəndə ki, yad kişinin mənzilində qalacaq, daha da narahat olurdu. O, polkovnik Qasımlıdan utanırdı və fikirləşirdi ki, üst-başım da tozludur, yol gəlmişəm, qadın olmayan evdə necə yata bilərəm? Birdən ayağa qalxıb Nemətə dedi:

- Qardaş, mən gedim, səhər tezdən gələrəm.

Nemət Sabirli özünü itirdi:

- Necə yəni gedim? Hara gedəcəksiniz?
- Qardaşımgilə. Burada olurlar.
- Gözləyin, Qanbay müəllim gəlsin.
- Yox, sonra gec olar.
- Onda sizi maşınla apararam.

- Yox, yox, qardaşımgil yaxında olur. Evlərini tanıyıram. Siz narahat olmayın. - Səkinə bunu deyib qapıya getdi. - Səhər tezdən blokun ağzında olacam.

Nemət onu saxlaya bilmədi. O çıxandan beş- on dəqiqə keçmiş ev sahibi əlində ərzaq dolu torba içəri girdi. Elə qapıdaca Səkinənin ayaqqabısını görməyib soruşdu:

- Qız necə oldu?

- Qardaşıgilə getdi. Dedi ki, səhər tezdən gələcək.

- Nə qardaş, canım? - Qasımlı məzəmmətlə Nemətə baxdı. - Onun burada qardaşı-filanı yoxdur. Burda gecələməyə utandığı üçün sizi aldadıb. - Qasımlı tez sellofan torbanı stolun üstünə qoyub geri qayıtdı. - Gedək mənimlə!

Nemət təəccüblə çiynini çəkib onun dalınca düşdü. Çoxbilmiş xəfiyyə blokun qarşısındakı kiçik parkda sağa-sola göz gəzdirib sıx bəzək kollarının arxasına keçdi. Bədbəxt qadın xəlvət bir skamyada oturub soyuqdan büzüşmüşdü. O, sonuncu ümidgahı hesab etdiyi



downloaded from KitabYurdu.org

adamı görüb diksindi və ayağa qalxdı. Qasımlı başını buladı:

- Əgər belə etsəniz, Səkinə xanım, sizinlə rayona getməli olmayacam. Gedək! Nemət müəllim gəlib mənim mənzilimdə yatar. Siz isə, onun arvadı ilə, zənnimcə, darıxmazsınız. O, çox mehriban və sadə qadındır.

Səkinə gecəni Nemətgildə qaldı. Ev sahibəsi Fədayə xanım həqiqətən səmimi insan idi.
Qonağı sıxılmağa və darıxmağa qoymadı. Səhər durub onun üçün yemək hazırladı. Səkinə səhər yeməyini təzəcə yeyib qurtarmışdı ki, Nemət Sabirli içəri girib dedi:

- Sabahınız xeyir, Səkinə xanım! Cənab Qasımlı sizi aşağıda, maşının yanında gözləyir. Təəssüf ki, mənim redaksiyada vacib işim olduğu üçün sizinlə gedə bilməyəcəm. Ona görə də maşının açarını ona verdim. Sizə müvəffəqiyyət arzu edirəm.

Səkinə ev sahibi ilə onun xanımına ürəkdən təşəkkür edib həyətə düşdü və Qasımlınm onun üçün açdığı arxa qapıdan maşına mindi. Qasımlı da sükanın arxasında oturub maşını işə saldı. Onlar Səkinənin ürəyini qoyub gəldiyi rayona yola düşdülər və rayon mərkəzinə çatana kimi,
yol boyu, bir kəlmə də olsun danışmadılar.

* * *

Rayon polis idarəsinin qarşısında Qasımlı maşından düşüb Səkinəyə maşında gözləməyi tapşırdı və idarəyə girdi. İdarə rəisi onun haqqında eşitmişdi. Ancaq üzdən tanımırdı. Məşhur xəfiyyənin gəldiyini eşitdikdə onu tez qəbul etdi, ayağa qalxıb mehribanlıqla görüşdü.

- Xoş gəlmisiz, Qanbay müəllim, sizdən nə əcəb? Xeyirdirmi?

Qasımlı rəislə eyni mehribanlıqla görüşüb:

- Həmişə olduğu kimi mənim gəlişim kimin üçünsə xeyir, kimin üçünsə faciədir, - dedi və güldü.

Rəis ona oturmaq üçün yer göstərib, telefonla bufetdən çay gətirilməsini tapşırdı. Xəfiyyə gəlişinin məqsədini qısaca başa saldı. Rəis fikrə getdi. Lakin tez də fikrindən ayrılıb dedi:


downloaded from KitabYurdu.org

- Cənab polkovnik, bu işdə ciddi faktlar var. Faktların da hamısı Namazın əleyhinədir. Həm də ki, Namaz cinayəti boynuna alıb.

- Hər halda, yoxlamaq istərdim. - Qasımlı cibindən siqaret qutusunu çıxarıb, bir siqaret yandırdı.

- Hadisə yerinə gedəcəksiniz?

- Bəli, hökmən!

Rəis zəngi basıb mayor Cəfərlini yanma çağırdı. Mayor Cəfərli bir azdan qoltuğunda qalın qovluq kabinetə girdi. Salam verib laqeydliklə qonağa baxdı və yenə də üzünü rəisinə tutdu.

Rəis göstəriş verdi:

- Namaz Zəkiyevin cinayət işi ilə əlaqədar bütün sənədlərlə Qanbay müəllimi tanış edin. Bakıdan gəlib. Lazım gəlsə müstəntiq Əlizadə ilə də görüşdürün. Sonra isə polkovniki özünüzlə kəndə aparın, imkan verin hadisə yeri ilə istədiyi kimi tanış olsun. Nəzərə alm ki, o bizim sahədə çox böyük adamdır.

- Baş üstə!

Əməliyyat işi üzrə rəis müavini qalın qovluğu Bakıdan gəlmiş qonağın qarşısına qoydu. Qasımlı bütün verilmiş izahatları, tərtib edilmiş protokolları və digər sənədləri diqqətlə oxudu. Sonra qovluğu kənara itələyib rəisə dedi:

- Xahiş edirəm, deyin Namazı gətirsinlər, onu görüm.

Rəis Namazın gətirilməsi barədə göstəriş verdi.

Bir azdan növbətçi polis işçisi Namazı kabinetə gətirdi, özü isə rəisin işarəsi ilə otaqdan çıxdı. Namaz dayanıb qorxa-qorxa otaqdakılara baxırdı. Polkovnik Qasımlı diqqətlə Namazı gözdən keçirib bəzi işgəncə əlamətləri sezdi və üz- gözünü turşutdu. Rəis bunu başa düşüb əyri-əyri müavininə baxdı. Cəfərli çiyinlərini çəkdi.

- Beydullanı sən öldürmüsən? - Qasımlı mülayimliklə soruşdu. Namaz altdan-altdan Cəfərliyə baxdı. Mayor Cəfərli ayaq üstə dayanmışdı və gözlərini Namazın ağzına zilləmişdi. Namaz nəhayət dilləndi:

- Bəli...

- Bəs tüfəngi kimdən almışdın? Axı sənin tüfəngin olmayıb. Elə



downloaded from KitabYurdu.org

deyilmi?
Namaz dinmədi.

- Qəribə adamsan. - Qasımlı onu məzəmmət elədi. - İnsan həyatına qəsd etmək kimi böyük cinayəti boynuna almısan. Tüfəngi isə, haradan ələ keçirdiyini demək istəmirsən. Bəlkə kimisə satmaq istəmirsən?

Namaz nə qədər avam olsa da, bu yad adamın otaqdakı digər iki nəfər üzərindəki nüfuzunu hiss eləmişdi. Qasımlmm mehriban rəftarı onu cəsarətləndirdi və dəryada batan adam yapışmağa saman çöpü axtardığı kimi Namaz da bu kiçik, bəlkə də sonuncu imkandan istifadə etmək istədi:

- O bir balamın canı üçün-özünü saxlaya bilməyib qəhərləndi - Mənim heç nədən xəbərim yoxdur.

Cəfərlinin gözündə sanki şimşək çaxdı. Qanbay Qasımlı bunu o saat hiss etdi. Lakin
mayora əhəmiyyət verməyib üzünü rəisə tutdu:

- Mən başqa otaqda, Namazla təklikdə danışmaq istəyirəm.

Rəislə müavini bir-birlərinə baxdılar. Qasımlı birdən fikrini dəyişib ayağa qalxdı:

- Heç nə lazım deyil, icazə verin, kəndə gedək!

- Buyurun, buyurun! - rəis də yerindən durdu və müstəqil xəfiyyəni qapıya kimi ötürdü, sonra isə yerinə qayıdıb stolun üstündəki düyməni basaraq növbətçini çağırdı və Namazı müvəqqəti saxlama kamerasına qaytarmağı əmr etdi.

Qasımlı pillələri düşə-düşə Cəfərliyə dedi:

- Çəkmələr burdadırsa, onları da götürün! Bir də pilləkənin altından tapdığınız kağızı.

Mayor Cəfərli təcili kapitan Həsənovu da tapdırdı. Qasımlının dediyi şeyləri gətirib polis idarəsinə məxsus UAZ markalı maşına qoydu. Bakıdan gələn qonağa bildirdi ki, kəndin yolu narahat olduğu üçün UAZ-la getmək məsləhətdir Qasımlı Nemətin maşınına yanaşıb Səkinədən xahiş etdi ki, düşüb polis maşınına əyləşsin. Lakin onun hələ uzaqdan Cəfərliyə qorxa-qorxa baxdığını görüb geri çevrildi və

***

downloaded from KitabYurdu.org

mayora:

- Siz qabaqda gedin, biz də gəlirik! - dedi.

* * *

Qabaqda polis əməkdaşlarını aparan UAZ, arxada isə Qasımlının sürdüyü QAZ-24 kəndə
daxil olanda günortadan keçmişdi. Kəndin girəcəyində ikinci ev Namazın evi idi. Bura çatanda Səkinə maşını saxlatdırıb dedi:

- Mən ora gedə bilmərəm.

Qasımlı özü də Səkinə ilə birlikdə maşından düşüb həyətə girdi. Ətrafa diqqətlə göz gəzdirib:

- Polis işçiləri çəkmələri haradan götürüblər? - deyə soruşdu.

Səkinə kiçik birmərtəbəli evin böyründəki anbar rolu oynayan daxmanı göstərdi:

- Çəkmələr burada olurdu. Namaz ancaq yer çox palçıq olanda onları geyirdi. Qalan vaxtlarda çıxarıb buraya qoyurdu.

Qanbay Qasımlı həyətdən çıxıb maşına mindi və UAZ-ın izi ilə Beydullanm evinin yanma sürdü. Uzun yasxana küçədə, həyət qapısının qarşısında qurulmuşdu. Yasxanada molladan və kənar yerdən gəlmiş iki qonaqdan başqa heç kəs yox idi. Mərhumun yas mərasiminin üçgünlüyü dünən olmuşdu. İndi isə sakitlik idi. Hər iki maşındakılar yasxananın qapısı ağzında yerə düşdülər. Kazım müəllim xəbər tutub tələsik gəldi və onlarla görüşdü.

Qasımlı mayor Cəfərlidən Namazın çəkmələrini alıb həyətə girdi. O birilər də onun arxasınca gəldilər. Caninin izləri yasa gəlib-gedənlərin ayaqlan altında tapdanıb itmişdi. Yalnız Cəfərlinin üstünə vedrə çevirib Kazım müəllimə tapşırdığı ləpir salamat qalmışdı. Təcrübəli ekspert ləpiri diqqətlə tədqiq etdi və əlindəki çəkmələri onunla tutuşdurdu. Sonra çəkmənin sağ tayındakı kəsiyi gözdən keçirtdi. Kəsikdəki qurumuş nazik palçıq qatını cibindən çıxartdığı kiçik cib bıçağı ilə qaşıya-qaşıya zərrəbinlə müşahidə etdi. Sonra çəkmə tayını yerə tullayıb qabağa yeridi və paltar asılmağa xidmət eləyən mis məftilin qarşısında dayandı. O yaman qaşqabaqlı görünürdü. Həyətdəkilər onun işinə qarışmayaraq diqqətlə hər



downloaded from KitabYurdu.org

hərəkətini izləyirdilər. Pakizə və qızı İlahə də açıq eyvanın məhəccərinə söykənib ona baxırdılar. Qasımlı eyvana tərəf çevrilib Pakizədən soruşdu:

- Mərhumun arvadı sizsiniz?
- Bəli, mənəm! - Pakizə cavab verdi.
- Siz izahatınızda yazmısız ki, ərinizi vuran adam qaçanda bu məftilə ilişdi, eləmi?
- Bəli, ilişdi, az qaldı yıxılsın! Çox bərk toqquşdu.
- Əlində tüfəng gördüz?
- Bəli!
- Tüfəngi necə tutmuşdu? Dik, yoxsa üfüqi?
- Yox, dik tutmamışdı. Elə-belə... Sağ əli ilə yanında tutmuşdu.
- Hansı əlamətə görə onu Namaza oxşatdız?
- O cür əyri qaçış ancaq Namaz əclafda olar. Yeriyəndə ayaqları bir-birinə dolaşır.

Qasımlı şlyapasını çıxanb məftilin altından keçdi və həyətin içinə doğru getdi. Burada həmin çəkmələrə uyğun izlərin bəzisi hələ qalmışdı. O
bu izləri tutub köhnə çəpərin nisbətən alçaq yerindən adlayıb küçəyə çıxdı və hərlənib küçə qapısından həyətə girdi. Pilləkənə yaxınlaşıb mayor Cəfərlidən soruşdu:

- O kağız parçasını haradan tapmışdız? Xahiş edirəm, yerini dəqiq göstərin! - keçmiş polis işçisinin səsində soyuqluq hiss olunurdu.

Cəfərli əyilib taxta pilləkənin altından kağızı tapdığı yeri barmağı ilə göstərdi.

- Baxın, buradan! Tüfəngdən çıxıb düşmüşdü.

Qasımlı bir daha pilləkəni, eyvanı gözdən keçirtdi. Beydullaya güllə dəyərkən onun harada olduğu ilə maraqlandı. Gülləni atarkən qatilin dayandığı yeri müəyyənləşdirib həmin yerdə
dayandı və diqqətlə Beydullamn axırıncı dəfə çıxdığı qapıya baxdı. Sonra cibindən «Kent» qutusunu çıxarıb bir siqaret yandırdı. Üzünü Kazım müəllimə tutaraq:

- Yəqin ki, məktəbdə dərslər qurtarmış olar. Xahiş edirəm, məktəb

***

downloaded from KitabYurdu.org

direktorunu, Qurbanı və Əlini məktəbə çağırın! - dedi. Mayor Cəfərli bayaqdan özünü arxayın və təkəbbürlü aparır, müstəqil xəfiyyənin hərəkətlərini yüngül istehza ilə izləyirdi. Onun öz işini hələ də qurtarmadığını görərək soruşdu:

- Cənab polkovnik! Mənim gəldiyim qənaətə əlavə etməli yeniliyiniz var?

Qanbay Qasımlı qaşqabaqlı halda qısa cavab verdi:

- Hələ heç nə deyə bilmərəm!

* * *

Məktəbin direktoru, Qurban və Əli məktəbin həyətində onlan gözləyirdilər. Həyətə girən kimi Qasımlı yavaşca Kazım müəllimdən soruşdu:

- O hündürboylu Əlidir?
- Bəli... Tanıyırsız?
- Xeyr, izahatları oxumuşam.

Direktorun kabinetində Qasımlı birinci
növbədə dördüncü sinif şagirdi Zəkiyev Elçinin sinif dəftərlərini istədi. Direktor o saat iki dəftəri gətirib onun qarşısına qoydu. Qasımlı mayor Cəfərlidən pilləkənin altından tapılmış əzik kağız parçasını aldı. Elçinin riyaziyyat dəftərini kənara itələyərək, ana dili dəftərini açdı və oradakı yazılar ilə əzik kağız parçasında olan yazıları tutuşdurdu. Yazıların eyni uşaq tərəfindən yazıldığı şübhəsiz idi. Təcrübəli xəfiyyə dəftəri vərəqləyib oradakı imlaların mətni ilə maraqlandı. Dəftərdə cəmi beş imla var idi. Nədənsə ikinci imlanın əvvəli ilə o biri səhifədəki sonu məna etibarilə uyuşmurdu. Qasımlı bir də mətni oxuyub başa düşdü ki, dəftərdən ikinci səhifə tamamilə cırılıb. O, dəftərin vərəqlərini sayaraq buna bir daha əmin oldu. Başını qaldırıb kabinetdə oturanlara dedi:

- Pilləkənin altından tapılan kağız bu dəftərdən cırılıb!

- Əlbəttə, mən bu dəftərə baxan kimi dedim ki, bu dəftərdəki yazılar həmin kağızdakı yazılar ilə eynidir. - Cəfərli lovğa-lovğa dilləndi.

Qasımlı ona istehzalı bir nəzər saldı:



downloaded from KitabYurdu.org

- Siz, deyəsən, məni başa düşmədiniz, cənab mayor! Mən deyirəm ki, həmin vərəq məhz bu dəftərdən cırılıb. Bu dəftərdən! Məgər bu dəftərin Namaza bir dəxli var?

- Necə yəni dəxli var. Bu dəftər Namazın oğlununkudur. - Cəfərli əsəbiləşdi.

Qasımlı başını bulayıb üzünü direktora çevirdi:

- Sizdə uşaqlar yoxlama yazı dəftərini evə apanrlar?

Direktor təəccübləndi:

- Yox, heç elə şey olar?

- Bəs Səmayə müəllimə necə, dəftərləri evə aparır? Tutaq ki, yoxlamaq üçün.

- Bəli, mən buna icazə vermişəm.

Qanbay Qasımlı bir siqaret yandırıb davam
etdi:

- Mən rayonda sənədləri oxuyanda bir protokolda Səmayə müəllimənin də imzasına rast gəldim. Onun da familiyası Əlinki ilə eynidir. Hər ikisi İbişovdurlar. Onlar necə qohumdurlar?

- Əli Səmayə müəllimənin əridir! - Direktor təəccüblə cavab verdi.

- Xahiş edirəm, Əlini içəri çağırın!

Direktor çıxıb həyətdə gözləyən Əlini içəri
dəvət etdi. Əli otağa girib hamıya salam verdi və sakitcə dayandı. Onun saçlan alnına tökülmüş,
üz-gözünü tük basmışdı. Yəqin ki, Beydulla üçün yas saxlayırdı. Qasımlı onu başdan ayağa kimi süzdü. Özünə yaxın yerdə olan stulu göstərib oturmağı təklif etdi. Sonra isə birdən-birə ona yox, mayor Cəfərliyə müraciətlə danışmağa başladı:

- Cənab mayor! Siz ayaq izlərinə görə çəkmənin sağ tayında kəsik olduğunu düz müəyyənləşdirmisiz. Ancaq o kəsiyin çəkmədə hansı səbəbdən yarandığı sizi dərindən maraqlandırmayıb. Fərziyyə irəli sürmüsüz ki, Namaz odun doğrayarkən çəkməni balta kəsib. Hansı ki, həmin kəsiyin palçığını yuyub ona diqqətlə baxmaq kifayətdir ki, həmin yerin bilərəkdən, özü də bıçaqla bir neçə dəfəyə sürtülüb kəsildiyi məlum olsun. Bu belə! Kəsikdə müxtəlif palçıq qalıqları var.

***

downloaded from KitabYurdu.org

Bu qalıqlar nazik qatlar şəklində olsa da, mən onları dəqiq müşahidə etdim. Kəsik yerinə birinci yapışmış sarı rəngli gilli palçıqdır. Bilirsinizmi bu nə deməkdir? - Qasımlı bir qədər ara verib sualına özü cavab verdi: - Bu o deməkdir ki, çəkmənin altı bıçaqla kəsiləndən sonra çəkmə ilk dəfə Beydullanm həyət qapısı ağzında torpağa dəyib. Çünki mən kənd yollanna və Namazın həyətinə fikir verdim. Burada sarı torpaqlı yer yoxdur. Beydulla san torpağı hardansa kənardan gətirib. Başqa bir məsələ: siz ayaq izlərində qəribə vəziyyəti hiss etmisiz. Qeyd etmisiz ki, ayağın pəncə hissəsi dabana nisbətən yerə bərk basılıb.

Mən bunlan sizin hesabatınızdan oxudum. Siz bunu belə əsaslandırırsız ki, qatil qaçırmış. Bəli, qatil gülləni atandan sonra qaçıb. Lakin həyətə girəndə də qaça-qaça girməyib ki? Mənim yoxladığım tək ləpir həyətə girərkən düşən ləpir idi.

- Bəs siz bunu necə əsaslandırırsız? - Cəfərli dözməyib hirsləndi.

- Məsələ burasındadır ki, - Qasımlı təmkinini pozmadan izahat verməyə başladı: - Ayaqqabılar qatilin özününkü olmayıb. Həmin adamın ayaqlarının ölçüsü Namazmkmdan böyük imiş. Qatil həyət qapısının ağzında bu çəkmələri birtəhər ayağına keçirib həyətə girib. Çəkmələr onun ayağına çox kiçik olduğu üçün dabanı yerə basa bilməyib. Ona görə də ləpirlərin pəncə hissəsi daha aydın gözə çarpır. - mayor Cəfərli də daha o birilər kimi sakitcə, lakin həm də heyrətlə xəfiyyənin danışmağına qulaq asırdı. Qasımlı yenə aramla danışırdı:

- İndi isə, gəlin ayaq izləri ilə qurtaraq və başqa məsələyə keçək. Beydullanm arvadı təsdiq edir ki, qatil qaçanda məftillə toqquşub. Ona verdiyim sualların cavablanndan qəti məlum olur ki, məftilə toxunan tüfəng ola bilməzdi. Qatilin özü, həm də yəqin ki, alın hissəsi məftilə dəyib. Mən məftilin altından həmin yerdən, yəni Beydullanı öldürən adamın keçdiyi yerdən keçdim. Məftil lap azacıq mənim saçlanma toxundu. Siz həmin məftilin yerdən olan hündürlüyünü və Namazın boyunu ölçə bilərsiniz. Ancaq şəxsən mənim buna ehtiyacım yoxdur. Mən Namazı polis idarəsində gördüm. Onun boyunun mənim boyumdan azı on beş santimetr qısa olmasını qəti söyləyə bilərəm.

***

downloaded from KitabYurdu.org

Qasımlı cibindən siqaret çıxanb birini yandırdı və oturanlara göz gəzdirib yenidən sözə başladı:

- İndi icazə verin, mən hadisənin gedişini qısaca olaraq sizə danışım. Ancaq xahiş edirəm, sözümü kəsməyin. Hadisə baş verən gün həmin məlum dörd nəfər qumar oynayırlar. Əli Beydullaya böyük məbləğdə pul uduzur. Hər halda bu Əli üçün böyük məbləğdir. Əli həmin pulu bacısıgildən götürüb verməli imiş. Bunlar
Qurbanın izahatında yazılıb. Siz isə ayaq izlərini gördüyünüz üçün Namazdan başqa kimdənsə şübhələnməyi ağlınıza da gətirməmisiz. Oyunun sonunda Beydulla Namazı təhqir edir və üstəlik onu döyür. Namaz Beydullaya deyir ki, səni bu gecə öldürəcəyəm. Onun bu sözünü bir neçə adam eşidir. Əli bundan istifadə edərək, qərara gəlir ki, Beydullanı öldürsün və çalışsın ki, cinayəti Namazın boynuna yıxsınlar. O, Beydullanı ona uduzduğu pulları verməmək üçün öldürmək istəyirmiş. Bəlkə başqa səbəb də var, ancaq əsas səbəb budur. Bu qərara gələndən sonra o, düşünüb plan qurur. Əli əvvəldən də bilirdi ki, arvadı Namazın oğluna dərs deyir. Ona görə də Səmayə müəllimin yoxlamaq üçün evə gətirdiyi dəftərlərin içindən Namazın oğlunun dəftərini götürüb ondan vərəq çıxarır. Həmin vərəqdən cırıb kiçik parça götürür və onu əzik- əzik edib cibinə qoyur. Siz həmin kağızı patrondan çıxan kağız kimi qələmə versəz də, bu səhv fikirdir. Mən o kağızda nə barıt əlaməti, nə də yanıq izi görmədim. Ümumiyyətlə, o kağız tüfəngdən çıxsaydı da düz həmin yerə düşə bilməzdi. O həmin yerə əllə atılıb. Siz yaxşı olardı ki, həmin kağızda əl izlərinin olub olmadığını müəyyənləşdirmək üçün ekspertizaya verəydiniz. - Cəfərli burada nə isə demək istədi. Lakin Qasımlı əl işarəsi ilə onu saxladı. - Tələsməyin, mayor, qulaq asm! Deməli, Əli gecə tüfəngini götürüb Namazgilə gedir. Əlinin qanunsuz tüfənginin olduğu mənim üçün şübhəsizdir. Bu cür zirək adam həmin gün başqasından tüfəng istəyib özünü şübhə hədəfi etməzdi. Hə... O Namazın uzunboğaz çəkmələrini götürüb əlində tutaraq Beydullagilə yollanır. Yolda bıçaqla çəkmədə kiçik kəsik açaraq işarə qoyur ki, əməliyyat qrupu çox əziyyət çəkmədən ayaqqabıların sahibini tapsın.

***

downloaded from KitabYurdu.org

Əli bilirdi ki, Namazın Beydullaya dediyi hədələyici sözlər polisin qulağına mütləq çatacaq və Namaz şübhə hədəfinə çevriləcək. Siz gərək fikir verəydiniz ki, ayaq izləri açıq-aydın hamını özünə cəlb etmək məqsədilə salınıb. Əli evə gedən daş cığırdan bilərəkdən kənara çıxıb və geri qaçmaq əvəzinə həyətdən də bilərəkdən keçib ki, ayaq izləri çox və aydın düşsün. Beydullanı öldürəndən sonra o çəpərdən keçib qapının yanında qoyduğu ayaqqabılarını geyinib və heç kəsə özünü göstərmədən aparıb Namazın çəkmələrini öz yerinə qoyub.

Qanbay Qasımlı söhbətini qurtarıb Əliyə baxdı. Əli bayaqdan daş kimi hərəkətsiz oturmuşdu. Elə bil gözləri açıq vəziyyətdə yuxuya getmişdi. Bu vaxt mayorun səsi gəldi:

- Yaxşı, cənab polkovnik, bəs ona nə deyirsiz ki, Pakizə qatili qaçanda görmüşdü və təsdiq edir ki, o Namaz idi?

- Pakizə izahatında heç nəyi qəti təsdiq etmir. - Qasımlı mayor Cəfərliyə sakitcə cavab verdi: - O deyir ki, qaranlıqda qaçanı Namaza oxşatdım. Guya o, qəribə şəkildə - qıçları bir- birinə dolaşa-dolaşa qaçırmış. Sizin fikrinizcə, ayağının ölçüsündən xeyli kiçik çəkmələri birtəhər ayaqlanna taxan adam necə qaçmalıdır?

Cəfərli inadından əl çəkmədi:

- Axı Beydulla özü də qapını açanda tüfəngi ona tuşlayan adamı Namaz hesab edib. Axı ondan qatilin adını soruşanda o «Na» hecasını işlədib.

- Yox! - Qasımlı qəti cavab verdi: - Beydulla tüfəngi ona tuşlayan Əlini görüb və tanıyıb.

- Bəs axı?..

- Necə bəs axı? - Qasımlı onun sözünü ağzında qoydu. - Məgər bayaqdan haqqında danışdığım Əlinin tay-tuşu arasında ləqəbi Nataraz deyil? Bu adı Qurban da öz izahatında iki dəfə işlədib ki!.. Siz necə adamsınız, başa düşə bilmirəm.

Cəfərli hirsindən boğulsa da dinmədi. Qasımlı daha ona əhəmiyyət verməyib başını aşağı dikmiş Əliyə dedi:

- Əli, indi söz sənindir! Özünü müdafiə etmək üçün mənə bir sözün varsa, deyə bilərsən.

***

downloaded from KitabYurdu.org

Əli qanlı-qanlı Qasımlıya baxaraq:

- Sübutunuz yoxdur! - deyə çımxırdı.

- Dediklərim sizə bəs etmədisə, Bakıya qayıtmağımı daha bir saat təxirə salaraq, sizin üçün yeni sübutlar tapa bilərəm. Ancaq buna o qədər ehtiyac duymuram. Dəqiq bilirəm ki, mayor Cəfərli sizə hər şeyi sübut edəcək. İndi isə xahiş edirəm, saçınızı yana daramaq əvəzinə uşaq kimi alnınıza tökməyin. Saçınızı alnınızdan yığışdırın.

Əli sağ əlini başına aparıb saçını sığallasa da alnını açmadı.

- Alnınızı göstərin! - Qasımlı təkid etdi.

Əlinin tərpənmək istəmədiyini görən kapitan Həsənov cəld qalxıb onun alnındakı tükləri yuxarı yığışdırdı. Əlinin alnında, bir qədər yuxarı hissədə üzü qaysaq bağlamış nazik üfüqi xətt formasında yara var idi. Otaqdakılar qalxıb yaraya maraqla baxdılar. Qasımlı istehza ilə dilləndi:

- Bu yaranın Beydullanın həyətindəki məftillə toqquşan zaman yarandığını inkar etməyəcəksiz ki? İnkar etsəniz mən bunun harada və necə yaranması ilə dərindən maraqlanmalı olacam.

Əli xeyli susandan sonra nəhayət danışmaq qəranna gəldi:

- Mənim sizə heç bir sözüm yoxdur. Beydullanı mən öldürmüşəm. Təkcə ona görə yox ki, uduzduğum pullar özümə qalsın, həm də ona görə ki, mən oğurluq üstündə tutulanda məni görüb satan o olmuşdu. Beydullanı mənim öldürməyimi bilən olmayacaqdı. Namaz da gərəksiz bir adamdı, mənim əvəzimə türmədə yatacaqdı. O istər türmədə yatsın, istər də kənddə gəzsin, heç kəsə lazım deyil. Bu sirri siz açdınız. Mən sizin kim olduğunuzu bilmirəm. Ancaq hər kimsinizsə, nə vaxtsa əlimə düşsəniz, sizi Beydullanm gününə salacağam.

Bayaqdan hirsini tökməyə adam axtaran mayor Cəfərli ayağa qalxıb Əlini kapitan Həsənova göstərərək:

- Bu köpək oğlunu apar bas maşına! - deyə bağırdı.

Kapitan Həsənov cəld ayağa qalxıb Əlinin qolundan yapışdı. Onlar qapıdan çıxanda Qasımlı onlan dayandırdı. Üzünü əvvəlcə Əliyə tutaraq:

***

downloaded from KitabYurdu.org

- Əli, birincisi Namaz sənin nəzərində gərəksiz olsa da, arvadı və oğlu üçün gərəklidir.
Özü də günahsızdır. O ki qaldı məni hədələməyinə, sənə məsləhət görürəm ki, Namazın axmaq hərəkətindən nəticə çıxarasan. Sən cəzanı çəkib qurtarandan sonra kimsə məni öldürər və Cəfərli kimilər indiki hədəni yadına salıb o saat səni həbs edərlər.

Sonra Qasımlı mayor Cəfərliyə də öz sözünü dedi:

- Siz isə, Səkinəyə qarşı təhqirlərə yol verməkdə və Namazı qorxudaraq cinayəti boynuna qoymaqda düz iş görməmisiz. Mən bu barədə Bakıda lazımı adamlarla görüşəndə danışacam və yəqin ki, onlar mənim sözümə laqeyd yanaşmayacaqlar.

Mayor Cəfərli hirslə əlini yellədi. Qasımlıdan və direktordan başqa hamı otaqdan çıxdı. Polkovnik bir qədər direktorun kabinetində oturdu. Başında yenə güclü ağrılar başlamışdı. Həmişə cibində gəzdirdiyi dərmanlar isə qurtarmışdı. Məktəb direktorundan xahiş etdi ki, onun üçün baş ağrısı dərmanı tapsın və həyətə çıxdı. Direktor tez dərman tapıb gətirdi. Qasımlım evlərinə qonaq aparmaq üçün nə qədər xahiş etsə də o razılaşmadı:

- Çox sağ olun! Qala bilmərəm. Axşama
kimi Bakıda olmalıyam.

* * *

Səkinə sevincindən az qala uçmaq istəyirdi. Kazım müəllimdən Namazın bəraət qazandığını və əsil qatilin tutulub aparıldığını eşidən bir qadın qaça-qaça gəlib ona xəbər vermişdi. Kazım müəllim demişdi ki, Namazı elə bu axşam buraxacaqlar. Səkinə başını itirib evin qabağında ora-bura gedib-gəlirdi. Bir az kənd məhsullarından pay düzəldib məktəbə - Qasımlınm yanma gedərək ona təşəkkür etmək istədi. Evə qaçıb bir banka mürəbbə və iki təndir çörəyi götürdü. Onlan torbaya qoyub həyətə düşdü. Həyətdə oynayan oğluna:

- Həyətdən çıxma, mən bu saat qayıdıram! - dedi və birdən gözü qarşıdakı təpəyə qalxan yolla sürətlə kənddən uzaqlaşan ağ QAZ-24-ə sataşdı.

Torbanı qucağında tutmuş Səkinənin içində acı bir qəhər baş



downloaded from KitabYurdu.org

qaldırdı və qeyri-ixtiyari olaraq
onun gözləri doldu. Noyabr 2000

***

downloaded from KitabYurdu.org

# ŞƏHVƏTİN CİNAYƏTİ

İyul ayı idi. Bakıda havalar yaman istiləşmişdi. Həyat yoldaşım oğlumuzu da götürüb kəndə - atasıgilə getmişdi. Evdə tək oturub əməkdaşı olduğum qəzet üçün məqalə yazırdım. Bu zaman telefon zəng çaldı. Danışan Hikmətin həyat yoldaşı idi. Ağlaya-ağlaya dedi ki, Hikməti tutdular. Əvvəlcə heç nə dərk edə bilmədim.

- Necə yəni tutdular? Harada? Nə üçün?
- Elə indicə apardılar... Evdən...

Onun sonrakı sözlərindən belə başa düşdüm ki, Hikmət dünən A. rayonunun kəndlərindən birinə əsgərlik yoldaşına qonaq gedib və gecəni də orada qalıbmış. Bu gün isə günorta evə gəlib çıxıb və gələndən iki saat keçməmiş həmin rayonun polis işçiləri gəlib onu aparıblar.

İdman müəllimi işləyən Hikmət kiçik qardaşımdır. Biz cəmi iki qardaşıq. Axır günlər işim çox olduğu üçün onunla görüşə bilmirdim. Axınncı görüşümüzdə mənə demişdi ki, bu günlərdə, məzuniyyətə çıxan kimi Moskvaya gedəcək. Guya orada tanışlan var və bir-iki ay onların köməyilə alver edəcək. Yol pulu hazır idi. Məndən əlavə pul istəmişdi. İstədiyi qədərə imkanım çatmasa da bir az vermişdim. Bu görüş üç gün bundan qabaq olmuşdu. Ondan sonra Hikməti görməmişdim.

Qardaşımın arvadına ürək-dirək verib dəstəyi yerinə qoydum və tələsik hazırlaşıb öz şəxsi Volqamda rayona yola düşdüm.

Rayon polis şöbəsi cinayət axtarış bölməsinin rəisi mayor Yunusov Hikmətin qardaşı və nüfuzlu bir qəzetin müxbiri olduğumu bilib məni qəbul etdi. Tanış olduq. Onun ilk baxışdan məndə yaxşı təəssürat yaratmasına baxmayaraq, söylədiyi soyuq və dəhşətli ittiham mənə hər şeyi unutdurdu:

- Mənim üçün ağır olsa da, deməliyəm ki, qardaşınız adam öldürüb.
- Nə danışırsınız?! - özümdən asılı olmayaraq yerimdən atıldım.
- Əyləşin, əyləşin... - Mayor əli ilə stulu göstərib izahat verməyə başladı:



downloaded from KitabYurdu.org

- Nemət müəllim, sizin qardaşınız dünən gecə kənddə əsgər yoldaşı Ələddin Kazımovun evində qonaq olub. Axşam onlar yeyib-içiblər. Süfrədə spirtli içki də olub. Ələddinlə qardaşınızın mübahisəsi düşüb. Orada olan başqa bir qonaq mübahisəni yatırıb və sonra o çıxıb gedib. Hikmət və ev sakinləri yatmaq üçün yataqlarına giriblər. Gecə qardaşınız durub, mətbəx bıçağı ilə ev sahibini yatdığı yerdəcə öldürüb. Bu gün biz onu Bakıda - öz evində yaxalayanda cibindən təyyarə bileti tapdıq. Bilet bu gün alınıb. Sabah yox, birisi gün Moskvaya uçacaqmış. Doğrudur, qardaşınız etdiyi cinayəti hələlik ki, boynuna almır. Deyir ki, səhər saat yeddiyə işləmiş tək yatdığı qonşu otaqdan durub
dəhlizə keçib, dəhlizdən bayıra açılan qapının cəftəsini öz əli ilə açıb və çıxıb gedib. Heç kəslə sağollaşmaq istəmədən. Ekspertiza göstərir ki, mərhum saat dörd radələrində öldürülüb. Evə kənar şəxs girə bilməzdi. Digər tərəfdən, evdə Ələddin, onun həyat yoldaşı və sizin qardaşınızdan başqa heç kəs olmayıb. Görür- sünüzmü? - mayor Yunusov əllərini geniş şəkildə yanlara açdı. - Bütün faktlar qardaşınızın əleyhinədir.

Otaq başıma fırlandı. Nə deyəcəyimi, nə edəcəyimi bilmirdim. Nəhayət, özümü ələ almağa bütün daxili qüvvəmi sərf edib mayordan xahiş etdim:

- İcazə verin, onunla görüşüm.

O, başını yırğaladı.

- Yox! Bağışlayın, indi mümkün deyil. Hələ istintaq gedir. Xahiş edirəm, gedin! İş günüm qurtarır. Həm də, gedəsi yerim var.

Polis şöbəsindən çıxdım. Haraya gedəcəyimi bilmədən şöbənin qabağında boş boşuna gəzməyə başladım. Heç özümü belə zəif bilməzdim: tez-tez gözlərim dolurdu. Gah qollanna qandal vurulmuş qardaşım, gah da onun arvadı ilə üç yaşlı qızı gözlərim qarşısına gəlirdi. Balaya qayıdanda onlara nəsə deməli idim. Ancaq nə deyəcəkdim? Heç cür inana bilmirdim ki, Hikmət cinayət törətmiş olsun. Doğrudur, o uşaqlıqdan bir qədər ərköyün, dəlisov böyümüşdü. Xoşagəlməz sözə, təhqirə dözən adam deyildi. Axı, eyni zamanda,



downloaded from KitabYurdu.org

ağlı normal inkişaf etmiş, ürəyi yumşaq, səmimi bir adam idi Hikmət. Onun hər hansı bir insanın həyatına son qoymaq üçün əli qalxmazdı. Amma nə bilmək olar? Həyatda o qədər məntiqsiz, ağlasığmaz olaylar baş verir ki... Bir qədər əvvəl şöbədə bölmə rəisinin dediyi qorxunc cümlə bütün fikirlərimi qarışdırır, elə hey beynimdə taqqıldayırdı: « Bütün faktlar qardaşınızın əleyhinədir!», «Bütün faktlar qardaşınızın əleyhinədir!» Faktlar... faktlar... faktlar...

Bəlkə də iki saata yaxın idi ki, səkidə o baş- bu başa gedib-gəlirdim. Havanın qaralmağa başlaması məni ayıltdı. Həm də polis şöbəsinə girməmiş təzə aldığım siqaret qutusu boşalmışdı.

Siqaret almaq lazım idi. Yaxınlıqdakı köşkün önündə dayananda gözüm vitrindəki müxtəlif adlı siqaret qutularının arasındakı "Kent" siqaretinə sataşdı.

Yadıma qapıbir qonşumuz polkovnik Qasımlı düşdü. Qapısının ağzındakı zibil qutusunu tez-tez boş "Kent" qutulan ilə dolu görərdim. Həmişə "Prezident" çəkməyimə baxmayaraq, necə oldusa, "Kent" istədim. Qutunu alan kimi açıb bir siqaret yandırdım. Birdən ağlıma gəldi ki, bəlkə qaraqabaq qonşum mənə bir məsləhət verə bilər. Daha orada qalmaq istəmədim. Maşına minib sürətlə Bakıya yola düşdüm.

Qonşum bir ilə yaxın idi ki, bizimlə üzbəüz mənzilə köçmüşdü. Bina sakinlərindən heç kəslə əlaqə saxlamadığı üçün onun haqqında çox az şey bilirdik. Yaşı qırx, qırx iki olardı. Normal boylu, anq, demək olar ki, yaraşıqlı bir kişi idi. Nüfuzedici gözləri, bir qədər sərt sifəti var idi.

Üzü həmişə tərtəmiz qırxılmış, üst-başı səliqəli olardı. Ən isti günləri çıxmaqla, əksər vaxt əynində qara plaş, başında qara şlyapa olurdu. Həyətdə və ya pilləkəndə bina sakinləri ilə qarşılaşanda başını yelləyər və ya sadəcə "Salam!" deyib keçərdi. Uşaqların üzünə baxanda gülümsəyər, amma dayanıb heç kəsi söhbətə tutmazdı.

Onu həmişə mülki geyimdə görsək də, polis polkovniki olduğunu eşitmişdik. Bəziləri deyirdi ki, polis sistemindən çıxıb, elmi işlə məşğuldur, bəziləri isə deyirdi ki, yox, nazirlikdə işləyir.

Tək yaşamağını da müxtəlif cür əsaslandırırdılar. Ailəsinin faciəli



downloaded from KitabYurdu.org

surətdə həlak olduğunu deyənlər də vardı, indiyəcən evlənmədiyini deyənlər də. Hər halda onun polkovnik Qanbay Qasımlı olduğunu dəqiq bilirdik ki, bunu da ona məktub gətirmiş poçtalyondan öyrənmişdik.

Bakıya gecədən keçmiş çatdım. Öz mənzilimə girməmiş qonşumu görməyə tələsdim və mənzilin zəngini çaldım. Qapı tez açıldı.
Qasımlı zərrə qədər də təəccüblənmədən (bəlkə də bu mənə belə gəldi) məni içəri dəvət etdi:

- Buyurun, Nemət müəllim!

Mən içəri keçdim. Qasımlının məni dəvət etdiyi otaq sadə və səliqəli görkəmə malik idi. İki kreslo, sadə divan, çay stolu, kitablarla dolu kitab şkafı və yazı stolundan başqa otaqda demək olar ki, heç nə yox idi. Yazı stolunun üstü kağız- kuğuzla dolu idi. Qasımlı mənə divanda yer göstərib o saat da fincana qəhvə süzdü.

- Mənim kasıb mənzilimə xoş gəlmisiniz. O saat görünür ki, pis hadisə üz verib. Ailənizə kənddə bir şey olmayıb ki, ya bəlkə qardaşınıza?

Çay stolunun arxasında oturub gözünü mənə zillədi və mən gəlməmişdən süzdüyü qəhvəsini qurtum-qurtum içməyə başladı. Mən özümü bacardığım qədər tox tuturdum. Rayondan Bakıya gələnə kimi həyəcanım ötüb keçmişdi. Ona görə də onun nəsə hiss etməsi, indiyəcən yaxından tanış olmadığımıza baxmayaraq, ailəm və qardaşım haqqında məlumatlı olması məni heyrətə saldı:

- Nədən bildiniz, qonşu?

Gülümsündü:

- Siz bu gün günortadan sonra tələsik evdən çıxıb maşınla hara isə getmisiz. Gecə vaxtı qayıdıb öz mənzilinizə girməmiş (pilləkənlə çıxanda ayaq səsləriniz burada eşidilirdi) qonşunuzun-hələ indiyəcən mənzilində olmadığınız və axtarış polisi olmuş qonşunuzun zəngini çalırsınızsa, bu nə deməkdir? - birdən dayanıb fincanı stolun üstünə qoydu və bir siqaret alışdırdı. - Siz Allah sözlərimdən inciməyin. Bir daha xoş gəlmisiniz. Sizi eşidirəm.

Mən təşəkkür edərək cibimdən rayonda aldığım siqaret qutusunu



downloaded from KitabYurdu.org

çıxarıb bir siqaret yandırdım. Qonşum kreslosunda yayxanaraq başı ilə siqaretimə işarə etdi:

- Bax görürsünüzmü? Siz həmişə “Prezident” çəkirdiniz, indi isə “Kent’ə keçmisiz.

Güldüm. Ümumiyyətlə, qonşum xoşuma gəlmişdi.

- Bəli, bu gün mənim üçün çox dolaşıq gün olmuşdur. Sizin yanınıza da məsləhət almağa gəlmişəm.

- Buyurun, əzizim!

Mən qardaşım arvadının telefon zəngini, rayona getməyimi və mayor Yunusovla söhbətimi yerli-yataqlı ona danışdım. Qanbay Qasımlı məni çox diqqətlə dinləyirdi. Axırda belə bir sual verdi:

- Qardaşınızı sonuncu dəfə nə vaxt görmüsüz?

Mən Hikmətlə sonuncu görüşümüz haqqında məlumat verdim.

- Bəlkə əsgər yoldaşının yanma da pul üçün gedib?

- Ola bilər... - dedim.

- Yaxşı, Nemət müəllim, səhər sizin maşınınızla rayona gedərik. Hər şey orada aydın olar. Başağrılarım axır vaxtlar çoxalıb. Həm də bir az havamı dəyişərəm.

Mənim qalxdığımı görüb o da durdu.

- İndi isə sizə bir məsləhət verim. Axı siz mənim yanıma məsləhətə gəlmisiniz. Məsləhət almamış getməyiniz yaxşı düşməz. - Gülümsəyib əlini çiynimə qoydu. - Sabah məsələ dəqiq aydınlaşana kimi bu haqda fikirləşməyin. Guya heç nə olmamış kimi rahat yatın. Bir də ki, lap fikirləşsəniz də bir iş görə bilməyəcəksiniz. Beyninizdən hər şeyi silin və gedib yatın!

Qonşuma «Gecəniz xeyrə qalsın!» - deyib mənzilimə keçdim. Əvvəlcə Hikmətin evinə zəng edib arvadını işdən agah etdim və bildirdim ki, sabah yenə rayona gedəcəyəm. Sonra soyunub yatağıma uzandım. Lakin nə qədər çalışsam da yazıq Hikməti yadımdan çıxara bilmədim və çox gec yuxuya getdim.

* * *



downloaded from KitabYurdu.org

Elə ona görə də səhər polkovnik Qasımlı arxa qapını açıb maşına əyləşən kimi məni məzəmmət etdi:

- Axşamkı məsləhətimə əməl etməmisiniz, əzizim! Hiss olunur ki, o qədər də iradəli adam deyilsiniz. Getdik!

Maşını işə saldım və biz rayona yola düşdük. Rayon polis şöbəsinin birinci mərtəbəsində növbətçi polis bizdən nə istədiyimizi soruşdu. Qasımlı dedi:

- Yunusova deyin ki, Bakıdan Qanbay müəllim gəlib.

Növbətçi daxili telefonla Yunusova xəbər verən kimi bölmə rəisi pilləkənlərlə cəld aşağı düşüb bizi qarşıladı və ikinci mərtəbədə yerləşən kabinetinə apardı. Mən sonralar bildim ki, polkovnik Qasımlmm Yunusova hansı bir işdəsə böyük köməyi dəyib.

Kabinetdə onlar bir-birləri ilə qısaca hal- əhval tutandan sonra Qasımlının xahişi ilə mayor Yunusov əhvalatı qısaca danışdı:

- Bizə hadisə baş verən gün, yəni dünən səhər saat 9-da məlumat verdilər. O saat mənim başçılığımla əməliyyat qrupu yaradıldı. Mən, həkim, müstəntiq və həmin kəndin sahə müvəkkili özümüzü hadisə yerinə çatdırdıq. Öldürülənin - Ələddinin 30 yaşı var. Rəsmi iş yeri yoxdur. Öz həyətində təsərrüfatla məşğul olur. Arvadı ilə tək yaşayır. Uşaqları olmur. Hadisədən əvvəlki gün günorta Bakıdan əsgər yoldaşı Hikmət bunlara qonaq gəlir. Bir azdan öz həmkəndliləri Elmar adında şəxs də bunlara gəlib çıxır və yaxşı bir süfrə açıb yeyib-içirlər. Mərhumun arvadı Nilufərin dediyinə görə Ələddin və Hikmət spirtli içkini daha çox qəbul edirlər, Elmar isə lap az içir. Hikmət Ələddindən bir az pul istəyir və deyir ki, Moskvaya gedəcəyəm, qayıdan kimi borcu qaytararam. Ələddin and içir ki, pulu yoxdur. Hikmət bundan inciyir və mübahisə edirlər. Gecə təxminən saat 12-də Elmar durub evlərinə gedir. Hikmətin yatağını qonşu otaqda açırlar. Ələddin ilə arvadı həmişəki kimi, həmin qonaqlıq süfrəsi açılmış otaqda yatırlar. Ümumiyyətlə, birmərtəbəli olan bu evdə iki yanaşı kiçik otaq və onlann qarşısında hər iki otağın qapısı açılan dəhliz var. Dəhlizdən çölə açılan qapı içəri tərəfdən etibarlı cəftə ilə bağlanır. Onu bayırdan açmaq heç cür mümkün deyil. Mərhumun arvadı



downloaded from KitabYurdu.org

izahatında göstərir ki, çölə açılan qapını yatmazdan qabaq özü bağlayıb. O, həm də göstərir ki, səhər saat yeddidə ayılanda ərini ölmüş görüb. Bərk yatan olduğu üçün gecə heç nə eşitməyib. Onunla ərinin çarpayısı hərəsi otağın bir tərəfində, qarşı divarlara bitişik olub. Ələddin boğazından bir az aşağı, sinəsindən vurulan çox güclü bıçaq zərbəsindən ölüb. Bıçaq sinədən keçərək onurğanı da parçalayıb və ucu kürəkdən bayıra çıxıb. Zərbənin mətbəx bıçağı ilə bu qədər güclü olması bizi indi də bir qədər təəccübləndirir. Bu zərbədən Ələddin o saat ölüb. Sinəsindəki əsas yaradan dörd santimetr aşağı yenə kiçik bir yara aşkar etdik. Bu da həmin bıçaqla əmələ gəlib. Cəmi bir santimetr kəsik var. Bunu belə əsaslandırdıq ki, qatil bıçağı yaradan çıxarandan sonra hirslə onu mərhumun sinəsinə tullayıb. Bıçağın ucu əti deşib və aşaraq yerə düşüb. Bıçaq döşəmədə tapılmışdı. Cinayət saat dörd radələrində olub. - Yunusov bir qədər ara verib yenə sözünə davam etdi. Bu müddətdə Qasımlı sakitcə onu dinləyirdi. - Nilufər ərinin öldüyünü görəndə haray salıb. Dəhlizə çıxanda görüb ki, qapı elə-belə örtülüb, yəni cəftəsi vurulmayıb. Qonşu otağın qapısını açıb və görüb ki, Hikmət yoxdur.

Biz oraya çatanda bəzi adamları dindirdik. Ələddinin bloknotundan Hikmətin ünvanını öyrəndik və onu Bakıda - öz evində tutduq. Həmin gün rayondan gedən kimi Moskvaya bilet almışdı. Yəqin aradan çıxmaq istəyib. Bu qədər... Yunusov ayağa qalxıb şkafdan uzun bir bıçaq götürdü və Qasımlınm qarşısına qoydu:

- Nilufər təsdiq edir ki, bu bıçaq onlarındır. Dəhlizdəki stolun üstündən götürülüb.

Bu köhnə bir mətbəx bıçağı idi. Tiyəsinin uzunluğu iyirmi beş-otuz santimetr olardı, dəstəyi cızıqlarla dolu və kirli idi.

Polkovnik Qasımlı soruşdu:

- Əl izi götürmüsünüz?

- Yox. - Yunusov cavab verdi. - Cani heç bir əl izi qoymayıb.

Qasımlı bıçağı diqqətlə gözdən keçirdi. Sonra cibindən zərrəbin çıxarıb bıçağın dəstəyini xeyli müşahidə etdi. Mayor Yunusov gülə-gülə bir siqaret yandırıb dedi:



downloaded from KitabYurdu.org

- Deyəsən əl izi axtarırsınız?

- Yox! -Qasımlı bıçağı ona qaytardı. - Meyiti sahiblərinə vermisiz?

- Bəli, dünən axşam. - Mayor saatına baxdı. - Saat ikidir. İndiyəcən dəfn edərlər.

- Elmardan izahat almısız?

Almışıq. Elmar Manafov Ələddingildən çıxıb gedənə kimi nə olubsa izahatında göstərib. Onun izahatı Niluferinki ilə düz gəlir. Bir kiçik məqamdan başqa: Elmar göstərir ki, Hikmətlə Ələddinin mübahisəsi ciddiləşirmiş. Mübahisəni o yatınb. Münasibətlər soyuduğu üçün də bir az tez durub gedib. Nilufər isə bildirir ki, inciklik olub, amma o ciddi mübahisə eşitməyib. Nilufər həmişə onlann yanında olmayıb, bir neçə dəfə dəhlizə çıxıbmış. Qaz peçi dəhlizdədir. Xörəyi və çayı dəhlizdə hazırlayırmış.

Qasımlı izahatlan mayordan aldı və sürətlə gözdən keçirdi. Sonra qovluğu bölmə rəisinə tərəf itələdi. Mayor Yunusov qovluğu stolun siyirməsinə qoyub dedi:

- Bilirsiniz, Qanbay müəllim, mən də, müstəntiq də bu məsələdə hərtərəfli baş sındırmışıq. Bizim prokurorluğun müstəntiqi də çox zirək oğlandır. Biz burada elə bir şübhəli şey görmürük. Qapı bağlı olub. Pəncərələr də. Evə heç yandan girmək mümkün deyil. Evdə Ələddindən başqa iki nəfər olub. Hikmət və mərhumun arvadı. Bıçaq ki elə zərbə ilə vurulub, Nilufər yox, heç adi kişilər də küt mətbəx bıçağı ilə elə dəhşətli zərbə vura bilməzlər. Hikmət isə idmançıdır. Ağırlıq qaldırmaqla məşğul olur.
Bütün faktlar da onun əleyhinədir. Bu gün də olmasa, sabah hökmən etdiyi cinayəti boynuna alacaq.

Polkovnik Qasımlı ani olaraq mənə baxıb cibindən siqaret çıxartdı. Yandırıb dərin bir qullab vurdu və bir qədər fikrə getdi. Mən quruyub yerimdə qalmışdım. Nə edəcəyimi bilmirdim. Polkovnikə zəhmət verib bura gətirdiyim üçün mənəvi əzab çəkirdim. Yaranmış sükutu Qasımlı pozdu:

- Mümkündürsə, Hikməti gətizdirin. Onunla tanış olmaq istəyirəm.

Gödək boylu, bədəni sanki qranitdən yonulmuş bölmə rəisi cəld



downloaded from KitabYurdu.org

telefonun dəstəyini götürüb Hikməti gətirməyi əmr etdi. Bir dəqiqə keçməmiş Hikmət bir polis işçisi ilə içəri daxil oldu. Hikməti görəndə əvvəlcə ayağa qalxmaq istədim. Lakin özümü ələ alıb onunla başımı tərpətməklə salamlaşdım. Hikmət məni görüb qəhərləndi. Keçib Yunusovun göstərdiyi stulda Qasımlı ilə üzbəüz oturdu. Polis işçisi Yunusovun işarəsilə çıxdı. Qasımlı Hikmətin sifətini, enli sinəsini, əzələli qollarını və dizinin üstünə qoyduğu əllərini cəld və diqqətlə gözdən keçirib soruşdu:

- Həmin gecə Ələddinlə mübahisəniz nə üstündə düşdü?

Biz mübahisə etməmişik. - Hikmət cavab verdi. Səsi dəyişilmişdi. Üzünü tük basmış, elə bil bir gecədə qocalmışdı. - Ondan pul istəyəndə vermədi, mən də incidim. Dedim ki, sən yaxşı yoldaş olsaydın mənə yox deməzdin. O da bu sözümdən bir az dilxor oldu. Amma heç nə demədi. Beş-on dəqiqə sonra kəndçiləri durdu ki, mən gedirəm...

- Elman kim ötürdü? - Qasımlı Hikmətin sözünü kəsdi.

- Heç kim. Eləcə dedi ki, mən gedirəm və sağollaşıb çıxıb getdi. Elmar onlara məhrəm adamdır. Gündə gəlib-gedəndir.

- Elmar gedəndə Nilufər otaqda idi, ya dəhlizdə?

- Otaqda. Çarpayıda oturub söhbətimizə qulaq asırdı.

- Yaxşı, davam edin! - Qasımlı qollarını sinəsində çarpazlaşdırıb diqqətini topladı.

- Hə... Mən də dedim ki, yatmaq istəyirəm. Soruşdum ki, sabah rayon mərkəzinə necə tez getmək olar? Ələddin dedi ki, gərək səhər saat altının yarısında duraq. Sərnişin daşıyan maşınlar yeddinin yarısında kənddən çıxırlar. Sən də səhər yeməyini yeyib sonra çıxarsan.

- Bəs nəyə görə səhər Ələddini oyatmaq istəmədiniz?

- Doğrusu, ondan incimişdim. Qərara gəlmişdim ki, onunla əlaqəni kəsim. Bir də mən ayılandan sonra gözlədim ki, o məni vaxtında səsləyəcək. Havanın işıqlandığını görəndə isə yerimdən qalxdım və dəhlizdə gördüm ki, saat yeddiyə iyirmi dəqiqə işləyib. Fikirləşdim ki, maşınlara gecikməyim və evdən çıxdım.

...

downloaded from KitabYurdu.org

- İzahatınızda yazmısız ki, taqqıltı səsinə ayılmısız.

- Mən onsuz da yad yerdə narahat yatıram. Bir çıqqıltı olsa oyanıram. Mənə elə gəldi ki, taqqıltı səsinə ayıldım. Nəsə elə bil ki, necə deyim... - Hikmət bir az fikrə getdi. - Elə bil ki, dəmir dəmirə dəydi. Yox... Elə deyildi. Amma bərk taqqıltı idi. Bəlkə də onda yarıoyaq olmuşam. Onda hələ hava işıqlanmamışdı. Sonra gözüm yuxuya gedib, ya yox? Onu da deyə bilmərəm.

Polkovnik Qasımlı ayağa qalxıb başı ilə mənə də qalxmağı işarə etdi və Yunusova dedi:

- Mayor, sizdən xahiş edirəm, mənimlə həmin kəndə gedək. Yəqin ki, sizi işdən ayırıram. Amma mənim xətrimə dözün. Biz Nemət müəllimlə sizi aşağıda gözləyirik.

Yunusov çiyinlərini çəkdi:

- Nə deyirəm ki, gedək. Özümüzlə kimi götürək?

- Heç kimi! Maşın da lazım deyil. Bizim maşınla gedərik.

Mən Hikmətə baxıb başımla sağollaşdım və biz otaqdan çıxıb aşağı düşdük. Maşının yanında mayoru gözləməyə başladıq. Qanbay Qasımlı maşına söykənib qollarını sinəsinə çarpazladı və fikirli-fikirli dilləndi:

- Qardaşından xoşum gəldi. Yaxşı oğlana oxşayır... - bir qədər susub əlavə etdi: - Amma bundan başqa onun xeyrinə bir söz deyə bilmərəm.

* * *

Yunusov gəldi. Onun təklifi ilə əvvəlcə yeməkxanaların birində tələsik nahar etdik. Sonra maşına minib cinayət törədilən kəndə yola düşdük. Maşın mənzərəli meşə yollanndan keçib gedirdi. Başqa vaxt bu mənzərələr məndə çox xoş əhval yarada bilərdi. İndi isə təbiət mənzərələrindən ləzzət alan halda deyildim. Kənddə baş vermiş dəhşətli cinayət, doğma qardaşımın köməksiz vəziyyətdə qalması bütün fikirlərimi alt-üst etmişdi.

Mən Hikmətə demək olar ki, özüm qədər inanırdım. Lakin əgər bu cinayəti Hikmət etməyibsə, onda bu nə deməkdir? Məhkəmə həkiminin dediyindən hadisə gecə saat 4-də olub. Hikmət isə deyir ki,



downloaded from KitabYurdu.org

səhər yeddiyə iyirmi dəqiqə işləmiş evdən çıxmışam. Qapı-pəncərələr də içəridən bağlı olub. Yəni doğrudanmı Hikmət yalan danışır? Bu ola bilərmi? Niyə də olmasın, suda batan saman çöpündən yapışar - deyərlər.

Zərbənin küt mətbəx bıçağının vasitəsi ilə bu dərəcədə qüvvətli olması onun vəhşi ehtirasla vurulmasına dəlalət edirdi ki, bu da məni dəhşətə gətirirdi. Bıçaq sümüyü parçalayıb Ələddinin kürəyindən çıxıbmış. Bəs gecə yarı Hikmətin eşitdiyi taqqıltı səsi nə imiş? Qaranlıq fikirlər məni rahat buraxmırdı. Heç bir qəti qərara gələ bilmirdim. Yeganə ümidim yenə də xəfiyyə qonşumun qeyri-adi bacarığına qalmışdı. Belə müəmmalı məsələdən ancaq o baş çıxara bilərdi.

Ələddinin evinin qabağında maşından düşəndə həyətdə bir neçə kişinin dayanıb söhbət etdiyini gördük. Evin qabağında yasxana qurulmuşdu. Məlum oldu ki, dəfn mərasimi qurtarıb və camaat evlərinə dağılışıb. Həyətdəkilərlə ağızucu salamlaşdıq. «Allah rəhmət eləsin» - dedik. Yunusov kişilərin ikisi ilə bizi tanış etdi:

- Bu kişi Ələddinin dayısıdır, - sonra orta boylu kürən kişini göstərib dedi: - Bu da Elmar Manafovdur.

Amma bizim kimliyimiz barədə onlara heç nə demədi. Evdən həzin ağlaşma səsi gəlirdi. Pilləkəndə düzülən ayaqqabılar evdə on-on beş nəfər qadının olduğunu göstərirdi. Qasımlı mayor Yunusovdan xahiş etdi ki, evdə Nilufərdən başqa heç kim qalmasın, hamı həyətə çıxsın. Yunusovun tapşırığından sonra Ələddinin dayısı evə girib qadınları həyətə çıxartdı. Biz evə girdik. Ələddinin dayısı və Elmar da bizimlə idi.

Qanbay Qasımlı otaqlan bir-bir gəzdi. Pəncərələri, qapını diqqətlə yoxladı. Çarpayıların yerinin hadisədən sonra dəyişdirilmədiyini soruşub öyrəndi. Ələddinin yatdığı çarpayının baş tərəfinin üstündə, tavanda tüstü borusu çıxmaq üçün diametri təxminən on beş santimetr olan dairəvi deşik var idi. Tavana başdan-başa taxta faner vurulmuş, həmin fanerlərin birindən kəsilib açılmış bu dairənin kənarına isə borunun istiliyindən alışmamaq üçün nazik dəmir təbəqə vurulmuşdu.

...

downloaded from KitabYurdu.org

Deşiyə yuxarıdan iri cındır parçası tıxanmışdı. Qasımlı deşiyi Nilufərə göstərib soruşdu:

- Sobanı nə vaxt çıxarmısınız?

- Aprel ayının axırlarında. Hər il yaz girəndə çıxarırıq. Yenə payızda gətirib qururuq, - ağlamaqdan gözləri qızanb şişmiş, başdan ayağa qara geyinmiş Nilufər cavab verdi. Ona gözəl demək olardı. İri, ala gözləri, yaraşıqlı dodaqları, mütənasib bədəni var idi. Əllərini qoynuna
qoymuşdu. Danışığına ara verəndə başını aşağı dikib dərdli-dərdli yırğalayırdı.

Qasımlı diqqətlə onu süzüb xəbər aldı:

- Bəs mərhum əvvəl harada yatırdı?

- Burada. - Nilufər öz çarpayısının yanını göstərdi.

- Qatilin istifadə etdiyi bıçağı haraya qoyurdunuz?

Nilufər dəhlizə çıxıb qaz peçinin yanma qoyulmuş stolu göstərdi.

- Bu stolun üstündə olurdu.

Stolun üstündə kiçik mətbəx şkafı
qoyulmuşdu. Şkafın içi, üstü, stolun üstü qab- qacaqla dolu idi.

- O bıçağı axırıncı dəfə nə vaxt görmüsünüz?

- O gün günorta işlətmişdim, sonra lazım olmayıb.

- Axşam yerində idimi?

- Fikir verməmişdim.

Biz yenə əsas otağa qayıtdıq. Qasımlı sorğu- sualı davam etdirdi:

- Evinizə kimlər tez-tez gəlirlər?

- Bizim evə demək olar ki, heç kəs gedib- gəlmir. Rəhmətlik bir az adamayovuşmaz idi.

- Son bir-iki ayda sizə kənardan qonaq gəlib gecələyən olub?

- İyunun əvvəllərində həmin bu Hikmət gəlmişdi. Amma gecə qalmadı. Dedi ki, Bakıda
vacib işim var. Rəhmətlik maşın tapıb onu yola saldı.

Qasımlı üzünü Elmara tutdu:

- Siz o vaxt onu görmüşdünüz?

- Bəli. Gündüz o gələndə mən burada idim. Amma çox

...

downloaded from KitabYurdu.org

dayanmadım. Evimizə getdim. Axşama yaxın rəhmətlik Ələddin Hikməti bizim evin yanma qədər ötürdü. Bizim ev kəndin girəcəyindədir. Onda bildim ki, Hikmət çıxıb getdi.

Polkovnik əlini arxasına qoyub otaqda o baş- bu başa getdi. Birdən çevrilib Nilufərin üzünə baxdı:

- Gecələr bu otaqda işıq yanırmı?

- Bəli, yanır. - Nilufər cavab verdi və pəncərənin pərdəsini çəkib gecə lampasını göstərdi. - Axşam yatanda bunu stolun üstünə qoyuruq.

Qasımlı həyətə çıxdı. Biz də onun ardınca getdik. Nilufər isə evdə qaldı. Qasımlı evin ətrafına hərləndi. Evin pəncərələrinə, damma göz gəzdirdi. Evin damı sadə formaya malik idi. Qarşı-qarşıya olan iki uzun tərəfə şifer döşənmişdi. Bu tərəflər maili formada idi. O biri qarşı tərəflər üçbucaq formasında idilər və onlara şaquli taxtalar vurulmuşdu. Bu tərəflərin birində talvara açılan kiçik qapı var idi. Qasımlı həyətdə iri ağaca söykənmiş nərdivanı Elmara göstərib onu gətirməyi xahiş etdi. Elmar nərdivanı gətirib evə söykədi. Qasımlı nərdivanla çıxıb talvarın qapısına keçirilən sadə cəftəni qaldırdı və qapını açıb nərdivanın üstündə duraraq talvarı gözdən keçirdi. Sonra üzünü bizə çevirərək cib fənəri istədi. Elmar tez evə girərək əlində cib fənəri geri qayıtdı. Qasımlı fənəri alıb talvara girdi. Biz həyətdə dayanmışdıq. Bölmə rəisi bir kənarda Ələddinin dayısı ilə söhbət edirdi. Ələddinin dayısı ucaboy, enlikürək, sağlam bir kişi idi. Qalın bığları var idi. Üzünü tük basmışdı. Sonra bildim ki, Ələddinin atası olmadığı üçün yas mərasiminə o ağsaqqallıq edirmiş.

Bir azdan Qasımlı nərdivanla aşağı düşdü. Fənəri Elmara verib su istədi. Elmar yenə evə girib bir qrafində su gətirdi. Qasımlı əllərini yudu. Cib dəsmalı ilə əllərini quruladı və Elmardan soruşdu:

- Siz Ələddinin nəyisiniz?

- Mən? Heç nəyi... Kəndçisiyəm də... Həm də dostu idim rəhmətliyin.

- Nə işləyirsiniz?

- Traktorçuyam.

...

downloaded from KitabYurdu.org

- Hə, lap yaxşı, traktorçular qonaqpərvər olarlar. - Qasımlı gülümsədi. - Gedək, bizə bir az çaydan-çörəkdən ver. Burada oturmaq yaxşı düşməz.

- Baş üstə! - Elmar sevincək dilləndi. - Yığışın gedək!

Ələddinin dayısı yasxanaya keçib çay içməyi təklif etsə də razılaşmadıq. Başsağlığı verib həyətdən çıxdıq. Maşına minib Elmarın bələdçiliyi ilə onun kəndin girəcəyində olan evinə yollandıq. Maşından düşən kimi Elmar bizi həyətə dəvət etdi və ucadan arvadını səslədi:

- Ay qız, Zibeydə! Tez ol çay hazırla!

Cavab gəlmədi.

- Zibeydə!

- Eşitdim! - evdən səs gəldi. Səsdəki narazılıq aşkar hiss olunurdu. Şəxsən mən bura gəlməyimizə peşman oldum. Həm də axı kəndə gəlməmiş nahar etmişdik. Qasımlmm isə elə bil heç nə vecinə deyildi. Yunusovla həyəti gəzir, hər yerə baş soxur, ucadan kənd həyatından, bağdan- bostandan danışırdı.

Mən imkan tapıb hadisə haqqında Qasımlımn fikrini soruşa bilmirdim. Narahat halda evin qabağında, Elmarın yanında dayanmışdım. Elmar kök bir toyuğu kəsmək üçün əlində tutmuşdu. Arvadının bıçağı gətirməyini gözləyirdi. Dörd-beş yaşlı oğlu da yanımızda dayanmışdı. Ayağını yerə vurub hey zarıyırdı:

- Ata, kəsmə də, niyə kəsirsən? Yazıqdı axı...

- Az danış! - Elmar ona acıqlandı. - Görmürsən əmilər üçün kəsirəm? Yaxşı əmilər bizə qonaq gəliblər axı!

- Kəsmə, nə olar ! - uşaq yenə zarıdı.

Bu zaman Qasımlımn amiranə səsi eşidildi:

- Kəsmə! Lazım deyil!

Onlar bizə tərəf gəlirdilər. Qasımlınm əlində iki metr uzunluğunda bir dəmir ling var idi. O, bizə çatanda lingi Elmara göstərib soruşdu:

- Elmar, bu nədir?

- Heç... Elə-belə dəmirdir. Nə bilim haradan gətirib atmışam həyətə.



downloaded from KitabYurdu.org

Lingin bir ucuna bilək yoğunluğunda, uzunluğu bir qarışdan bir qədər az, döyülüb bir az yastılanmış boru qaynaq edilmişdi. Onun bir böyründə yivli deşik açılıb bolt bağlanmışdı. Boltun başında əllə rahat burulmaq üçün ikiçıxıntılı başlıq var idi.

Qasımlı lingin bir ucunu yerə dirəyib ona söykəndi və istehza ilə dedi:

- Əzizim, mənimlə zarafat etməyi məsləhət görmürəm. De görüm Ələddini nə üçün öldürmüsən?

Mən də, Yunusov da təəccübdən quruyub gah Qasımlıya, gah da Elmara baxdıq. Elmarın rəngi ağappaq ağarmışdı. Birdən toyuq əlindən çıxıb həyətin aşağısına tərəf götürüldü. Uşaq onun dalınca qaçıb qışqırmağa başladı:

- Ay can! Qaçdı! Qaçdı!

Qəflətən Elmar çevrilib qaçmaq istədi. Ancaq iki addım atmamış, Yunusov onun çiynindən yapışdı. Özünə tərəf çevirib çənəsinə yumruqla necə vurdusa, Elmar yerə sərələndi. Mayor onun üst-başını axtarıb sonra ayağa qaldırdı. Birdən mən yana çevrilərdə gördüm ki, Elmarın arvadı əlində bıçaq, dayanıb matdım- matdım bizə baxır. Həyətin aşağısından isə uşağın qışqırtısı gəlirdi. Toyuğu ora-bura qovurdu.

- Qaç! Səni tutacaqlar, qaç!

Qasımlı cəld həyətdən çıxıb əlindəki dəmiri maşına qoydu. «Getdik!» - deyib qabaqda əyləşdi. Yunusov Elman gətirib arxada otuzdurdu və özü də onun yanında əyləşib qapını çırpdı. Matoru işə salıb yola düşəndə, maşının açıq pəncərəsindən gözüm Elmann arvadına sataşdı. Arıq, qarabuğdayı, əynində köhnə-kürüş paltar olan Zibeydə darvazanın ağzında lal- dinməz durub arxamızca baxırdı.

...

downloaded from KitabYurdu.org

... Yavaş-yavaş qaranlıq düşürdü. Maşını böyük sürətlə Bakıya doğru sürürdüm. Yanımda oturan Hikmət danışmasa da yenicə azadlığa çıxmış insanın nə hisslər keçirə biləcəyini bilirdim. Qasımlı onun günahsız olduğunu sübuta yetirmişdi. Söz yox ki, hələ istintaq davam edəcəkdi. Lakin artıq cinayətkarın kim olduğu məlum idi. Kənddən rayon mərkəzinə gələnə kimi Elmarla heç nə danışmasaq da, əslində o, etdiyi cinayəti boynuna almışdı. Bununla belə, mənə çox şey qaranlıq görünürdü. Beynimdə suallar bir-birini əvəz edirdi ki, bu sualların da cavabı maşının arxa oturacağında oturub mürgüləyən Qanbay Qasımlıda idi.

Elman maşından düşürüb polis şöbəsinə aparanda mən maşından düşməmişdim. Yalnız maşında yarım saat gözləyəndən sonra Qasımlı şöbədən Hikmətlə birlikdə çıxıb yanıma gəlmişdi. O qədər sevinmişdim ki, bunu sözlə ifadə etmək mümkün deyildi. Hər şey yadımdan çıxmışdı. Ancaq indi, maşınımız rayonu tamamilə arxada qoyub Bakıya doğru şütüyəndə beynimdəki qaranlıq suallara cavab almaq məqsədilə polkovnikə müraciət etdim:

- Cənab Qasımlı, yəqin ki, sizə hadisənin bütün gedişi məlumdur. Xahiş edirəm, bu məsələni bizə də aydınlaşdırın.

Qanbay Qasımlı mənim marağımdan keçə bilməyərək, təmkinlə danışmağa başladı:

- Hələ siz Bakıda mənə ilk məlumatları verəndə məndə Hikmətin xeyrinə bəzi fikirlər yaranmışdı. Onun Moskvaya, özü də iki gün sonraya bilet almasını Yunusov Hikmətin əleyhinə olan fakt kimi qəbul edirdi. Ancaq mən xeyrinə olan fakt kimi qəbul etdim. Hikmət axmaq deyil və cinayəti o törətsəydi, bilməli idi ki, birinci növbədə ondan şübhələnəcəklər. Belə olanda heç Moskvaya uçmaq da mümkün olmayacaq. Nə isə... Polis idarəsində Hikmətlə söhbət edəndən və diqqətlə gözlərinə baxandan sonra mən inandım ki, o, cinayətkar deyil.

Onda bəzi başqa şeylər məni düşündürürdü. Hələ Hikmətlə söhbət etməmişdən beynimdə digər variantları da araşdırırdım. Məsələn: Yunusov və digər əməliyyat qrupu üzvləri əsas ona istinad edirlərmiş

downloaded from KitabYurdu.org

ki, qapı bağlı olub, deməli, Ələddini ya Hikmət, ya da Nilufər öldürməlidir. Zərbə çox güclü olduğu üçün Nilufər kənara çıxır, qalır Hikmət! Hansı ki, onlar üçüncü bir variantı nəzərdən qaçırırdılar. Nilufər gecə qapını açıb kimisə içəri buraxa bilərdi və həmin adam Ələddini öldürüb gedəndən sonra qapını içəridən bağlayardı. Mən bu variantı da özlüyümdə diqqət mərkəzində saxlayırdım. Lakin bıçağa diqqətlə baxanda, məndə yeni və qəribə fikirlər oyandı. Bıçağın dəstəyi aralarına yağlı kir hopmuş çapıq və zədələrlə dolu idi. Ancaq mən dəstəyin yastı üzlərinin birinin ortasında yeni, dairəvi bir cızıq gördüm və zərrəbinlə baxıb yəqin etdim ki, bu bolt ucunun izidir. Bu iz lap cüzi olaraq aşağı istiqamətdə, bıçağın tiyəsinə doğru yerini də- yişmişdi. Adi mətbəx bıçağı ilə vurulan zərbənin son dərəcə güclü olması məni də düşündürürdü. Həm də o kiçik yara yeri. Bıçaqla o cür axmaq zərbə vurmazlar. Yaxından tullanmaqla da küt bıçaq bir santimetr ətə girməzdi. Dumanlı şəkildə ağlıma gəldi ki, bıçaq yuxandan düşəndə də belə hal ola bilər. Mən bir məsələ haqqında fikirləşəndə, istər lazımlı, istərsə də lazımsız, bütün mümkün hallan beynimdən keçirirəm. Amma kəndə gedənə qədər, doğrudan da, bəzi suallar mənim üçün qaranlıq qalmışdı. Məsələn: cani niyə görə bıçağı yaradan çıxarmışdı? İkinci zərbəni vurmaq istəmişdisə, niyə vurmamışdı?

Bıçağı özü ilə aparmaq istəmişdisə, niyə aparmamışdı? Belə suallar bəlkə də sizə yersiz görünə bilər. Amma hər halda bunlar sualdır və hər bir suala məntiqi cavab tapmaq lazımdır.

Evdə soba borusu üçün açılmış deşiyi görəndə hər şey mənə aydın oldu. Cani talvara çıxıb, talvarda deşiyə taxılmış parçanı götürüb, gördüyün həmin lingdəki yastı boruya bıçağın dəstəyini keçirərək boltla sıxmış, lingi deşikdən aşağı sallayaraq var qüvvəsi ilə yatmış Ələddinin sinəsinə vurmuşdu. Yadınızdadırsa, mən otaqda işıq barədə soruşdum. Axı Elmar Ələddinin harada yatdığını bilirdisə də, gərək deşikdən baxanda onu görəydi. Yoxsa zərbə hədəfə dəyməyə də bilərdi. Onu deyim ki, məhz lingin köməyi ilə zərbə o dərəcədə güclü çıxıb. Boltun əmələ gətirdiyi, dediyim dairəvi cızıq da güclü təkandan

downloaded from KitabYurdu.org

aşağıya doğru yerini dəyişmişdi. Sonra cani bıçağı meyitin sinəsindən çıxarmağa da güc sərf etməli olub. Çünki bıçaq, deyildiyi kimi, onurğanı da dəlib keçmişdi. Lingi yuxarı dartanda bıçaq mərhumun sinəsindən qəfil çıxıb və bu zaman lingin o biri ucu zərblə dam örtüyünə, yəni, şiferə dəyib. Hikmətin eşitdiyi taqqıltı səsi də bu olub. Sonra qatil bıçağı lingdən çıxarıb və deşikdən aşağı buraxıb. Bunu o, öz aləmində Hikməti daha dərin dolaşdırmaq üçün edib. Bıçağı aşağı buraxanda onun ucu Ələddinin sinəsinə dəyib və həmin kiçik yara belə yaranıb.

Mən talvarda olanda şiferdə olan zədə yerini və talvarın torpaq suvaqdan olan döşəməsində ayaq izləri müəyyənləşdirdim. Ayaq izləri Elmarın ayaqqabılarına uyğun idi. Amma bunsuz da mən artıq Elmardan şübhələnmişdim. Mən Hikmətdən soruşanda ki, Elmarı kim ötürdü? - bunu başqa mənada soruşdum. Nilufərin onu ötürməsindən və müəyyən danışıq aparmalanndan şübhələnirdim. Amma bu sualın cavabı mənə başqa mənada lazım oldu. Yəni Elmar dəhlizə çıxıb və bıçağı stolun üstündən götürüb gedib. Bu zaman onun bıçağı götürdüyünü görən olmayıb.

Mən Nilufərdən « Evinizə kimlər tez-tez gəlib-gedir?» - deyə soruşanda Elmarın adını çəkmədi. Hansı ki, Elmar çox tez-tez onlarda olurdu. Bu və digər müşahidələrim göstərdi ki, Elmarla Nilufərin arasında yaxınlıq var... - Qasımlı burada duruxub bir qədər fasilə verdi, sonra yenə söhbətinə davam etdi: - Elmar izahatında göstərmişdi ki, Hikmətlə Ələddin ciddi mübahisə ediblər. Hansı ki, bu Hikmətin əleyhinə yönəldilmiş bir yalan idi. Nilufərin izahatı da bunu təsdiq edir. O, bildirmişdi ki, mübahisə-filan eşitməyib. Mübahisə olsaydı, Nilufər dəhlizdə də eşidə bilərdi. Ümumiyyətlə, Elmar Ələddini əvvəldən öldürmək istəyirmiş. Çox güman ki, Hikmət iyunda ora gedəndə Elmar bu planı düşünüb, amma Hikmət gecələmək fikrində olmadığı üçün plan onda baş tutmayıb.

Yəqin ki, ling artıq o vaxt hazırlanmışdı. Mən sizinlə Elmarın evinə gedəndə həmin ling haqqında çox aydın təsəvvürüm var idi. Tövlənin dalında bir topa müxtəlif traktor hissələri və qeyri dəmir parçalarının

downloaded from KitabYurdu.org

arasında onu görən kimi tanıdım. Onu da deyim ki, həmin lingi həyətdə tapmasaydım belə, Elmardan əl çəkməyəcəkdim və onun cinayətini sübut etmək üçün əlimdə olan digər sübutlardan istifadə edəcəkdim...

Mən özümü saxlaya bilməyib Qasımlının sözünü kəsdim və məni çox maraqlandıran sualı verdim:

- Sizcə Nilufərin bu işdə əli varmı?

- Yox! - Qasımlı qəti cavab verdi. - Bu işdə Nilufər Elmar ilə əlbir olsaydı, üçüncü variantda dediyim kimi, qapını açıb onu içəri buraxardı. Daha bu həngaməyə ehtiyac qalmazdı.

- Elmar düşünürmüş ki, cinayət Hikmətin boynuna yıxılacaq və o şübhədən kənarda qalacaq, eləmi?

- Elədir!

- Axı niyə görə Elmar bu bədbəxti öldürmək istəyirmiş?

- Mənim fikrimi soruşursunuzsa, Nilufərə görə! Siz hiss etdinizmi Elmann öz arvadı ilə münasibəti yaxşı deyil. Onun Nilufərlə olan gizli intim münasibəti isə mənim gözlərimdən yayma bilməzdi. Dəqiq cavabı isə istintaqda müəyyənləşdirəcəklər. Bu daha bizim işimiz deyil. - Qasımlı birdən ciddiləşib əlavə etdi: - Onu da deyim ki, cənab müxbir, mən bu müsahibəni qəzet üçün vermədim. Qəzetlərdə adımın çəkilməyindən xoşum gəlmir. Aydmdırmı?

- Aydındır! - dedim.

Biz daha Bakıya qədər danışmadıq. Blokumuzun qabağında Qasımlı maşından düşəndə, mən və Hikmət ona xeyli təşəkkür etdik. O qısaca:

- Dəyməz! Gecəniz xeyrə qalsın! - deyib bloka girdi. Sonra mən Hikməti evlərinə apardım. Hikmətin ailəsinin şadlıqlarını normal büruzə vermələrinə mane olmamaq üçün mənzillərinə girmədim. Gecə vaxtı olduğunu və yatmaq istədiyimi bəhanə edərək evimizə qayıtdım. Yuxusuzluq mənə doğrudan da təsir etmişdi. Ona görə də mənzilimə girən kimi soyunub yatağıma girdim və o gecə çox rahat yatdım.

* * *

downloaded from KitabYurdu.org

Üç-dörd gün sonra qəzetlərin birində həmin cinayətə həsr olunmuş yazıya rast gəldim.

İstintaq sona yetmişdi. Sən demə Elmarla Nilufər bir-birlərini sevirlərmiş. Bunu hətta Zibeydə də başa düşübmüş. Elmarla Nilufərin tez-tez yüngülvarı intim görüşləri olurmuş və Elmar Nilufərə ərindən boşanıb ona gəlməyi də təklif edibmiş. Lakin Nilufər:

- «Mən axı nə adla boşana bilərəm?» - deyib qəti etiraz edirmiş. Qətlin törədilməsində Nilufərin əli olmayıb. Daha doğrusu bu işdən onun heç xəbəri olmayıbmış. Bütün planı Elmar təkbaşına düşünüb həyata keçiribmiş. Düşünürmüş ki, sonra da özü Zibeydəni boşayar və Nilufərlə evlənər.

Yazıda cinayətin operativ açılmasına görə əməliyyat qrupu və xüsusilə qrupun rəhbəri mayor Yunusov xeyli təriflənib göylərə qaldırılırdı. Guya cinayətin sirrini Yunusov özü açmışdı.

Mən yazını oxuyan kimi durub Qasımlının yanma getdim. Qəzetdəki məlumatı ona göstərdim. Qasımlı yazını oxuyub mənə qaytardı və yüngül istehza ilə dedi:

- Yaxşı yazıblar!

Mən cinayətin baş vermə səbəbinə işarə edərək:

- Görürsünüzmü, - dedim. - Məhəbbət necə cinayətlər törədir?

Qasımlı hər ikimizə qəhvə süzdü və bir siqaret yandırıb fikirli-fikirli dilləndi:

- Yox, əzizim, məhəbbət heç vaxt cinayət törətmir. Cinayəti törədən ağılsız ehtiraslar və şəhvətdir.

Sonra Qasımlı birdən-birə başqa söhbətə keçdi və biz yayın istisindən danışmağa başladıq.

Aprel, 2000

## YEDDINCI MƏRTƏBƏDƏ

## QƏTL

Bazar günü idi. Gecə yarısına kimi şöbə müdiri işlədiyim qəzet üçün material hazırlamaqla məşğul olduğumdan yuxudan gec ayılmışdım. Üçüncü mərtəbədəki mənzilimin balkonuna çıxıb gimnastika adı ilə bir az əl-qol atdım. Bu gün də Bakıda havanın çox isti olacağı

downloaded from KitabYurdu.org

bilinirdi. Qonşum Qanbay Qasımlım yola gətirmişdim ki, bu gün birlikdə dənizə çimməyə gedək. Ona görə «yola gətirmişdim» deyirəm ki, polkovnik Qasımlmın son vaxtlar istirahət etməyə vaxtı yox idi. Çünki kriminalistikaya aid yazdığı kitabı tamamlamaq
üzrə idi. Ona görə də səhərdən axşama kimi bütün vaxtı buna gedirdi.

Qəribə adam idi bu Qasımlı. Özü anq, üz-gö- zündən xəstə görkəmə malik olsa da, daxilində sanki əlli adamın gücü gizlənmişdi. Bu gücü yalnız onun qeyri-adi dərəcədə təsirli və mənalı gözlərindən oxumaq olardı. Qasımlıda zahirən zərrə qədər də dəvəyə oxşarlıq olmasa da, onun haqqında düşünəndə dəvə yadıma düşürdü. Dəvə səhrada qırx gün ac-susuz hərəkət elədiyi kimi Qasımlı da uzun müddət istirahətsiz və lazım gəlsə ac-susuz işləyə bilirdi. Bəlkə də bunun nəticəsi idi ki, o, kəskin baş ağrılarından əzab çəkirdi və hələlik ki, müalicənin də bir əhəmiyyəti olmurdu. Başağnsı hərdən tuturdu və tutanda
Qasımlının rəngi ağarırdı. Qaşları düyünlənərək alnını qırışdırırdı.

Xarakterindəki təzad başqa bir cəhətdən də özünü büruzə verirdi:

Üzündən zəhmli və qaraqabaq görünməyinə baxmayaraq, əslində onun mehriban və səmimi xasiyyəti var idi. İstefaya çıxandan sonra heç yerdə işləməyən Qasımlı azad insan idi və azadlığı hər şeydən çox sevirdi. Heç bir qanun tanımırdı. Və yalnız öz qanunları ilə yaşamağı üstün tuturdu. Üsyankar və anarxist kimi tanmmamağma səbəb isə o idi ki, onun öz qanunlarının çoxu yazılmış ədalət qanunları və yazılmamış insanlıq qanunlan ilə üst-üstə düşürdü.

Belə bir adam idi cənab Qasımlı və Rusiyada on beş ilə yaxın Cinayət Axtarış işində işləyəndən sonra hansı səbəbə görəsə qırx yaşında istefaya çıxıb Azərbaycana qayıtmışdı. Ailəsi yox idi. Tək yaşayırdı və nəyə görə tək yaşadığını mənimlə üzbəüz qonşu mənzilə köçdüyü bir ildən çox müddətdə soruşub öyrənə bilməmişdim. O, şəxsi həyatı haqqında danışmağı qətiyyən sevmirdi.

Əl-üzümü yuyub tələsik səhər yeməyini yedim və çıxıb üzbəüz, 23 saylı mənzilin zəngini çaldım. Qasımlı yuxudan durubmuş. İndi isə qəhvə içə-içə öz əsəri üzərində işləyirmiş. Məni otağa dəvət edib:

downloaded from KitabYurdu.org

- Gəlin, Nemət müəllim, mənimlə bir fincan qəhvə için, sonra gedərik. Mən hazıram, - dedi və fincana mənim üçün hazır qəhvə süzdü.

- Bu gün hava isti olacaq. Özümüzü dənizə tez çatdıraq, - dedim və qəhvəni içməyə başladım.

Mərdimazarı axtarmaq lazım deyil. Özü gəlib adamı tapır. Qəhvəni təzəcə içib qurtarmışdım ki, qapının zəngi çalındı. Qasımlı qapını açmağa getdi və tez də bizim blokun yeddinci mərtəbəsində yaşayan Xatəm ilə geri qayıtdı. Xatəmlə yaxınlığımız olmasa da onu tanıyırdım. Hansısa ticarət firmasında işləyirdi. Eşitdiyimə görə möhkəm içən idi. Otuz yaşlannda olan bu adamın qarabuğdayı sifəti təsadüfi hallarda təmiz qırxılmış olurdu. Alverlə əlaqədar tez-tez Rusiyaya gedib-gəlirdi.

Görkəmindən və ədasından hiss olunurdu ki, yaxşı qazanır.

Qasımlı oturmaq üçün ona divanda yer göstərdi. Mən yerimdə qurcuxub saata baxdım. Saat on bir idi. Qasımlı, deyəsən məni başa düşüb qısaca Xatəmə:

- Buyurun əzizim, mənə görə qulluğunuz? - dedi.

Xatəm tərəddüdlə mənə baxıb sözə başladı:

- Bəlkə də siz məni tanımırsınız. Ancaq mən sizi tanıyıram. Vaxtilə polisdə işlədiyinizi bilirəm. Mənim adım Xatəmdir. Bu blokun yeddinci mərtəbəsində oluram. 31-ci mənzildə.

- Buyurun, sizin qulluğunuzda hazıram.

- Sağ olun! - Xatəm söhbətinə davam etdi: - Dünən axşam gecə saat birə kimi mən arvadımla birlikdə dostumun ad günündə olmuşam. Evimizdə heç kəs olmayıb. Ad günündən qayıdanda məlum oldu ki, evə oğru girib. Bir kiçik televizor, videomaqnitofon, layka kurtka və papağımı aparıblar. Kurtka və papaq paltar şkafında olub, televizor paltar şkafının üstündə, videomaqnitofon isə böyük televizorumuzun yanında, stolun üstündə olurdu. Oğru başqa heç nə axtarmayıb. Qapını açarla açıblar.

Bu dəfə Qasımlı saata baxıb:

- Polisə xəbər vermisiniz? - deyə soruşdu.

downloaded from KitabYurdu.org

- Hə, elə indi oradan gəlirəm. Dedilər ki, gəlib baxarıq. Ancaq heç onlardan gözüm su içmir. İnanmıram ki, televizorumu tapalar. Ona görə fikirləşdim ki, sizə məlumat versəm pis olmaz. Necə olmasa, bir blokda yaşayırıq.

- Bilirsiniz... - Qasımlı çətinliklə dilləndi: - Polisə xəbər vermisinizsə taparlar. Mənim axır vaxtlar işim həddindən artıq çoxdur. Həm də belə xırda oğurluq işləri ilə məşğul olmuram. Xahiş edirəm inciməyin!

Xatəm əl çəkmədi:

- Cənab polkovnik, yalvanram bu işlə məşğul olun. Sizin xəcalətinizdən çıxaram. Vicdanım haqqı, nə qədər istəsəniz verərəm.

Qasımlı üz-gözünü turşutdu. Söhbət, deyəsən, onu açmadı:

- Televizoru nə üçün paltar şkafının üstünə qoyurdunuz?

- Doğrusu, kiçik televizor işləmir, xarab olub. Ona görə şkafın üstünə qoymuşdum. Təzəsini almışam. Bu ondan böyükdür. Yəqin ona görə apara bilməyiblər.

- Səhv etmirəmsə, sizin uşağınız yoxdur.

- Bəli, yoxdur.

- Evin açarını yəqin ki, heç kəsə vermirsiniz, eləmi?

- Bəli. Buna ehtiyac yoxdur. İki nəfərik. Hərəmizin də öz açanmız var.

- Mənzilinizə tez-tez gəlib-gedən var?

- Xeyr. Ancaq üzbəüz mənzildəki qonşular gəlirlər. Əjdərgil.

- Dünən axşam ad günündə olacağınızı kim bilirdi?

- Dostum məni ad gününə dəvət edəndə müdirim Oqtay müəllim də yanımda idi. İkimizi də dəvət elədi. Başqa heç kəsə ad gününə gedəcəyimizi deməmişdim.

- Arvadınız necə?

- O da heç kəsə deməyib.

- Oqtay da ad gününə getmişdi?

- Yox. Nəsə bir iş çıxdı. Ona görə də mənə dedi ki, gedə bilməyəcək.

- O sizin mənzilinizdə olubmu?

downloaded from KitabYurdu.org

- Bəli. Bir neçə dəfə. Ancaq o belə iş görməz. Qəti inanıram.

- Siz polisə arxayın olun. Taparlar. Xırda işdir. - Qasımlı yenə saatına baxdı.

- Cənab Qasımlı! - Xatəm yenə dil tökməyə başladı. - Məsələ əşyalann qiymətində deyil axı. Burada mənlik məsələsi var. Nəyə görə hansısa əclaf mənim evimə soxulub halal malımı oğurlasın? Hə? Televizor da, o biri əşyalar da mütləq tapılmalıdır. Danışırlar ki, hələ heç kəs sizi azdıra bilməyib. Ona görə sizin yanınıza gəldim. Xahiş edirəm! Xəcalətinizdən necə lazımdır çıxacağam.

Qasımlı ayağa qalxıb məni göstərdi:

- Bağışlayın, bizim Nemət müəllimlə çox vacib getməli yerimiz var. Təəssüf ki, bu işə vaxt ayıra bilməyəcəm. Hər halda, polis işçiləri özləri oğrunu tapar.

Xatəm ayağa qalxaraq acıqlı halda dodaqaltı deyinə-deyinə çıxıb getdi. Qasımlı onu yola salmadı. Nədənsə, kresloda oturub dərin fikrə getdi.

Mənim Xatəmdən zəhləm gedirdi. Çünki, cavan, gözəl arvadını həftələrlə evdə tək qoyub Rusiyanın şəhərlərində gəzirdi. Arvadının dediyinə görə, Xatəmin pulunun çox olmasına baxmayaraq, ona ürəyi istəyən şeyləri almağa xəsislik edirdi. Yadıma Xatəmin qadını Nailə ilə
bağlı bir əhvalat düşdü. Bunu mən heç kəsə danışmamışdım.

Nailə ilə hərdən həyətdə və ya liftin qabağında rastlaşırdıq. Açığını deyim ki, ondan çox xoşum gəlirdi. Cəzbedici bədən quruluşu, ətli dodaqları, odlu-alovlu qara gözləri var idi. Kosmetikadan çox az istifadə edirdi. Ümumiyyətlə, Nailə gözəl idi və əgər belə demək mümkünsə, onun gözəlliyi məsum gözəllik yox, vəhşi gözəllik idi. Mən onun gözlərinin içinə baxmağa ehtiyat edirdim. Bir də ki, nəyə görə baxmalı idim? Onun əri var idi, mənim də arvadım, uşağım. O məni görəndə salam verirdi, mən də salamını alırdım, vəssalam.

Təxminən bir il əvvəl, yay aylarının hansmdasa həyat yoldaşımı uşaqla birlikdə rayona - atasıgilə istirahətə göndərmişdim. Özüm redaksiyadakı vacib işlərlə əlaqədar məzuniyyət götürə bilməmişdim.

downloaded from KitabYurdu.org

Evdə tək olurdum. Bir gün axşam qapının zəngi çalındı. Qapını açanda Nailənin əynində nazik ev xalatı, qarşımda dayandığını gördüm. Altdan mənim qadınlarda çox xoşladığım qara kalqotka geymişdi. Əllərini qoynunda çarpazlayaraq utancaq-utancaq gülümsəyirdi.

- Gəlmək olar?

- Əlbəttə... Buyurun... - deyə onu içəri dəvət etdim. Otağa aparıb əyləşmək üçün yer
göstərdim. Sonra hərəmizə bir stəkan soyuq içki süzüb onunla üzbəüz stulda oturdum.

- Nə əcəb sizdən?

- Gəlmək olmaz?

Nailənin səsində daxili həyəcan hiss olunurdu. Gözləri xumarlanırdı. Deyəsən içmişdi. Yəqin ki, cəsarətli olmaq üçün.

- Niyə olmur? Olar. Amma... - özüm də bilmirdim ki, nə deyəcəkdim.

- Sizin qəzet gözəllik müsabiqəsi keçirir. - deyə Nailə duruxa-duruxa dilləndi: - Mən də iştirak edə bilərəmmi orada?

- Əlbəttə... - dedim. - Sizin gözəlliyinizə heç bir şübhə ola bilməz. Gələrsiniz redaksiyaya, şəkillərinizi çəkdirərsiniz. Ancaq... Əriniz razı olarmı?

- Ərim razıdır. Mən istəyirəm ki, şəkillərimi siz çəkəsiniz. Redaksiyaya gəlmək istəmirəm.

Özümdən asılı olmayaraq həyəcanlanmağa başladım. Fotoqraf olmasam da evdə fotoaparatım var idi və yaxşı şəkil çəkə bilirdim. Amma hər halda burada nə isə var idi.

- Nədir? İstəmirsiniz? - şıltaqlıqla soruşdu. Gözlərimi onun baxışlanndan yayındırmalı oldum. Baxışlarından ehtiras yağırdı.

- İstəyirəm. - dedim.

- Onda başlayaq!

Onun fikrinin ciddi olduğunu bilib fotoaparatımı gətirdim.

- Necə çəkəcəyik? - deyə soruşdum.

- Xahiş edirəm, mən hansı formalarda istəyirəmsə, eləcə çəkin.

downloaded from KitabYurdu.org

Razılaşdım. Fotoaparata təzə kaset qoyub hazır vəziyyətdə dayandım. Nailə ayağa qalxıb qarşımda çəpəki durdu. Əlləri ilə çiyinlərinə tökülən saçlarını yığaraq çiyni üstündən mənə baxıb gülümsədi. Onun bu vəziyyətdə şəklini çəkdim. Sonra bir ayağını qaldırıb stolun üstünə qoydu. Aşağıdakı düymələri açıq olan xalat o saat geri çəkildi və onun yaraşıqlı budunu qara kalqotkasmın əhatəsində mənə göstərdi. Aparatı şaqqıldatdım. Nailə yavaş-yavaş kalqotkam əynindən çıxartdı və yenə bir ayağını stolun üstünə qoydu. Bu vəziyyəti müxtəlif tərəflərdən lentə aldım. Mən dinə bilmirdim və onun daha hansı görünüşü alacağını gözləyirdim. Daha bir neçə çəkilişdən sonra Nailə xalatmı da soyunub ancaq kiçik alt paltannda qabağımda durdu. Yenə çəkdim. Bu çəkilişdən sonra arxasını mənə çevirib utana-utana soruşdu:

- Sizə tamam çılpaq şəkillər də lazım olur?

- Olur, amma... Müsabiqədə yox, elə-belə verməyə.

- Onda arxadan çəkin, qoy üzüm görünməsin, - deyə əyilib alt paltarını əynindən çıxartdı və tamam çılpaq qaldı. Mən arxadan onun gözəl bədəninə tamaşa edərək özümü tamam unutmuşdum və yalnız o xatırladandan sonra fotoaparatın düyməsini basdım.

Düşündüm ki, indi o mənə tərəf çevrilmədən geyinəcək və çəkiliş bununla bitəcək. Ancaq o, geyinmədən mənə tərəf çevrildi və üstümə gəlməyə başladı. Fotoaparatı əlimdən alıb kaseti çıxardı və lenti açıb korladı.

- Lazım deyil... Ərimdən qorxuram.

- Bəs niyə belə edirsiniz, Nailə xanım? - deyə soruşdum.

Nailə çılpaq vəziyyətdə oturdu və əlləri ilə üzünü örtüb dedi:

- Heç özüm də bilmirəm ki, nə edirəm. İnanın ki, özümdən asılı deyil. Hələ mənə ərimdən başqa kişi əli toxunmayıb. Amma daha dözə bilmirəm. Xatəm ayda cəmi bir-iki gün evdə olur. Onda da sərxoş...

O, ehtirasdan titrəyirdi və deyəsən, bu titrəmə mənə də keçmişdi. Məsələ aydın idi. Onun əvəzində başqa qadın olsaydı, mən onu evimdən qovardım. Amma onu qovmağa gücüm çatmadı və bəlkə də

downloaded from KitabYurdu.org

özüm istəmədim. Nailə o gecə mənimlə qaldı. Bir də səhər durub öz mənzillərinə çıxdı.

Ancaq sonradan mən daha onunla yaxınlığa imkan vermədim. Əlaqəmiz bina sakinlərinə məlum ola bilərdi. Həyat yoldaşım bilsəydi, yaxşı düşməzdi. Nailə ilə yenə adi qaydada salamlaşırdıq. Məni görəndə yüngülcə utanırdı. Ya bəlkə də mənə belə gəlirdi. Sonra hiss etdim ki, o bir nəfərlə gəzməyə başlayıb. Onu hətta bir dəfə axşamüstü, evimizdən bir qədər aralıda, bir ağ rəngli Jiquliyə minib harasa gedən gördüm. Bəlkə də özünə başqa kişi tapdığı üçün məndən əl çəkmişdi.

Mən xəyaldan ayrılıb, Qasımlım da öz xəyalından ayrılmağa məcbur etdim:

- Nə fikirləşirsiniz? Özünüz dediyiniz kimi bu iş sizə yaraşan iş deyil.

Qasımlı fikrindən ayrılıb:

- Bəlkə də elə deyil, - dedi və sonra nə düşündüsə cəld ayağa qalxdı.

- Gedək! Onsuz da yaman yorulmuşam. Bir az da istirahət lazımdır.

Biz həyətə düşüb mənim maşınımla çimərliyə yollandıq.

Çimərlikdən qayıdanda Qasımlı ilə şərtləşdik ki, axşam onun mənzilinə keçim və oturub bir qədər şahmat oynayaq. Duş qəbul edib, dünən gecə qəzet üçün hazırladığım yazılara bir nəzər yetirdim. Axşam yeməyimi yeyib şahmat oynamaq üçün qonşumun mənzilinə getdim. Qasımlı oturub televizorda «Arşm mal alan» filminə baxırdı.

- Baxmaq istəyirsiniz? - deyə məndən soruşdu.

- Yox! - dedim. - Məndə videokaseti var. Çox baxmışam.

- Onda çıxaq balkona.

Qasımlı televizorun səsini artırdı. Şahmat taxtasını götürüb balkona çıxdıq. Balkonda bir
kiçik stol və iki stul qoyulmuşdu. Qasımlı otağa ağcaqanad keçməməsi üçün balkonun qapısını örtdü. Otaqdan balkona yaxşı işıq düşürdü. Biz fiqurları düzüb oynamağa başladıq.

downloaded from KitabYurdu.org

Qasımlı, şahmat taxtasına baxmadan belə, mənə həmişə qalib gəlirdi. Hətta bir dəfə, şahmat taxtasından xeyli kənarda, öz stolunun arxasında oturub yazdığı əsərin üzərində işləyə-işləyə mənimlə qiyabi oynadı və qalib gəldi. Buna baxmayaraq, mən ondan əl çəkmirdim. Onunla oynamaq mənə ləzzət verirdi. Bəzən oyunun onun üçün də maraqlı olması xatirinə Qasımlmın vəzir fiqurunu əvvəlcədən kənara qoyub, sonra oyuna başlayırdıq.

Otaqdan televizorun səsi gəlirdi və hiss olunurdu ki, Qasımlı filmə qulaq asır. Bununla belə birinci oyunda mənə qalib gəldi. Fiqurları yenidən taxtaya düzərək dedi:

- Yəqin ki, bilirsiniz. Bu film iki dəfə çəkilib. Müxtəlif variantlarda. Bu birinci variantdır.

- Bilirəm. - dedim. - Elə məndəki videokaset də birinci çəkilişdən köçürülüb.

- Hər iki variant yaxşıdır.

- Elədir.

Qasımlı bir gediş gedərək məni çətin vəziyyətə saldı. Xeyli fikirləşəndən sonra cavab gedişi ilə vəziyyətdən çıxa bildim.

Blokun qapısı qarşısındakı kiçik park yaxşı işıqlandırıldığı üçün balkondan hər şey aydın görünürdü. Həyətdə heç kəs yox idi. Sakinlər öz mənzillərinə yığışmışdı. Bizim blokdan bir nəfər çıxdı. Bir neçə addım ataraq çevrilib binaya baxdı. Sonra əllərini cibinə qoyub yavaş-yavaş parkdan keçdi və görünməz oldu. Mən onu tanıdım. Oqtay idi. Qasımlı at ilə bir gediş gedərək soruşdu:

- Bu kişi kimdir? Elə bil onu hardasa görmüşəm.

- Xatəm işləyən firmanın şefidir. - dedim.

- Oqtay?

- Bəli, hərdən Xatəmlə görürəm. Yəqin yenə onlarda qonaq imiş.

Qasımlı susub diqqətini oyuna verdi. Az keçmiş ikinci oyunumuz da onun qələbəsi ilə başa çatdı.

Qasımlı:

- Daha bəsdir! - deyib ayağa qalxdı. - Keçək, içəridə adama bir fincan qəhvə içək.

downloaded from KitabYurdu.org

Biz otağa girib qəhvə içə-içə filmin qalanma tamaşa etməyə başladıq. Filmin hansı amndasa, yadımdan çıxıb, maraqlı bir yerində mən Qasımlımn üzünə baxdım və gördüm ki, onun gözləri yumuludur. Mənim ona baxdığımı ani olaraq hiss edib gözlərini açdı.

- Yuxunuz gəlir? - deyə soruşdum.
- Yox! Qətiyyən!

Qasımlı ayıq halda cavab verdi və birdən gözlənilmədən soruşdu:

- Necə bilirsiniz? Yeddinci mərtəbədəki oğurluq məsələsi ilə məşğul olummu?

- Nəyinizə lazımdır? - dedim - Başınızı ağrıtmağa dəyməz. Oğurlanan əşyaların qiyməti elə böyük deyil. Qoy polis axtarış aparsın.

- Polis onlan tapa bilməyəcək. Çünki onlar da sizin kimi fikirləşəcək.

- Başa düşmədim... - maraqla onun üzünə baxdım.

- Burada başa düşməməli bir şey yoxdur. Polis də sizin kimi, elə hesab edəcək ki, bu xırda oğurluqdur. - Qasımlı birdən əlini yellədi. - Ümumiyyətlə, yaxşısı budur filmə baxaq.

Mən daha danışmadım. Sakitcə, filmin sonuna baxdıq. Film qurtaran kimi Qasımlı yenə qəhvə dəmlədi və biz qəhvə içməyə başladıq. Bir azdan qapının zəngi çalındı. Qasımlı qalxıb qapıya getdi. Qapının ağzında eşidilən həyəcanlı səsin sahibini tanıdım: Əjdər idi. Yeddinci mərtəbədə Xatəmlə üzbəüz, 32-ci mənzildə olurdu. Əjdər pis xəbər gətirmişdi. Xatəmi öz mənzilində öldürmüşdülər. Onlara yaxınlaşdım.

Qasımlı:

- Polisə xəbər vermisiz? - deyə soruşdu.

- Bəli, arvadı polisə zəng elədi. Mən isə fikirləşdim ki, siz də bilsəniz yaxşı olar. Onun qonağı var idi. Biz ondan şübhələnirik.

Qasımlı mənə baxıb:

- Əslində, orada mənlik iş yoxdur, amma istəyirsinizsə, gəlin birlikdə yuxarı çıxıb vəziyyətlə tanış olaq, - dedi.

Mən razılaşdım və biz yeddinci mərtəbəyə qalxdıq. Xatəmin

downloaded from KitabYurdu.org

mənzilinə girəndə gördük ki, Nailə divanda oturub ağlayır. Rəngi kağız kimi ağarmışdı. Bütün bədəni titrəyirdi. Əjdərin arvadı və hansı institutdasa oxuyan qızı Səhilə də orada idilər. Əjdərin arvadı Nailənin yanında oturub onu qucaqlamışdı. Əlindəki dəsmalla Nailənin göz yaşlarını qurulayır, onu ovutmaq istəyirdi. Səhilə bir kənarda heykəl kimi quruyub qalmışdı.

Əjdər bizi balkona apardı. Bu balkon bayaq bizim şahmat oynadığımız balkonun üstündə idi. Amma ondan dörd mərtəbə yuxarıda. Balkona tək bir stul qoyulmuşdu. Xatəm həmin stulda, arxası balkonun qapısına tərəf, oturub ayaqlarını balkonun dəmir məhəccərinə keçirmişdi. Başı sol çiyninin üstünə düşmüşdü. Onu küt alətlə öldürmüşdülər. Peysərində böyük şiş əmələ gəlmişdi.

Gözləri qorxunc şəkildə böyümüş və qan çanağına dönmüşdü. Sol əli havadan asılı qalmışdı. Qasımlı əlini onun boynuna toxundurdu. Ətrafa göz gəzdirib, küncdəki alət yeşiyinin üstündən mismar çıxarmaq üçün dəmir borudan düzəlmiş aləti götürdü və ona işıqda diqqətlə baxıb:

- Bununla vurublar! - dedi və sonra otağa keçərək soruşdu:

- Hadisə necə olub?

Əjdər danışmağa başladı. O danışdıqca əlləri qoynunda duran qızı da başı ilə təsdiq edirdi.

- Biz evdə «Arşın mal alan» kinosuna baxırdıq. Kino başlayandan beş dəqiqə sonra Nailə bacı bizə gəldi. Dedi ki, Xatəmin müdiri bizdədir, Xatəmlə söhbət edirlər. Oturub bizimlə kinoya baxmağa başladı. Filmin ortalarında bir dəfə durub mənzillərinə getdi və bir-iki dəqiqədən sonra qayıtdı. Dedi ki, bu Oqtay həyasız hələ çıxıb getməyib. Oturub söhbət edirlər. Sonra kino qurtardı. Nailə bacı evlərinə getdi. Bizdən çıxandan yanm dəqiqə keçməmiş qışqırıb geri qayıtdı və qapımızı döydü. Qapını açanda bizə heç nə deyə bilmədi, ancaq əli ilə
qapılarını göstərdi. Gəlib gördüm ki, yazıq Xatəm çoxdan keçinib.

Qanbay Qasımlı otağa göz gəzdirdi. Stolun üstündə iki stəkan var idi. Bunlarda çay içilmişdi. Bundan başqa süfrəyə qənd və zoğal

downloaded from KitabYurdu.org

mürəbbəsi də qoyulmuşdu. Qasımlı Nailədən soruşdu:

- Onlar nədən söhbət edirdilər?

- Bilmirəm. Bir az dünənki oğurluqdan eşitdim. - Nailə zarıya-zarıya cavab verdi.

- Nə eşitdiniz?

- Heç, elə adda-budda eşidirdim. Xatəm oğurluğu danışırdı. Oqtay da, deyəsən, dedi ki, boş şeydir. Mən o gələn kimi çaylarını verib qonşuya getdim. Yanlarında dayanmadım.

- Siz arada mənzilə baş çəkəndə nə vaxt idi? Məsələn, filmdə hansı kadrlar gedirdi?

- Yadımda deyil. - Nailə başını buladı. Bayaqdan sakitcə dayanıb Qasımlıya
pərəstişlə baxan Səhilə:

- Mənim dəqiq yadımdadı - dedi. - Süleyman bəy Soltan bəyin evinə gəldi. Elçiliyə. Onda Nailə durdu. Mən dedim ki, getmə indi maraqlı səhnə olacaq. Dedi ki, bu saat qayıdıram.

- Hə, elədir. - Nailə təsdiq etdi.

- Siz həmin vaxt mənzilinizə girəndə Oqtay burada idi? - deyə Qasımlı yenə Nailədən soruşdu.

- Bəli, burada idi. Nəsə mübahisə edirdilər. Xatəm hirsli-hirsli danışırdı.

- Nə danışırdı?

- Bilmədim. Dedim yəqin işdən danışırlar. Mane olmaq istəmədim. O saat geri qayıtdım...

Bu vaxt əməliyyat qrupu gəlib çıxdı. Aralarında iki nəfər mülki geyimli adam da var idi. Özünü gələnlərin başçısı kimi aparan kapitan diqqətlə meyitə baxandan sonra evdəkiləri sorğu- suala tutdu. Əjdər və Nailə bizə danışdıqlarını təzə gələnlərə də danışdılar. Qasımlı ilə mənim kimliyimizi soruşanda dedim ki, blok sakinləriyik. Kapitan vaxt itirmədən Nailədən Oqtaym ünvanını öyrəndi. İki mülki geyimli şəxs və bir polis işçisi meyitin yanında qaldılar. Kapitan və digər iki polis isə tələsik çıxıb getdilər.

Qasımlı mənə:

downloaded from KitabYurdu.org

- Bizlik burada bir iş qalmadı, gedək! - dedi.

Mən Nailəyə nə isə təskinlikverici söz demək istəyirdim. Ancaq buna imkan olmadığını görüb Qasımlınm arxasınca mənzildən çıxdım və biz yenə Qasımlınm mənzilinə qayıtdıq.

Nailənin fikri məni götürmüşdü. Ona yaman yazığım gəlirdi. Nailənin Xatəmdən başqa Bakıda heç kəsi yox idi. Keçən il mənim mənzilimdə qaldığı gecə Nailə öz həyatını mənə danışmışdı. Onlar rayonda eyni kənddə yaşayırlarmış. Valideynlərinin yeganə övladı olan Nailənin atasını sahədə ot biçərkən gürzə çalıb öldürür. Ondan sonra yazıq qız anası ilə tək yaşayırmış. Orta məktəbi bitirdiyi il əsgərlikdən bir-iki il olar ki, qayıdıb kənddə bekar gəzən Xatəmlə sevişir. Xatəmgil üç bacı və iki qardaş idilər. Özləri də qohum-əqrəbalı imişlər. Atası ömrü boyu kənd mağazasında işləyirmiş. Valideynləri və üstəlik bacıları Xatəmin Nailə ilə evlənməyinə qəti etiraz edirlər. Deyirlərmiş ki, bu qızın gözü-başı qaynayır. Ondan sənə arvad olmaz. Nə isə... Xatəm ilə Nailə sözləşib Bakıya qaçırlar. Xatəm zirəkliyi ilə az vaxtda özünə iş tapır, alverlə məşğul olur. Bir müddət kirayədə qalandan sonra bizim blokun yeddinci mərtəbəsində 31-ci mənzili alıb ora köçürlər. Bakıya gələndən bir az sonra valideynləri ilə barışıq yaradıblarmış. Bir- iki dəfə kəndə qonaq da gediblərmiş. Ancaq evlənmələrindən neçə il keçməyinə baxmayaraq, Nailənin uşağı olmadığı üçün, Xatəmgilin ailəsində yenə narazılıq güclənib və ona görə də əlaqə yenidən kəsilibmiş.

Xatəmin öldürülməsinin sirri də məni yaman düşündürürdü. Yadıma Xatəmin səhər dediyi sözlər düşdü. Onun danışığından belə çıxırdı ki, əşyalar oğurlanan gecə onların ad günündə olacaqlarını Oqtay bilirdi. Eyni zamanda, Oqtay özü həmin ad gününə dəvət olunmuşdu, amma nədənsə getməmişdi. Elə bil bəzi qaranlıq məsələlər mənim üçün aydınlaşırdı. Mənzildə oğurluğu Oqtay edib və Xatəm ondan şübhələndiyi üçün Xatəmi öldürüb. Ancaq o saat beynimdə bir çox suallar yarandı ki, mənzilə qayıdandan bəri kreslosunda oturub «Kent» siqaretini sümürə-sümürə dərin fikrə getmiş Qasımlım xəyaldan ayırmağa məcbur oldum:

downloaded from KitabYurdu.org

- Məni iki sual düşündürür. Birincisi Oqtay kimi imkanlı adam bu oğurlanan əşyalara tamah salarmı? İkincisi də Oqtay bilə-bilə ki, Nailə onu tanıyır və evdə olduğunu bilir, Xatəmi öldürərdimi?

Qasımlı mənalı tərzdə mənə baxıb:

- Çox ağıllı suallar verirsiniz, Nemət müəllim! - dedi: - Mən sevinirəm ki, sizin kimi ağıllı həmsöhbətim var. Amma deyin görüm özünüz bu suallara necə cavab verərdiniz?

- Bilmirəm... - dedim: - İnsanların heç də hamısı ağıllı deyil və hamısından ağıllı iş gözləmək olmaz. Dünyada o qədər ağılsız, məntiqsiz hərəkətlər, hadisələr olur ki...

- Ağılsız adamın ağılsız hərəkəti özü məntiqi hərəkətdir. Sizin sualların dəqiq cavabına qalınca, bunlan sabah axşam eşidərsiniz. Yalnız bir şərtlə ki, sabah işdən qalaraq vaxtınızı mənə sərf edəsiniz.

Mən ani fikrə gedib razılaşdım:

- Razıyam. Biz nə edəcəyik?

- Siz sabah yuxudan tez durun. Yeməyinizi yeyib aşağı düşün və maşının kapotunu açaraq qurdalanmağa başlayın. Elə edin ki, istənilən anda maşını tez işə sala biləsiniz. Mən nə vaxt salam verib sizin yanınızdan keçsəm, maşına oturub məni maksimum kənardan izləyin.

- Elə bu? - təəccüblə soruşdum.

- Bu az iş deyil. Ola bilər ki, siz axşama kimi maşının yanında qurdalanmalı olarsınız. - Qasımlı bunu deyib gülümsədi.

- Bəs indi mənə heç nə deyə bilməyəcəksiniz?

- Özünüz bilirsiniz ki, mənim boşboğazlıqdan xoşum gəlmir. Dəqiq bilmədiyim bir şeyi heç vaxt danışa bilmərəm. Sabah axşam söhbət edərik.

Mən ayağa qalxıb ona şirin yuxu arzuladım və mənzilimə getdim. Qapıdan çıxanda Qasımlı məndən «Arşın mal alan» filminin videokasetini istədi.

- Bir də baxmaq istəyirsiniz? - deyə soruşdum.

- Əgər yata bilməsəm, başımı qarışdıracağam, - dedi.

Mən kaseti gətirib verdim. Qayıdıb mənzilimə girəndə fikirləşdim ki, şahmat oynamağa getməklə Qasımlmı filmə tam baxmaqdan

downloaded from KitabYurdu.org

məhrum etmişəm. O, mədəni adam olduğu üçün, mənim xətrimə, filmə baxmaqdan vaz keçib mənimlə şahmat oynamışdı. İndi isə «Arşın mal alan»a olan azarkeşliyə bax ki, filmə
təzədən baxmaq istəyirdi.

* * *

Səhər Qasımlınm dediyi kimi, yuxudan tez durub səhər yeməyini yedim. Həyətə düşüb blokun qapısı ağzında saxladığım «Qaz-24»-ün qapısını açdım və kapotunu qaldırdım. Səbirlə maşının hissələrini gözdən keçirməyə və bəzi təmizlik işlərini görməyə başladım. Arada başımı yuxarı qaldıranda gördüm ki, Qasımlı öz balkonunda oturub siqaret çəkir.

Birinci mərtəbədə yaşayan Əlyar blokdan çıxdı. İşə tələsirdi. Yanımdan keçəndə salam verib:

- Nəyi xarabdır, qonşu? - deyə soruşdu.
- Heç, elektrik məftilləri boşalıb, - dedim.

Ötüb keçdi. Sonra bir başqası salam verib
ötüşdü. Hamı işə tələsirdi. Bircə məndən başqa. Vallah, bu qonşumun da bəzi işlərini mən heç başa düşə bilmirəm. Məqsədini mənə açıb desəydi, guya ki, nə olacaqdı?

- Sabahınız xeyir!

Başımı qaldıranda Nailəni yanımda dayanan gördüm. Qara, qolsuz köynək, cins yubka geymişdi. Burnuma xoş ətir qoxusu gəldi.

- Sabahınız xeyir, Nailə xanım!
- İşləmir?
- Hə. Boş şeydir. Allah rəhmət eləsin, Nailə xanım! Dünən də sizə təskinlik verən bir söz deməyə imkanım olmadı.
- Sağ olun. Allah ölənlərinizə rəhmət eləsin.
- Axşam biz çıxandan sonra nə oldu?
- Gəlib meyiti apardılar. Deyəsən, ekspertə. Bu gün rayondan qohumlan gəlməlidir. Yəqin ki,
aparıb kənddə dəfn edəcəklər. Mən də sabah səhər gedəcəm kəndə.
- Cənazəni sabah aparacaqlar?
- Yox, bu gün axşam apararlar. Ancaq mən onlarla gedə bilmərəm.

downloaded from KitabYurdu.org

Onsuz da qaymatamgilin məndən zəhləsi gedirdi...

- Nə etmək olar, allah səbrinizi versin, - dedim.

- Sağ olun!

Nailə çevrilib getdi. Onun arxasınca baxa- baxa fikirləşdim ki, yazığın əri ölüb, bu yandan da yersiz tənələrin əzabını çəkəcək.

Elə bu vaxt polkovnik Qasımlı blokun qapısından çıxıb «Sabahınız xeyir!» deyərək yanımdan ötüb keçdi. Mən cəld kapotu örtüb maşına əyləşdim və mühərriki işə saldım. Yavaş- yavaş evin tinindən dönüb parkı arxada qoydum və təxminən əlli metr məndən qabaqda səki ilə addımlayan Qasımlım izləməyə başladım.

O, qarşıdakı döngədə sağa buruldu. Mən də yol ayrıcına çatıb maşını sağa döndərdim. Qarşıda avtobus dayanacağı görünürdü. Qasımlı dayanacağa çatmağa az qalmış dayandı və üzünü maşın yoluna çevirdi. Mən nə edəcəyimi bilməyib maşını saxladım. Məndən əlli metr aralı olan Qasımlıya göz qoymağa başladım. Dayanacaq köşkünün qarşısında bir-iki adam görünürdü. Köşkün içində isə adam olub-olmadığmı görə bilməzdim. On dəqiqəyə kimi beləcə gözlədim. Həmən müddətdə Qasımlı da yerində durmuşdu.

Dayanacaqda mikroavtobus dayandı. Köşkdən iki kişi və bir qadın çıxıb ona mindi. Mikroavtobus yola düşdü. Bir siqaret yandırıb çəkməyə başladım. Bu vaxt dayanacaqda ağ rəngli bir Jiquli saxladı. Dayanacaq köşkündən bir qadın çıxıb Jiquliyə mindi. Qadını Nailəyə oxşatdım. Maşın yerindən tərpənən kimi Qasımlı mənə yaxınlaşmaq işarəsi verdi. Maşını irəli sürüb onun yanında saxladım. Qasımlı tələsik arxada oturub:

- O maşını gözdən qoyma! - deyə uzaqlaşmaqda olan Jiqulini göstərdi. Mən sürəti artırıb bütün diqqətimi irəli verərək:

- O qadın Nailə idi? - deyə soruşdum.

- Hə! - deyə Qasımlı cibindən bloknot çıxarıb Jiqulinin nömrəsini yazdı.

- Mən, deyəsən, bir dəfə də Nailəni bu maşına minən görmüşəm, - dedim.

- Nə vaxt?

downloaded from KitabYurdu.org

- 5-6 ay olar.

Maşını müvəffəqiyyətlə izləyirdim. Nəhayət Jiquli şəhərdən çıxıb, şəhərətrafı bağlara tərəf yol aldı.

- Bağ evinə gedirlər... - deyə Qasımlıya baxdım.

- Yəqin ki! - Qasımlı qısaca cavab verdi. İzlədiyimiz maşın bağarası dar küçələrə
girəndə Qasımlmm göstərişi ilə sürəti azaltdım və onları gözdən itirdik. Ancaq bir azdan biz daha
bir tini burulub, uzun küçəyə çıxanda Jiqulini irəlidə, bir darvazanın qabağında dayanan gördük. Maşının yanında adam yox idi. Biz Jiqulinin lap böyründən keçəndə Qasımlı:

- Darvazanın bir tayından açılmış qıfıl asılıb. Deməli içəridə onlardan başqa heç kəs yoxdur. - dedi.

Biz daha iki bağı ötürüb dördüncü bağın qıfıllı qapısı yanında dayandıq və onların girdiyi bağın qapısını güdməyə başladıq. Saat yanm ya iki saat gözləyəndən sonra Nailə bir ucaboy, gənc kişi ilə bağdan çıxdı. Kişi açarla darvazanın qıfılını bağladı və onlar maşına minib getdilər. Qasımlı maşını həmin bağa bir qədər yaxınlaşdırmağı tapşınb, darvazadan 5-10 metr aralı maşından düşdü və o qədər də hündür olmayan hasardan adlayıb həyətə girdi. Mən ətrafa boylandım. Görən yox idi. Maşında oturub gözləməyə başladım. Təxminən yanm saatdan sonra Qasımlı hasardan aşıb yanıma gəldi və maşına minib:

- Sür şəhərə! - dedi.

Şəhərə yola düşdük. Heç birimizin danışmağa həvəsimiz yox idi. Xüsusilə məni dərin fikir götürmüşdü. Axşam əri ölən bir qadının səhər yad kişi ilə xəlvətdə görüşməsini qəlbim heç cür qəbul edə bilmirdi. Yəni Nailə bu dərəcədə pozulmuşdu? Mən yenə də buna inanmaq istəmirdim. Gördüyümü də başqa yerə
yozmağa çalışırdım. Düşünürdüm ki, burada nə isə başqa iş var. Amma başqa nə iş ola bilərdi ki?

Şəhərə çatanda Qasımlı maşını şəhər baş polis idarəsinə sürdürdü. Maşından düşüb idarəyə girdi. Onu 5-10 dəqiqə gözlədikdən sonra qərara gəldim ki, redaksiyamıza atüstü də olsa baş çəkim.

downloaded from KitabYurdu.org

Redaksiyaya gedib qayıtmağım 20 dəqiqə çəkdi. Maşını əvvəlki yerində saxladım. Qasımlı hələ çıxmamışdı. Bir saat da gözlədikdən sonra o, idarədən çıxdı və gəlib maşına oturdu.

- Gedək! Bağışlayın ki, bir az gecikdim. Köhnə dostumla söhbətim uzandı.

- Eybi yoxdur. Hara gedək?

- Evə! - dedi və birdən soruşdu: - Mən içəridə olanda hara getmişdiniz?

- Nədən bildiniz? - deyə soruşdum. - Mən olmayanda çıxmışdınız?

- Yox! - Qasımlı mənalı-mənalı gülümsədi. - Sayğac mən maşından düşəndən sonra daha səkkiz kilometr yazıb.

- Hə... İşə baş çəkməyə getmişdim, - dedim və nədənsə özümü bir təhər hiss etdim.

Evə çatanda maşını blokun qabağında saxladım. Qasımlı məndən ayrılanda:

- Axşam saat 9-da sizi gözləyirəm! - dedi.

* * *

Axşama qədər heç bir işlə məşğul ola bilmədim. Nailənin fikri başımdan çıxmırdı. Onun ağla batmaz hərəkətini heç cür dərk edə bilmirdim. İşin mahiyyətini tezliklə öyrənməyə can atırdım. Qanbay Qasımlının özünü müəmmalı aparması da marağımı artırırdı. Əsimdə, keçmiş Cinayət Axtanş işçisinin bəzi işləri məni əsəbiləşdirirdi. Düşündüklərini sona qədər bildirməmək üçün o, hətta bəzən məni aldadırdı ki, şübhəsiz, bu da mənə toxunurdu. Buna görə də o, hər hansı bir araşdırma ilə məşğul olarkən, ona sual verməməyə çalışırdım. Bilirdim ki, onsuz da mənə dəqiq cavab verməyəcək. Lakin qəribədir ki, bütün bunlar dərin ağıl sahibi olan Qanbay Qasımlıya hörmətimi azaltmırdı. Mən apardığı əməliyyatlarda onunla yoldaşlıq etməkdən həzz alırdım.

Saat doqquz olan kimi Qasımlmm mənzilinə getdim. Qasımlı məndən xahiş etdi ki, 7-ci mərtəbədən Nailəni də onun yanma çağınm. Nailə ilə üzbəüz gəlməyə həvəsim olmasa da, tabe olub pilləkənlərlə yuxan qalxdım və 31-ci mənzilin zəngini çaldım. Nailə

downloaded from KitabYurdu.org

qapını açdı.

- Nemət müəllim?! Buyurun içəri.

Səhər gördüyümə nisbətən əhvalı yaxşı idi.

- Yox, sağ olun. Xahiş edirəm mənimlə qonşum Qasımlının mənzilinə gedək.

- Nə üçün?

- Yəqin ki sizinlə vacib söhbəti var.

- Nə söhbət? Yaxşı... paltarımı dəyişim, gedək!

O, yüngül xalatda idi. Otağa keçib səhərki paltarını geyindi və birlikdə qonşumun mənzilinə düşdük. Mənzilin qapısı bağlı deyildi. Biz içəri girəndən sonra mən qapını bağladım. Qasımlı öz kreslosunda oturub fikrə getmişdi. Azacıq qalxaraq Nailəyə «Xoş gəlmisiz. Buyurun, əyləşin» dedi. Nailə divanda, mən isə stulda oturdum. Araya sükut çökdü. Qasımlı altdan gözaltı Nailəni süzürdü. Nailə isə narahat halda otağa göz gəzdirirdi. Nəhayət, birinci o dilləndi.

- Məni niyə çağırmısız?

- Nailə xanım! - Qasımlı kresloda yerini rahatlayıb sözə başladı:

- Mərhum əriniz dünən səhər burada mənzilinizdə olmuş oğurluq hadisəsi haqqında mənə məlumat verdi. Mənzilinizdən bildiyiniz kimi, papaq, dəri gödəkcə, videomaqnitofon və xarab olmuş bir televizor oğurlanmışdı. Əriniz çox təkidlə xahiş edirdi ki, mən bu məsələ ilə məşğul olum və oğurlanmış əşyalan tapım. Mənim vaxtım məhdud olduğu üçün və xırda oğurluq işi ilə məşğul olmaq istəmədiyim üçün etiraz etdim. Lakin oğurlanan əşyalara ərinizin layiq olduğundan böyük qiymət verməsi məni şübhəyə salmışdı. Eyni zamanda, Xatəm özündən asılı olmayaraq dörd əşyadan daha çox televizora əhəmiyyət verdiyini büruzə verirdi. Həmin gün axşam mən sizin mənzilinizdə olanda otağa göz gəzdirdim. Mənə aydın oldu ki, siz heç də kasıb deyilsiniz. Təkcə qab-qacaq şkafınızda oğurlanan əşyalardan daha qiymətli şeylər var. Oğru isə heç nəyə toxunmadan, pul və cavahirat aparmadan həmin dörd əşyanı götürüb çıxıb. Burada mənim ağlıma gəldi ki, Xatəm əsas var-dövlətini, yəni pulunu xarab olmuş televizorun içində saxlaya bilər. Belə olanda, oğurluq

downloaded from KitabYurdu.org

məsələsində mən sizdən şübhələndim və şübhələrim düz çıxdı... - Bu zaman Nailə ayağa qalxıb nə isə demək istədi. Qasımlı əlinin işarəsi ilə onu saxladı: - Əyləşin, Nailə xanım! Əyləşin və sakitcə qulaq asm. Mən qurtarandan sonra danışmaq üçün sizə istədiyiniz qədər vaxt verəcəm. Qulaq asm! Siz restoran sahibi olan Nazim Urşanovla bir ilə yaxındır ki, gizli məhəbbət əlaqəsi qurmuşunuz. Nə vaxtsa ərinizdən boşanıb ona ərə getməyi qərara almışdınız. Əriniz pullarını televizorun içinə qoyanda bunu sizdən gizlətməyib. Bu işi sizin yanınızda edib. Deməli onun sizə inamı və istəyi var imiş. Təəssüf ki, siz bunu qiymətləndirməmisiz. Pulun yerini Nazimə demisiz. Ad gününə getməmişdən qabaq öz açarınızı ona vermisiz. Nazim gecə mənzilə girib həmin əşyalan götürüb. Əgər o, televizoru söküb pulları götürsəydi, əriniz sizdən şübhələnə bilərdi. Ona görə də Nazim bütöv televizoru və gözdən pərdə asmaq, Xatəmi azdırmaq üçün digər üç əşyanı götürüb.

Bu gün siz Nazimlə onun bağ evinə gedəndə mən sizi izləyirdim. Siz bağdan çıxandan sonra bağa girdim və hər yerə diqqətlə göz gəzdirəndən sonra nisbətən təzə qazılmış və üstü ciddi-cəhdlə hamarlanmış yer aşkar etdim. Qazıyanda oğurlanan əşyalann orada basdırıldığını gördüm. Televizorun arxası açılmışdı. Oradan bir baş polis idarəsinə gəldim. Bəzi cənablar ağ Jiqulinin və həmin bağ evinin sahibini müəyyənləşdirdilər və onun barəsində mənim üçün geniş məlumat topladılar. İki saat bundan əvvəl isə buraya telefonla zəng edib bildirdilər ki, əməliyyat qrupu həmin əşyaları bağdan götürüb və Nazimi şəhərdəki evində həbs edib.

Nailə yerindən qalxdı. Bədəni əsim-əsim əsirdi. Dili sanki söz tutmurdu. Elə bil gözlərindən alov çıxıb Qasımlım yandıracaqdı. Birdən çığırmağa başladı:

- Nazim düz deyirmiş, siz doğrudan da iblissiniz, şeytansınız! Sizə dəxli olmayan işə niyə başınızı soxursuz? Axı siz kimsiniz?

- Sakit olun. - Qasımlı zərrə qədər də əsəbiləşmədən ayağa qalxıb bir stəkan su gətirdi və stolun üstünə qoydu. -Götürün için! Gah özünüz deyirsiniz ki, mən iblisəm, gah da soruşursuz ki, mən kiməm.

downloaded from KitabYurdu.org

Ola bilsin ki, mən elə iblisəm. Ancaq xahiş edirəm, səbirli olun və mənə qulaq asın!

Mən bir kəlmə də danışmaq arzusunda olmadan onlara qulaq asırdım. Diqqətimi Qasımlıya vermişdim və nədənsə Nailənin üzünə baxa bilmirdim. Elə bil onun yerinə mən xəcalət çəkirdim. Nailə suyu içmədi. Ancaq sakitləşib yerində oturdu. Qasımlı da kreslosuna çöküb söhbətini davam etdirməyə başladı:

- Əriniz sizdən qətiyyən şübhələnməmişdi. O elə düşünürdü ki, adicə oğru onun mənzilinə girib və həmin əşyaları oğurlayıb. Yəqin Xatəm düşünürdü ki, oğru televizorun işləmədiyini biləndə onu ata bilər və ya təmir etmək üçün arxasını açar. Belə olanda isə pullar aşkara çıxar. Ona görə də Xatəm təkid edirdi ki, əşyalar tez tapılmalıdır. Bu söz özü mənim şübhəmi artırmışdı. Oğurluq barədə bu qədər. Mən Xatəmin xahişini nəzərə alaraq oğurlanan əşyaları tapdım, ancaq heyf ki, Xatəm bunu bilməyəcək.

İndisə, gəlin başqa məsələdən, ərinizin öldürülməsindən danışaq. Mən balkonda ərinizin meyitinə baxanda bir şey o saat məndə şübhə yaratmışdı. Balkonda tək bir stul var idi və onda da Xatəm oturmuşdu. Bəs Oqtay? Oqtay Xatəmin müdiri idi və Xatəmin danışığından aşkar olunurdu ki, onun Oqtaya hörməti böyükdür. Niyə Xatəm stulda oturub, Oqtay isə ayaq üstə qalıb? Yaxşı, tutaq ki, onlar mübahisə edib və Xatəm onu vecinə almadan stulda oturub. Hansı ki, mən buna inanmıram, amma qoy belə olsun.

Siz qonşuda «Arşın mal alan» filminə baxanda arada filmi yarımçıq qoyub mənzilinizə keçmişiniz. Həmin an Süleyman bəyin Soltan bəyin evinə elçiliyə getməsi səhnəsi göstərilirmiş.
Bunu qonşunun qızı dedi və siz də təsdiq etdiniz. Siz qayıdıb qonşulara demisiniz və mənə də dediniz ki, Oqtay hələ evdə idi. Guya ərinizlə mübahisə edirmiş. Qəribədir. Hansı ki, Oqtay çıxıb gedəndə mən şəxsən öz balkonumdan onu görmüşdüm. O çox arxayın və sakit vəziyyətdə çıxıb getdi. Həmin anda filmdə tacir Əsgərin öz xalasını elçiliyə göndərməsi səhnəsi gedirdi. «Deyərsən ki, arşın malçı göndərib. Başa düşdün xalacan?». Bu kadr siz mənzilinizə keçəndə

downloaded from KitabYurdu.org

yanmçıq qoyduğunuz kadrdan iyirmi dəqiqə əvvəldir. Görürsünüzmü? Sizin yalanınız aşkar olur. - Qasımlı burada bir qədər ciddiləşib əlavə etdi: - Ərinizi siz özünüz öldürmüsünüz. Evə Oqtay gedəndən sonra başqa adam girməyib.
Başqa adam girsəydi, Xatəmi o cür arxayın oturduğu vəziyyətdə öldürə bilməzdi. Otağa ağcaqanad keçməməsi üçün balkonun qapısını örtüb stulda oturan Xatəm yalnız siz qapını açanda oturuş vəziyyətini pozmazdı. Mən onu sizin öldürdüyünüzə qəti əminəm. Bu fikrə gələndən sonra mən bildim ki, siz əlbir olduğunuz o naməlum adamla telefon vasitəsilə açıq danışa bilməyəcək, səhər mütləq onunla görüşəcəksiniz. Ona görə də mən sizi izləməyi qərara aldım və beləliklə, Nazim ifşa olundu. - Nailə susub dəhşətlə ona qulaq asırdı. Qasımlı bir siqaret yandırıb təzədən sözə başladı: - Ancaq məni bəzi sualların cavabı düşündürür. Məsələn, televizorda nə qədər pul və ya cavahirat var idi?
Siz ərinizi nə üçün öldürdünüz? Nazimə ərə getmək üçün? Bunu o tapşırdı, yoxsa özünüz belə qərara gəldiniz? Və nəhayət, sadəcə şübhəni özünüzdən uzaq etmək üçün Oqtaym sizdə olmasından istifadə etdiz, yoxsa ondan da acığınız var idi? Axı siz açıq-aydın onu dolaşdırmısız və o bu saat polis şöbəsində incidilir. Xahiş edirəm, suallarıma tez və qısa cavab verin. Belə olarsa bəlkə mənim sizə köməyim dəydi.

- Bilmirəm, heç nə bilmirəm! - Nailə yenə çığırdı.

Qasımlı istehza ilə gülümsədi. Onun hərdən belə iblisanə gülümsəməyi var idi.

- Nazim həbs olunub. Siz istəyirsiniz ki, oğurlanan pullar Nazimin arvadına qalsın?

Nailə dik atıldı:

- Nə arvad? Nazimin arvadı yoxdur!

- Var, əzizim! Nazimin arvadı və iki uşağı var. Arvadı hörmətli bir şəxsin qızıdır. Həm də gözəldir. Nazimin heç vaxt onu boşamaq fikri olmayıb.

Nailə divana çöküb əlləri ilə üzünü qapadı və ağlamağa başladı:

downloaded from KitabYurdu.org

- Əclaf! Vicdansız! Alçaq! Məni bir ildir aldadır ki, subaydır!
- Suallarıma cavab verin, sizi gözləyirəm!

Nailə bir qədər ağlayıb, nəhayət sakitləşdi.
Dəsmalı ilə gözünün yaşını silib danışmağa başladı:

- Televizorun içində parçaya bükülmüş altmış beş min dollar pul var idi. Xatəmi mən Nazimin sözü ilə öldürdüm. Səbəbi siz deyən deyil. Düzdür, o məni aldatmışdı ki, subaydır və boşansam məni alacaq. Ancaq boşanmağa da qoymurdu ki, hələ tələsmə. Xatəmi öldürməyim buna görə deyil. Nazim əclafa dedim ki, Xatəm oğurluq məsələsini polisə və bir də sizə bildirib. Onda Nazim dedi ki, polisin zərəri yoxdur, amma o Qasımlım tanıyıram. O adam deyil, iblisdir. O Xatəmdən əl çəkməyəcək, televizorda pul olduğunu öyrənəcək və səndən şübhələnəcək. Tapşırdı ki, əlverişli məqam tapıb Xatəmi öldürüm. O alçaq yəqin qorxurmuş ki, oğurluqda məndən şübhələnsələr, əsil oğrunu məndən soruşacaqlar, və mən onu satacam. Ancaq məni aldatdığını bilməsəydim, heç vaxt onu satmazdım. Bu qədər...
- Suallarımın biri cavabsız qaldı. Oqtay haqqındakı.
- Mənim üçün daha heç nəyin fərqi yoxdur. Oqtaydan mənim doğrudan da acığım gəlirdi.
- Nə üçün?

Nailə başını aşağı dikdi:

- Bir il əvvəl evimizdə ona yaxınlıq təklif etdim. Razı olmadı. Onda hələ Nazimlə tanış olmamışdım.
- Düzünü danışdığınız üçün sizə təşəkkür edirəm. Bildirim ki, mən yalnız oğurluq
məsələsini polisə bildirmişəm. Onu da yanmçıq. Yəni sizin adınızı çəkməmişəm. Ancaq polis istər oğurluq, istərsə də ölüm işi ilə əlaqədar Nazimi çək-çevirə salacaq. Sizi aldatmasından görünür ki, onda mərdlik yoxdur. Deməli, o sizi satacaq. Sizə yeganə köməyim bu ola bilər ki, siz özünüz polisə gedib hər şeyi danışasınız.
- Nə vaxt? - Nailə ölgün vəziyyətdə soruşdu.
- Sabah səhər tezdən. Bu axşam isə azad yaşayın.

downloaded from KitabYurdu.org

- İcazə verin... - Nailə başını qaldırmadan iniltili səslə dilləndi: - İki gün sonra gedim.

- Niyə?

- Sabah kəndə gedib dəfndə iştirak edim. Həm də anamı görüm.

- Buna ehtiyac yoxdur. - Qasımlı əlini yellədi. - Bilirsinizmi, mən müstəqil adamam. Bayaq dediyiniz kimi, mənə dəxli olmayan işə başımı soxmazdım. Ancaq Oqtay da günahsız bir insandır. Bu gün mən onun haqqında məlumat toplamışam. Arvadı müəllimədir. Üç uşağı var. Böyük qızı onuncu sinfi bitirib. Oqtay dünən gecə polisdə qalıb və bu gecə də mənim sizə göstərdiyim xeyirxahlığın ucbatından orada qalacaq. Bu bəs deyilmi? Təsəvvür edirsiniz, onun arvadı və uşaqları indi nə çəkir? - polkovnik əsəbi halda ayağa qalxdı. - Gəlin söhbəti qurtaraq. Siz sabah səhər polisdə olmasanız, sizi özləri tapıb tutacaqlar. Bu isə sizin xeyrinizə olmayacaq!

Nailə də ayağa qalxıb əvvəl Qasımlıya, sonra isə mənə ölgün nəzər saldı və ayaqlarını sürüyə- sürüyə otaqdan çıxdı.

May, 2000

198

199

200

downloaded from KitabYurdu.org